**Daşqın Qənbərov**
**Əbülfəz Hüseynov**

# EKOLOGİYA HÜQUQU

## XÜSUSİ HİSSƏ

*Azərbaycan Respublikası Təhsil Nazirliyi*
*Bakı Dövlət Universitetinin*
*19 dekabr 2016-cı il tarixli R-114 saylı*
*əmri ilə dərs vəsaiti kimi təsdiq edilmişdir.*

-19012-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

**Bakı – «Sabah» – 2017**

**Elmi redaktor:** **Qasımov Alış Məmiş oğlu**
*Hüquq üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Qurbanov Habil Surxay oğlu**
*AMEA Fəlsəfə və Hüquq İnstitutunun «Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses» şöbəsinin müdiri, hüquq üzrə elmlər doktoru, professor*

**Əliyev Mahir Oqtay oğlu**
*BDU-nun Əmək və ekologiya hüququ kafedrasının baş müəllimi*

**Qənbərov D.M., Hüseynov Ə.İ.** Ekologiya hüququ. Xüsusi hissə. Dərs vəsaiti. Bakı: «Sabah», 2017, – 260 səh.

**ISBN** 978-9952-8303-8-5

Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən bakalavr təhsil pilləsi üçün təsdiq olunmuş «Ekologiya hüququ» fənn proqramının xüsusi hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının qüvvədə olan ekoloji qanunvericiliyi və onun tətbiqi təcrübəsi nəzərə alınaraq tərtib edilmişdir.

Kitabda təbiət obyektlərinin ekoloji-hüquqi rejimi, xüsusi mühafizə edilən təbiət obyektləri və komplekslərinin ekoloji-hüquqi mühafizəsi, insanın ekoloji-hüquqi statusu, sağlam ətraf mühitdə yaşamaq hüququ, xarici ölkələrin ekologiya hüququnun ümumi xarakteristikası, beynəlxalq ekologiya hüququ və s. məsələlər təhlil edilir.

Dərs vəsaitindən «Hüquqşünaslıq» ixtisası üzrə təhsil alan ali təhsil müəssisələrinin tələbələri, həmçinin ekologiya hüququ və ekoloji qanunvericiliklə maraqlananlar istifadə edə bilərlər.

029 – 2017

© Daşqın Qənbərov, 2017
© Əbülfəz Hüseynov, 2017

# I FƏSİL

# TORPAĞIN EKOLOJİ-HÜQUQİ REJİMİ

## 1.1. Torpağın ekoloji-hüquqi rejiminin anlayışı, növləri və dövlət tənzimlənməsi

Torpaq təbiət obyektlərindən biridir, biosferin tərkib hissəsidir. Hüquqi mənada torpaq dedikdə yerin təbəqəsini əhatə edən səthi başa düşülür. Torpaq insan həyatının əsasını təşkil edir.

Torpağın ekoloji xüsusiyyətləri onun digər təbiət obyektləri ilə sıx əlaqəsini göstərir.

Torpağın iqtisadi, hüquqi, mədəni-sağlamlaşdırıcı və s. funksiyaları vardır. Torpağın funksiyalarından biri də ekoloji funksiyadır. Ekoloji mənada torpaq karbonat turşusunu özündə udur, üzvi və qeyri-üzvi materiyanı əlaqələndirir.

Torpaq sahəsi dövlət torpaq kadastrında və torpaq üzərində hüquqların dövlət qeydiyyatı sənədlərində, sərhədləri, ölçüləri, coğrafi mövqeyi, hüquqi statusu, rejimi, təyinatı və digər göstəriciləri əks etdirilmiş yer səthinin bir hissəsidir.

Torpağın ekoloji hüquqi rejimi Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu, «Torpaq islahatı haqqında» AR-ın 1996-cı il 16 iyul tarixli Qanunu, «Torpaq bazarı haqqında» AR-ın 1999-cu il 7 may tarixli Qanunu və digər normativ aktlarla tənzimlənir.

Torpaq sahəsinin hüquqi statusu onun məqsədli təyinatını, torpaq sahəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu və istifadə üzrə müəyyən məhdudiyyətləri əhatə edir. Torpaq bir təbiət obyekti kimi fiziki və hüquqi şəxslərin hüquqlarına və qanuni mənafeyinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur. Bu müddəa AR Konstitusiyasının 14-cü maddəsinə əsaslanır.

Hüquqi rejiminə və təyinatına görə torpaqlar aşağıdakı kateqoriyalara bölünür: kənd təsərrüfatı təyinatlı torpaqlar; yaşayış məntəqələrinin torpaqları; sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar; xüsusi qorunan ərazilərin torpaqları; meşə fondu torpaqları; su fondu torpaqları; ehtiyat fondu torpaqları.

Lakin Azərbaycan Respublikasının ərazi hüdudları daxilində yerləşən bütün torpaqlar onun vahid torpaq fondunu təşkil edir. AR Konstitusiyasının 11-ci maddəsinə görə Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir.

Torpaqların hüquqi rejimi torpaqların istifadəsinin, mühafizəsinin, uçotu və monitorinqinin həyata keçirilməsi sahəsində torpaq, şəhərsalma, su, meşə, yerin təki və təbiəti mühafizə haqqında qanunvericilik aktları ilə müəyyən edilmiş qaydaların məcmusudur.

Kənd təsərrüfatı ehtiyacları üçün nəzərdə tutulmuş torpaq sahələri kənd təsərrüfatı təyinatlı torpaqlar sayılır. Kənd təsərrüfatı təyinatlı torpaqların tərkibinə kənd təsərrüfatı sahələri, meşə zolaqlarının, təsərrüfatdaxili yolların, bataqlıqların, sututarların, kənd təsərrüfatı məqsədli tikili və qurğuların əhatə etdiyi torpaqlar daxildir. Bir qayda olaraq kənd təsərrüfatı torpaqlarına əkin, çoxillik əkmələrin altında olan torpaqlar, dincə qoyulmuş torpaqlar, biçənəklər, örüşlər və otlaqlar aid edilir.



Şəhər, qəsəbə və kəndlərin hüdudları daxilindəki bütün torpaqlar yaşayış məntəqələrinin torpaqları hesab edilir. Bunlar aşağıdakılardır: ictimai və yaşayış, tikinti massivlərində yerləşən yaşayış, mədəni-məişət, inzibati, ibadət və digər bina, tikili və qurğuların yerləşdiyi torpaq sahələri; ümumi istifadədə olan torpaqlarda yerləşən meydan, küçə, keçid, yol, sahil, park, sututarlar, çimərlik və əhalinin ictimai tələbatının ödənilməsinə xidmət edən torpaq sahələri; sənaye, kommersiya, kommunal və tikinti üçün nəzərdə tutulan torpaq sahələri; nəqliyyat, rabitə, dəmir yolu, avtomobil, çay, dəniz, hava, boru kəməri nəqliyyatı, tikililər və qurğuların yerləşdiyi torpaqlar; təbiət abidələri, təbii parklar, milli dendroloji parklar, nəbatat bağları, meşə yerləşən, turizm və rekreasiya, habelə əhalinin kütləvi istirahəti üçün istifadə olunan xüsusi qorunan ərazilərin yerləşdiyi torpaqlar və s.

Sənaye, rabitə, nəqliyyat, ticarət və xidmət obyektlərinin yerləşdirilməsi üçün ayrılan torpaq sahələri sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqlar sayılır. Bu növ torpaqlar AR NK-nın 15 mart 2000-ci il tarixli 42 nömrəli qərarı ilə təsdiq edilmiş «Sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaqların istifadəsi Qaydaları» ilə tənzimlənir. Qaydalara əsasən belə təyinatlı torpaqların fiziki və hüquqi şəxslərin istifadəsi və icarəsinə verilməsini yerli icra hakimiyyət orqanları öz səlahiyyətləri daxilində həyata keçirirlər. Burada göstərilir ki, məsələn, sənaye obyektləri yerləşdirildikdə torpaqdan istifadə daha səmərəli olmalıdır və layihələşdirmə zamanı tikiləcək obyektlər arasında istifadəsiz torpaq sahəsinin yaranmasına yol verilməməlidir və s.[1] AR NK-nın «Dəmir yolu nəqliyyatı təyinatlı torpaqlardan və dəmir yolunun xüsusi mühafizə zonasına aid torpaqlardan isti-

[1] Torpaq qanunları külliyyatı, II cild. Bakı: Hüquq Yayın Evi, 2015, s.496

fadə olunması Qaydalarının» və «Dəmir yolları üçün və dəmir yolunun sanitariya mühafizə zonası üçün torpaqayırma Normaları» nın təsdiq edilməsi haqqında 23 fevral 2005-ci il tarixli 33 nömrəli Qərarında xüsusi mühafizə zonasının, təhkim zolağının və sanitariya-mühafizə zonasının saxlanılması və torpaq sahələrindən istifadə edilməsi üzrə tələblər müəyyən edilmişdir. Məsələn, dəmir yolunun xüsusi mühafizə zonası meşə kənarından 3-5 metr eni olan yanğınaqarşı şumlama zolağı ilə ayrılmalıdır və s.

Əhalinin təhlükəsizliyinin təmin olunması, sənaye, nəqliyyat, rabitə, müdafiə təyinatlı obyektlərin istismarına lazımi şərait yaradılması üçün onların ətrafında xüsusi hüquqi rejimli mühafizə zonaları yaradılır. AR NK-nın 1 may 2000-ci il tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmiş «Torpaqların zonalaşdırılmasının ümumi əsasları və prinsipləri»nə görə əsaslar və prinsiplər AR hüdudları daxilində yerləşən bütün torpaqların məqsədli təyinatı və hüquqi rejiminə görə istifadə olunmalıdır[2].

Torpaqların tamamilə təsərrüfat dövriyyəsindən çıxarılması nəzərdə tutulan hallar istisna olmaqla, ərazisində mühafizə zonası müəyyən edilən torpaq mülkiyyətçiləri (istifadəçiləri və icarəçiləri) torpaq sahəsi üzərində hüquqlardan məhrum olunmurlar. Öz növbəsində mühafizə zonasının hüdudlarında torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri qaydalara əməl etməlidirlər.

Təsərrüfat dövriyyəsindən çıxarılan torpaq sahələri xüsusi hüquqi rejimli mühafizə zonaları yaradılacaq müəssisələrə verilir və ya ehtiyat fondu torpaqları kimi qiymətləndirilir.

---

[2] Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi(normativ-hüquqi aktlar toplusu), I cild. Bakı: Qanun, 2006, s.225



Xüsusi qorunan ərazilərin torpaqları xüsusi təbiəti mühafizə, elmi, tarix-mədəniyyət, estetik, turizm və rekreasiya, və s. əhəmiyyətə malik, müvafiq təsərrüfat istifadəsi və mülki dövriyyədən tam və ya qismən çıxarılan xüsusi hüquqi rejim müəyyən edilən torpaqlardır.

Xüsusi qorunan ərazilərin torpaqlarına aşağıdakılar aid edilir: təbiəti mühafizə təyinatlı torpaqlar; təbii qoruq təyinatlı torpaqlar; sağlamlaşdırma təyinatlı torpaqlar; turizm və rekreasiya təyinatlı torpaqlar; tarix-mədəniyyət təyinatlı torpaqlar. «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» AR-in 24 mart 2000-ci il tarixli Qanununun 9-cu maddəsində göstərilir ki, üzərində xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri yerləşən torpaq sahələri mülkiyyətçilərdən, istifadəçilərdən və icarəçilərdən geri alınmadan onların razılığı və ya məhkəmənin qərarı ilə servitut hüququ əsasında istifadə olunur.

Təbiəti mühafizə təyinatlı torpaqlara isə aşağıdakılar aiddir: yerüstü su axınlarının və sututarların suqoruyucu zonaları; kürü tökülməsi üçün mühafizə zolaqları; qoruyucu vəzifələri yerinə yetirən meşələri; otlaqqoruyucu, tarlaqoruyucu, suqoruyucu və eroziyaya qarşı meşə əkmələri; təbiəti mühafizə vəzifələrini yerinə yetirən digər torpaq sahələri.

Təbiəti mühafizə təyinatlı torpaqlarda qanunvericiliklə onlar üçün müəyyən edilmiş hüquqi rejimə əməl etməklə məhdud təsərrüfat fəaliyyətinə yol verilir. Milli parkların torpaqları, təbii və mədəni landşaftlar xüsusi ekoloji, tarixi və estetik dəyərə malik torpaq sahələri hesab edilir. Dendroloji və zooloji parkların, nəbatat bağlarının torpaqlarına flora və faunanın saxlanılması üçün istifadəyə verilən torpaq sahələridir.

Təbii qoruq təyinatlı torpaqlara qoruqların, yasaqlıqların, təbiət abidələrinin, dendroloji və zooloji parkların, nəbatat bağlarının torpaqları aid edilir.

Qoruqların torpaqları dedikdə, hüdudlarında elmi və mədəni dəyərə malik olan təbiət obyektləri (tipik və nadir landşaftlar, nadir geoloji törəmələr, bitki və heyvan növləri, canlı orqanizm qrupları və s.) olan və qoruq təşkilatlarına təhkim edilmiş torpaq sahələri nəzərdə tutulur. Qoruq torpaqları bu landşaft zonası üçün tipik və nadir olan təbii komplekslərin bütün komponentləri ilə birlikdə onların təbii vəziyyətinin qorunub saxlanmasının elmi əsaslarının öyrənilməsi üçün istifadəyə verilir.

Yasaqlıqların torpaqları təbii ehtiyatların mühafizə edilməsi, bioloji, paleontoloji, hidroloji və geoloji obyektlərin ekoloji vəziyyətinin qorunub saxlanması üçün nəzərdə tutulan torpaqlardır.

Təbiət abidələrinin torpaqları nadir və ya tipik, eləcə də elmi, mədəni və sağlamlaşdırma cəhətdən qiymətli abidələrin torpaq sahələri hesab edilir.

Milli parkların torpaqları, təbii və mədəni landşaftlar xüsusi ekoloji, tarixi və estetik dəyərə malik olan torpaq sahələri hesab edilir. Dendroloji və zooloji parklar, nəbatat bağlarının torpaqları flora və faunanın saxlanılması, elmi-mədəni və təsərrüfat fəaliyyəti üçün istifadəyə verilən torpaq sahələridir.

Sağlamlaşdırma təyinatlı torpaqlara xəstəliklərin profilaktikasının və müalicə işinin təşkili üçün istifadə edilən və əlverişli təbii müalicə amillərinə malik müalicə-sağlamlaşdırma yerlərinin və kurortların torpaq sahələri daxildir. Kurortların ərazilərində yaradılan müalicə-sağlamlaşdırma yerləri və sanitariya sahələrində təbii müalicə və istirahəti üçün



şəraitə zidd müəssisələrin istifadəsinə və ya icarəsinə torpaq sahələrinin verilməsi qadağandır.

İstirahət, turizm və idman üçün müəyyən olunan torpaqlar turizm və rekreasiya təyinatlı torpaqlardır. Tarix-mədəniyyət qoruqlarının, xatirə parklarının, qəbiristanlıqların, arxeoloji abidələrin və nadir geoloji törəmələrin torpaqları tarix-mədəniyyət təyinatlı torpaqlardır.

Meşə bitkiləri ilə örtülü olan, habelə bu bitkilərlə örtülü olmayan, lakin meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulan meşə və qeyri-meşə torpaqları meşə fondunun torpaqları hesab edilir. Belə torpaqlardan, məsələn, oduncaq toplayan müəssisələr istifadə edirlər.

Su fondunun torpaqlarına Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin (gölünün) respublikamıza mənsub olan bölməsinin altında olan torpaqlar; su mühafizəsi zonalarının və sahilboyu zolaqların altında olan torpaqlar, adalar və bataqlıqlar; hidrotexniki qurğuların, meliorasiya və su təsərrüfatı obyektlərinin altında olan torpaqlar daxildir. Su fondu torpaqları əhalinin içməli suya tələbatını, məişət, sağlamlaşdırma və digər ehtiyaclarını təmin edən qurğuların tikintisi və istismarı, su təsərrüfatı, kənd təsərrüfatı, balıqçılıq, sənaye, energetika, nəqliyyat və s. üçün istifadə olunur.

AR Torpaq Məcəlləsinin 33-cü maddəsinə əsasən ehtiyat fondu torpaqları dövlət və bələdiyyə ehtiyat torpaqlarından ibarətdir. Dövlət ehtiyat fondu torpaqlarına bələdiyyələrin, vətəndaşların və hüquqi şəxslərin mülkiyyətinə, istifadəsinə və icarəsinə verilməmiş dövlət torpaqları daxildir.

Torpaq fondunun tənzimlənməsi sahəsində dövlət aşağıdakıları həyat keçirmək hüququna malikdir: torpaq qanunvericiliyinin təkmilləşdirilməsinə dair təkliflər hazırlamaq; torpaq qanunvericiliyinin icrasını təmin edən normativ-hüquqi aktların qəbulu; dövlət torpaq kadastrının, torpaqların

monitorinqinin və yerquruluşunun aparılması qaydalarının müəyyən edilməsi; mülkiyyətdə olan torpaq sahələrinin istifadəyə və icarəyə verilməsi, eləcə də onların dövlət ehtiyacları üçün alınması; xüsusi mülkiyyətdə olan torpaq sahələrinin müəyyən edilmiş qaydada özgəninkiləşdirilməsi; torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi; yay və qış otlaq sahələrinin inzibati-ərazi vahidlərinə istifadəyə verilməsi; dövlət mülkiyyətində olan torpaqların dövlət ekoloji ekspertizasının keçirilməsi və sair.

Torpaq münasibətlərinin tənzimlənməsi sahəsində bələdiyyələrin aşağıdakı səlahiyyətləri vardır: bələdiyyə mülkiyyətində olan torpaqlara sahiblik, onlardan istifadə və sərəncam verilməsi; torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsi; yaşayış məntəqələrinin baş planının, yerquruluşu və təsərrüfat planlarının hazırlanması; istifadəçilərdən torpaq sahələrinin icarəsinə görə haqq alınması; şəxslərə əvəzsiz istifadəyə verilmiş torpaq sahələrinin məcburi geri alınması barədə məhkəmədə iddia qaldırılması; torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının müdafiə edilməsi; proqramların hazırlanması və həyata keçirilməsi və s.

Torpaq fondunun istifadəsi və mühafizəsi sahəsində dövlət orqanlarının aşağıdakı vəzifələri vardır: torpaqların onların mühafizəsi sahəsində dövlət siyasətinin həyata keçirilməsi; dövlət nəzarətinin həyata keçirilməsi; dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu ilə əlaqədar işlərin və torpaq üzərində hüquqların dövlət qeydiyyatının həyata keçirilməsi, torpaq balansının tərtibi; qanunla nəzərdə tutulmuş qaydada dövlət ehtiyacları və ictimai ehtiyaclar üçün torpaqların geri alınması və verilməsi, torpaqların əsas məqsədli təyinatının dəyişdirilməsi; torpaq fon-



duna vurulan zərərin, torpaq qanunvericiliyinin pozulmasına görə cərimələrin və maliyyə sanksiyalarının ödənilməsi barədə məhkəmədə iddialar qaldırılması; torpaq qanunvericiliyinin pozulmasında təqsiri olan şəxslərin müəyyən edilmiş qaydada inzibati məsuliyyətə cəlb edilməsi və s.

Dövlət torpaq kadastrı dedikdə torpaq istifadəçiliyinin dövlət qeydiyyatı, torpaqların kəmiyyət və keyfiyyətcə uçotu, bonitirovkası və iqtisadi qiymətləndirilməsi üzrə zəruri məlumatların məcmusu başa düşülür. «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerqurluşu haqqında» AR-in 22 dekabr 1998-ci il tarixli Qanununa görə dövlət torpaq kadastrı torpaqların hüquqi statusundan və rejmindən asılı olmayaraq AR-in hüdudları daxilində yerləşən bütün torpaq sahələrində mütləq, müstəqil və vahid sistem üzrə aparılır. Dövlət torpaq kadastrının aparılması geodeziya, topoqrafiya, kartoqrafiya, yerquruluşu, torpaq tədqiqatı, aqrokimya, meliorasiya, geobotanika və digər axtarış – tədqiqat işlərinin həyata keçirilməsi ilə təmin edilir[3].

Torpaqların monitorinqi dedikdə torpaqların münbitlik xassələrini səciyyələndirən ayrı-ayrı göstəricilərdə dəyişikliklərin vaxtında aşkara çıxarılması, qiymətləndirilməsi, mənfi proseslərin qarşısının alınması və onların təsiri nəticələrinin aradan qaldırılması üçün torpaq fondunun vəziyyətinə uzunmüddətli müşahidə-nəzarət sistemi başa düşülür. «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerqurluşu haqqında» AR-in Qanununun 14-cü maddəsinə görə torpaqların monitorinqi Azərbaycan Respublikasının inzibati-ərazi vahidləri üzrə vahid metodologiya əsasında aparılır.

Yerquruluşu dedikdə torpaq münasibətlərinin nizama salınması və torpaqdan səmərəli istifadə olunması məsələ-

---

[3]Torpaq qanunları külliyyatı, II cild. Bakı: Hüquq Yayın Evi, 2015, s.59

lərinin həlli üzrə dövlətin müvafiq hüquqi, iqtisadi və texniki tədbirlər sistemi başa düşülür. «Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerqurluşu haqqında» AR-in Qanununun 18-ci maddəsinə görə yerquruluşu təyinatından asılı olaraq kompleks və təsərrüfatdaxili yerquruluşu işlərindən ibarətdir.

Yerquruluşu torpaqların səmərəli istifadəsinin və mühafizəsinin planlaşdırılmasının təşkilini, torpaqların münbitliyinin artırılmasını, torpaq sahələrinin dəqiqləşdirilməsi və qaydaya salınması layihələrinin tərtib edilməsini, kompleks və təsərrüfatdaxili yerquruluşu layihələrinin hazırlanmasını və s. həyata keçirilməsini müəyyən edir.



## 1.2. Torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququ

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti həyata keçirilir. Dövlət nəzarəti AR Prezidentinin 28 noyabr 2000-ci il tarixli 421 nömrəli Fərmanı ilə təsdiq olunmuş «Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarəti haqqında Əsasnamə» ilə tənzimlənir. Əsasnamədə nəzarəti həyata keçirən dövlət orqanlarının vəzifələri və hüquqları göstərilmişdir.

Torpaq üzərində mülkiyyət, istifadə və icarə hüquqları həyata keçirilir. Torpaq üzərində mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə torpaq sahəsinə sahib olmaq, torpaq sahəsindən istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir.

Dövlət mülkiyyətinə aşağıdakı torpaq sahələri daxildir: dövlət hakimiyyət orqanlarının yerləşdiyi torpaqlar; dövlət obyektlərinin dağ-mədən sənayesinin, təsdiq edilmiş faydalı qazıntı yataqlarının, vahid energetika sisteminin, magistral boru kəmərlərinin, nəqliyyat, rabitə və müdafiə obyektlərinin, dövlət sərhəd zolaqlarının, mühüm meliorasiya və su təsərrüfatı obyektlərinin yerləşdiyi torpaqlar; yay və qış otlaqlarının, mal-qara düşərgələrinin və köç yollarının torpaqları; meşə fondu torpaqları; Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin su fondu torpaqları; Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahil boyu 20-50 metrlik zolağının altında olan torpaqlar və s.

«Torpaq islahatı haqqında» AR-in 16 iyul 1996-cı il tarixli Qanununun 6-cı maddəsinə əsasən dövlət mülkiyyətində olan torpaqlar qanunvericilikdə müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər. Lakin Xəzər dənizinin

respublikamıza mənsub olan bölməsinin sahil boyu 20-50 metrlik zolağının altında olan torpaq sahələri yalnız dövlət məqsədləri üçün istifadəyə və icarəyə verilə bilər, həmin torpaq sahələrinə gediş-gəliş məhdudlaşdırıla bilər.

Dövlət mülkiyyətində olan torpaqların bələdiyyə mülkiyyətinə verilməsi qanunla müəyyən edilir. «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının 16 iyul 1996-cı il tarixli Qanununun 7-ci maddəsinə əsasən bələdiyyə mülkiyyətinə aşağıda göstərilən torpaqlar aiddir: ümumi istifadədə olan torpaqlar; hüquqi və fiziki şəxslərin istifadəsində olan torpaqlar; ehtiyat fondu torpaqlar. Bələdiyyə torpaqlarının idarə edilməsi «Bələdiyə torpaqlarının idarə edilməsi haqqında» Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanunu ilə tənzimlənir.

Ümumi istifadədə olan torpaqlara şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin yerli əhəmiyyətli və təsərrüfatdaxili yol, park, meşə-park, sututar, stadion və idman meydançalarının altındakı torpaqlar, habelə tarlaqoruyucu meşə zolaqlarının, yerli əhəmiyyətli su təsərrüfatı obyektlərinin torpaqları və s. aiddir.

Aşağıdakılar bələdiyyə ehtiyat fondu torpaqları hesab edilirlər: yaşayış məntəqələrinin perspektiv inkişafı üçün cəlb olunan torpaqlar; hüquqi və fiziki şəxslərin istifadə və icarə hüququna xitam verilən bələdiyyə torpaqları, ehtiyat məqsədləri daşıyan digər bələdiyyə torpaqları.

Azərbaycan Respublikasını vətəndaşları və hüquqi şəxsləri torpaq sahələri üzərində mülkiyyət, istifadə və icarə hüququna malikdirlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlə torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər. Bu zaman əcnəbilər və vətəndaşlığı olmayan şəxslər «Torpaq icarəsi haqqında» AR-in 11 dekabr 1998-ci il taixli Qanununun 8-ci maddəsinə əsasən ancaq icarəçilər və subicarəçilər kimi çıxış edə bilərlər.



Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri olan hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində öz hüquqlarını həyata keçirərkən ətraf təbii mühitə, başqa şəxslərin hüquqlarına və mənafelərinə zərər vurmamalıdırlar.

Xarici hüquqi və fiziki şəxslərə torpaq sahələrinin vərəsəlik, bağışlama və ipoteka əqdləri nəticəsində keçən mülkiyyət hüququ bir il müddətinə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun özgəninkiləşdirilir. Xarici hüquqi və fiziki şəxslər torpaq sahəsi üzərində olan mülkiyyət hüququnu özgəninkiləşdirmədikdə, müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə torpaq sahəsini məcburi satın alır.

Torpaq sahəsi üzərində istifadə hüququ müvafiq qərar və ya müqavilə əsasında torpaqdan daimi və ya müvəqqəti istifadə etməkdir. Torpağın istifadəyə verilməsinə görə ancaq torpaq vergisi tutulur.

Əvvəlcədən müddəti müəyyən edilmədən həyata keçirilən istifadə torpaqdan daimi istifadə hesab olunur. Müvafiq funksiyaların yerinə yetirilməsi, əhalinin mənzil hüququnun təmin edilməsi məqsədilə dövlət və bələdiyyə torpaqları aşağıdakılara daimi istifadəyə verilir: dövlət hakimiyyət və yerli özünüidarə orqanlarına; dövlət və bələdiyyə büdcəsindən maliyyələşən müəssisələrə; həmkarlar ittifaqlarına və dini təşkilatlara və s.

Torpaqdan müvəqqəti istifadə qısamüddətli, yəni on beş ilədək və uzunmüddətli, yəni on beş ildən 99 ilədək müəyyən oluna bilər. Torpaqdan istifadə müddətləri həmin torpaq sahələrini müvəqqəti istifadəyə vermiş orqanlar tərəfindən uzadıla bilər.

Bələdiyyə torpaqları istifadə hüququ ilə yalnız bələdiyyənin mülkiyyətində olan müəssisə, idarə və təşkilatlara ve-

rilə bilər. Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin istifadəyə verilməsi həmin sahələrin mülkiyyətçiləri ilə istifadəçilər arasında müqavilə əsasında aparılır.

Xüsusi mülkiyyətdə olan torpaq sahələrinin müvəqqəti istifadə müddətinin uzadılması həmin sahələrin mülkiyyətçiləri ilə yeni müqavilənin bağlanması əsasında həyata keçirilir.

Torpaqların istifadəyə verilməsi qaydaları və şərtləri Azərbaycan Respublikasının torpaq və mülki qanunvericiliyi ilə tənzimlənir. Torpaq sahəsi üzərində icarə hüququ müqavilə əsasında əvəzi ödənilməklə torpaqdan müddətli istifadə etməkdir. Dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların icarəyə verilməsi «Torpaq icarəsi haqqında» AR-in 11 dekabr 1998-ci il tarixli Qanunu ilə tənzimlənir.

İcarənin şərtləri, müddəti və icarə haqqı tərəflərin razılığı ilə müəyyən edilir və onlar arasında qanunvericilikdə müəyyən edilmiş qaydada bağlanılan müqavilədə təsbit olunur. Mülkiyyətçi olan icarəyə verənin razılığı ilə, icarəçi icarəyə götürdüyü torpaq sahəsini başqasına subicarəyə verə bilər.

İcarə müddəti tamam olanadək, icarəçi öldükdə torpaq sahəsi üzərində icarə hüququ onun vərəsələrinə keçir. Torpaq sahəsi üzərində birgə hüquqlar iki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahəsi olduqda, habelə mülkiyyətçi, istifadəçi və icarəçi arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında onlara məxsus olan torpaq sahələrinin birləşdirilməsi zamanı yaranır.

Dövlət və bələdiyyə mülkiyyətində olan torpaq sahələri istifadəyə və icarəyə verilərkən və ya satılarkən, onlara dair aşağıdakı öhdəliklər və məhdudiyyətlər qoyula bilər. Məsələn, istifadəyə verildikdə, torpa sahəsinin icarəyə verilməsinin qadağan edilməsi, vəhşi heyvanların təbii məskunlaşma mühitinin və miqrasiya yollarının saxlanması və s.



-19012-

Torpaq sahəsi üzərində servitutla bağlı münasibətlər torpaq qanunvericiliyi və AR-in Mülki Məcəlləsi ilə tənzimlənir. Aşağıdakı servitutlar müəyyən edilə bilər: torpaq sahəsindən piyada və ya nəqliyyat vasitəsilə keçmək; özgənin torpaq sahəsində ot biçmək və mal-qara otarmaq; müəyyən hündürlükdə qonşu sahəsinə qurğular ucaltmaq və s.

Hüquqi və fiziki şəxslərin torpaq sahəsi üzərində hüquqlarının yaranmasının ümumi əsaslarını müqavilələr, məhkəmənin qərarı və s. təşkil edir. Torpaq sahələrinin mülkiyyətə, istifadəyə və icarəyə verilməsinin ümumi əsaslarını müvafiq icra hakimiyyəti orqanı və bələdiyyələr müəyyən edir.

Bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları xüsusi mülkiyyətə satıla bilər. Ehtiyat fondunun kənd təsərrüfatı təyinatlı torpaqları yalnız kənd təsərrüfatı istehsalı üçün istifadəyə və icarəyə verilə bilər.

Bələdiyyə torpaqlarının mülkiyyətə (icarəyə) verilməsi məqsədilə torpaq hərracları və ya müsabiqələrinin keçirilməsi zamanı bərabər təkliflər irəli sürüldükdə üstünlük aşağıdakı şəxslərə verilir: torpağın əvvəlki istifadəçilərinə və ya icarəçilərinə; ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə; yaşına, xəstəliyinə, ştatların ixtisarına, ailə vəziyyətinə görə həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış, 20 təqvim ili və daha çox xidmət etmiş hərbi qulluqçulara və b.

Sənaye obyektlərinin tikintisi, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi, habelə digər qeyri-kənd təsərrüfatı ehtiyacları üçün torpaq sahələri əsasən kənd təsərrüfatına yararsız və ya az yararlı torpaqlardan ayrılır. Göstərilən məqsədlər üçün

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

meşə fondu torpaqlarından torpaq sahələri, bir qayda olaraq, meşə bitkiləri ilə örtülü olmayan sahələr, az yararlı və yararsız sahələrdən verilir.

Faydalı qazıntıların hasilatı üçün tikinti işlərinə torpaq sahələrinin ayrılması yerin təki haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada həyata keçirilir. Elektrik, yollar və kanallar mövcud xətlər boyunca çəkilməli, kənd təsərrüfatına ziyan vurmamalıdır.

Sənaye obyektlərinin tikintisi, faydalı qazıntıların hasilatı, dəmir və avtomobil yollarının, elektrik və rabitə xətlərinin, magistral boru kəmərlərinin çəkilişi üçün torpaq sahələri dövlət və bələdiyyə torpaqlarından ayrılır. Belə obyektlərin tikintisi üçün alınan xüsusi mülkiyyətdə olan torpaqların dəyəri ödənilir və ya başqa torpaq sahəsi ilə əvəz olunur.

Yaşayış məntəqələrində bələdiyyələrin ehtiyat fondu torpaqlarından kooperativ çoxmərtəbəli, çoxmənzilli yaşayış evlərinin tikintisi üçün mənzil-tikinti kooperativlərinin mülkiyyətinə, fərdi yaşayış və bağ evlərinin tikintisi üçün əvəzi ödənilməklə vətəndaşların xüsusi mülkiyyətinə, çoxmərtəbəli, çoxmənzilli yaşayış evlərinin tikintisi üçün mənzil tikintisi ilə məşğul olan hüquqi şəxslərin mülkiyyətinə və s. verilir.

Torpaq üzərində hüquqların dövlət qeydiyyatı qanunvericilikdə nəzərdə tutulmuş qaydada daşınmaz əmlakın dövlət reyestrində aparılır. Dövlət torpaq kadastrında və dövlət torpaq reyestrində torpaq sahələri üzərində mülkiyyətçilərin, istifadəçilərin və icarəçilərin hüquqları və vəzifələri barədə qeydlər əsas təsdiqedici sənəddir.

Azərbaycan Respublikasında torpaqların dövlət ehtiyacları üçün alınması, bununla bağlı kompensasiyanın məbləğinin hesablanması və ödənilməsi qaydaları, habelə bu sahədə



tərəflər arasında yaranan digər münasibətlər «Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında» AR Qanunu ilə tənzimlənir.

Torpaq sahəsi və ya onun bir hissəsi üzərində mülkiyyət, istifadə və ya icarə hüququna aşağıdakı hallarda xitam verilir: torpaq sahəsindən könüllü imtina edildikdə; mülkiyyətçisi onu özgəninkiləşdirdikdə; torpaq sahəsinin istifadə və ya icarə müddəti qurtardıqda; hüquqi şəxslərin fəaliyyətinə xitam verildikdə; torpaqdan məqsədli təyinatına görə istifadə edilmədikdə; işçilərin fərdi əmək müqavilələrinə xitam verildikdə; istifadə və ya icarə müqaviləsi şərtlərinə əməl edilmədikdə; torpaq vergisi və icarə haqqı üzürlü səbəb olmadan bir il ödənilmədikdə; kənd təsərrüfatı istehsalı üçün verilmiş torpaq sahəsindən dalbadal iki il, qeyri-kənd təsərrüfatı ehtiyacları üçün verilmiş torpaq sahəsindən bir il ərzində üzürlü səbəb olmadan istifadə edilmədikdə; torpaq mülkiyyətçisi, istifadəçisi (icarəçisi) öldükdə və vərəsələr olmadıqda və s.

Torpaq qanunvericiliyinə görə mülkiyyətçilərin aşağıdakı hüquqları vardır: torpaqdan müstəqil təsərrüfatçılıq əsasında istifadə etmək; öz torpaq sahəsində olan meşə örtüyündən, geniş yayılmış faydalı qazıntılardan və su ehtiyatlarından təsərrüfat ehtiyacları üçün müvafiq qanunvericiliklə müəyyən olunmuş qaydada istifadə etmək; torpağın itirilmiş təbii münbitliyinin bərpası və digər səbəblərlə əlaqədar müvafiq icra hakimiyyəti orqanı tərəfindən əkin dövriyyəsindən müvəqqəti çıxarılan torpaq sahələrinə görə əvəz almaq və s[4].

Torpaq istifadəçiləri və icarəçiləri aşağıdakı hüquqlara malikdirlər: torpaqdan təyinatı üzrə istifadə etmək; qadağan

---

[4] Azərbaycan Respublikasının Torpaq Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2013, s.124

edilmiş bitkilər istisna olmaqla, kənd təsərrüfatı bitkilərinin əkinləri və istehsal edilmiş məhsul üzərində mülkiyyət hüququnu həyata keçirmək; torpaq sahəsində geniş yayılmış faydalı qazıntılardan, su ehtiyatlarından öz təsərrüfat ehtiyacları üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə etmək və s.

Qanunvericiliyin pozulduğu hallar istisna olmaqla, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin fəaliyyətinə dövlət orqanlarının, bələdiyyələrin, hüquqi və fiziki şəxslərin qarışmasına yol verilmir.

Torpaq sahələrinin geri alınması və ya müvəqqəti tutulması, habelə torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin hüquqlarının məhdudlaşdırılması, yaxud hüquqi və fiziki şəxslərin fəaliyyətinin təsiri ilə torpaqların keyfiyyətinin pisləşməsi nəticəsində dəymiş zərər və əldən çıxmış gəlir bu itkilərə məruz qalmış torpaq mülkiyyətçilərinə, istifadəçilərinə və icarəçilərinə tam həcmdə ödənilməlidir. Torpaq sahələri geri alınarkən qeyd olunan xərclərlə yanaşı, habelə torpaq mülkiyyətçisinin üçüncü şəxslər qarşısında daşıdığı öhdəliklərə vaxtından əvvəl xitam verilməsi ilə əlaqədar düşdüyü xərci də ödəməlidir. AR NK-nın 24 yanvar 1992-ci il tarixli 35 nömrəli qərarı ilə təsdiq edilmiş «Torpaq sahələrinin verilməsi və geri alınması barədə vəsatət qaldırılması və ona baxılması qaydası haqqıbda Əsasnamə» də göstərilir ki, torpaq sahələrinin verilməsi və geri alınması torpaq qanunvericiliyi və icra hakimiyyət orqanlarının qərarları ilə həyata keçirilir.



### 1.3. Torpaqların hüquqi mühafizəsi

Torpaqların mühafizəsi dedikdə onlardan səmərəli istifadə edilməsi, qiymətli torpaqların kənd təsərrüfatı və meşə təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasına yol verilməməsi, zərərli təbii və antropogen təsirlərdən qorunması, meşə fondunun bərpası üçün aparılan hüquqi, təşkilati və iqtisadi tədbirlər sistemi başa düşülür.

Torpaqların mühafizəsi zona və region xüsusiyyətlərini nəzərə almaqla təbiətin mühafizəsini, torpaqların qorunub saxlanmasını, bitki və heyvanlar aləminə, geoloji törəmələrə zərərli təsirin qarşısının alınmasını şərtləndirir. Torpaqların mühafizəsi istifadənin elmi cəhətdən əsaslandırılmış torpaq istifadəçiliyi normativlərinin tətbiqini nəzərdə tutur.

Torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri torpaqların mühafizəsi ilə bağlı onların münbitliyini saxlamalı, su və külək eroziyasından, sellərdən, su basmaqdan, bataqlaşmaqdan, təkrar şoranlaşma, istehsalat və məişət tullantılarından, kimyəvi və radioaktiv maddələrlə çirklənmədən qorumalı, keyfiyyəti pisləşmiş kənd təsərrüfatı torpaqlarının münbitliyinin bərpası üçün onları konservasiya etməli, təsərrüfat fəaliyyəti nəticəsində korlanması ehtimalı labüd olan hallarda münbit qatını götürməlidirlər.

Torpaqların mühafizəsinin iqtisadi stimullaşdırılması mülkiyyətçilərin (istifadəçilərin və icarəçilərin) torpağın münbitliyinin, eləcə də təsərrüfat fəaliyyətinin zərərli təsirindən qorunması məqsədilə həyata keçirilir.

Radioaktiv və kimyəvi çirklənməyə məruz qalmış, əhalinin həyatına və sağlamlığına təhlükə yarada bilən, məhsul istehsalı üçün sanitariya tələblərinə və normativlərə cavab verməyən torpaqlar kənd təsərrüfatı dövriyyəsindən çıxarılır və dövlət ehtiyat torpaq fonduna keçirilir. AR NK-in 1 may

2000-ci il tarixli 79 nömrəli Qərarı ilə təsdiq edilmiş «Radioaktiv və kimyevi çirklənməyə məruz qalmış torpaqların təsərrüfat dövriyyəsindən çıxarılması, konservasiya edilməsi, mühafizəsi, sağlamlaşdırılması və istifadəsi Qaydaları» nın 1-ci bəndinə görə dövriyədən çıxarılan torpaqlar Kənd Təsərrüfatı Nazirliyinin, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Səhiyyə Nazirliyinin mütəxəsssislərindən ibarət ekspert qrupunun rəyinə əsasən əvvəlki istifadəçilərinə qaytarılır və təyinatına uyğun istifadə olunur.

Ekzogen geoloji proseslərə (sürüşmə, sel, aşınma, uçqun, tökülmə, eroziya, yarğan və s.) məruz qalmış torpaq əraziləri bərpa işləri aparılanadək təsərrüfat dövriyyəsindən çıxarılır və ehtiyat fondu torpaqlarına keçirilir. AR NK-nın 1 may 2000-ci il tarixli, 79 nömreli Qərarı ilə təsdiq edilmiş «Ekzogen geoloji proseslərə məruz qalmış torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinin aparılmasına icazə verilməsi Qaydası» ilə belə torpaqlarda mühəndis-texniki və kənd təsərrüfatı işlərinə icazə verilməsi tənzimlənir.

Torpaq ehtiyatları istifadə olunan və ya istifadə oluna bilən torpaqlara ayrılır. Torpaq ehtiyatlarından istifadənin planlaşdırılması ərazinin uzunmüddətli inkişaf perspektivlərini müəyyən etmək məqsədilə aparılır.

Torpaqların zonalaşdırılması onların müxtəlif təyinatlı və hüquqi rejimli torpaq sahələrinə bölünməsidir. Torpaqların zonalaşdırılması ərazinin inkişaf planına uyğun olaraq həyata keçirilir.



## 1.4. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Torpaq mübahisələri müvafiq icra hakimiyyəti orqanları, bələdiyyələr və məhkəmələr tərəfindən həll edilir.

Aşağıda göstərilən hərəkətlərə görə qanunvericilikdə müəyyən edilmiş qaydada məsuliyyət müəyyən edilir: etibarsız əqdlərin bağlanılması; torpaq sahələrinin özbaşına tutulması; torpaq sahələrində qanunsuz tikinti aparılması; torpaqların kateqoriyalarının qanunvericiliyə riayət edilmədən dəyişdirilməsi; torpaqların zibilləndirilməsi, istehsalat və məişət tullantıları ilə, kimyəvi və radioaktiv maddələrlə çirkləndirilməsi; torpaqların münbit qatının korlanması və s.

Torpaqların özbaşına tutulması qanunla qadağan olunur və özbaşına tutulmuş torpaq sahələri qanunsuz istifadə zamanı çəkilən xərclərin əvəzi ödənilmədən aidiyyəti üzrə geri qaytarılmalıdır. Torpaqların əvvəlki vəziyyətinə gətirilməsi binaların, tikililərin və qurğuların sökülməsi də daxil olmaqla torpaqları qanunsuz ələ keçirmiş hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilir. Özbaşına tutulmuş torpaqlar qanunvericiliklə müəyyən edilmiş qaydada geri qaytarılmadıqda, həmin torpaq sahəsinin kadastr dəyəri torpağı özbaşına tutmuş şəxs tərəfindən onun qanuni mülkiyyətçisinə ödənilməklə geri alınır. Hüquqi və fiziki şəxslər torpaq qanunvericiliyinin pozulması nəticəsində vurulan zərəri ödəməlidirlər.

Torpaq sahəsini özbaşına tutmağa, dəyişdirməyə və ya becərməyə (mülkiyyət hüququnu pozma) görə cinayət məsuliyyəti müəyyən olunmuşdur. Belə ki, AR Cinayət Məcəlləsinin 188-ci maddəsinə əsasən yuxarıda göstərilən hərəkətlərə görə təqsirkar yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz saatadək ictimai

işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır[5]. AR CM-in 191-ci madəsinə əsasən vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə tamah məqsədilə və ya sair şəxsi niyyətlə torpaqla əlaqədar bilə-bilə qanunsuz əqdləri qeydiyyata alma, Dövlət torpaq kadastrının uçot məlumatlarını təhrif etmə, habelə torpaq haqqının miqdarını qəsdən azaltma cinayət əməlidir. Bu əmələ görə təqsirkar şəxs beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum olunur və ya iki ilədək müddətə islah işləri ilə cəzalandırılır. Torpaqların korlanması AR CM-in 254-cü maddəsi ilə məsuliyyətin yaranmasına səbəb olur. Belə ki, bu, özünü saxlanması, istifadə edilməsi, yaxud daşınması zamanı gübrələrlə, təhlükəli kimyəvi və ya bioloji maddələrlə davranış qaydalarının pozulması nəticəsində təsərrüfat və ya başqa fəaliyyətin zərərli məhsulları ilə torpaqların zəhərlənməsi, çirkləndirilməsi yaxud onların başqa cür korlanması, insanların sağlamlığına və ya ətraf mühitə əhəmiyyətli ziyanın vurulmasında göstərir. Bu zaman təqsirkar yüz manatdan min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Əgər bu əməllər fövqəladə və təhlükəli ekoloji vəziyyət zonasında törədildikdə təqsirkar iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda isə üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

[5] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Qanun, 2015, s.144



Torpaqların (meşə fondu torpaqlarının) zibillənməsi və korlanması AR İXM ilə məsuliyyət yaradır. Belə ki, AR İXM-in 244-cü maddəsində torpaqların (meşə fondu torpaqlarının) istehsalat və məişət tullantıları ilə zibilləndirilməsinə və ya kimyəvi, çirkab suları ilə çirkləndirilməsinə, yaxud bakterial-parazitik və zərərli karantin orqanizmləri ilə yoluxdurulmasına görə fiziki şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min beş yüz manatdan on min manatadək məbləğdə cərimə edilir. Torpaqların (meşə fondu torpaqlarının) münbit qatının korlanmasına görə isə fiziki şəxslər altı yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir[6].

Torpaqlardan təsərrüfatsızcasına istifadə edilməsinə görə inzibati məsuliyyət müəyyən olunub. Burada aşağıdakı iki qrup əməllər nəzərədə tutulur. Birinci, torpaqları yaxşılaşdırmaq və onları külək, su eroziyasından və torpaqların münbitliyini pisləşdirən digər proseslərdən mühafizə etmək üçün məcburi tədbirlərin görülməməsi; ikinci, torpağın vəziyyətinə zərərli təsir göstərən obyektlərin layihələndirilməsinə, tikilməsinə və istismara verilməsi. Birinci halda fiziki şəxslər yetmiş manatdan yüz manatadək məbləğdə, vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək, ikinci halda fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilirlər .

[6] Azərbaycan Respublikası İXM. Bakı: Qanun, 2016, s.164

AR İXM-in 246-cı maddəsi ilə torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi və ya kəmiyyətinə və keyfiyyətinə dair məlumatların təhrif edilməsinə görə yetmiş manatdan yüz manatadək məbləğdə cərimə edilir.

İnzibati xətalardan biri də torpaq sahəsindən başqa məqsədlər üçün istifadə edilməsi ilə bağlıdır. Torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsinə görə fiziki şəxslər üç yüz manat məbləğində, vəzifəli şəxslər altı yüz manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir. Belə əməlin kənd təsərrüfatı təyinatlı torpaqlara münasibətdə törədilməsinə görə isə fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir(İXM, maddə 247).

Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaq sahələri ilə bağlı tələblərin pozulması da inzibati məsuliyyət yaradır. Burada aşağıdakı üç qrup əməllər nəzərdə tutulur: torpaq sahələrinin müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan hasara alma yolu ilə və ya digər üsullarla bağlanılması; torpaq sahəsinin müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə hasara alma yolu ilə və ya digər üsullarla bağlanılması zamanı Azərbaycan Respublikasının Torpaq Məcəlləsində nəzərdə tutulmuş hasarlanma və bağlanma üçün istifadə edilən tikinti konstruksiyalarının dənizin və onun sahilində su ilə qurunun təmas xəttinin görünməsinin və ya dəniz sahilinə gediş-gəlişin məhdudlaşdırılmasına, yaxud həmin hasar və ya tikinti konstruksiyasının uzunluğunun hər 200 metrindən bir dövlət sərhədinin mühafizəsinin təmin olunması məqsədi ilə eni 6 metrdən az olmayaraq sahilə birbaşa keçidin təmin olunmamasına; dövlətin iqtisadi və ya təhlükəsizlik mənafelərinin təmin edilməsi ilə əlaqədar müvafiq



icra hakimiyyəti orqanının qərarı olmadan həmin torpaq sahəsində dəniz sahilinə gediş-gəlişin məhdudlaşdırılması.

Bu əməllərə görə fiziki şəxslər dörd min manat məbləğində, vəzifəli şəxslər səkkiz min manat məbləğində, hüquqi şəxslər qırx min manat məbləğində cərimə edilir. Bu xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə isə fiziki şəxslər beş min manat məbləğində, vəzifəli şəxslər on min manat məbləğində, hüquqi şəxslər əlli min manat məbləğində cərimə edilir.

Torpaq sahələrinin tikinti üçün ayrılması qaydalarının pozulması AR İXM ilə inzibati məsuliyyət yaradır. Belə ki, vəzifəli şəxs tərəfindən ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalar və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtləri pozulmaqla torpaq sahələrinin (magistral boru kəmərlərinin, gərginliyi 1000 voltdan çox olan elektrik şəbəkələrinin, metropolitenin, dəmir yolu qurğularının, müdafiə obyektlərinin, su təchizatı və kanalizasiya sistemlərinin texniki qurğularının, neft buruqlarının, avtomobil yollarının və ya suların mühafizə zonalarındakı torpaq sahələri, habelə kənd təsərrüfatı təyinatlı torpaqlar istisna olmaqla) tikinti üçün ayrılmasına görə iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir (AR İXM-in 249-cu maddəsi). Digər inzibati xəta AR İXM-in 250-ci maddəsi ilə tənzim olunan mərz nişanlarının məhv edilməsi ilə əlaqədardır. Bu maddəyə əsasən mülkiyyətdə və ya istifadədə (icarədə) olan torpaqların hüdudlarının, mərz nişanlarının məhv edilməsinə görə yetmiş manatdan doxsan manatadək məbləğdə cərimə edilir.

Torpaq sahələrində meteoroloji şəbəkələrin, ölçmə vasitələrinin və digər vasitələrin sıradan çıxarılması və torpaqların kateqoriyalarının dəyişdirilməsi inzibati xəta hesab olu-

nur. Belə ki, torpaq sahələrində meteoroloji şəbəkələrin və ölçmə vasitələrinin, geodeziya istinad məntəqələrinin sıradan çıxarılmasına görə fiziki şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək (AR İXM-in 251. 1-ci maddəsi), Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə riayət edilmədən torpaqların kateqoriyalarının dəyişdirilməsinə görə fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, vəzifəli şəxslər min üç yüz manatdan iki min manatadək, meliorasiya və irriqasiya sistemlərinin sıradan çıxarılmasına görə isə fiziki şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə olunurlar (AR İXM-in 251. 3-cü maddəsi).



# II FƏSİL

# YERİN TƏKİNİN EKOLOJİ HÜQUQİ REJİMİ

## 2.1. Yerin təkinin ekoloji-hüquqi rejiminin anlayışı və dövlət tənzimlənməsi

Yerin təki xüsusi əhəmiyyəti və özünəməxsus xüsusiyyətləri olan təbiət obyektlərindən biridir. «Yerin təki haqqında» AR Qanununun 1-ci maddəsinə əsasən, «yerin təki yer qabığının yer səthindən və ya torpaq qatından, su obyektlərinin (sututarların) dibindən aşağıda yerləşən, öyrənilməsi və istifadəsi mümkün olan dərinliklərədək uzanan süxurlardan, mineral-xammal ehtiyatlarından, enerji daşıyıcılarından (neft, qaz və s.), təbii və süni boşluqlardan, geoloji və texnogen törəmələrdən ibarət hissəsidir» . Yerin təki haqqında qanunvericilik yerin təkinin hüquqi rejimi ilə bağlı olan münasibətləri tənzimləyir.

Yerin təki vahid dövlət fondunun tərkib hissəsidir (istifadə olunan və istifadə olunmayan).

Yerin təki insan və cəmiyyət üçün faydalı olan xammaldan ibarətdir. Elmi tələbatların təmin olunmasında, yeraltı qurğuların, kommunikasiya xətlərinin, boru kəmərlərinin çəkilməsi üçün yerin təkindən istifadə olunur. Yeraltı sular bir tərəfdən su fonduna, digər tərəfdən yerin təkinin fonduna aiddir. Bu baxımdan yerin təki faydalı qazıntılar anlayışın-

dan genişdir[7]. Faydalı qazıntılar yer qabığının maddi istehsal sahəsində istifadə edilən təbii mineral törəmələridirlər.

Yerin təkinin mühüm hissəsini ümumi (qum, gil, çınqıl və s. ) və az yayılmış faydalı qazıntılar təşkil edir. Balansda olan (hazırda istifadə olunması məqsədəuyğun olan) və balansdankənar (hazırda istifadəsi məqsədəuyğun olmayan) faydalı qazıntıların rejimi fərqləndirilir.

Yerin təki hər hansı fiziki və hüquqi şəxslərin mənafeyinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur.

Yerin təkinin mühafizəsi üçün mülkiyyət probleminin müəyyənliyi xüsusi ilə əhəmiyyətlidir. Belə ki, son nəticədə mineral ehtiyatların qorunması səlahiyyətlər və vəzifələrin müəyyən olunmasından asılıdır[8].

Yerin təkinin dövlət tənzimlənməsi onun rejiminin müəyyən olunması ilə bağlıdır. «Yerin təki haqqında» Azərbaycan Respublikasının 13 fevral 1998-ci il tarixli Qanununun 2-ci maddəsinə əsasən yerin təkindən istifadə aşağıdakı prinsiplərə əsaslanır: yerin təkindən səmərəli, kompleks və təhlükəsiz istifadənin təmin edilməsi; ətraf mühitin mühafizəsinin təmin edilməsi; mineral-xammal bazasının genişləndirilməsi və möhkəmləndirilməsi; yerin təkindən istifadənin aşkarlıq şəraitində həyata keçirilməsi; yerin təkindən istifadəyə investisiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması; yerin təkindən istifadənin ödənişli olması[9].

İstifadə üzrə münasibətlərin tənzimlənməsində dövlətin aşağıdakı vəzifələri vardır: dövlət siyasətini həyata keçir-

---

[7] Бринчук М.М.Экологическое право:Учебник.М.:Городец, 2009, с.292

[8] Боголюбов С.А.Экологическое право: Учебник. М.: Норма, 2001, с.258

[9] Yerin təki haqqında Azərbaycan Respublikasının 13 fevral 1998-ci il tarixli Qanunu /Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild, Bakı: Qanun, 2006, s.28.



mək; torpaq sahələrini ayırmaq; bu sahədə beynəlxalq müqavilələri bağlamaq; yer təki istifadəçilərinin hüquqlarını qorumaq; dövlət proqramlarını hazırlamaq və həyata keçirmək; istifadəyə görə haqq ödənilməsi qaydasını müəyyənləşdirmək; yer təkinin geoloji informasiya fondunu formalaşdırmaq, ondan istifadə qaydasını müəyyənləşdirmək və s. Bu vəzifələrin həyata keçirilməsi idarəetmə, xüsusi razılıq, uçot və nəzarət vasitəsi ilə təmin olunur. İdarəetmə Azərbaycan Respublikasının Prezidenti və AETSN, dövlət nəzarəti ETSN və Fövqəladə Hallar Nazirliyi, uçot ETSN tərəfindən həyata keçirilir.

Yerin təkindən istifadənin müxtəlif növləri vardır. Bunlar aşağıdakılardır: geoloji və geoekoloji öyrənmə; faydalı qazıntıların çıxarılması; dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə; faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı; elmi, mədəni, estetik, müalicə-sağlamlıq əhəmiyyətlərinə malik xüsusi mühafizə edilən geoloji obyektlərin yaradılması; mineraloji, paleontoloji və digər geoloji kolleksiya materiallarının toplanması; arxeoloji qazıntıların aparılması (maddə 7).

Yerin təkindən istifadə «Yerin təki haqqında» Azərbaycan Respublikasının 13 fevral 1998-ci il tarixli Qanunu, AR NK-nın 8 noyabr 1999-cu il tarixli 175 nömrəli Qərarı ilə təsdiq edilmiş «Yerin təki haqqında geoloji informasiyadan istifadənin qayda və şərtləri», AR NK-nın 19 oktyabr 1999-cu il tarixli 169 nömrəli qərarı ilə təsdiq edilmiş «Faydalı qazıntı yataqlarının kəşfçilərinin mükafatlandırılması Qaydaları», AR NK-nın 30 iyun 2000-ci il tarixli 111 nömrəli Qərarı ilə təsdiq edilmiş «Yerin təkindən istifadəyə xüsusi razılığın(lisenziyanın) birbaşa danışıqlar əsasında verilməsi halları» və s. normativ hüquqi aktlarla tənzimlənir.

Yer təkinin istifadəyə verilən sahələri «Yerin təki haqqında» AR qanununun 10-cu maddəsinə əsasən müəyyən olunur. Belə ki, yer təki sahəsi istifadəçiyə dağ-mədən ayırması şəklində verilir. Faydalı qazıntılar yer təkinin geoloji öyrənilməsi ilə eyni vaxtda, yaxud onun ardınca çıxarılacağı halda da yer təki sahəsi dağ-mədən ayırması şəklində verilir.

Yerin təkindən istifadə xüsusi razılıq əsasında qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən müsabiqə, hərrac və birbaşa danışıqlar əsasında verilir. Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi, AR ETSN qərarı ilə müstəsna hallarda olur. Bu hallar müsabiqənin elan edilməməsi, müsabiqədə iştirak etmək üçün müraciətin olmaması və ya bir iddiaçının olması və s. bağlıdır.



## 2.2. Yerin təkindən istifadə hüququ və onun növləri

Yerin təkindən istifadə edən fiziki və hüquqi şəxslərin hüquq və vəzifələri qanunvericiliklə müəyyən olunur. Belə ki, «Yerin təki haqqında» AR qanununun 9-cu maddəsinə görə istifadəçinin aşağıdakı hüquqlar vardır: ayırma hüdudları daxilində yerin təkindən xüsusi razılıqda göstərilmiş fəaliyyət növü üçün istifadə edilməsi; xüsusi razılıqda göstərilmiş məqsədə uyğun olaraq yer təki sahəsində qanunvericiliyə zidd gəlməyən hər hansı fəaliyyət formasının sərbəst seçilməsi; əlavə icazə olmadan dağ-mədən ayırması sahəsində öz vəsaiti hesabına yer təkinin xüsusi razılığa uyğun geoloji öyrənilməsi və s.

Yer təki istifadəçilərinin vəzifələri aşağıdakılardır: qanunvericiliyə riayət edilməsi, faydalı qazıntıların normadan artıq itkisinə, keyfiyyətinin aşağı düşməsinə yol verilməməsi; yer təkinin geoloji öyrənilməsi; geoloji məlumatların dövlət geoloji informasiya fonduna təqdim edilməsi; işlərin təhlükəsiz görülməsinin təmin edilməsi; istifadə ilə əlaqədar işlərin zərərli təsirindən qorunmasını reqlamentləşdirən standartlara riayət edilməsi; torpaq sahələrinin rekultivasiyasının təmin edilməsi; xüsusi razılıq ilə müəyyənləşdirilmiş şərtlərin və ödənişlərin vaxtında və düzgün yerinə yetirilməsi və sair.

Yer təki sahələrinə xüsusi razılıq əsasında geoloji ayırma statusu verilir ki, bu da AR NK-nın 29 sentyabr 1998-ci il tarixli 199 nömrəli Qərarı ilə təsdiq olunmuş «Geoloji öyrənilmə məqsədi ilə ayrılan yer təki sahələrinə geoloji ayırma statusunun verilməsi Qaydalar»ı ilə» müəyyən olunur.

Yerin təkindən istifadə aşağıdakı hallarda məhdudlaşdırılır və ya qadağan edilir: təhlükəsizliyin təmin edilməsi; ətraf mühitin mühafizəsinin təmin edilməsi. Məsələn, yaşayış məntəqələrinin ərazilərində yerin təkindən istifadənin insan-

ların sağlamlığına təhlükə törətməsi və s. Xüsusi mühafizə olunan ərazilərdə isə məhz yerin təkindən istifadə ərazinin statusuna müvafiq olaraq həyata keçirilir.

Yerin təki qanunvericiliyə müvafiq olaraq 5 il (geoloji öyrənmə üçün)və 25 il (faydalı qazıntı çıxarmaq üçün) müddətinə verilir. Lakin hər iki növ fəaliyyətə birlikdə 30 il müddət ayrılır(maddə12). Qeyd edək ki, yerin təkində yeraltı qurğuların tikinti üçün, məsələn, istifadə hüququ daimi də verilə bilər.

Yerin təkindən istifadə hüququ onun verildiyi gündən hesablanır və tərəflərin razılığı və şərtlərin yerinə yetirilməsi əsasında bu müddət uzadıla da bilər.

Yerin təkindən istifadəyə xüsusi razılıq yolu ilə aşağıdakılar həyata keçirilir: yer təki geoloji öyrənilir; faydalı qazıntı yataqlarının ehiyatları müəyyən olunur; dağ-mədən müəssisələrinin tullantılarından istifadə olunur; yerin təkindən faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün istifadə edilir; xüsusi mühafizə edilən geoloji obyektlər yaradılır; mineraloji və paleontoloji materiallar toplanılır və s. Bunlar eyni zamanda razılıq əsasında hüquqlardır.

Yerin təkindən istifadə hərtərəfli xarakter kəsb etdikdə istifadəçi bir neçə xüsusi razılığa malik ola bilər. Xüsusi razılığa görə dövlət rüsumu alınır ki, bu da Mineral-Xammal Bazasının Bərpası üzrə Dövlət Fonduna ödənilir.

Yerin təkindən istifadəyə aşağıdakı hallarda xüsusi razılıq tələb olunmur: elmi əsaslandırılmış dövlət proqramlarına əsasən aparılan geoloji işlər; zəlzələlərin əvvəlcədən müəyyən edilməsi; ətraf mühitin monitorinqi; yeraltı suların rejiminə nəzarət; arxeoloji tədqiqatların aparılması.

Ümumiyyətlə xüsusi razılıq Azərbaycan Respublikasının Prezidentinin «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (li-



senziya)verilməsi sahəsində əlavə tədbirlər haqqında» 29 dekabr 2006-cı il tarixli 510 nömrəli Fərmanı ilə tənzimlənir.

«Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanununun 14-cü maddəsi xüsusi razılığın anlayışını aşağıdakı kimi müəyyən edir: xüsusi razılıq sistemi yerin təkindən istifadəyə aid materialların informasiya, elmi-analitik, iqtisadi və hüquqi cəhətdən hazırlanıb rəsmiləşdirilməsini əhatə edən xüsusi razılıq verilməsinin vahid qaydasıdır. Xüsusi razılığın funksiyası, məsələn, bütün vətəndaşların sosial, iqtisadi, ekoloji nəzərə alınması, bərabər imkanların yaradılması, inhisarçılıq əleyhinə siyasətin həyata keçirilməsi, yerin təkindən istifadədə onların hüquqlarının müdafiəsi və s.

Yerin təkindən istifadə sahəsində torpaq sahiblərinin müəyyən hüquqları vardır. Belə ki, məsələn, onlar heç bir partlayış işləri aparmadan beş metr dərinliyədək ümumi yayılmış faydalı qazıntıları çıxara bilərlər. Eləcə də mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan sahələrdə su mənbəyi tapmaq üçün quyular qazılma və onları istismar edə bilərlər. Yerin təkindən torpaq sahiblərinin istifadə qaydaları AR NK tərəfindən müəyyən edilir[10].

Yerin təkindən istifadə hüququnun xitamının əsasları qanunun 18-ci maddəsində göstərilmişdir. Bunlar aşağıdakılardır: xüsusi razılığın qüvvədə olma müddəti qurtardıqda; xüsusi razılıq sahibi yerin təkindən istifadə hüququndan imtina etdikdə; xüsusi razılıq hüququndan məhrum edən faktlar meydana çıxdıqda. Eyni zamanda əhalinin həyat və sağlamlığına qarşı bilavasitə təhlükə yaranarsa, yer təkinin istifadəçisi xüsusi razılığın şərtlərini pozarsa; fors-major vəziyyəti

---

[10] "Yerin təki haqqında"Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 1998-ci il 701 nömrəli Fərmanı AR-in Ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu). II cild. Bakı: Qanun, 2006, s.46-52

*yaranarsa; istifadə hüququ verilmiş subyekt ləğv edilərsə və s. hallarda istifadəçinin hüququ AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən məhdudlaşdırıla və ya vaxtından əvvəl xitam verilə bilər.* Xüsusi razılıq sahibinin təşəbbüsü ilə də hüquq məhdudlaşdırıla və ya xitam edilə bilər. *Lakin* bu halda xüsusi razılıq sahibi AR ETSN-i altı ay əvvəlcədən xəbərdar etməlidir.



## 2.3. Yerin təkinin hüquqi mühafizəsi

Yerin təkinin hüquqi mühafizəsi dövlət tənzimlənməsinin mühüm istiqamətlərindən biridir.

Yerin təkindən istifadəyə görə ödəmələr mövcuddur. Bu ödəmələr bir qayda olaraq aşağıdakılardan ibarətdir: xüsusi razılığın verilməsinə görə dövlət rüsumu; yerin təkindən istifadə haqqı; mədən vergisi, bərpa üçün ayırmalar və s. Ödəniş pul, çıxarılan məhsul və xidmət göstərilməsi formalarındadır. Ödənişlərin formasını ETSN və FHN Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət və Dağ Mədən Nəzarəti Agentliyi müəyyən edir.

Lakin bəzi hallarda ödənişlər edilmir. Məsələn, şəxsin mülkiyyətində (o cümlədən icarəsində) olan torpaq sahəsində öz ehtiyacı üçün qanunvericilyə uyğun olaraq faydalı qazıntıların hasil edilməsi və s.

Ödənişlərin alınması qaydaları, şərtləri, haqqın miqdarı və meyarları «Yerin təkindən, dəniz dibi sahillərindən və akvatoriyasından istifadəyə görə ödənişlərin alınması Qaydalarının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 23 oktyabr 2003-cü il tarixli 974 nömrəli Fərmanına uyğun olaraq tənzimlənir[11].

Yerin təkindən səmərəli istifadəyə və onun mühafizəsinə dövlət nəzarətinin məqsədi istifadəçilər tərəfindən mövcud qanunvericiliyə, müəyyən edilmiş normativlərə və qaydalara riayət olunmasını təmin etməkdən ibarətdir.

Yer təkinin istifadəsi və mühafizəsi dövlətin fəaliyyətinin mühüm istiqamətlərindən biridir. Bu baxımdan istifadə və mühafizə üzrə ciddi tələblər müəyyən edilmişdir. «Yerin təki haqqında» AR Qanununun 21-ci maddəsində təsbit

---

[11] Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild. Bakı: Qanun, 2006, s.67

olunmuş bu tələblərə aşağıdakılar aiddir: yer təkinin istifadəyə verilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydalarına riayət edilməsi; özbaşına istifadəyə yol verilməməsi; yer təkinin geoloji öyrənilməsi; faydalı qazıntı ehtiyatlarının qiymətləndirilməsi; faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan istifadəyə verilən yer təki sahəsinin xüsusiyyətlərini təyin edəcək qabaqlayıcı geoloji və geoekoloji işlərin aparılması; hər bir faydalı qazıntı yatağı üzrə kondisiyaların müəyyən edilməsi; faydalı qazıntıların və yanakı komponentlərin yerin təkindən daha dolğun çıxarılması və uçotun aparılması; yer təkinin və ətraf mühitin çirklənməsinin qarşısının alınması; yeraltı qurğuların fəaliyyətinin müvəqqəti dayandırılması və ləğv edilməsi qaydalarına riayət edilməsi; özbaşına tikinti işləri aparılmasının qarşısının alınması; içməli, yaxud sənayenin su təchizatı üçün istifadə edilən sututarlarda və yeraltı sular yayılan yerlərdə sənaye və məişət tullantılarının yığılmasının qarşısının alınması; ətraf mühitin qorunması, torpaqların rekultivasiyası, dağ qazmalarının konservasiyası və yaxud ləğvi qaydalarına əməl edilməsi.

Qeyd edək ki, bu tələblərin yerinə yetirilməsinə ETSN nəzarət edir. Tələblərin yerinə yetirilməməsi istifadə hüququnun məhdudlaşdırılması və yaxud xitamına səbəb ola bilər.

«Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən yerin təkindən istifadə üzrə işlərin təhlükəsiz görülməsinə aid əsas tələblər də müəyyən edilmişdir. Bu tələblərin sırasında işə ancaq xüsusi ixtisas hazırlığı olan şəxslərin buraxılması; xüsusi geyim və qorunma vasitələri ilə təmin edilməni, sanitariya normalarının uyğun avadanlıqlardan istifadəni, radioaktiv və partlayıcı maddələrdə düzgün istifadəni, mütəmadi olaraq müşahidələrin aparılması; dağ-



mədən atmosferinin vəziyyətinə müntəzəm nəzarət edilməsini və s. göstərmək olar (maddə 22).

Xüsusi elmi və mədəni əhəmiyyətə malik nadir geoloji açılışlar, mineroloji törəmələr, paleontoloji obyektlər qanunvericiliklə müəyyən olunmuş qaydada geoloji qoruqlar, təbiət və mədəniyyət abidələri elan oluna bilər. «Yerin təki haqqında» Azərbaycan Respublikasının Qanununun 25-ci maddəsinə əsasən istifadə zamanı elm və mədəniyyət üçün maraq doğuran nadir geoloji və mineroloji törəmələr, meteoritlər, paleontoloji, arxeoloji obyektlər aşkar edilərkən istifadəçiləri həmin işləri dayandırmalı və xüsusi razılıq verən orqana məlumat verməlidirlər.

Faydalı qazıntı ehtiyatlarının səmərəli işlənilməsini təmin etmək, yerin təkindən istifadə haqqını və istifadə sahələrinin sərhədlərini müəyyən etmək baxımından kəşfiyyatı aparılmış yataqların faydalı qazıntı ehtiyatları dövlət ekspertizasından keçirilməlidir[12].

Faydalı qazıntı yataqlarının dövlət kadastrı, hər bir yataq üzrə əsas və yanakı faydalı qazıntı ehtiyatlarının kəmiyyəti və keyfiyyətini, komponentlərin miqdarını, yataqların işlənməsinin dağ-mədən-texniki, hidrogeoloji, ekoloji şəraitini və geoloji-iqtisadi qiymətləndirilməsini səciyyələndirən məlumatları özündə birləşdirir. Dövlət kadastrı faydalı qazıntı yataqlarının kompleks istifadəsi və səmərəli inkişafı üçün aparılır.

---

[12] "Yerin təki haqqında" Azərbaycan Respublikasının 13 fevral 1998-ci il tarixli Qanunu, maddə 30 /Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild, Bakı: Qanun, 2006, s.40.

## 2.4. *Yerin təki haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət*

Yerin təki haqqında qanunvericiliyin *pozulmasına görə* aşağıdakı hallarda məsuliyyət yaranır: yerin təkindən özbaşına istifadə edildikdə; norma və qaydalar pozulduqda; özbaşına tikinti işləri aparıldıqda; ödəmə qaydaları daimi pozulduqda və s. Eyni zamanda qanunvericilik etibarsız əqdlərin bağlanmasını da hüquq pozğunluğu kimi təsbit edir. *Təqsirli şəxslər cinayət, inzibati məsuliyyət daşıyırlar.*

«Yerin təki haqqında» AR Qanununun 46-cı maddəsində qanunun pozulmasına görə məsuliyyətin əsasları təsbit olunmuşdur. Bunlar aşağıdakılardır: yerin təkindən özbaşına istifadə edilməsi; istifadənin qaydaları pozulduqda; işlərin təhlükəsiz aparılması və normativlərə əməl edilməməsi; yer səthinin çirklənməsi; faydalı qazıntı yataqlarında özbaşına tikinti işlərinin aparılması; ödəmə qaydalarının müntəzəm pozulması; xüsusi mühafizə olunan təbiət obyektlərinin toxunulmazlığının pozulması; torpaq sahələrinin yararlı vəziyyətə gətirilməməsi; elm və mədəniyyət üçün maraq yaradan obyektlər haqqında xüsusi razılıq verən orqana məlumat verilmədikdə və s.

Yerin təkindən istifadə üzrə mübahisələr icra hakimiyyəti orqanları və məhkəmələr tərəfindən həll olunur.

Qanunvericilik yerin təkindən istifadə qaydalarını pozmaqla istifadə üzrə dəymiş ziyanın ödənilməsini təsbit etmişdir. Ziyan aşağıdakı hallarda vurula bilər: hüquqi və vəzifəli şəxslərin fəaliyyəti nəticəsində istifadəçilərə vurulmuş ziyan; yerin təkindən istifadə imkanlarını qismən və ya tamamilə istisna edən şəraitin yaradılması; yatağın korlanmasına səbəb olan hərəkətlər və s. Dəymiş ziyanın miqdarı və ödənilməsi məhkəmələr tərəfindən həyata keçirilir. Ziyanın



ödənilməsi yer təkinin işlənmiş sahələrinin təbii xassələrinin bərpası ilə əvəz oluna bilər. Lakin özbaşına faydalı qazıntı sahələrində tikinti işləri əvəzi ödənilmədən dayandırılır.

AR Cinayət Məcəlləsinin 255-ci maddəsi ilə dağ-mədən müəssisələrinin və ya yeraltı qurğuların, faydalı qazıntıların çıxarılması ilə əlaqəsi olmayan layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, istismara buraxılması və ya istismarı zamanı yerin təkinin qorunması və istifadə edilməsi qaydalarının pozulması, habelə faydalı qazıntıların yerləşdiyi ərazidə qanunsuz tikinti aparılması əhəmiyyətli zərərə səbəb olduqda yüz manatdan min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır[13].

AR İXM-də yerin təkindən istifadə qaydalarının pozulmasına görə məsuliyyət təsbit olunmuşdur. Belə ki, inzibati məsuliyyət aşağıdakı əməllərə görə müəyyən olunur: yerin təkindən istifadə ilə əlaqədar işlərin təhlükəsiz aparılması, yer təkinin və ətraf mühitin mühafizəsi üzrə standartların (normaların, qaydaların) tələblərinin pozulması; yer təkinin çirklənməsinə və faydalı qazıntı yatağının istismar üçün yararsız hala düşməsinə yol verilməsi; geoloji və ya digər məlumatlara mülkiyyət hüququnun və bu məlumatların məxfiliyinin pozulması; faydalı qazıntı yayılan sahələrdə özbaşına tikinti işlərinin aparılması; yerin təkindən istifadə edilərkən bina və qurğuların, eləcə də xüsusi mühafizə olunan ərazilərin və ətraf mühit obyektlərinin toxunulmazlığının təmin edilməməsi; yeraltı suların müşahidə quyularının, markşeyder və geodeziya nişanlarının məhv edilməsi və zədələnməsi; ləğv edilən və konservasiya olunan dağ-qazmalarının

[13] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2009, s.255

və buruq quyularının əhalinin və ətraf mühitin təhlükəsizliyini təmin edən vəziyyətə gətirilməsi, habelə konservasiya müddəti ərzində faydalı qazıntı yataqlarının, dağ-qazmaların və buruq quyularının qorunması tələblərinə əməl edilməməsi; yerin təkindən istifadə edilərkən yararsız hala salınmış torpaq sahələrinin və digər təbiət obyektlərinin onların gələcək istifadəsi üçün yararlı vəziyyətə gətirilməməsi; yerin təkindən istifadə zamanı elm və mədəniyyət üçün maraq doğuran obyektlər aşkar edilərkən həmin sahədə işlərin dayandırılmamasına və lisenziya (xüsusi razılıq) və ya icazə verən orqana məlumat verilməməsi.

AR İXM-in 243-cü maddəsinə görə yuxarıda sadalanan əməllərə görə fiziki şəxslər altı yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslər min iki yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan altı min manatadək məbləğdə cərimə edilir[14].

---

[14] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2016,s.163



# III FƏSİL

# SUYUN EKOLOJİ-HÜQUQİ REJİMİ

## 3.1. Suyun ekoloji-hüquqi rejiminin anlayışı, növləri və dövlət tənzimlənməsi

Su fondunun hüquqi rejimi AR-in Su Məcəlləsi (1997-ci il, 26 dekabr) və digər normativ hüquqi aktlarla tənzimlənir.

Su münasibətlərinin obyektləri AR su fondu və su fondunun torpaqlarıdır. Su münasibətlərinin subyektləri isə Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, bələdiyyələr, su obyektlərinin istifadəçiləri və su istehlakçılarıdır.

Azərbaycan Respublikasının daxili suları və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi su fondunu təşkil edir.

Təbiətdə yerləşməsinə, fiziki-coğrafi, inzibati-ərazi xüsusiyyətlərinə görə su fondu aşağıdakılara ayrılır: yerüstü, yeraltı, sərhəd su obyektləri və Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsi.

Yerüstü su obyektlərinə yerin səthində yerləşən yerüstü su axınları, yerüstü sututarları, buzlaqlar və qar örtükləri daxildir. Yerüstü su obyektləri onların yerüstü su hissəsindən, yatağından, dibindən və sahilindən ibarətdir.

Yeraltı su obyektlərinə yerin təkində yerləşən geoloji strukturlarda toplanmış sular daxildir. Yeraltı su obyektlərinə aşağıdakılar aid edilir: sulu horizont (geoloji struktur daxilində yerləşən, məsamələrində hidravlik əlaqəli sular toplanmış süxurlar); yeraltı su hövzəsi( müəyyən geoloji struktur daxilində yerləşən sulu horizontların, sulu çatların məcmusu); yeraltı su yatağı (sulu horizontun yeraltı suların çıxarılması üçün əlverişli şəraiti olan hissəsi).

Dövlətlərarası sərhədi müəyyən edən, sərhədi kəsib keçən, yaxud üzərindən dövlət sərhədi keçən yerüstü və yeraltı su obyektləri sərhəd su obyektləridir. Sərhəd su obyektləri» Dövlət sərhədi haqqında» AR-in 9 dekabr 1991-ci il tarixli Qanunu ilə tənzimlənir[15]. Sərhəd su obyektlərindən istifadə və onların mühafizəsi qaydaları həmçinin AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr və sazişlərlə tənzimlənir[16].

Su fondu su fonu torpaqları ilə sıx bağlıdır. Belə ki, su fondu torpaq sahələri daxildir: Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin respublikamıza mənsub olan bölməsinin altında olan torpaqlar; su mühafizəsi zonalarının və sahilboyu zolaqların altında olan torpaqlar, adalar və bataqlıqlar; hidrotexniki qurğuların, meliorasiya və su təsərrüfatı obyektlərinin altında yerləşən torpaqlar.

Su obyektləri üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları vardır.

---

[15] "Dövlət sərhədi haqqında"AR-in 9 dekabr 1991-ci il tarixli Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 71

[16] Birləşmiş Millətlər Təşkilatının "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin istifadəsi və mühafizəsi üzrə"Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının 14 mart 2000-ci il tarixli, Qanunu. Azərbaycan Respublikası ekologiya qanunvericiliyi (normativ hüquqi aktlar toplusu), I cild. Bakı: Qanun, 2006, s.366-394



Dövlət mülkiyyətində aşağıdakı su obyektləri saxlanılır: Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi; sərhəd su obyektləri; dövlət və yerli əhəmiyyətli yerüstü və yeraltı su obyektləri; xüsusi qorunan su obyektləri. Dövlət mülkiyyətində olan su obyektləri qanunvericilikdə müəyyən edilmiş qaydada istifadəyə, icarəyə və bələdiyyə mülkiyyətinə verilə bilər.

Bələdiyyə mülkiyyətində olan torpaq sahələrində yerləşən yerli əhəmiyyətli su obyektləri bələdiyyə mülkiyyətinə verilir. Bələdiyyə mülkiyyətində olan su obyektləri qanunvericiliklə nəzərdə tutulmuş qaydada ümumi istifadəyə, fiziki və hüquqi şəxslərin istifadəsinə, icarəsinə, vətəndaşlarının və hüquqi şəxslərinin mülkiyyətinə verilə bilər. Bələdiyyə mülkiyyətində olan su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində dövlət idarəetməsini qanunvericiliklə onlara verilmiş səlahiyyətlər daxilində bələdiyyələr həyata keçirirlər. «Bələdiyyələrin su təsərrüfatı haqqında» AR-in 29 iyun 2001-ci il tarixli Qanunun 7-ci maddəsinə əsasən bələdiyyələrin su təsərrüfatı obyektlərinin idarə olunması bələdiyyələrin özləri və ya onların yaratdıqları su təsərrüfatı müəssisələri tərəfindən həyata keçirilir[17].

Xüsusi mülkiyyətdə olan torpaq sahələrində yerləşən, başqa su obyektləri ilə hidravliki əlaqəsi olmayan kiçik sututarlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada xüsusi mülkiyyətə verilə bilər. Lakin Azərbaycan Respublikasının vətəndaşı olmayan şəxslərə və xarici dövlətlərin hüquqi şəxslərinə su obyektləri xüsusi mülkiyyətə verilə bilməz.

---

[17] "Bələdiyyələrin su təsərrüfatı haqqında" AR-in Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 519

Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində idarəetmənin aşağıdakı prinsipləri vardır: iqtisadiyyatın inkişafı və ətraf mühitin qorunması; əhalinin keyfiyyətli su ilə təchizatı; ərazi quruluşu prinsipi ilə hövzə prinsipinin uzlaşdırılması; su obyektlərinin mühafizəsi üzrə idarəetmə funksiyaları ilə su obyektlərindən istifadə və su təsərrüfatı funksiyalarının ayrılması.

Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində idarəetmə sisteminə ETSN və Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və bələdiyyələr daxildir.

Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində dövlətin aşağıdakı vəzifələri vardır: su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində dövlət siyasətini müəyyən etmək; su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində investisiya siyasətini həyata keçirmək; su obyektlərinin istifadəsi, mühafizəsi və suların zərərli təsirinin qarşısının alınması üzrə dövlət proqramlarını təsdiq etmək və həyata keçirmək; su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində elmi-texniki siyasəti həyata keçirmək; su obyektlərinin dövlət monitorinqinin, dövlət su kadastrının aparılması, habelə yerüstü və yeraltı suların uçotunun həyata keçirilməsi qaydalarını müəyyən etmək; su obyektlərindən istifadə qaydalarını müəyyən etmək və həyata keçirilməsini təmin etmək; su obyektlərindən xüsusi məqsədlər üçün istifadəyə dair xüsusi razılıq verilməsi qaydalarını müəyyən etmək və s.

Bələdiyyələrin səlahiyyətləri aşağıdakılardır: bələdiyyə mülkiyyətində olan sututarlara sahiblik, onlardan istifadə və onlar barədə sərəncam vermək; ətraf mühitin mühafizəsi tədbirlərinə əməl olunmasına nəzarət etmək və s.

Sudan istifadənin qaydaları və şərtləri, tərəflərin qarşılıqlı hüquq və vəzifələri müqavilələr əsasında tənzimlənir.



Su obyektlərindən istifadə hüququnun aşağıdakı müddətləri vardır: uzunmüddətli istifadə; qısamüddətli istifadə; məhdud istifadə (su servitutları).

Dövlət mülkiyyətində olan su obyektləri fiziki və ya hüquqi şəxslərin uzunmüddətli və ya qısamüddətli istifadəsinə verilə bilər.

Su obyektlərindən qısamüddətli istifadə hüququ üç ilə qədər, uzunmüddətli istifadə hüququ iyirmi beş ilə qədər müəyyən edilir.

Su obyektləri üzərində istifadə və ya mülkiyyət hüququ verilmiş hüquqi və fiziki şəxslərin hüquqları ümumi və xüsusi su servitutları formasında başqa şəxslərin xeyrinə məhdudlaşdırıla bilər.

Ümumi su servitutu formasında hər bir şəxs, qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, ümumi istifadədə olan su obyektindən və digər su obyektlərindən istifadə edə bilər.

Maraqlı şəxslər digər şəxslərin xüsusi istifadəsində olan su obyektlərindən xüsusi su servitutu formasında istifadə edə bilərlər. Xüsusi su servitutu məhkəmə qərarı əsasında da müəyyən edilə bilər. Su servitutlarının həyata keçirilməsi üçün xüsusi razılıq tələb edilmir.

AR Su Məcəlləsinin 35-ci maddəsinə əsasən su obyektləri aşağıdakı məqsədlər üçün istifadə edilə bilər: içməli su və məişət təchizatı; müalicə, kurort və sağlamlaşdırma; istirahət və idman; sənaye, tikinti və energetika; kənd təsərrüfatı, meşə təsərrüfatı; hidroenergetika; nəqliyyat; balıqçılıq; ovçuluq; tullantı suların axıdılması; yanğından mühafizə və sair[18].

---

[18] Azərbaycan Respublikasının Su Məcəlləsi (26 dekabr 1997)/ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1998, №3, maddə 13

Ümumi istifadədə olan su obyektləri hamı tərəfindən istifadə olunur. Belə ki, fiziki şəxslər belə su obyektlərindən öz ehtiyaclarını təmin etmək məqsədi ilə (*çimərlik*, *qayıqla gəzinti*, *idman*, *həvəskar balıq ovu*, *mal-qaranın suvarılması*, *texniki qurğulardan istifadə etmədən su götürmə və s.*) pulsuz istifadə edirlər. Ümumi istifadədə olan su obyektlərinin sahili boyu quru zolaqlar ayrılır. Hər bir şəxsin bu zolaqda hərəkət etmək, balıq tutmaq üçün istifadə etmək, qayıqların sahilə yan almasını təmin etmək hüququ vardır. *Ümumi istifadədə olan su obyektlərində sudan istifadənin məhdudlaşdırılmasına* yalnız Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda yol verilə bilər.

Ayrıca istifadədə olan su obyektləri məhdud şəxslər tərəfindən istifadə olunan su obyektləridir. Dövlət mülkiyyətində olan su obyektləri müvafiq icra hakimiyyəti orqanının qərarı ilə müdafiə, energetika, nəqliyyat, habelə digər dövlət və bələdiyyə ehtiyacları üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada bütövlükdə və ya qismən ayrıca istifadəyə verilə bilər.

Su obyektlərindən xüsusi məqsədlər üçün istifadə xüsusi razılıq əsasında texniki qurğular və avadanlıqlar tətbiq etməklə əhalinin içməli su, məişət, müalicə, sağlamlaşdırma və başqa ehtiyaclarını, habelə kənd və meşə təsərrüfatı, sənaye, energetika, nəqliyyat, balıqçılıq və digər dövlət və ya ictimai ehtiyacları ödəmək məqsədi ilə həyata keçirilir.

Sudan istifadə limitləri hər bir su obyektləri istifadəçisi və istehlakçısı üçün müəyyən edilmiş su obyektlərindən su ehtiyatlarının götürülməsinin və ya su obyektlərinə tullantı suların axıdılmasının yol verilən həcmidir. Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi qaydaları AR NK tərəfindən müəyyən olunur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1998-ci il tarixli 206 nömrəli qərarı ilə təsdiq edilmiş «Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi Qaydaları»[19]nda göstərilir ki, sudan istifadə limitləri əhalinin içmək, məişət, müalicə, kurort, sağlamlıq və digər ehtiyacları, habelə kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, balıqçılıq təsərrüfatı və ictimai tələbatlar üçün müəyyən olunur. Yerüstü su obyektlərindən kənd təsərrüfatının tələbatı üçün istifadə limitləri su obyektlərinin sululuğuna dair Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatlarına əsaslanır, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən hazırlanıb həyata keçirilir. Yeraltı sulardan istifadə limitləri yeraltı su mənbələrinin səmərəli istifadə tələblərinə riayət edilməklə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanıb həyata keçirilir. Sudan istifadə limitlərində dəyişikliklər edildikdə isə bu barədə müvafiq orqanlara 10 gün əvvəldən xəbər verilməlidir.

Su obyektlərindən və ya onların bir hissəsindən istifadə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq ölkənin müdafiəsinin və təhlükəsizliyinin təmin edilməsi, əhalinin sağlamlığının, ətraf mühitin və tarixi-mədəni irsin, habelə başqa şəxslərin qanuni hüquqlarının və maraqlarının qorunması məqsədi ilə məhdudlaşdırıla, dayandırıla və qadağan edilə bilər.

[19]Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 206 nömrəli qərarı ilə təsdiq edilmiş "Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi Qaydaları"/ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 627

### 3.2. Sudan istifadə hüququ və onun növləri

Sudan istifadə edənlərin aşağıdakı *hüquqları vardır:* sudan təkrar istifadə etmək; müvafiq qurğular və *tikililər* inşa etmək; istifadəyə verilən suyun və tullantı sularının *kəmiyyət* və keyfiyyətini yoxlamaq; müqavilədə nəzərdə tutulan miqdarda almadığı suyun əvəzini tələb etmək və s.

Sudan istifadə hüququna aşağıdakı hallarda xitam verilir: sudan istifadəyə ehtiyac qalmadıqda və ya *istifadədən* imtina edildikdə; su obyektlərindən *istifadə müddəti* qurtardıqda; hüquqi şəxslər ləğv olunduqda; su obyektləri qanunvericiliyə zidd olaraq başqalarına istifadəyə verildikdə; su obyektləri ayrıca istifadədən geri alındıqda və s.

Sudan istifadə edənlərin vəzifələri aşağıdakılardır: su obyektlərindən səmərəli istifadə etmək, suyun qənaətlə işlədilməsini və suların keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək; sudan istifadə planlarına, limitlərinə, qaydalarına, normalarına və rejiminə riayət etmək; su obyektlərindən təyinatına görə istifadə etmək; sudan istifadənin uçotunu aparmaq və s.

Xüsusi qorunan su obyektlərinin aşağıdakı kateqoriyaları müəyyən edilir: Azərbaycan Respublikasının daxili sularının və Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sularının sahələri; bataqlıq yerləri; nadir təbiət landşaftına aid edilmiş axar sular və sututarlar; su obyektlərinin mənbəyinin və mənsəbinin mühafizə zonaları; qiymətli balıq növlərinin kürütökmə və qışlama yerləri və s.

Xüsusi qorunan su obyektlərinin suyundan istifadə qaydaları müvafiq qanunvericiliklə müəyyən edilir. Xüsusi qorunan su obyektlərindən balıq tutmaq, ov etmək, su bitkiləri yığmaq və həmin su obyektlərinin təbii vəziyyətini dəyişən



başqa işlər görmək qadağan edilir. Xüsusi qorunan su obyektlərinin toxunulmazlığı yalnız ən zəruri hallarda müvafiq icra hakimiyyəti orqanının qərarı ilə geri alınır.

Bütün sular onların fiziki, kimyəvi, bioloji xassələrinin dəyişməsi, təbii təmizlənmə qabiliyyətinin azalması, suların hidroloji və hidrogeoloji rejiminin pozulması nəticəsində əhalinin sağlamlığına zərər vura biləcək çirklənməkdən, zibillənməkdən, tükənməkdən mühafizə olunmalıdır. Bu məqsədlə su mühafizə zonaları müəyyən edilir.

Su mühafizə zonası su obyektinin akvatoriyasına bitişik, üzərində təbii ehtiyatların istifadəsi, mühafizəsi və digər təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üzrə xüsusi rejim müəyyən edilmiş ərazidir. «Su təchizatı və tullantı suları haqqında» AR 28 oktyabr 1999-cu il tarixli Qanununa[20] əsasən sanitar mühafizə zonalarında torpaq sahələri mülkiyyətçilərinin fəaliyyəti qadağan olunur.

Fiziki və hüquqi şəxslərə su obyektlərinə istehsalat, məişət və digər tullantıların tökülməsi; suların yağlar, ağac, kimyəvi, neft və digər istehsalat məhsullarının texniki və texnoloji nasazlıqdan axması nəticəsində çirkləndirilməsi və zibilləndirilməsi və s. qadağan edilir.

Əhalinin içməli və məişət su təchizatı, müalicə, kurort və sağlamlaşdırma ehtiyacları üçün istifadə olunan suların mühafizə edilməsi məqsədi ilə sanitariya mühafizəsi zonaları da müəyyən olunur.

Su obyektlərinə zərərli təsirin yol verilən normaları ətraf mühitin mühafizəsi və su qanunvericiliyi ilə müəyyən edilir.

---

[20] Su təchizatı və tullantı suları haqqında Azərbaycan Respublikasının Qanunu/Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 2

Su obyektlərinin bərpası və mühafizəsi sahəsində hövzə sazişləri su obyektlərinin bərpasına və mühafizəsinə yönəldilmiş fəaliyyətin əlaqələndirilməsi və birləşdirilməsi məqsədi ilə bağlanıla bilər. Hövzə sazişləri müvafiq icra hakimiyyəti orqanı ilə bələdiyyələr və su istifadəçiləri arasında bağlanılır.

Suların vəziyyətinə təsir edən yeni tikilmiş və yenidən qurulan müəssisələrin, qurğuların və digər obyektlərin istismara verilməsi aşağıdakı hallarda qadağan edilir: suların çirklənməsinin və zibillənməsinin, yaxud onların zərərli təsirinin qarşısını alan qurğularla təmin edilmədikdə; torpaqların subasmasının, bataqlaşmasının, şoranlaşmasının və eroziyasının qarşısını almaq məqsədi ilə layihələrdə nəzərdə tutulmuş tədbirlər görülmədikdə; layihələrdə nəzərdə tutulmuş suqəbuledicilər və başqa qurğular hazır olmadıqda; ehtiyatları təsdiq edilməmiş yeraltı suları çıxarmaq üçün nəzərdə tutulan sugötürücü və s.

Su obyektlərinin istifadəsi və mühafizəsi tədbirlərinin iqtisadi tənzimlənməsi aşağıdakı prinsiplərə əsaslanır: sudan pullu istifadə; su obyektlərindən istifadə ilə bağlı ödəmələr; su obyektlərinin istifadəsi və mühafizəsi üzrə tədbirlərin maliyyələşdirilməsi.

Bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan pullu istifadə qaydaları və şərtləri bu məcəllə, digər müvafiq qanunvericilik aktları, habelə bələdiyyə aktları ilə müəyyən edilir. «Bələdiyyələrin su təsərrüfatı haqqında» Azərbaycan Respublikasının 29 iyun 2001-ci il tarixli Qanununun 10-cu maddəsinə[21] əsasən bələdiyyələrin su təsərrüfatı obyektlərində sudan pullu istifadənin əsas məqsədi aşağıdakılardır: bələdiyyə ərazisindəki su ehtiyatlarından səmərəli istifadənin təmin olunması; suyun dəqiq uçotunun aparılması; su təchizatına yönəldilmiş xərclərin ödənilməsi; suvarma və su kəmərləri sistemlərinin yeni avadanlıqlarla təchiz olunmasının yaxşılaşdırılması; yeni su mənbələrinin yaradılması.

[21] "Bələdiyyələrin su təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu/Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 519



Su obyektlərindən istifadəyə görə aşağıdakı ödəmə növləri müəyyən edilir: su obyektlərindən xüsusi məqsədlər üçün su götürülməsinə və tullantı suların su obyektlərinə axıdılmasına; su obyektlərindən hidroenergetika və nəqliyyat ehtiyacları üçün istifadəyə; su obyektlərindən faydalı qazıntıların hasil edilməsinə və su obyektlərində geoloji kəşfiyyat və qazma işlərinin aparılmasına, habelə sualtı qurğuların tikintisinə və istismarına; su obyektlərindən mütəşəkkil idman, istirahət və turizm məqsədləri üçün istifadəyə və s.

Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində fiziki və hüquqi şəxslər arasındakı mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 13 mart tarixli 685 nömrəli Fərmanına[22] əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1998-ci il tarixli 195 nömrəli Qərarı ilə təsdiq edilmiş «Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları» dövlət nəzarətinin əsas məqsəd və vəzifələrini, dövlət orqanları və onların səlahiyyətlərini müəyyən etmişdir. Bu qaydalar su obyektlərinin istifadəsi və mühafizəsi, sudan istifadə limitləri, sanitariya-gigiyena, eko-

[22] "Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli 685 nömrəli Fərmanı/ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 546

loji, hidrogeoloji, hidroloji, texnoloji, metroloji standartlar və normaları, su mühafizə zonalarının ərazisindən istifadə rejimini və s. əhatə edir.

Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətini aşağıdakı orqanlar həyata keçirir: AETSN, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti.

Dövlət nəzarəti aylıq, rüblük və illik xüsusi iş planları əsasında həyata keçirilir.

Su obyektlərinin istifadəsi və mühafizəsi üzərində dövlət nəzarətini həyata keçirən orqanların aşağıdakı hüquqları vardır: su obyektlərinin istifadəsi və mühafizəsi qaydalarının pozulmasında təqsirkar vətəndaşları və vəzifəli şəxsləri inzibati məsuliyyətə cəlb etmək; su obyektlərinin istifadəsi və mühafizəsi qaydalarının pozulması nəticəsində dövlətə vurulan zərərin ödənilməsi məqsədilə iddia qaldırmaq; müəyyən edilmiş qaydalar pozulduqda həmin işləri və bu mənbələrin suyundan istifadə olunmasını dayandırmaq; su obyektlərinin mühafizəsi qaydalarının pozulmasında təqsirkar şəxsləri inzibati məsuliyyətə cəlb etmək və s.

«Azərbaycan Respublikasının 1997-ci il 26 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli 685 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti 17 yanvar 2000-ci il tarixli 7 nömrəli qərarı ilə «Suların dövlət uçotunun Qaydası»nı təsdiq etmişdir. Bu qərar yerüstü və yeraltı su obyektlərinin istifadəçilərinin və dövlət monitorinqinin uçot məlumatlarına əsaslanaraq, suların dövlət uçotunun qaydalarını müəyyənləşdirir. Suların dövlət



uçotu dedikdə su ehtiyatlarının kəmiyyət və keyfiyyətinin müntəzəm olaraq müəyyən edilməsi başa düşülür.

Suların dövlət uçotu Azərbaycan Respublikasında vahid sistem üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti və Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının vahid dövlət su fondunu təşkil edən bütün sular, su obyektləri dövlət uçotuna alınır. Dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısı Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırmaqla müəyyən edilir.

Bu sahədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aşağıdakı vəzifələri vardır: yerüstü su resurslarının dövlət uçotunu, rejim və keyfiyyətinə müşahidəni aparmaq; aidiyyəti müəssisə, təşkilat və idarələri hidroloji proqnozlarla təmin etmək; suların çirklənmə səviyyəsi üzərində müşahidə və nəzarəti təşkil etmək; ümumi dövlət xidmətini yaratmaq; suların çirklənmə səviyyəsində ola biləcək dəyişikliklər barədə məlumatlarla müntəzəm təmin etmək və s.

Suların dövlət uçotu sahəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yeraltı suların, onların istismar ehtiyatlarını nəzərə almaqla dövlət uçotunu aparır, habelə Fövqəladə Hallar Nazirliyinin iştirakı ilə həmin suların rejiminə və keyfiyyətinə müşahidəni təmin edir.

Yeraltı suların dövlət uçotu, onların rejimi və keyfiyyəti monitorinqi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatlarının yeraltı suların kəşfiyyatı, onların rejiminin öyrənilməsi və balansı haqqında materialları əsasında, digər təşkilatların apardığı hidrogeoloji işlər nəticəsində alınmış məlumatlar istifadə olunmaqla AR ETSN tərəfindən həyata keçirilir. AR NK-nın 17 yanvar 2000-ci il tarixli 7 nömrəli Qə-

rarı ilə təsdiq edilmiş «Suların dövlət uçotu Qaydası» na əsasən sudan istifadəyə dair dövlət statistik hesabat formaları və onların doldurma qaydaları Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır, Dövlət Statistika Komitəsi tərəfindən isə təsdiq edilir.

Suların dövlət uçotu sahəsində Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin aşağıdakı vəzifələri vardır: ilkin uçotun düzgün aparılması üçün istifadə olunan avadanlıq və cihazların vəziyyətinə nəzarəti təmin etmək; su obyektlərinin istifadəçiləri və su istehlakçılarının hesabatları əsasında respublika üzrə sudan istifadə edilməsinin uçotunu aparır; su obyektlərinin istifadəçilərinin və su istehlakçılarının qeydiyyatını aparır; Ekologiya və Təbii Sərvətlər Nazirliyini və Fövqəladə Hallar Nazirliyini suların istifadəsinin uçotu üzrə ümumiləşdirilmiş məlumatlarla təmin edir.

«Dövlət su kadastrının aparılması qaydaları haqqında» AR NK-nın 5 dekabr 1995-ci il tarixli 261 nömrəli Qərarına əsasən dövlət su kadastrının aparılmasını yerüstü sular üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (yerüstüvə yeralti sular üzrə) Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti həyata keçirir (sulardan istifadə üzrə).

Dövlət su kadastrı suların kəmiyyət və keyfiyyət göstəricilərinin uçotu, sudan istifadənin qeydiyyatı və uçotu barədə məlumatları əks etdirir.

Su obyektlərinin dövlət monitorinqi onların vəziyyətində baş verən proseslərin vaxtında aşkara çıxarılması, zərərli təsirinin qarşısının alınması və həyata keçirilən su mühafizəsi tədbirlərinin səmərəliliyinin təmin edilməsi məqsədi ilə su obyektlərinin hidroloji və hidrogeoloji göstəricilərinə müntəzəm müşahidə sistemindən ibarətdir.



AR NK-nın 28 sentyabr 1998-ci il tarixli 197 nömrəli Qərarı ilə «Suların vəziyyətinə təsir edən müəssisələrin, qurğuların və digər obyektlərin tikiləcəyi yerlərin müəyyənləşdirilməsi və onların tikinti layihələrinin razılaşdırılması, onların dövlət ekspertizası və istismara verilmə Qaydaları» [23] təsdiq olunmuşdur. Qaydalara əsasən, su ehtiyatları kimyəvi, bakterioloji, radioaktiv, mexaniki və istilik çirklənməsindən mühafizə edilir. Eyni zamanda bina və qurğularda su təchizatı mənbələrinin normal istismarı, çirkab suların kənar edilməsinin lazımi səviyyədə təmizlənməsi və zərərsizləşdirilməsi nəzərdə tutulur. Su ehtiyatlarının keyfiyyətinə təsir edə bilən yeni tikintilər üçün torpaq sahələri su təchizatının inkişaf sxeminə və torpaq qanunvericiliyinə uyğun olaraq ayrılır.

Suların vəziyyətinə təsir edən tikinti obyektləri üçün hazırlanmış layihə sənədləri «İnvestisiya fəaliyyəti haqqında» AR Qanununa və AR NK-nın 22 oktyabr 1992-ci il tarixli 572 nömrəli Qərarına uyğun olaraq bütün investorlar üçün eyni qaydada dövlət ekspertizasına təqdim olunmalıdır.

[23] Azərbaycan Respublikasının ekoloji qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu). II cild. Bakı: Qanun, 2006, s.228-230

### 3.3. Suların hüquqi mühafizəsi

AR NK-nın 24 mart 2000-ci il tarixli 56 nömrəli Qərarı ilə təsdiq olunmuş «Su mühafizə zonalarının, onların sahil mühafizə zolaqlarının ölçülərinin, sərhədlərinin və istifadəsinin müəyyən edilməsi Qaydaları» [24]na əsasən su mühafizə zonası su obyektinin akvatoriyasına bitişik, üzərində təbii ehtiyatların istifadəsi, mühafizəsi və digər təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üzrə xüsusi rejim müəyyən edilmiş ərazidir. Su mühafizə zonalarının hüdudlarında sahil mühafizə zolaqları tətbiq edilir.

Su mühafizə zonalarının və sahil mühafizə zolaqlarının sərhədləri və istifadəsi fiziki, coğrafi, torpaq və hidroloji amillərdən asılı olaraq, eləcə də su obyektlərinin sahil xəttinin dəyişməsi nəzərə alınmaqla Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

Çayların uzunluğu boyu su mühafizə zonalarının minimum eni onların ayrı-ayrı hissələri üzrə aşağıdakı hədlərdə qəbul edilir: uzunluğu 10 km-dək olduqda-50 m; uzunluğu 10 km-dən 50 km-dək olduqda-100 m; uzunluğu 50 km-dən 100 km-dək olduqda-200 m; uzunluğu 100 km-dən 200 km-dək olduqda-300 m; uzunluğu 200 km-dən 500 km-dək olduqda-400 m; uzunluğu 500 km-dən artıq olduqda-500 m. Çayların başlanğıcında su mühafizə zonası 50 metrdən az olmamalıdır.

Göllərin və su anbarlarının su mühafizə zonalarının minimum eni aşağıdakı hədlərdə müəyyən olunur: akvatoriyasının sahəsi 2 kv. km-dək olduqda 300 metr; akvatoriyasının sahəsi 2 kv. km-dən artıq olduqda 500 metr. Balıqçılıq üçün

---

[24] Azərbaycan Respublikasının ekoloji qanunvericiliyi(normativ-hüquqi aktlar toplusu). II cild. Bakı: Qanun, 2006, s.282-286



əlverişli su tutarlarında sahil mühafizə zolaqlarının eni 100 metrdən az olmamaq şərti ilə müəyyən edilir.

Su mühafizə zonalarının layihələşdirilməsi AR Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi ilə razılaşdırılmaqla AR Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən təsdiq edilmiş normativ-metodik sənədlərə əsasən həyata keçirilir. Su mühafizə zonalarının, sahil mühafizə zolaqlarının sərhədlərinin müəyyən edilməsi və onların hüdudlarında istifadə rejiminin təyin edilməsi barədə əhali məlumatlandırılır.

Su mühafizə zonalarında aşağıdakılar qadağan edilir: gübrə və pestisidləri saxlamaq üçün anbarların və pestisid aparatlarının doldurulması meydançalarının yerləşdirilməsi; neft məhsulları anbarlarının, mexaniki emalatxanaların, avtomobillərə və texnikalara texniki xidmət məntəqələrinin, çirkab sularını, habelə avtomobillərin yuyulması nəticəsində əmələ gələn çirkab sularını toplamaq üçün qurğuların tikilməsi və yerləşdirilməsi; mühafizə zonalarının eni 100 metrdən az və su obyektlərinə bitişik ərazilərinin yamaclarının mailliyinin 3 dərəcədən artıq olduqda bağ və bağ-bostan sahələrinin salınması və s.

Sahil mühafizə zolaqlarında torpaqların şumlanması və əkilməsi, meşələrin qırılması, ağac və kolların kökündən çıxarılması; gübrələrdən istifadə edilməsi; mövsümü stasionar çadırcıq şəhərciklərinin salınması, dağ və dağ-bostan sahələrinin yerləşdirilməsi, xüsusi tikinti üçün torpaq sahələrinin ayrılması, avtomobil və traktorların hərəkəti və s. qadağan edilir. Lakin sahil zonalarında su təchizatı, istirahət, idman, balıqçılıq və ovçuluq təsərrüfatı obyektlərinin, habelə liman və hidrotexniki qurğuların yerləşdirilməsinə yol verilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1998-ci il tarixli, 206 nömrəli Qərarı ilə təsdiq edilmiş

«Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi Qaydaları»nda sudan istifadə zamanı limitlər müəyyən olunur. Sudan istifadə limitləri dedikdə su obyekti istehlakçısı üçün müəyyən edilmiş su obyektlərindən su ehtiyatlarının götürülməsinin və ya su obyektlərinə tullantı sularının axıdılmasının yol verilən həcmi başa düşülür. Qaydalara əsasən su üzrə limitlər əhalinin içmək, məişət, müalicə, sağlamlıq, kurort, eləcə də kənd təsərrüfatı, sənaye, tikinti, nəqliyyat, balıqçılıq və s. tələbatların təmin edilməsi üçündür.

Sudan istifadə limitləri aşağıdakı kimi həyata keçirilir: içmək və məişət üçün su limitləri rayon, şəhər icra hakimiyyəti orqanları tərəfindən, müalicə və sağlamlıq ehtiyacları üzrə limitlər AR Səhiyyə Nazirliyi tərəfindən, yeraltı su mənbələrində limitlər AR ETSN tərəfindən, tikinti, nəqliyyat, sənaye, balıqçılıq üçün AR Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən və s. müəyyən olunur. Bütün orqanlar istifadə üzrə limitləri AR ETSN ilə razılaşdırmalıdırlar. Müəyyən edilmiş limitlərin dəyişdirilməsi on gün əvvəl xəbərdarlıq olunmaqla həyata keçirilməlidir.



### 3.4. Su qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində fiziki və hüquqi şəxslər arasındakı mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

Su qanunvericiliyini pozan vəzifəli şəxslər və vətəndaşlar aşağıdakı hallarda mülki, maddi, inzibati və cinayət məsuliyyəti daşıyırlar: su qanunvericiliyini pozmaqla əqdlər bağlandıqda; su obyektlərini özbaşına tutduqda və ya sudan özbaşına istifadə etdikdə; su obyektlərini çirkləndirdikdə, zibilləndirdikdə və tükəndirdikdə; sudan istifadə limitlərinə əməl etmədikdə; su ehtiyatlarından israfçılıqla istifadə etdikdə; hidrotexniki və kommunal su təsərrüfatına aid olan işləri özbaşına gördükdə; su təsərrüfatı qurğularını və avadanlığını zədələdikdə, onların istismarı qaydalarına riayət etmədikdə; su kəmərlərindən, kanallardan və digər su sistemlərindən özbaşına su götürdükdə, sudan istifadəyə görə haqqı və sudan istifadə qaydalarını pozmağa görə cərimələri, habelə su obyektlərinə və ətraf mühitə axıdılan tullantı sulara görə ödənişləri vaxtında ödəmədikdə və s.

Müvafiq icra hakimiyyəti orqanları suların istifadəsinə və mühafizəsinə dair müəyyən edilmiş qaydalar pozulduqda, həmin işləri və bu mənbələrin suyundan istifadə olunmasını dayandırmaq hüququna malikdirlər.

Özbaşına tutulmuş su obyektləri qanunsuz istifadə zamanı çəkilmiş xərclər ödənilmədən aidiyyəti üzrə geri qaytarılır. Fiziki və hüquqi şəxslər su qanunvericiliyini pozmaqla vurduqları zərəri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada ödəməlidirlər.

AR Cinayət Məcəlləsinin 250-ci maddəsində suyu ( su mənbələrini) çirkləndirməyə görə məsuliyyət müəyyən edilmişdir. Belə ki, yerüstü və ya yeraltı suların, istifadə olunan su mənbələrinin çirkləndirilməsi, tükənməsi və ya onların təbii xassələrinin başqa cür dəyişdirilməsi heyvanlar və ya bitki aləminə, balıq ehtiyatlarına, meşə və ya kənd təsərrüfatına əhəmiyyətli zərərin vurulmasına səbəb olduqda yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya iki ilədək müddətə islah işləri və ya altı ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər insan sağlamlığına zərər vurulmasına və ya heyvanların kütləvi məhvinə səbəb olduqda, habelə qoruqların ərazisində və ya təhlükəli, yaxud fövqəladə ekoloji vəziyyət zonasında törədildikdə beş yüz manatdan iki min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Su fondu, sudan istifadə, onun mühafizəsi üzrə qanunvericiliyin pozulmasına görə inzibati məsuliyyət müəyyən olunub. Belə ki, 29 dekabr 2015-ci ildə təsdiq olunan və 2016-cı il martın 1-dən qüvvəyə minən AR İXM inzibati hüquqpozmalara səbəb olan aşağıdakı hüquqazidd əməlləri müəyyən etmişdir: su obyektlərindən və sudan istifadə qaydalarının pozulması; su obyektlərinin mühafizəsi qaydalarının pozulması; içməli su mənbələrinin, su təmizləyici qurğularının, su kəmərlərinin sanitar mühafizə zonalarının tələblərinin və içməli suyun keyfiyyətinə dair tələblərin pozulması.



AR İXM-in 262-ci maddəsinin birinci hissəsinə əsasən su obyektlərində hidrotexniki və digər qurğuların özbaşına tikilməsinə, su obyektlərinin özbaşına tutulmasına və su obyektlərindən istifadə üzrə xüsusi razılıq və ya icazə ilə müəyyən edilmiş şərtlərin pozulmasına görə fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğində, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğində cərimə edilir.

Lazımi icazə olmadan sudan özbaşına istifa-də edilməsinə; sudan istifadə etmə limitlərinə əməl edilməməsinə; su ehtiyatlarından israfçılıqla isti-fadə edilməsinə; içməli məişət, texniki və tullantı sularının kənara (çöllərə, küçələrə, rabitə və enerji kommunika-siya şəbəkələrinə) təyinatsız axıdılmasına görə) fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğində, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək, hüquqi şəxslər isə iki min manatdan üç min manatadək məbləğində cərimə edilir(AR İXM, maddə 262. 2).

Su təchizatı şəbəkəsinə qanunsuz qoşulmaqla suyun talanması nəticəsində az miqdarda ziyan vurulmasına görə fiziki şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə cərimə edilir(AR İXM, maddə 262.3)

Su təchizatı müəssisəsinin səlahiyyətli şəxsi tərəfindən su qanunvericiliyinin tələblərinin pozulmasının qarşısını almaq məqsədi ilə səlahiyyətləri çərçivəsində tədbirlərin həyata keçirilməsinə, yaxud həmin şəxsin qanuni tələblərinin yerinə yetirilməsinə istehlakçı tərəfindən maneələr törədilməsinə görə, İXM-in 263-cü maddəsinə əsasən fiziki şəxslər

əlli manat məbləğində, vəzifəli şəxslər beş yüz manat məbləğində, hüquqi şəxslər min beş yüz manat məbləğində cərimə edilir.

İnzibati məsuliyyət su obyektlərinin mühafizəsi qaydalarının pozulmasına görə də məsuliyyət müəyyən etmişdir. Belə ki, İXM-in 264-cü maddəsi su obyektlərinin mühafizəsi qaydalarının pozulmasına görə məsuliyyət nəzərədə tutur. Su obyektlərinin mühafizəsi qaydalarının pozulması aşağıdakı hüquqazidd hərəkətlərdə ifadə olunur: su obyektlərinin çirklənməsinin, zibillənməsinin və suların zərərli təsirinin qarşısını alan qurğuları və avadanlıqları olmayan müəssisələrin, kommunal və digər obyektlərin istismar edilməsi; su təsərrüfatı qurğularının və avadanlığının zədələnməsi, onların istismar qaydalarına riayət edilməməsi; su mühafizəsi zonalarına və sahil mühafizə zolaqlarına riayət edilməməsi; xüsusi qorunan su obyektlərinin rejiminin pozulması; su obyektlərinin dövlət monitorinqinin, suların dövlət uçotunun, dövlət su kadastrının aparılması qaydalarına riayət edilməməsi; sutoplayıcı sahələrdə su obyektlərinin qorunması rejimini pozmaqla suların çirkləndirilməsinə, torpaqların su eroziyasına və başqa ziyanlı hallara səbəb olan şəkildə pozulması; su çıxarmaq üçün quyuların qazılması qaydalarının və texnologiyasının pozulması və ya lazımi icazə olmadan su çıxarmaq üçün quyuların qazılması. İXM-in 264-cü maddəsi yuxarıda sadalanan hüquqazidd hərəkətlərə görə fiziki şəxslərin altı yüz manatdan min manatadək məbləğdə, vəzifəli şəxslərin iki min beş yüz manatdan dörd min manatadək məbləğdə, hüquqi şəxslərin yeddi min beş yüz manatdan on min manatadək miqdarda cərimə edilməsini nəzərədə tutur.

İXM-in 265-ci maddəsi içməli su mənbələrinin, su təmizləyici qurğularının, su kəmərlərinin sanitar mühafizə zonalarının tələblərinin və içməli suyun keyfiyyətinə dair tə-



ləblərin pozulmasına görə məsuliyyət müəyyən edilir. İXM-in 265-ci maddəsinin birincisi hissəsində içməli su mənbələrinin, su təmizləyici qurğularının, su kəmərlərinin sanitar mühafizə zonalarının tələblərinin pozulmasına görə fiziki şəxslərin yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslərin iki yüz manatdan üç yüz manatadək miqdarda, hüquqi şəxslərin isə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilməsi təsbit olunub. İXM-in 265-ci maddəsinin ikinci hissəsi ilə içməli suyun keyfiyyətinin sanitariya tələblərinə və dövlət standartlarına uyğun gəlməməsinə görə üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilməsi nəzərədə tutulur.

# IV FƏSİL

## MEŞƏLƏRİN VƏ MEŞƏ OLMAYAN BİTKİ EHTİYATLARININ EKOLOJİ-HÜQUQİ REJİMİ

### 4.1. Meşələrin və meşə olmayan bitki ehtiyatlarının ekoloji-hüquqi rejiminin anlayışı, növləri və dövlət tənzimlənməsi

Bioloji cəhətdən öz inkişafında bir-birinə qarşılıqlı təsir göstərən torpağın, suyun, ağac, kol, ot bitkilərinin, heyvanat aləminin, mikroorqanizmlərin vəhdəti hesab edilən meşə sahələri Azərbaycanın qiymətli milli təbii sərvəti hesab olunur. Dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiya Federasiyasının, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalmışdır. XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olmuşdur. Hazırda Azərbaycan meşələrinin ümumi sahəsi 1021 min hektardır. Bu da Azərbaycan ərazisinin 11, 8%-ni təşkil edir. Bu rəqəm Rusiya Federasiyasında 44%, Latviyada 41%, Gürcüstanda 39% təşkil edir. Ölkəmizin meşə ehtiyatının 49%-i Böyük Qafqaz regionunun, 34%-i Kiçik Qafqaz regionunun, 15%-i cənub zonasının və 2%-i Aran zonasının (Naxçıvan MR ilə birlikdə) payına düşür.



Azərbaycanda adambaşına 0,12 ha meşə sahəsi düşür. Hazırda 261 min hektar meşə fondu sahəsi Ermənistan tərəfindən işğal edilmişdir. Meşələrin təbiətdə ən böyük rolu - hər hektarın il ərzində 10-20 ton karbon qazını udaraq əvəzində oksigen ixrac etməsidir. 1 ha meşə sahəsi 1 saatda 8 kq karbon qazını udur, bu da 1 saatda 200 nəfərin nəfəsi ilə havaya buraxılan karbon qazının həcminə bərabərdir. [25]

Azərbaycan öz füsunkar gözəlliyi, zəngin təbii sərvətləri, al-əlvan florası və faunası ilə bütün dünyada şöhrət qazanmışdır. Burada 125 fəsiləyə və 930 cinsə daxil olan ali bitkilərin 4500 növü yayılmışdır. Bunlardan 48 fəsiləyə, 135 cinsə mənsub olan 450 növ ağac və kol respublikamızın meşələrində bitir. Bu isə respublika florasındakı bitki növlərinin 11-ni təşkil edir. Azərbaycan dendroflorasının tərkibində 70 regional endem növə təsadüf edilir. Bu da ümumi ağac və kol bitki növlərinin 16%-i deməkdir. [26]

Azərbaycan Respublikasının meşə qanunvericiliyi AR Meşə Məcəlləsindən, Ətraf mühitin mühafizəsi haqqında qanundan, Fitosanitar nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunundan, Azərbaycan Respublikası Torpaq Məcəlləsindən, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən («Bitki karantini sahəsində əməkdaşlıq haqqında» Saziş, «Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında» Konvensiyaya (CITES), «Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında» 19 sentyabr 1979-cu il tarixli Avropa Konvensiyası, «Bioloji müxtəliflik haqqında» Konvensiya və s.) ibarətdir. Azərbaycan Respublikasının meşə qanunvericiliyi ilə tanış olduqda görmək olur ki, qanunvericiliyin

---

[25] http://eco.gov.az/az/86-respublikanin-meşeleri

[26] Yenə orda

əsas məqsəd və vəzifələri meşələrin əhəmiyyətini nəzərə almaqla onları elmi əsaslarla idarə etmək, meşə ekosisteminin bioloji müxtəlifliyini saxlamaq, meşələrin ehtiyat potensialını yüksəltmək prinsipləri əsasında onlardan səmərəli istifadəyə, meşələrin mühafizəsini, qorunmasını və bərpasını təmin etməyə yönəldilməkdir. Meşə münasibətlərinin obyektlərinə Azərbaycan Respublikasının meşə fondu, meşə fondunun sahələri, ağac-kol bitkiləri və onlardan istifadə hüquqları daxildir.

Azərbaycan Respublikasında meşə qanunvericiliyi sahəsində əsas sənəd olan AR Meşə Məcəlləsində meşənin anlayışı verilərək qeyd olunur ki, meşə – bioloji cəhətdən qarşılıqlı əlaqəli və öz inkişafında bir-birinə təsir göstərən, torpağın, suyun, ağac, kol və ot bitkilərinin, heyvanların, mikroorqanizmlərin və ətraf mühitin digər tərkib hissələrinin vəhdətidir. Azərbaycan Respublikasının ərazisindəki bütün meşələr, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə fondunun torpaqları (meşə və qeyri-meşə torpaqları) Azərbaycan Respublikasının meşə fondunu təşkil edir. Meşə fondunun sərhədləri meşə fondunun torpaqlarını digər torpaqlardan ayıran hüdudlarla müəyyən edilir. Torpaqların meşə fonduna daxil edilməsi və oradan çıxarılması Azərbaycan Respublikasının meşə və torpaq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Meşə torpaqlarına meşə bitkiləri ilə örtülü olan torpaqlar və bu bitkilərlə örtülü olmayan, lakin meşələrin bərpası üçün nəzərdə tutulmuş torpaqlar (meşələşməmiş qırma sahələri, yanğın yerləri, seyrəkliklər, talalar, qurumuş ağaclıqlar, tinglik sahələri, çətiri birləşməmiş meşə əkinləri və digərləri) aid edilir. Qeyri-meşə torpaqlarına meşə təsərrüfatının ehtiyacları üçün nəzərdə tutulmuş torpaqlar (kənd təsərrüfatı torpaqları, meşə mərzləri, yollar altında olan torpaqlar və digər torpaqlar), habelə meşə fondunun



sərhədləri daxilində yerləşən sair torpaqlar (bataqlıqlar, daşlıqlar, qayalıqlar yerləşən və istifadə üçün əlverişsiz başqa torpaq sahələri) aid edilir. Meşə fondunun sahələrinə meşə sahələri, habelə meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaq sahələri aid edilir. Meşə fondu sahələrinin sərhədləri meşə təsərrüfatı işarələri ilə naturada nişanlanmalı və plan-xəritə materiallarında (meşə xəritələrində) göstərilməlidir.

Meşələrin çoxlu sayda funksiyaları vardır. Azərbaycan Respublikasının meşə fondu dağ və düzən meşələrindən ibarətdir. Meşələr bir növ rütubət toplayıcısı rolunu oynayır və düzənliklərə suyun paylanmasını tənzimləyir, onu nisbətən tarazlaşdırır. Bununla yanaşı, meşələr dağlıq rayonlarda torpaq sürüşməsi və dağ uçqunlarının qarşısını alır. Eyni zamanda, meşələr fitonsit xüsusiyyətinə malikdir, onlar zərərli mikroorqanizmləri məhv edir. Meşələr bitkiləri, torpağı, su hövzələrini, yolları, yaşayış məntəqələrini, abidələri, təbii amillərin zərərli təsirindən qoruyur, mikroiqlimi dəyişir, quru, isti, güclü küləklərin təsirini azaldır. Meşələr dərə, yarğan və hərəkət edən qumları bərkidir, qar örtüyünün bərabər yayılması və tədricən əriməsinə imkan yaradır, buxarlanmanı zəiflədir, qrunt sularının səviyyəsini endirir. Azərbaycan Respublikasının Meşə Məcəlləsinin 31-ci maddəsinin iqtisadi və ekoloji əhəmiyyətinə, yerləşməsinə və yerinə yetirdiyi funksiyalara görə ölkənin meşə fondu birinci qrup meşələrə aid olub aşağıdakı qoruyucu kateqoriyalara bölünüb:

- qoruq meşələri;
- kurort meşələri;
- xüsusi qiymətli meşə massivləri;
- şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının meşələri;
- yabanı meyvə meşələri;

- dövlət qoruyucu meşə zolaqları;
- sair meşələr.

Qoruq meşələri – meşə fondunun tərkib hissəsi olmaqla xüsusi qorunma və təsərrüfat aparılma rejiminə malik, nadir bitki və heyvanat aləminin və digər təbii komplekslərin saxlanılmasını, artırılmasını və qorunmasını təmin edən, eyni zamanda bu amillərin elmi əsaslarla dinamikasının öyrənilməsi məqsədilə yaradılan meşə sahələridir. Kurort meşələri- sağlamlıq ocaqlarının və istirahət yerlərinin ətrafındakı təbii amillərin qorunmasını və yaxşılaşdırılmasını təmin edən, ətraf mühitin çirklənməsinin və vaxtından əvvəl sıradan çıxmasının qarşısını alan, əhalinin müalicəsi üçün əlverişli mikroiqlim şəraiti yaradan meşə sahələridir. Xüsusi qiymətli meşə massivləri- tərkibində relikt və endemik ağac və kol cinsləri olan nadir meşələr, yüksək məhsuldarlığı və genetik keyfiyyəti ilə fərqlənən, habelə estetik cəhətdən nadir mənzərəli və xüsusi torpaqqoruyucu, susaxlayıcı, sutənzimləyici və digər qoruyucu əhəmiyyətli meşə sahələridir. Yabanı meyvə meşələri- buraya meşə fondu ərazisində təbii bitən, yaxud süni yolla yaradılmış, tərkibində qiymətli meyvə, giləmeyvə və qərzəkli ağac və kol cinsləri olan meşələr, meşə-bağlar, bağlar və həmin cinslərdən salınmış plantasiyalar daxildir. Bu meşə sahələrindən meşə toxumçuluğunda və yeyinti sənayesində də istifadə olunur. Dövlət qoruyucu meşə zolaqları-xətti qaydada süni salınmış iqlimtənzimləyici, torpaqqoruyucu və susaxlayıcı funksiyaları yerinə yetirən meşələr bu kateqoriyaya aiddir. Qoruyucu meşə sahələri kənd təsərrüfatı bitkilərini külək və su eroziyasından qoruyur, məhsuldarlığın artırılmasına imkan yaradır. Sair meşələr - bu meşələrə yuxarıda göstərilən kateqoriyalara aid olmayan meşə sahələri daxildir. Bu meşə sahələrində meşəbərpa tədbirləri, plantasiya salınması, xidməti və sanitariya qırmaları aparılması və sair meşə təsərrüfatı tədbirləri aparılır.



Qanunda qeyd olunub ki, zəruri hallarda göstərilən kateqoriyalara aid edilmiş meşələrdə xüsusi qoruyucu meşə sahələri (eroziyadan mühafizə meşələri, çayların, göllərin və digər su obyektlərinin sahillərində olan meşə sahələri, dəmir yollarının və avtomobil yollarının kənarlarındakı meşələr və s.) və xüsusi qorunan meşə sahələri (elmi və mədəni-tarixi əhəmiyyət kəsb edən meşələr və meşəparklar, seyrək arid meşələri, ziyarət edilən yerlərdəki meşələr və s. ) müəyyən edilə bilər. Meşələrin qoruyucu kateqoriyalara aid edilməsi, habelə bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli 70 nömrəli Qərarı ilə tənzimlənir. İqtisadi və ekoloji əhəmiyyətinə, yerləşməsinə və yerinə yetirdiyi funksiyalara görə respublikanın meşə fondu birinci qrup meşələrə aid olunur.

Meşə fondunun qoruyucu kateqoriyalara aid edilməsi, onların hüdudları meşə təsərrüfatı müəssisələrinin ərazilərində aparılan meşəquruluşu işləri, meşə monitorinqi müşahidələri və elmi-tədqiqat işləri əsasında və meşə ekosistemində gedən dəyişiklikləri nəzərə almaqla Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyənləşdirilir və müvafiq qaydada Azərbaycan Milli Elmlər Akademiyası ilə, habelə digər aidiyyəti təşkilatlarla razılaşdırılır və təsdiq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir. Zəruri hallarda müvafiq qaydada qoruyucu kateqoriyalara aid edilmiş meşələrdə xüsusi qoruyucu meşə sahələri (eroziyadan mühafizə meşələri, çayların, göllərin və digər su obyektlərinin sahillərində olan meşə sahələri, dəmir yollarının və avtomobil yollarının kənarlarındakı meşələr və s.) və xüsusi qorunan meşə sahələri (elmi

və mədəni-tarixi əhəmiyyət kəsb edən meşələr, meşə-parklar, seyrək arid meşələri, ziyarət edilən yerlərin meşələri və s. ) müəyyən edilə bilər. Xüsusi qoruyucu meşə sahələrinin göstəriciləri meşə quruluşu işləri və ya xüsusi müşahidə materiallarına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi elmi-tədqiqat, meşə-quruluşu təşkilatları və meşə təsərrüfatı müəssisələrinin mütəxəssisləri tərəfindən əsaslandırılmış təkliflər əsasında aparılır. Təklifləri hazırlamaq və əsaslandırmaq məqsədilə müxtəlif qoruyucu kateqoriyalara aid edilmiş meşə sahələrinin tipik yerlərində nümunə sahələri salınır. Nümunə sahələrində ayrı-ayrı fəsillərdə uzunmüddətli (2-3 il ərzində) meşə monitorinqi müşahidələri və hesablamaları aparılır. Müşahidələr və hesablamalar aparılarkən aşağıdakı əsas müddəalar nəzərə alınmalıdır: meşələrdə antropogen təsirləri yaradan amillər; meşələrin cins tərkibinin dəyişməsi; meşələrdə kütləvi quruma hallarının, xəstəlik və ziyanvericilərin artması; yeraltı suların səviyyəsinin dəyişməsi; meşə-quruluşu işlərinin aparılması; meşə altında yeniyetmələrin inkişaf dərəcəsi; meşələrin məhsuldarlığının aşağı düşməsi səbəbləri və digər amillər. Göstərilənlər və meşə ekosistemində gedən dəyişikliklər nəzərə alınmaqla Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşələrin bir qoruyucu kateqoriyadan başqa qoruyucu kateqoriyaya keçirilməsi barədə təkliflər hazırlayır, onları müvafiq qaydada Azərbaycan Milli Elmlər Akademiyası ilə digər aidiyyəti təşkilatlarla və yerli icra hakimiyyəti orqanları ilə razılaşdırır və təsdiq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir. Bundan sonra AR Nazirlər Kabineti təqdim olunmuş sənədlər əsasında müvafiq qərar qəbul edir.



## 4.2. Meşə fondundan istifadə hüququ və onun növləri

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 47-ci maddəsinə əsasən meşədən istifadəyə kokret tələblər qoyulmuşdur. Həmin tələblər aşağıdakılardır: meşələrdən fasiləsiz və səmərəli istifadə; əhalinin sağlamlığı qorunmalı, ətraf mühit yaxşılaşdırılmalı və iqtisadiyyatın inkişafı üçün meşələrin mühityaradıcı, suyu mühafizə, qoruyucu və digər funksiyaları saxlanılmalı və gücləndirilməli; meşədən istifadə qaydalarının meşələrin əhəmiyyətindən, yerinə yetirdikləri funksiyalarından, yerləşməsindən, təbii və iqtisadi şəraitdən asılı olaraq müəyyənləşdirilməli; meşələrin bərpası üçün şərait yaradılmalı; meşədən istifadənin ödənişli olmalı; meşədən istifadənin elmi cəhətdən əsaslandırılmış normalarına riayət edilməlidir.

AR Meşə Məcəlləsinin 48-ci maddəsində meşə fondundan istifadənin aşağıdakı növləri təsbit olunmuşdur: oduncaq tədarükü; ikinci dərəcəli meşə ehtiyatları tədarükü (kötük, lif, qabıq və başqaları); meşədən əlavə istifadə (ot çalını, pətəklərin və arıxanaların yerləşdirilməsi, yabanı meyvə, göbələk, giləmeyvə, gərzəkli və digər məhsullar, palıd qozası, dərman bitkiləri, texniki xammal, mamır, meşə döşənəyi, tökülmüş yarpaq, qarğı, qamış, gil və digərlərinin tədarükü və yığılması, müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş siyahı ilə müəyyənləşdirilən başqa əlavə istifadə); elmi-tədqiqat məqsədləri üçün; mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri üçün; ovçuluq təsərrüfatı. Meşə fondu sahələrindən istifadə meşə sərvətlərini götürməklə və ya götürmədən həyata keçirə bilər. Məcəllədə qeyd olunubdur ki, meşə fondu sahələri bir və ya bir neçə meşə istifadəçisinə bir və ya bir neçə növ əlavə istifadə üçün verilə bilər.

AR Meşə Məcəlləsinin 53-cü maddəsinin tələblərinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə başqa hallar nəzərdə tutulmadıqda, fiziki şəxslər haqqı ödənilmədən meşələrdə olmaq, şəxsi istifadələri üçün yabanı meyvə, giləmeyvə, göbələk, gərzəklilər və digər meşə sərvətləri, dərman bitkiləri, texniki xammal yığmaq, mədəni-sağlamlaşdırma, turizm və idman tədbirlərində iştirak etmək hüququna malikdirlər. Azərbaycan Respublikasının Qırmızı kitabına düşmüş bitki və göbələk növlərinin, habelə təbii narkotik tərkibli bitki və digər xammalın yığılması, tədarükü qadağandır. Fiziki şəxslər meşədə yanğın təhlükəsizliyi qaydalarına əməl etməyə, ağacların və kolların zədələnməsinə, sındırılmasına, kəsilməsinə, meşə əkinlərinin korlanmasına, meşələrin zibillənməsinə, qarışqa və quş yuvalarının dağılmasına yol verməməyə, habelə Azərbaycan Respublikası qanunvericiliyinin digər tələblərinə riayət etməyə borcludurlar. Fiziki şəxslərin meşədə olması və meşə sərvətləri yığması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yanğın təhlükəsizliyi, meşə toxumçuluğu, yabanı meyvə və digər meşə sərvətləri tədarükü ilə əlaqədar olaraq qoruq meşələrində milli parklarda və xüsusi mühafizə edilən ərazilərdə isə onlar üçün müəyyən edilmiş xüsusi qaydaya müvafiq olaraq məhdudlaşdırıla və qadağan edilə bilər.

AR Meşə Məcəlləsinin 50-ci maddəsində meşə fondundan istifadə zamanı meşə istifadəçilərinin vəzifələri müəyyənləşdirilmişdir. Həmin maddədə qeyd olunur ki, meşə fondundan istifadə zamanı meşə istifadəçiləri aşağıdakılara əməl etməyə borcludurlar:

- meşə fondu sahələrindən Azərbaycan Respublikasının meşə qanunvericiliyinə uyğun olaraq istifadə etmək;



- meşə fondu sahələrinin (torpaqlarının) icarə müqaviləsinin, meşəqırma biletinin, orderin, meşə biletinin şərtlərinə əməl etmək;
- əhalinin sağlamlığına, ətraf mühitə ziyan vurmamaq;
- meşə fondundan torpaq eroziyasına səbəb olmayan, meşənin vəziyyətinə və bərpasına, habelə suyun və digər təbii obyektlərin vəziyyətinə mənfi təsir göstərməyən üsularla istifadə etmək;
- istifadəyə verilmiş meşə fondu sahələrində meşə yanğını təhlükəsizliyi qaydalarına riayət etmək və həmin sahələrdə yanğın baş verməməsi üçün tədbir görmək, meşə yanğını baş verdikdə onun söndürülməsini təmin etmək;
- qırılma üçün ayrılmış ağacları tam kəsib götürmək, oduncağın tədarükü və daşınmasını müəyyən edilmiş müddətdə başa çatdırmaq;
- oduncaq tədarükü ilə bir vaxtda sahələri qırma qalıqlarından təmizləmək; meşə fondu sahələrinin (torpaqlarının) icarəsi barədə müqavilədə, meşəqırma biletində, orderdə, meşə biletində göstərilmiş müddətdə və şərtlərlə meşəbərpa tədbirlərini həyata keçirmək;
- istifadəyə verilmiş meşə fondu sahələrini (torpaqlarını) öz hesabına meşə fondu sahələrinin icarəsi barədə müqavilədə, meşəqırma biletində, orderdə, meşə biletində göstərilmiş vəziyyətə gətirmək;
- meşə fondu sahələrində işlər başa çatdıqdan sonra onları müvafiq meşə təsərrüfatı müəssisələrinə təhvil vermək;
- meşə təsərrüfatına vurulmuş zərər və itkini müəyyən edilmiş qaydada ödəmək;
- meşə fondundan istifadə üçün haqları vaxtında ödəmək;

- meşələrdə sanitariya qaydalarına riayət etmək, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş digər rəsmi tələbləri yerinə yetirmək;

- başqa meşə istifadəçilərinin hüquqlarını pozmamaq;

- meşə fondundan istifadə barədə, habelə meşə fondundan istifadəyə görə ödəmələrin miqdarını müəyyən etmək üçün lazımi məlumatları müəyyən edilmiş qaydada meşə təsərrüfatı müəssisələrinə, dövlət statistika orqanlarına vermək;

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 1998-ci il tarixli 219 nömrəli qərarı ilə təsdiq edilmiş meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə qaydaları özlüyündə geniş bir spektri əhatə edir. Qərarda qeyd olnur ki, hüquqi və fiziki şəxslər mülkiyyət və təşkilati hüquqi formasından asılı olmayaraq meşə fondu sahələrində elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə etmək istəyəcəkləri halda Azərbaycan Respublikası Meşə Məcəlləsinə uyğun elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə edilməsi haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidirlər. Təqdim olunmuş ərizə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır və imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq bir ay müddətindən gec olmamaqla meşə istifadəçisi ilə müqavilə bağlanılır. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəyə baxarkən məsələyə dair yerli meşə təsərrüfatı orqanlarının rəyini və şərtlərini əsas tutmalıdır. Müqavilə bağlanılmadığı halda meşə istifadəçisinə onun səbəbləri göstərilməklə rəsmi izahat verilir. Ovçuluq təsərrüfatlarının aparılması məqsədilə meşə fondu sahələrinin ov yerləri azı 10 il müddətində hüquqi və fiziki şəxslərin istifadəsinə verilə bilər. Müqavilə, kütləvi meşə servitutu istisna olmaqla, meşə fondundan istifadənin növü, yeri, miqdarı, vaxtı, şərtləri və qiyməti göstərilməklə meşə istifadəçisinə əsaslı tikinti aparılmadan meşə fondu müvafiq sahələrindən müvəqqəti istifadə hüququ verir. Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə zamanı meşə istifadəçisi aşağıdakılara əməl etməyə borcludur:

- meşə fondu sahələrindən mövcud qanunvericiliyə uyğun istifadə etmək;

- müqavilənin şərtlərinə əməl etmək, meşə fondundan istifadə üçün haqları vaxtında ödəmək;

- istifadə olunan sahənin və onun ətrafının zibillənməsinə yol verməmək, digər sanitariya qaydalarına əməl etmək; sahəyə mal-qaranın buraxılmasına yol verməmək; istifadə olunan sahəyə bitişik meşənin qanunsuz qırılmasına yol verməmək;

- istifadəyə verilmiş meşə fondu sahələrindən meşə yanğını təhlükəsizliyi qaydalarına riayət etmək və ərizədə yanğın baş verdikdə onun söndürülməsini təmin etmək;

- meşə təsərrüfatına vurulmuş zərər və itkini müəyyən qaydada bərpa etmək və ya dəymiş ziyanı ödəmək.

Meşə fondu sahələrindən elmi-tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə hüququ Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qərarı ilə

aşağıdakı hallarda məhdudlaşdırıla və ya dayandırıla bilər: meşə fondu sahələrindən istifadə zamanı Azərbaycan Respublikasının meşə qanunvericiliyinə əməl edilmədikdə; müqavilənin şərtləri pozulduqda; meşə fondu sahələrinin səmərəli istifadəsini, mühafizəsini, qorunmasını və bərpasını, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqlarını və qanuni mənafelərini qorumaq zəruriliyi yarandığı hallarda. Meşə fondu sahələrindən istifadə hüququnun məhdudlaşdırılmasına və dayandırılmasına səbəb olan şərait və şərtlər aradan qaldırıldıqda bu hüquq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən tam həcmdə bərpa olunur. Meşə istifadəçisi onun meşə fondu sahəsindən istifadə hüququnun məhdudlaşdırılması və ya dayandırılması barədə qərarla razılaşmadıqda məhkəməyə şikayət edə bilər. Meşə istifadəçisi rəsmi ərizə əsasında meşə fondu sahələrindən istifadə hüququndan imtina etdikdə, müqavilənin müddəti başa çatdıqda, fəaliyyəti dayandıqda, Azərbaycan Respublikasının Meşə Məcəlləsində və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda onun meşə fondu sahələrindən istifadə hüququna Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xitam verilir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə fondu sahələrindən istifadə hüququna xitam verilməsi barədə meşə istifadəçisinə rəsmi xəbər verməlidir. Azərbaycan Respublikası Meşə Məcəlləsinin 20-ci maddəsində meşə fondu sahələrinin istifadə hüququna tam olaraq məcburi xitam verilməsinin əsasları qeyd olunmuşdur. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə fondu sahələrindən istifadə hüququna yalnız aşağıdakı hallarda məcburi xitam verə bilər:



- meşə istifadəçisi tərəfindən Azərbaycan Respublikasının meşə qanunvericiliyi pozulduqda;
- fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə;
- meşə istifadəçisi tərəfindən meşə fondu sahələrinin istifadə haqqı müəyyən olunmuş müddətdə ödənilmədikdə;
- meşə istifadəçisi tərəfindən müqavilədə nəzərdə tutulmuş şərtlər pozulduqda;
- meşə istifadəçisi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədikdə.

Meşə istifadəçisi Azərbaycan Respublikası meşə qanunvericiliyi ilə müəyyən edilmiş hallarda və şərtlərlə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə meşə fondu sahəsindən istifadə hüququnu özünün hüquqi varisi olmayan şəxsə müqavilə əsasında verə bilər. Meşə istifadəçisi olan şəxs vəfat etdikdə ona məxsus istifadə hüququ qanunvericilikdə müəyyən olunmuş qaydada başqa şəxslərə keçə bilər. Meşə istifadəçisi hüquqi şəxs kimi yenidən təşkil edildikdə ona məxsus istifadə hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yeni yaranan hüquqi şəxsə keçir. Meşə fondu sahələrindən istifadə hüququnun başqasına keçməsi müqavilədə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən dəyişikliklər etmək yolu ilə rəsmiləşdirilir. Meşə fondu sahələrindən elmi tədqiqat, mədəni-sağlamlaşdırma, turizm və idman məqsədləri, ovçuluq təsərrüfatının ehtiyacları üçün istifadə müqaviləsinin forması Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır və təsdiq edilir.

Azərbaycan Respublikası Meşə Məcəlləsinin 14-cü maddəsinin tələblərinə uyğun olaraq meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası

məqsədilə təyinatı üzrə meşə istifadəçisinə (icarəçi) icarəyə müqavilə əsasında müvafiq icra hakimiyyəti orqanı (icarəyə verən) – AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən bir ildən on ilədək verilə bilər. Meşə fondu torpaqlarının icarə müqaviləsi əsasında əldə edilmiş meşə sərvətləri (məhsul) icarəçinin mülkiyyətidir. Meşə fondu torpaqlarının subicarəsi qadağandır. Meşə fondu torpaqlarının meşə istifadəçilərinə – fiziki və hüquqi şəxslərə icarəyə verilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 oktyabr 1998-ci il tarixli 214 nömrəli Qərarı ilə tənzimlənir. Sənəddə qeyd olunur ki, meşə fondu torpaqlarının icarəyə verilməsini aşkarlıq şəraitində, müvafiq ərazidə yaşayan əhalinin mənafeyini nəzərə almaqla Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir. Meşə bitkiləri ilə örtülü olmayan meşə və qeyri-meşə torpaqları meşələrin bərpası məqsədilə təyinatı üzrə icarəçiyə müqavilə əsasında bir ildən on ilədək verilə bilər. Meşə fondu torpaqlarının icarəyə götürülməsi üçün icarəçi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ərizə ilə müraciət etməlidir. Ərizəyə baxılarkən imtiyazlı şəxslərə üstünlük verilir. Ərizədə icarəçinin soyadı, adı, atasının adı, ünvanı, meşə fondu torpaqlarının istənilən yeri göstərilir. Təqdim olunan ərizə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xüsusi kitabda qeydə alınmaqla qəbul edilir, baxılır və imtina üçün əsas olmadıqda qeydə alındığı gündən başlayaraq bir ay müddətindən gec olmamaqla icarəçi ilə icarə müqaviləsi bağlanılır. İcarə müqaviləsi üç nüsxədən ibarət tərtib olunur, onun iki nüsxəsi müvafiq olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində və aidiyyəti yerli meşə təsərrüfatı orqanında saxlanılır, üçüncü nüsxəsi isə icarəçiyə verilir. Müqavilə əsasında torpaq üzərində icarə hüququ qanunvericiliklə müəyyən



edilmiş qaydada daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ərizəyə baxarkən məsələyə dair yerli meşə təsərrüfatı orqanlarının rəyini və şərtlərini əsas tutmalıdır. İcarə müqaviləsi bağlanılmadığı halda icarəçiyə onun səbəbləri göstərilməklə rəsmi izahat verilir. İcarə müqaviləsində aşağıdakılar göstərilir:

- icarəyə verilən sahənin sərhədləri (yerləşdiyi yer, meşəçilik, kvartal, bölmə);
- işin həcmi (ölçüləri);
- icarənin müddəti;
- icarəyə verilən sahənin miqdarı (hektarla);
- icarə haqqının miqdarı və onun ödənmə qaydası;
- icarəyə verilən sahənin mühafizəsi, qorunması, bərpası sahəsində tərəflərin öhdəlikləri və buna görə məsuliyyət;
- Azərbaycan Respublikasının meşə qanunvericiliyi və tərəflərin razılığı ilə nəzərdə tutulmuş başqa şərtlər.

Qanunvericilikdə göstərilir ki, meşə fondu torpaqlarının icarə müqaviləsi əsasında əldə edilmiş meşə sərvətləri (məhsul) icarəçinin mülkiyyətidir. İcarəçi olan fiziki şəxs vəfat etdikdə ona məxsus icarə hüququ mövcud qanunvericilikdə müəyyən edilmiş qaydada başqa şəxslərə keçə bilər. İcarəçi olan hüquqi şəxs yenidən təşkil edildikdə ona məxsus icarə müqaviləsi mövcud qanunvericilikdə müəyyən olunmuş qaydada yeni yaranan hüquqi şəxsə keçir. Meşə fondu torpaqlarından icarə hüququnun başqasına keçməsi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən icarə müqaviləsinə dəyişikliklər etmək yolu ilə rəsmiləşdirilir. Meşə fondu torpaqlarının subicarəyə verilməsi qadağandır. Meşə fondu torpaqlarından icarə hüququ Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qərarı ilə aşağıdakı hallarda məhdudlaşdırıla və ya da-

yandırıla bilər: icarəçi tərəfindən Azərbaycan Respublikası meşə qanunvericiliyinin tələbləri pozulduqda; icarəçi tərəfindən icarə müqaviləsinin şərtləri pozulduqda; meşə fondu torpaqlarının səmərəli istifadəsini, mühafizəsini, qorunmasını və bərpasını, ölkənin müdafiəsini və dövlətin təhlükəsizliyini təmin etmək, əhalinin sağlamlığını, ətraf mühiti, tarixi-mədəni və təbii irsi, fiziki şəxslərin hüquqlarını və qanuni mənafelərini qorumaq zəruriliyi yarandığı hallarda. Meşə fondu torpaqlarından icarə hüququnun məhdudlaşdırılmasına və ya dayandırılmasına səbəb olan şərait və şərtlər aradan qaldırıldıqda bu hüquq tam həcmdə bərpa olunur. İcarəçi onun meşə fondu torpaqlarından icarə hüququnun məhdudlaşdırılması və ya dayandırılması barədə qərarla razılaşmadıqda müəyyən olunmuş qaydada məhkəməyə şikayət edə bilər. İcarəçi rəsmi ərizə əsasında meşə fondu torpaqlarından icarə hüququndan imtina etdikdə, icarə müqaviləsinin müddəti başa çatdıqda, fəaliyyəti dayandıqda, Azərbaycan Respublikasının Meşə Məcəlləsində və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda və qaydada onun meşə fondu torpaqlarından icarə hüququna Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən xitam verilir. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi meşə fondu torpaqlarından icarə hüququna yalnız aşağıdakı hallarda məcburi xitam verə bilər: icarəçi tərəfindən Azərbaycan Respublikasının meşə qanunvericiliyi pozulduqda; fövqəladə vəziyyət törədən qəza, təbii fəlakət və bu kimi başqa hadisələr baş verdikdə; icarəçi tərəfindən meşə fondu torpaqlarının icarə haqqının müəyyən olunmuş müddətdə ödənilmədikdə; icarəçi tərəfindən icarə müqaviləsində nəzərdə tutulmuş şərtlər pozulduqda; icarəçi tərəfindən yanğın təhlükəsizliyi qaydalarına əməl edilmədikdə; meşə fondu torpaqlarından icarə hüququna xitam verilməsi barədə



icarəçiyə rəsmi xəbər verilir. İcarə müqaviləsinin formasını Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi hazırlayır və təsdiq edir. 30 oktyabr 1998-ci il tarixli 219 nömrəli Qərarı ilə 17 oktyabr 1998-ci il tarixli 214 nömrəli Qərarının müddəaları arasında xeyli üst-üstə düşmələr vardır. Qeyd olunan qaydalar ilə nəzərdə tutulmamış hallarda meşə fondu torpaqlarının icarəyə verilməsinə dair mülki və torpaq qanunvericiliklərinin normaları tətbiq edilir.

Bəzi hallarda cəmiyyətdə meşə fonduna daxil olan və daxil olmayan ağac, kol bitkiləri ilə bağlı fikir ayrılığı yaranır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19 sentyabr 2005-ci il tarixli 173 nömrəli Qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması qaydalarında bu qarışıqlığa tam aydınlıq gətirilib. Sözü gedən qərar meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunmasını tənzimləyir. İlk olaraq göstərilir ki, aşağıdakı ağac və kol bitkiləri meşə fonduna daxil deyildir:

- kənd təsərrüfatı torpaqlarındakı ağaclar və ağac qrupları;
- tarlaqoruyucu meşə zolaqları, habelə digər ağac-kol bitkiləri;
- dəmir yolları və avtomobil yollarını qoruyucu ağaclar;
- kanalları və digər su obyektlərini ayıran zolaqlardakı qoruyucu ağaclar;
- şəhərlərdə və digər yaşayış məntəqələrində olan ağaclar və ağac qrupları, habelə yaşıllıqlar;
- həyətyanı sahələrdə, yaylaq, qışlaq və bağ sahələrində olan ağaclar və ağac qrupları.

Meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin mühafizəsinin məqsədi onları qanunsuz qırmalardan və köçürmələrdən, yaşıllıqlara zərər vura bilən digər hərəkətlərdən qorumaqdır. Bu Qaydalar meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinə şamil edilir və onun tələblərinin yerinə yetirilməsi həmin torpaqların istifadəçiləri və icarəçiləri üçün məcburidir. Meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinin qorunub mühafizə olunması həmin torpaqların istifadəçiləri və icarəçiləri tərəfindən həyata keçirilir və aşağıdakı tədbirlərin yerinə yetirilməsini nəzərdə tutur: ağac-kol bitkilərinin vəziyyətinə, səmərəli istifadəsinə, mühafizəsinə və qorunmasına nəzarətin təşkili; torpaqların münbitliyinin artırılması, su və külək eroziyasından qorunmasının təmin edilməsi; hüquq pozuntularının qarşısının alınması, onların aradan qaldırılması; qanunsuz qırılmış ağac-kol bitkilərinin və yaşıllıqların bərpa edilməsi; yaşıllıqların suqoruyucu, sanitar-gigiyena, mühit əmələ gətirən və digər qoruyucu funksiyalarının artırılması və s. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi aidiyyəti orqanlarla birlikdə mövcud qanunvericiliyə riayət edilməsini, meşə fonduna daxil olmayan ağac-kol bitkilərinin səmərəli istifadəsini, onların qanunsuz qırılmasının qarşısının alınmasını təmin etmək məqsədilə müəyyən olunmuş qaydada dövlət nəzarətini həyata keçirirlər. Aşağıdakı müstəsna hallarda meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitkilərinin həmin torpaqların istifadəçiləri və icarəçiləri tərəfindən qırılması və ya köçürülməsi Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı və müəyyən şərtləri ilə aidiyyəti yerli icra hakimiyyəti



(şəhər rayonları istisna olmaqla) və özünüidarəetmə (bələdiyyə) orqanlarının qərar və sərəncamları əsasında yol verilir:

- kököstə quruduqda;
- yüksək gərginlikli elektrik xətlərinə toxunduqda;
- təbii fəlakət nəticəsində, həmçinin xəstəlik və ziyanvericilərlə ciddi zədələndikdə;
- axar sular, kimyəvi maddələr, sənaye, kommunal-məişət və digər tullantılar ilə zədələndikdə və ya məhv edildikdə;
- ağacların yerə düşmək təhlükəsi yarandıqda; qanunvericiliklə nəzərdə tutulan digər hallarda.

Dəmir yoluna aid torpaqlarda yerləşən ağac-kol bitkilərində qulluq, sanitariya, yenidənəkmə məqsədilə xüsusi təyinatlı və başqa qırmaların aparılması, avtomobil yollarına aid torpaqlarda və su fondu torpaqlarında meşəsalma, habelə ağac-kol bitkilərinin istifadəsi, mühafizəsi və qorunması qaydaları xüsusi normalarla müəyyən edilir. Şəhər və digər yaşayış məntəqələrindəki ağac və kol bitkilərində qulluq, sanitariya, yenidənəkmə məqsədilə xüsusi təyinatlı və başqa qırmalar Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla yerli icra hakimiyyəti (şəhər rayonları istisna olmaqla) və özünüidarəetmə (bələdiyyə) orqanları tərəfindən aparılır. Təbiət abidəsi elan edilən ağac-kol bitkilərinin və Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilmiş nadir və nəsli kəsilməkdə olan ağac-kol bitkilərinin qorunub mühafizə olunması mövcud qanunvericilikdə müəyyən edilmiş qaydada aparılır. Bu Qaydaların pozulmasına görə fiziki və hüquqi şəxslər qanunvericilikdə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar və meşə fonduna, fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətinə daxil olmayan torpaq sahələrində bitən ağac-kol bitki-

lərinin qanunsuz kəsilməsi, boy artımının dayandırılması dərəcəsinə qədər zədələnməsi və yaşıllıqların məhv edilməsi nəticəsində təbiətə dəymiş ziyanın miqdarı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 dekabr 1997-ci il tarixli 636 nömrəli Qərarı ilə təsdiq edilmiş nırx dəyərləri ilə hesablanır.

Meşə fondundan istifadə edən subyektlərin vəzifələri ilə paralel olaraq hüquqları da qanunvericilikdə əksini tapmışdır. Azərbaycan Respublikasının Meşə Məcəlləsinin 49-cu maddəsi meşə fondundan istifadə zamanı meşə istifadəçilərinin hüquqlarını tənzimləyir. Həmin maddədə meşə fondundan istifadə zamanı meşə istifadəçilərinin aşağıdakı hüquqları təsbit olunmuşdur:

- onların istifadəsinə verilmiş meşə fondu sahələri barədə məlumat almaq;
- müəyyən edilmiş həddə meşə fondundan istifadə;
- meşədən istifadə müddətində meşə fondundan istifadə ilə bağlı məqsədlər üçün müəyyən edilmiş qaydada tikililər, qurğular, oduncaq saxlamaq üçün yerlər düzəltmək;
- Azərbaycan Respublikasının meşə qanunvericiliyinə zidd olmayan digər hüquqlar.

AR Meşə Məcəllənin 51-ci maddəsində meşə fond istifadəçisinin hüquqlarının müdafiəsi mexanizmləri öz əksini tapıb. Maddənin tələblərinə görə meşə fondu istifadəçilərinin pozulmuş hüquqları bərpa olunmalı və onlara vurulan zərər ödənilməlidir. Zərərin ödənilməsi ilə bağlı mübahisələr məhkəmə qaydasında həll edilməli və əgər dövlət ehtiyacları və ya ictimai ehtiyaclar üçün meşə fondu torpaqlarının özgəninkiləşdirilməsinə yalnız Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və şərtlərlə yol verilir.



Məcəllənin 49-cu maddəsinin 1-ci bəndində qeyd olunan məlumatların alınması ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 dekabr 1998-ci il tarixli 230 nömrəli Qərarı qəbul olunmuşdur. Qeyd etdiyimiz qərar «Dövlət sirri haqqında» Azərbaycan Respublikasının Qanununa və digər normativ hüquqi aktlara əsasən, informasiya məhdudlaşdırılmış məlumatlar istisna olmaqla, meşə fondu barədə bütün növ məlumatlara şamil edilir. Bu məlumatlara meşələrin dövlət uçotu, dövlət meşə kadastrı, meşələrin monitorinqi, meşə quruluşu işlərinin göstəriciləri, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və onun tabeçiliyində olan təsərrüfatlar tərəfindən öz funksiyalarını yerinə yetirdikləri zaman əldə olunan sair məlumatlar daxildir. Meşə fondu haqqında məlumat Azərbaycan Respublikası Nazirlər Kabinetinin xüsusi sərəncamında olmaqla, bu Qaydaya uyğun olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən fiziki və hüquqi şəxslərə verilir. Meşə fondu haqqında məlumat fiziki və hüquqi şəxslərə arayış, hesabat, cədvəl və sair materiallar şəklində təqdim oluna bilər. Tərkibindən, mahiyyətindən, təhlil dərəcəsindən, istifadəçilərin kateqoriyasından və sair amillərdən asılı olaraq, əvvəlcədən tirajını təyin etmə və başqa şəxslərə verilməmək şərti ilə, meşə fondu barədə məlumat ödənişsiz və ya ödənişli verilir. Meşə fondu haqqında məlumat Azərbaycan Respublikasının dövlət idarəetmə orqanlarına ödənişsiz verilir. Bu məlumat elmi-tədqiqat, tədris və qeyri-kommersiya məqsədləri üçün də ödənişsiz verilə bilər. Digər hallarda meşə fondu haqqında məlumat fiziki və hüquqi şəxslərə ödənişli verilir. Meşə fondu haqqında məlumatın ödəmə dərəcələri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və İqtisadiyyat və Sənaye Nazirliyi ilə razılaşdırılaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvət-

lər Nazirliyi tərəfindən təsdiq edilir. Ödənişli məlumatdan əldə olunan vəsait meşələrin qorunub saxlanması və təkrar istehsalı fonduna daxil edilir. Fiziki və hüquqi şəxslər meşə fondu haqqında məlumatı almaq məqsədilə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə rəsmi müraciət etməlidirlər və bu məlumatı tərəflər arasında bağlanmış müqavilələr əsasında (istifadə şərtləri göstərilməklə) istifadə edirlər.

Meşə fondundan istifadədə birinci dərəcəli meşə sərvəti hesab olunan oduncaq tədarükü xüsusi qaydalarla tənzimlənir. Azərbaycan Respublikası Meşə Məcəlləsinin 67-70-ci maddələri bilavasitə bu məsələləri tənzimləyir. Qanunda göstərilir ki, dövlət qoruqlarının meşələrində yalnız qoruq rejiminə müvafiq olan qırmaların aparılmasına yol verilir. Kurort meşələrində, xüsusi qiymətli meşə massivlərində, şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının meşələrində, yabanı meyvə meşələrində və dövlət qoruyucu meşə zolaqlarında aralıq istifadə üçün qırmalar və başqa qırmalar aparılır. Xüsusi qoruyucu meşə sahələrindən istifadənin bütün növləri məhdudlaşdırıla və qadağan edilə bilər. Meşəbərpa və aralıq istifadə üçün qırmalar müvafiq icra hakimiyyəti orqanı – AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilən qırma qaydaları (əsasnamə) üzrə aparılır. Meşəqırma sahələrinin ayrılması, onların meşə istifadəçilərinə verilməsi, habelə meşəqırma tələblərinin pozulmasına görə cərimənin miqdarı Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən Azərbaycan Respublikası meşələrində kökü üstü oduncaq buraxılışı qaydaları ilə müəyyən edilir. Azərbaycan Respublikası meşələrində kökü üstü oduncaq buraxılışı qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 mart 1999-cu il tarixli 38 nömrəli Qərarı ilə tənzimlənir. Qərarda



qeyd olunur ki, kökü üstü oduncaq buraxılışı meşədən istifadə rejiminə uyğun olaraq aşağıdakı kimi aparılır: meşəbərpa qırması bərpası ilə - kurort meşələri, xüsusi qiymətli meşə massivləri, şəhərlərin və digər yaşayış məntəqələri ətrafındakı yaşıllıq zonalarının meşələri və dövlət meşə zolaqları istisna olmaqla, digər meşələrdə bərpa məqsədi lə aparılan qırmalar; aralıq istifadə qırması ilə - meşələrdə qulluq, sanitariya və az qiymətli meşəliklərin rekonstruksiyası (yenidən əkmə qırmaları) ilə əlaqədar aparılan qırmalar; başqa qırmaları ilə - başdan-başa sanitariya qırmaları (su qovşaqlarının, boru kəmərlərinin, yolların, rabitə və elektrik xətlərinin tikintisi və digər işlərlə əlaqədar, meşə sahələrinin müəyyən olunmuş qaydada qeyri-meşə sahələrinə keçirildiyi zaman), həmçinin yanğından mühafizə keçidlərinin açılması və digər belə məqsədlər üçün aparılan qırmalar. Göstərilən qırmalar təsdiq olunmuş layihələr və aparılan işlərin texniki şərtlərinə uyğun olaraq yalnız meşəqırma bileti və order əsasında aparılır. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə aşağıdakı hallarda kökü üstü oduncaq buraxılışı rəsmiləşmədən aparıla bilər və 1 ay müddətində bu əməliyyata meşəqırma bileti və order yazılır: ağacların rabitə və elektrik xətlərinin üstünə düşmək təhlükəsi olduqda və yaxud həmin xətlərdə qəzanın aradan götürülməsi vacibliyi yarandıqda; meşə yanğınlarının söndürülməsi və qəza xilasetmə tədbirləri həyata keçirildikdə. Meşə istifadəçiləri kökü üstü oduncaq buraxılışı haqqında yerli meşə təsərrüfatı müəssisəsinə ərizə ilə müraciət etməlidir. Meşə təsərrüfatı müəssisəsi meşə istifadəçisinin tələbatını, istifadəsinin məqsədyönlüyünü və qırmanın miqdarını nəzərə almaqla bir ay müddətində qırma sahəsinin ayrılması haqqında ərizəçiyə rəsmi məlumat verir. Qırma sahəsi ayrılmadığı halda meşə istifadəçilərinə səbəbi izah olunmaqla rəsmi cavab verilir.

Meşə təsərrüfatı müəssisəsi ayrılmış qırma sahələri ilə (künc dirəkləri, nəql edilmə yolları, müvəqqəti quraşdırma yerləri) meşə istifadəçilərini yerində tanış edir. Meşə istifadəçiləri ayrılmış sahəyə texnoloji xəritəni hazırlayır, onu meşə təsərrüfatı müəssisəsi ilə razılaşdırır və kötüstü oduncaq buraxılışına meşəqırma bileti, order alır. Meşəqırma sahələri meşə istifadəçisinə verildiyi gündən onun mühafizəsində sayılır və həmin gündən bu Qaydalarda nəzərdə tutulmuş bütün öhdəliklər meşə istifadəçilərinə həvalə edilir. Müstəsna hallarda, istifadəsinə başlanmamış qırma sahələrinin başqa sahə ilə əvəz edilməsinə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin razılığı ilə yol verilir. Meşə istifadəçiləri qırmalara başlamazdan əvvəl aşağıdakı hazırlıq işləri aparırlar: oduncağın doğranması və ilkin emalı üçün qurğuların quraşdırılması: müxtəlif tipli müvəqqəti yaşayış və təsərrüfat tikililərinin quraşdırılması; meşə anbarları üçün sahənin təmizlənməsi və onların yerləşdirilməsi; meşə daşıma yollarının çəkilməsi; işin təhlükəsizliyinə mane olan ağacların götürülməsi və hazırlıq ilə əlaqədar digər işlər. Hazırlıq işləri görülərkən hazırlanmış oduncaq meşə istifadəçiləri üçün ayrılmış meşəqırma həcminə daxil edilir. Meşə istifadəçisi qırma sahələrində bütün işlər (qırma, tədarük, daşıma və s.) başa çatdıqdan sonra 6 ay ərzində sahədəki qurğuları, müvəqqəti tikililəri götürməlidir. Qeyd olunan müddətdə meşə istifadəçiləri tərəfindən sahədən çıxarılmayan müvəqqəti tikililər, qurğular meşə təsərrüfatı müəssisələrin sərəncamında qalır. Zəruri hallarda Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sərəncamı ilə sahədə qalan müvəqqəti tikililər, qurğular daha uzun müddət üçün meşə istifadəçilərinin ixtiyarında saxlanıla bilər. Meşə təsərrüfatı müəssisə tərəfindən kötüstü oduncaq buraxılışı aşağıdakı hallarda dayandırıla bilər:



- meşə istifadəçisinin rəsmi ərizəsi əsasında;
- meşə istifadəsinin müddəti başa çatdıqda;
- müəssisə, idarə, təşkilat ləğv olunduqda, müəyyən olunmuş qaydada onun varisi elan olunmuş fiziki və ya hüquqi şəxsin ərizəsi əsasında;
- dövlət ehtiyacları üçün meşə torpaqları geri alındıqda;
- meşədən istifadə meşəqırma biletində və orderdə göstərilən məqsədlərə və tələblərə uyğun gəlmədikdə;
- meşəqırma bileti, order yazılarkən bu Qaydalar və digər meşə istifadəsi ilə bağlı qaydalar pozulduqda;
- qırma sahələri meşə təsərrüfatı müəssisələri tərəfindən dəyişdirildikdə.

Meşə istifadəçiləri kötüstü oduncaq buraxılışı zamanı aşağıdakı tələblərə əməl etməlidirlər: meşəqırma biletində və orderdə müəyyən olunmuş qırma sahələrindən tam və səmərəli istifadə etmək; tədarük və daşınmanın müddəti başa çatdıqdan sonra qırıntı yerlərində (sahələrində) və meşədə hazır oduncağın, habelə qırıntıya təyin edilmiş ağacların kök üstə saxlanılmasına yol verməmək; torpağın eroziyaya uğramasına yol verməyən, meşənin vəziyyətinə və təkrar istehsalına (bərpasına), həmçinin sulara və təbii guşələrə mənfi təsir göstərməyən, meşə istifadəsini məhdudlaşdırmayan və ya istisna etməyən üsulları tətbiq etmək; işlik oduncaqdan təyinatı üzrə istifadə etmək, həmçinin oduncaq itkisinə, işlik oduncağın oduna çevrilməsinə yol verməmək; qırma sahələrini qırıntı qalıqlarından təmizləmək və strukturu pozulmuş torpaq sahələrini öz hesabına təyinatı üzrə istifadə etmək üçün yararlı vəziyyətə gətirmək; oduncaq tədarükü zamanı alınan tullantının istifadəsini təşkil etmək; meşə ilə örtülü olmayan sahələrin zibillənməsinə yol verməmək; qırma sahəsinə bitişik 50 metrlik zolaqlarda ağacların, həmçinin sərhəd, kvartal, qırma sahələrini göstərən künc dirəkləri, ağac və kö-

tüklərdəki damğaların saxlanılmasını təmin etmə; oduncaq daşınması zamanı dağılmış yolları, körpüləri və cığırları, həmçinin qurulma şəbəkəni və sair qurğuları yararlı vəziyyətə salmaq və saxlamaq; meşələrdə yanğın təhlükəsizliyi qaydalarına, habelə meşə istifadəsi ilə bağlı digər qayda və təlimatlara əməl etmək.

Meşədən oduncaq tədarükü hər bir meşə təsərrüfatı müəssisəsinin ərazi üzrə hesablanmış meşəqırma həcmində aparılır. Hesablanmış meşəqırma həcmindən artıq miqdarda oduncaq tədarükü qadağandır. Meşəbərpa və aralıq istifadəsi üçün qırma qaydası ilə oduncaq tədarükünün həcmi meşələrin vəziyyətinə, meşəyə qulluq, seçmə sanitariya və yenidənəkmə ilə əlaqədar qırmaların müəyyən edilmiş normalarına əsasən meşə quruluşu işləri aparılarkən müəyyənləşdirilir və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təqdimatına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir. Meşə fondunun sərhədi, meşənin qırma yaşı, meşə kateqoriyası dəyişdikdə və meşə fondunda digər dəyişikliklər baş verdikdə hesablanmış meşəqırma həcmi müəyyən olunmuş qaydada yenidən təsdiq edilir. Təsdiq edilmiş meşəqırma həcmi Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən meşə təsərrüfatı müəssisələri arasında bölüşdürülür. Əvvəlki ildə qırıntıya təyin edilmiş, lakin istifadə olunmayan kököstü oduncağın həcmi cari ilin meşəqırma həcminə daxil edilir. Başdan-başa sanitariya qırmaları ilə oduncaq tədarükünün həcmi meşə fondunun ağac-koldan təmizlənməsi ilə bağlı olan layihələrdən asılı olaraq Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən müəyyən edilir. Bu qırmalar nəticəsində tədarük olunan oduncaq ilk növbədə yerli tələbat və həmin qırmanı aparan təşkilatların ehtiyacları üçün istifadə olunur.



Meşə qırmasına ayrılmış sahələrin pul-qiymət cədvəli işə başlanmasına 6 ay qalmış meşə təsərrüfatı müəssisələri tərəfindən tərtib edilir. Oduncaq tədarükünün müddəti, qırma sahəsinin təyin olunduğu il ərzində, daşınma müddəti isə növbəti ilin mayın 1-nə qədər müəyyən edilir. Qırma sahəsinə müayinə aktı yazılanadək buraxılan oduncağın meşəqırma biletində, orderdə göstərilən müvəqqəti meşə anbarına daşınmasına yol verilir. Meşə təsərrüfatı müəssisələri oduncaq buraxılışı zamanı meşə istifadəçilərinə, meşə tədarükü həcmindən asılı olaraq, onun tədarükü və daşınmasının daha qısa müddətini təyin edə bilərlər. Qırıntı miqdarını cari ildə tam istifadə etmiş meşə istifadəçiləri oktyabrın 1-nə qədər növbəti ilin qırma sahələri hesabına vaxtından əvvəl qırıntı aparılması haqda müvafiq meşə təsərrüfatı müəssisələrinə yazılı müraciət etməlidirlər. Meşə təsərrüfatı müəssisəsi bu məsələyə dair Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi razılığından sonra növbəti ilin qırma həcminin 30 faizi miqdarında cari ildən vaxtından əvvəl qırıntı aparılmasına icazə verə bilər. Belə halda növbəti ilin qırma həcmi həmin miqdarda azaldılmalıdır və bu əməliyyat müvafiq qaydada rəsmiləşdirilməlidir. Meşə təsərrüfatı müəssisəsi tərəfindən meşə istifadəçiləri üçün nəzərdə tutulmuş qaydada oduncaq tədarük edilərkən, meşəyə xidmət və sanitariya qırmaları, yanğın əleyhinə və sair meşə təsərrüfatı tədbirləri aparılarkən və qırma yerlərində oduncaq alıcıya satılarsa, oduncağın daşınma müddəti meşə qırma biletində, orderdə göstərilməsi nəzərdə tutulmur. Alıcılar tərəfindən, habelə meşə təsərrüfatı müəssisəsinin sərəncamına daxil olan (sahibsiz, özbaşına kəsilmiş, meşə istifadəçiləri tərəfindən müəyyən olunmuş müddətdə daşınmayan) oduncağın daşınma müddəti meşə təsərrüfatı müəssisəsi tərəfindən müəyyən edilir. Meşə təsərrüfatı müəssisələri meşə isti-

fadəçiləri tərəfindən bu Qaydalara əməl edilməsinə sistematik nəzarəti həyata keçirir, işlər qurtardıqdan sonra qırma sahələrindən düzgün və tam istifadə edilməsini, oduncağın tədarükünün, həmçinin kötükstə qalmış, daşınmamış oduncağın yerinə müayinə edir. Qırma yerlərinin (sahələrinin) müayinəsi müəyyən edilmiş oduncağın daşınma müddəti başa çatdıqdan sonra 30 gün ərzində aparılır. Qırma yerlərinin (sahələrinin) və tədarük olunmuş oduncağın müayinəsi günü barədə meşə istifadəçi meşə təsərrüfatı müəssisəsi tərəfindən təyin olunan gündən 15 gün qabaq məlumatlandırılır. Oduncaq tədarükü və daşınması meşə qırma biletində, orderdə müəyyən edilmiş müddətdən tez qurtardıqda, meşə istifadəçisi 10 gün əvvəl müvafiq meşə təsərrüfatı müəssisəsinə işlərin qurtarma müddəti barədə məlumat verir. Hava şəraiti qeyri-qənaətbəxş olduqda (qar yağarsa, çaylar daşarsa və s.) müayinə meşə təsərrüfatı müəssisəsi tərəfindən təyin olunan vaxta keçirilə bilər. Qırma yerlərinin (sahələrinin) tədarük olunmuş oduncağın müayinəsi meşə təsərrüfatı müəssisəsi və meşə istifadəçisi tərəfindən 2 nüsxədən ibarət tərtib olunmuş akta qeyd olunur və müayinənin nəticələri 15 gün müddətində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim olunur. Meşə istifadəçisi aktın tərtib olunmasından imtina etdikdə, meşə təsərrüfatı müəssisəsi müayinəni onun iştirakı olmadan aparmaq hüququna malikdir. Akt tərtib olunduğu gündən qüvvəyə minir. Müayinə aktının forması «Azərbmeşə» İstehsalat Birliyi tərəfindən müəyyən olunur. Meşə istifadəçilərinə qırma sahələri ayrıldıqda meşə təsərrüfatı müəssisələri qırıntı zamanı alınacaq oduncağın dəqiq hesablanması üçün nümunə sahələri ayırır. Sahə uçota alındıqda, nümunə hesablama sahələrində faktiki hazırlanmış oduncağın miqdarı meşəqırma biletində, orderdə göstərilən miqdardan 10 faizdən çoxdursa, meşə is-



tifadəçisi əlavə tədarük edilmiş oduncağın miqdarının dəyərini ödəyir. Oduncaqdan səmərəli istifadə nəticəsində meşəqırma biletində göstəriləndən artıq işlik oduncaq alınarsa, bu halda meşə istifadəçilərindən əlavə pul tutulmur. Meşədə hazır oduncaq qaldıqda və obyektiv səbəblərdən təyin olunmuş müddətə daşınmadıqda, meşə istifadəçiləri oduncağın daşınmasına 3 ay ərzində möhlət almaq hüququna malikdirlər. Kötükstü oduncaq buraxılışına, onun tədarükünə və ya daşınmasına 5 aydan artıq olmamaq şərtilə meşə istifadəçilərin yazılı ərizələri əsasında meşə təsərrüfatı müəssisələri tərəfindən möhlət verilə bilər. Oduncağın tədarükünə möhlət verildikdə meşə istifadəçisindən kötükstə qalmış oduncağın nırx dəyərinin 1,5 faiz miqdarında cərimə tutulur. Oduncağın daşınmasına möhlət verildikdə meşə istifadəçiləri hər ay möhlət üçün daşınmayan oduncağın preskurant qiymətinin 1,5 faiz miqdarında cərimə ödəyirlər. Möhlətin verilməsi haqqında meşə təsərrüfatı müəssisəsi meşəqırma biletində, orderdə müvafiq qeydlər aparır. Müəyyən olunmuş müddətlərdə (verilmiş möhlət də nəzərə alınmaqla) daşınmayan oduncağın, həmçinin özbaşına tədarük olunmuş oduncaq əvəzsiz olaraq meşə təsərrüfatı müəssisəsinin sərəncamına daxil olur, ümumi qayda üzrə satılır və əldə olunmuş vəsait hesabına meşələrin qorunub saxlanması və təkrar istehsalı fonduna mədaxil olunur. Oduncaq anbara, dəmir və şose yollarına, qurğu və emal üçün nəzərdə tutulan yerlərə, meşə yollarının yanındakı anbarlara, başqa düzəldilmiş və meşəqırma biletində, orderdə göstərilən yerlərə daşınarsa, daşınmış hesab olunur. Meşə istifadəçiləri Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş nırx dəyərinə uyğun olaraq kötükstü buraxılan oduncağın qiymətini ödəyirlər. Meşə təsərrüfatı müəssisələri meşəyə xidmət və sanitariya qırmaları apararkən, habelə meşə quruluşu və başqa meşə tə-

sərrüfatı tədbirləri həyata keçirərkən alınan oduncağın dəyərini ödəməkdən azad olunurlar. Meşə yanğınları, göbələk xəstəlikləri nəticəsində və həşəratlarla zədələnmiş, tufan, külək tərəfindən yıxılmış və kötükstə qurumuş meşə qırılarkən oduncaq güzəştlə buraxılır. Oduncaq ödənişsiz və ya güzəştlə buraxılarsa, meşəqırma biletində və orderdə nırx qiymətlərindən başqa, güzəştli və ödənişsiz buraxılmasının əsası göstərilməlidir. Kötükstü oduncaq buraxılışının dəyərinin hesablanmasında səhvlərə yol verilmişdirsə növbəti ödəniş zamanı bu hesablamalar yenidən aparılır. Meşə istifadəçisi hesablaşmanın fərqinin ödənilməsindən azad olunmurlar. Oduncaq tədarükü qurtardıqda meşə istifadəçiləri ilə aşağıdakı sənədlərə əsasən qarşılıqlı hesablaşmalar aparılır: meşəqırma biletləri, orderlər; qırıntı yerlərinin (sahəsinin) pulqiymət cədvəli; qırıntı yerlərinin (sahələrinin) müayinə aktı. Ödənişlər yenidən hesablanarsa, və bu Qaydaların pozulması barədə meşə təsərrüfatı müəssisələri, «Azərbmeşə» İstehsalat Birliyi və digər səlahiyyətli orqanlar tərəfindən müvafiq aktlar tərtib edilərsə, qeyd olunan materiallar hesablaşma sənədlərinə əlavə edilir.



### 4.3. Meşələrin hüquqi mühafizəsi

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 aprel 1999-cu il tarixli 70 nömrəli Qərarı ilə meşəqırma qaydaları təsdiq edilmişdir. Bu qaydalar qiymətli cinslərdən ibarət meşələrin formalaşmasını, oduncaq ehtiyatından səmərəli istifadə olunmasını, meşələrin bərpasını, davamlıqlı və yüksək məhsuldarlıqlı ağaclıqların yetişdirilməsini, onların qoruyucu funksiyalarının artırılmasını tənzimləyir. Meşələrdə (qoruq meşələri istisna olunmaqla) bitmə şəraitindən, sahənin relyefindən, mailliyindən, vəziyyətindən, doluluğundan, cins tərkibindən, yaşından, bonitetindən və digər əlamətlərindən asılı olaraq aşağıdakı qırma növləri tətbiq olunur: meşəbərpa qırmaları; aralıq istifadə üçün qırmalar. Dövlət qoruqlarının meşələrindən yalnız qoruq rejiminə müvafiq olan qırmaların aparılmasına yol verilir. Meşəbərpa qırmaları – yetişmiş və yaşı ötmüş meşələrdə meşələrin doluluğunu 05-06-dan aşağı salmamaq və ümumi ehtiyatı 30 faizdən çox qırmamaq şərti ilə (təbii bərpaya şərait yaratmaq məqsədilə), qrup-qırma, könüllü-qırma və tədriciseçmə üsulu ilə aparılır. Mailliyi 30 faizdən artıq olan sahələrdə meşəbərpa qırmalarının aparılması qadağandır. Meşəbərpa qırmaları aparılan sahələrdə azad ağacı, ayı fındığı, alma, ardıc, armud, çökə, dağdağan, dəmir ağac, eldar şamı, güləbrişin, yabanı gilas, qaraçöhrə, qarmaqlı şam, qoz, quş armudu, saqqız, şümşad, şabalıd, şabalıd yarpaqlı palıd, şərq palıdı, şərq çinarı, tut, ipəkvariyarpaqlı qızıl ağac, yalanqoz cinslərinin kəsilməsi qadağan olunur. Aralıq istifadə üçün qırmalar – meşələrin cins tərkibini yaxşılaşdırmaq, onların məhsuldarlığını, keyfiyyətini və davamlığını artırmaq, mühitqoruyucu rolunu saxlamaq və gücləndirmək, vahid meşə sahəsindən istifadə olunacaq oduncağın miqdarını artırmaq, onun texniki cəhətdən yetişməsini

sürətləndirmək məqsədilə aparılır. Bu qırmalar zamanı aşağıdakı şərtlərə əməl olunmalıdır: qırma üçün seçilən sahələrdə ağaclıqların bioloji təsnifatının aparılması; sağlam, düzgövdəli, toxumdan əmələ gəlmiş dolğun və digər müsbət ağacların saxlanılması; zədələnmiş, xəstə, davamlığını və texniki oduncaq keyfiyyətini itirmiş, yaşı ötmüş, gələcəyi gözlənilən qiymətli cinslərin inkişafına mane olan ağac və kolların qırıntıya təyin edilməsi; ilk növbədə yuxarı bonitetli (məhsuldar) meşələrdə qırmaların aparılması; *qarışıq və bir* cinsli meşələrdə qiymətli yerli cinslərin *sahədə saxlanılması*, davamlığının artırılması və gələcəyi gözlənilən müsbət ağacların inkişafına əlverişli şərait yaradılması, ağaclığın doluluğunu (hər qırmadan sonra 06-dan, dağ yamaclarında isə 07-dən) aşağı salınmaması, onların sutənzimedici, torpaqqoruyucu funksiyalarının gücləndirilməsi. Aralıq istifadə üçün qırmaların növləri və məqsədi: işıqlandırma qırması – 10 yaşına qədər cavan ağaclığın tərkibini formalaşdırmaq, sıxlığını nizama salmaq və qiymətli cinslərin inkişafını yaxşılaşdırmaq; təmizləmə qırması – 11-20 yaşına qədər meşə sahələrindəki əsas cinslərin yayılmasını nizama salmaq, onların cins tərkibini formalaşdırmaq; seyrəltmə qırmaları – 21-40 yaşınadək ağacların gövdələrinin və çətirlərinin düzgün formalaşmasına nail olmaq; keçid qırması – 41 yaşdan yetişmə yaşına qədər ağaclığın illik orta artımına əlverişli şərait yaratmaq; yenidənəkmə (rekonstruksiya) qırmaları – düzən və dağətəyi meşələrdə azqiymətli, alçaq boylu, pozulmuş ağac və kol cinslərinin məhsuldarlığını artırmaq, cins tərkibini yaxşılaşdırmaq. Düzən meşələrdə (suvarılan meşələrdə) aralıq istifadə üçün qırmalar dağ meşələrinə nisbətən tez-tez aparılır. Bütün hallarda meşənin qoruyucu funksiyalarını zəiflətməmək üçün ağaclığın doluluğu normal saxlanmalıdır. Gövdələrində quş və vəhşi heyvanat yuvaları olan ağaclar



qırıntıya təyin edilmir. Qırmalar ilk növbədə kifayət qədər gələcəyi gözlənilən yeniyetmələr, sahələrdə saxlanılmış tək-tək toxumluq və yaşı ötmüş ağaclar, ikinci dərəcəli ağac və kol cinsləri olan yüksək bonitetli meşələrdə aparılır. Sıxlığı 0,9-dan yuxarı olan cavan ağaclıq sahələrində inkişafdan geri qalmış, əyrigövdəli, çətiri pis olan və digər yararsız ağaclar qırıntıya təyin olunur. Qırmalar aparılarkən aşağıdakı ardıcıllıq təmin olunmalıdır: mədəni meşə əkinlərində və əvvəlki illərdə qırıntı yerlərində qalmış əsas cinsin yeniyetmələri (əgər ikinci dərəcəli ağac cinsləri sürətlə inkişaf edirsə) olan sahələrdə; qiymətli cinslərin yeniyetmələrinin, ikinci dərəcəli ağacların çətirləri altında qalmaq qorxusu olan qarışıq cinsli az qiymətli meşələrdə; eyni hündürlükdə olan əsas və ikinci dərəcəli cinslərdən ibarət qarışıq meşələrdə; yüksək sıxlığı və doluluğu (0,8-1,0) olan qiymətli cinsli meşələr, toxumdan və pöhrədən əmələ gəlmiş ağaclıqlarda. Göstərilən sahələrdə ağaclığın yaşından asılı olaraq işıqlandırma, təmizləmə və seyrəltmə qırmaları aparılır. Yetişmə yaşına qədər olan eyni cinsli və qarışıq meşələrdə əsasən keçid qırmaları aparılır. Qırmaların başlanması və qurtarması vaxtı meşəbitmə şəraiti, ağac cinslərinin bioloji xüsusiyyətləri və ərazisinin iqtisadiyyatı nəzərə alınmaqla müəyyənləşdirilir. Yerli iqlim və digər şəraitdən asılı olaraq işıqlandırma və təmizləmə qırmaları adətən ağaclar yarpaqladıqdan sonra vegetasiyanın müxtəlif dövrlərində aparıla bilər. Dağətəyi və düzən zonalarda seyrəltmə qırmaları (güclü boy inkişafına malik və gövdəsi möhkəm olmayan sıx cavan ağaclıqda) əsasən yaz dövründə aparılır. Dağ meşələrində seyrəltmə və keçid qırmaları qış dövrü başlayana qədər aparılır. Bütün hallarda qırılacaq sahələrin seçilməsi və qırıntının aparılma vaxtı ovçuluq təsərrüfatı, meşədən əlavə istifadə və təbiəti mühafizə tələbləri və şərtləri nəzərə alınmaqla müəyyənləş-

dirilir. Qarışıq bərkyarpaqlı cinslərdən ibarət meşələrdə meşəbərpa qırmaları aparmaq yaşına 20 il qalmış, yumşaq yarpaqlı və pöhrədən əmələ gəlmiş bərkyarpaqlı cinslərdən ibarət ağaclıqlarda isə 10 il qalmış qurtarır.

Qırmaların miqdarı qırıntının başlanması və qurtarması vaxtından, qırmanın intensivliyindən, təkrar olunma müddətindən, meşə tiplərindən, inkişafından, doluluğundan, vəziyyətindən və ərazisinin ekoloji şəraitindən asılıdır. Qırmaların intensivlik dərəcəsi ağaclığın hansı məqsəd üçün yetişdirilməsindən, meşənin tipindən, tərkibindən, yaşından, bonitet sinifindən, quruluşundan, ağaclığın vəziyyətindən, qırmanın növündən, maillikdən, relyefdən və digər amillərdən asılı olaraq müəyyən edilir. Qırmaların intensivlik dərəcələri aşağıdakılardır: zəif – 3-15 faiz; orta dərəcə – 16-25 faiz; güclü – 26 faizdən yuxarı. Orta yaşlı və yetişməkdə olan ağaclıqda qırmalar zəif intensivlikdə, cavan ağaclıqda isə daha güclü intensivliklə aparılır. Kurort meşələrində, xüsusi qiymətli massivlərdə, şəhərlərin və digər yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zonalarının müşahidələrində, yabanı meşələrdə və dövlət qoruyucu meşə zolaqlarında, habelə daşlı, həddindən çox rütubətli və torpağın qalınlığı az olan meşələrdə qırmalar zəif intensivlikdə aparılır. Quru torpaq şəraitində qırmanın təkrar müddəti və intensivliyi torpağı rütubətli olan meşələrə nisbətən daha gec aparılır. Bu növ qırmaların aparılması gələcəkdə yüksək keyfiyyətli qiymətli ağac cinslərinin formalaşdırılmasına və yetişdirilməsinə şərait yaradır. Bu zaman meşənin sıxlığının aşağı salınma həddi qarşıya qoyulmuş məqsədlə müəyyənləşdirilir (1 hektarda ağacların sayı və en kəsik sahələrinə görə). Eyni qırma sahəsində qırmaların təkrar müddəti sahədəki ağacların ümumi inkişaf vəziyyətindən, böyüməsindən və digər təbii amillərdən asılıdır. Meşənin tipindən və qırma növündən asılı olaraq təkrar



qırma müddətləri aşağıdakı kimi müəyyən edilir: işıqlandırma qırması – 3-5 ildən bir; təmizləmə qırması – 6-8 ildən bir; seyrəltmə qırması – 5-15 ildən bir; keçid qırması – 8-15 ildən bir. Qırmalar texnoloji xəritələr əsasında təşkil edilir və ağaclığın bütün meşəçilik xüsusiyyətləri, yaşı, yerin relyefi, qırıntının növü, işin aparılma texnologiyası, oduncağın daşınması, nəqliyyat və qoşqu vasitələrinin istifadəsi, qıtıntı yerinin təmizlənməsi üsulu, qırma üçün ayrılmayan ağacların zədələnmədən və meşə mühitinin qorunmasını təmin edən tədbirlər, texniki-iqtisadi və digər göstəricilər nəzərə alınmalıdır. Qırma sahəsinin sxematik xəritəsində yükləmə yerləri, əsas və köməkçi texnoloji (daşıma) dəhlizlər göstərilməlidir. Oduncağın daşınması üçün texnoloji dəhlizlər və yükləmə yerləri müəyyənləşdirilməlidir. Bu məqsədlə ilk növbədə mövcud olan yollardan, talalardan, meşə ilə örtülü olmayan torpaq sahələrindən istifadə edilməlidir. Bu hallarda dəhlizlərin açılması üçün ağaclar kəsilmir. Süni surətdə yaradılan ağaclıqda (əkinlərdə) cərgə araları texnoloji dəhliz kimi istifadə olunur. Qırma zamanı tətbiq olunan maşın və mexanizmlər meşə mühitinin saxlanılması, torpaq örtüyünün az korlanmasını təmin etməlidir. Maşın və mexanizmlərin torpağa etdiyi təzyiqin azaldılması məqsədilə daşınma yollarının qırıntı qalıqları ilə bərkidilməli, texnoloji dəhlizlərinin uzunluğu azaldılmalı, qırılan ağacların baş hissəsi tərəfə sürüdülüb aparılmalıdır. Dağ şəraitində qırıntı aparmaq üçün hava daşıyıcı qurğularından da istifadə edilir. Nəqliyyat (sürütmə) və yükləyici vasitələri tətbiq etmək üçün sahədə texnoloji dəhlizlər sistemi (sürütmə yolları) və yükləyici yerlərin yaradılması nəzərdə tutulmalıdır.

Yuxarıda qeyd etdiyimiz qaydaların pozulması məsuliyyət yaradır. Belə ki, meşə istifadəçisi meşəqırma biletini, orderi müəyyən olunmuş müddətdə almadıqda ayrılmış meşə-

qırma həcminin nırx dəyərinin 10 faizi məbləğində cərimə olunur. Meşə qırmaları və tədarükü zamanı bu Qaydaların pozulmasına yol verən meşə istifadəçilərinə aşağıdakı miqdarda cərimə hesablanır: meşə qırmaları aparılarkən toxumluq ağacların və qırıntıya təyin edilməmiş ağacların kəsilməsinə və ya zədələnməsinə görə hər bir kəsilmiş və ya zədələnmiş toxumluq və sair ağacların nırx dəyərinin üç misli qədər; qadağan olunmuş vaxtda oduncaq hazırlanarsa və ya sürüdülərsə, hər bir kəsilmiş və ya sürüdülmüş ağacın nırx dəyərinin üç misli qədər; istifadəyə verilmiş qırma sahələrində meşəqırma bileti, order alınmadan və ya qırma müddəti qurtardıqdan sonra oduncaq hazırlanarsa, hazırlanmış oduncağın nırx dəyərinin üç misli qədər; qırıntıya təyin edilmiş, lakin kəsilməmiş ağaclar üçün nırx dəyərinin bir misli qədər; ağacların qeyri-səmərəli doğranması nəticəsində qırma sahəsi üzrə işlik oduncağın çıxışı meşəqırma biletində, orderdə göstəriləndən 10 faiz az olduqda, səmərəsiz istifadə olunmuş oduncağın preyskurant qiymətinin iki misli qədər; müəyyən edilmiş müddətdə (verilmiş möhlət nəzərə alınmaqla) qırıntı yerində, anbar yerində, ağac daşınan yollarda, tikililərdə və sair yerlərdə daşınmamış oduncaq qalarsa, həmin oduncağın satış dəyərinin bir misli qədər; meşə yolları və ona bitişik 50 metrlik zolaq müəyyən olunmuş müddətdə qırıntı qalıqlarından qeyri-qənaətbəxş təmizlənərsə, təmizlənməmiş sahənin hər hektarına 1 kub. m odunun nırx dəyərinin iki misli qədər; ağacların kötükləri diametrinin üçdə birindən hündür kəsildikdə, diametri 30 santimetrədək olan ağacların kötükləri isə 10 santimetrdən hündür saxlandıqda, ağaclar və kötüklərdəki damğalar və nömrələr məhv edildikdə hər bir kötük, damğa və nömrə üçün 0,2 kub. m. oduncağın nırx dəyəri miqdarında; hər bir asılı qalmış ağac üçün 1 kub. m. oduncağın nırx dəyəri miqdarında; tədarük və oduncağın sürüdül-



məsi zamanı dağ şəraitində torpaq eroziyası baş verən sahələrdə torpağın üst qatı məhv edildikdə eroziyaya məruz qalmış hər hektar üçün 1 kub. m. oduncağın nırx dəyərinin 30 misli qədər. Bu bəndin 5-ci və 6-cı abzaslarındakı cərimələr meşə təsərrüfatı müəssisələri tərəfindən franko qırma sahəsindən preyskurant qiyməti ilə hesablanır. Meşə əkinləri, meşə bərpa işləri üçün nəzərdə tutulan sahələrdə təbii bərpanın və cücərtilərin məhv edilməsi və ya zədələnməsi, ağac və kolların boy artımının dayandırılmasına səbəb olmadan zədələnməsi, meşələrdə məhdudlaşdırıcı nişanların, kvartal dirəklərinin, vizir xətlərinin məhv edilməsi və korlanması, ağacların və kolların qanunsuz qırılması və zədələnməsi (boy artımının dayanması dərəcəsinədək) nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş nırx dəyərləri ilə hesablanır. Qanunvericilikdə qeyd olunur ki, bu Qaydaların pozulmasına görə cərimələr ağacların nırx dəyərinə güzəşt edilmədən hesablanır. Oduncaq tədarükünü aparan meşə təsərrüfatı müəssisələri bu Qaydaları pozarkən meşə istifadəçiləri üçün nəzərdə tutulmuş məsuliyyətə cəlb edilirlər.

qırma həcminin nırx dəyərinin 10 faizi məbləğində cərimə olunur. Meşə qırmaları və tədarükü zamanı bu Qaydaların pozulmasına yol verən meşə istifadəçilərinə aşağıdakı miqdarda cərimə hesablanır: meşə qırmaları aparılarkən toxumluq ağacların və qırıntıya təyin edilməmiş ağacların kəsilməsinə və ya zədələnməsinə görə hər bir kəsilmiş və ya zədələnmiş toxumluq və sair ağacların nırx dəyərinin üç misli qədər; qadağan olunmuş vaxtda oduncaq hazırlanarsa və ya sürüdülərsə, hər bir kəsilmiş və ya sürüdülmüş ağacın nırx dəyərinin üç misli qədər; istifadəyə verilmiş qırma sahələrində meşəqırma bileti, order alınmadan və ya qırma müddəti qurtardıqdan sonra oduncaq hazırlanarsa, hazırlanmış oduncağın nırx dəyərinin üç misli qədər; qırıntıya təyin edilmiş, lakin kəsilməmiş ağaclar üçün nırx dəyərinin bir misli qədər; ağacların qeyri-səmərəli doğranması nəticəsində qırma sahəsi üzrə işlik oduncağın çıxışı meşəqırma biletində, orderdə göstəriləndən 10 faiz az olduqda, səmərəsiz istifadə olunmuş oduncağın preyskurant qiymətinin iki misli qədər; müəyyən edilmiş müddətdə (verilmiş möhlət nəzərə alınmaqla) qırıntı yerində, anbar yerində, ağac daşınan yollarda, tikililərdə və sair yerlərdə daşınmamış oduncaq qalarsa, həmin oduncağın satış dəyərinin bir misli qədər; meşə yolları və ona bitişik 50 metrlik zolaq müəyyən olunmuş müddətdə qırıntı qalıqlarından qeyri-qənaətbəxş təmizlənərsə, təmizlənməmiş sahənin hər hektarına 1 kub. m odunun nırx dəyərinin iki misli qədər; ağacların kötükləri diametrinin üçdə birindən hündür kəsildikdə, diametri 30 santimetrədək olan ağacların kötükləri isə 10 santimetrdən hündür saxlandıqda, ağaclar və kötüklərdəki damğalar və nömrələr məhv edildikdə hər bir kötük, damğa və nömrə üçün 0,2 kub. m. oduncağın nırx dəyəri miqdarında; hər bir asılı qalmış ağac üçün 1 kub. m. oduncağın nırx dəyəri miqdarında; tədarük və oduncağın sürüdülməsi zamanı dağ şəraitində torpaq eroziyası baş verən sahələrdə torpağın üst qatı məhv edildikdə eroziyaya məruz qalmış hər hektar üçün 1 kub. m. oduncağın nırx dəyərinin 30 misli qədər. Bu bəndin 5-ci və 6-cı abzaslarındakı cərimələr meşə təsərrüfatı müəssisələri tərəfindən franko qırma sahəsindən preyskurant qiyməti ilə hesablanır. Meşə əkinləri, meşə bərpa işləri üçün nəzərdə tutulan sahələrdə təbii bərpanın və cücərtilərin məhv edilməsi və ya zədələnməsi, ağac və kolların boy artımının dayandırılmasına səbəb olmadan zədələnməsi, meşələrdə məhdudlaşdırıcı nişanların, kvartal dirəklərinin, vizir xətlərinin məhv edilməsi və korlanması, ağacların və kolların qanunsuz qırılması və zədələnməsi (boy artımının dayanması dərəcəsinədək) nəticəsində meşə təsərrüfatına vurulmuş ziyanın miqdarı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş nırx dəyərləri ilə hesablanır. Qanunvericilikdə qeyd olunur ki, bu Qaydaların pozulmasına görə cərimələr ağacların nırx dəyərinə güzəşt edilmədən hesablanır. Oduncaq tədarükünü aparan meşə təsərrüfatı müəssisələri bu Qaydaları pozarkən meşə istifadəçiləri üçün nəzərdə tutulmuş məsuliyyətə cəlb edilirlər.

## 4.4. Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət

Qanunvericiliyə əsasən meşə qanunvericiliyinin pozulmasına görə cinayət və inzibati məsuliyyət nəzərdə tutulmuşdur. AR CM-in 260-cı maddəsi ilə meşələri məhv etmə və ya korlamağa görə məsuliyyət müəyyən edilmişdir. Burada aşağıdakı iki qrup əməllər ayrılır: odla və ya digər yüksək təhlükə mənbələri ilə ehtiyatsız davranma üzündən meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililərini məhv etmə və ya korlama: yandırma və ya digər ümumi təhlükəli üsulla və ya zərərli maddələrlə, tullantılarla çirklənməsi nəticəsində, meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililəri məhv etmə və ya korlama.

Birinci halda təqsirli şəxs yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. İkinci halda isə şəxs iki ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

AR CM-in 259-cu maddəsi ilə qanunsuz ağac kəsməyə görə məsuliyyət müəyyən edilmişdir. Belə ki, meşələrdə və ya qoruqlarda, milli və ya təbii parklarda ağacların və ya kolların, eləcə də meşə fonduna aid olmayan ağacların və ya kolların qanunsuz kəsilməsi xeyli miqdarda ziyan vurduqda təqsirli şəxs iki min beş yüz manatdan üç min beş yüz manatadək miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməllər təkrar törədildikdə, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə, şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə və külli miqdarda ziyan vurmaqla törədildikdə isə üç min beş yüz manatdan beş min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.



AR CM-in 259-cu maddəsinin qeyd hissəsində göstərilir ki, «xeyli miqdar» dedikdə üç yüz manatdan min manatadək olan məbləğ, «külli miqdar» dedikdə isə min manatdan artıq olan məbləğ başa düşülür[27].

AR İXM-in 237-ci maddəsi müəssisələrin, qurğuların və başqa obyektlərin istismara verilməsi və ya istismar müddətində ekoloji tələblərin pozulmasına görə məsuliyyət müəyyən etmişdir. İnzibati məsuliyyət aşağıdakı konkret əməllərə əsasən müəyyən olunur: yol verilə bilən son hədlərin normativləri səviyyəsində zərərli maddələrin və tullantıların zərərsizləşdirilməsi və istifadə edilməsi üzrə təmizləyici qurğularla və avadanlıqla təmin edilməyən, yaxud təbii resursların səmərəli istifadəsi, bərpası və torpaqların rekultivasiyası üzrə layihələşdirmə işləri başa çatdırılmadan müəssisələrin, qurğuların və başqa obyektlərin istismara verilməsi; ətraf mühitə buraxılan tullantıların təmizlənməsi və tullantılara nəzarət üçün qurulmuş qurğuların, avadanlığın, aparatların istismar qaydalarının pozulması və ya bunlardan istifadə edilməməsi[28].

Birinci halda vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min beş yüz manatdan on min manatadək məbləğdə cərimə edilir.

İkinci halda fiziki şəxslər altı yüz manatdan səkkiz yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç min beş yüz manatdan dörd min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir.

---

[27] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2009, s.260

[28] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2016, s.160-161

# V FƏSİL

# HEYVANLAR ALƏMİNİN EKOLOJİ-HÜQUQİ REJİMİ

## 5. 1. Heyvanlar aləminin ekoloji-hüquqi rejminin anlayışı və dövlət tənzimlənməsi

Heyvanlar aləmi təbiət obyektlərindən biri olub, Azərbaycan Respublikasının milli sərvətidir. «Heyvanlar aləmi haqqında» AR-in 4 iyun 1999-cu il tarixli Qanununun 1-ci maddəsinə görə heyvanlar aləmi Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, quruda, suda, torpaqda və havada təbii olaraq sərbəst, yarımsərbəst və qeyri-sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin kəmiyyət və keyfiyyət məcmusudur[29].

Heyvanlar aləminin əhəmiyyəti onun funksiyalarında təzahür edir. Belə ki, heyvanlar aləmi mədəni, elmi, tərbiyəvi, estetik, iqtisadi, müalicəvi və s. funksiyalara malikdir.

«Heyvanlar aləmi haqqında» AR-in 4 iyun 1999-cu il tarixli Qanunu əsasən vəhşi heyvanların istifadəsi və mühafizəsini tənzimləyir. Digər heyvanların (kənd təsərrüfatı, ev heyvanları) istifadəsi və mühafizəsi isə müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

[29] "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikasının 1999-cu il 4 iyun tarixli Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1999, №8, maddə 470



Heyvanlar aləmi haqqında qanunvericilik təbii sərbəstlik, yarımsərbəst və qeyri-sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan bütün vəhşi heyvan növlərinin, onların yaşayış yerlərinin, nəsil verməsinin, populyasiyalarının, cinsiyyət hüceyrələrinin, rüşeymlərinin və heyvanlar aləminin digər obyektlərinin qorunub saxlanmasını və səmərəli istifadəsini tənzimləyir.

Heyvanlar aləminin obyektləri və subyektləri vardır. Belə ki, heyvanlar aləminin obyektləri aşağıdakılardır: ibtidai orqanizmlər, bağırsaqboşluqlular, qurdlar, buğumayaqlılar, molyuskalar, dəyirmiağızlılar, balıqlar, suda və quruda yaşayanlar, sürünənlər, quşlar və məməlilər; vəhşi heyvanların populyasiyaları, cinsiyyət hüceyrələri, rüşeymləri, mayalanmış kürüləri, sürfələri və generativ orqanları; dəriləri, dəri örtükləri, buynuzları, sümükləri və heyvan orqanizmlərinin digər hissələri; vəhşi heyvanların həyat fəaliyyətinin məhsulları (ilan, əqrəb, arı və digər heyvan zəhəri, arı balı, propolis, mum, hormonlar və s. ); heyvanların paleontoloji qalıqları; vəhşi heyvanların yuvaları, sığınacaqları, səsləşmə, tüləmə, balalama, kürütökmə, daimi və müvəqqəti yığışma və digər məskunlaşma yerləri.

Heyvanlar aləminin subyektləri dedikdə heyvanlar aləmi obyektlərinin mühafizəsi, istifadəsi, onların elmi-tədqiqat, təbabət, təlim-tərbiyə, təsərrüfatçılıq, estetik, tamaşa və digər məqsədlər üçün yetişdirilməsi, artırılması və saxlanması ilə məşğul olan fiziki və hüquqi şəxslər başa düşülür.

Heyvanlar aləminin hüquqi rejimi «Heyvanlar aləmi haqqında» AR-in 4 iyun 1999-cu il tarixli Qanunu Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi icra haki-

miyyəti orqanlarının normativ aktları və AR-in qoşulduğu beynəlxalq müqavilələrlə tənzimlənir.

Heyvanlar aləmi hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən dövlətə mənsubdur. Heyvanlar aləmi dövlət, bələdiyyə və xüsusi mülkiyyət formasında olur. Bələdiyyə və xüsusi mülkiyyət hüququ qanunda nəzərdə tutulduğu hallarda məhdudlaşdırıla bilər.

Heyvanlar aləminin bəzi obyektləri (xüsusi təbii mühafizə olunan, elmi və estetik dəyərli, heyvanlar aləminin obyektləri, Qırmızı kitaba daxil edilmiş və s. ) bələdiyyə və xüsusi mülkiyyətə verilə bilməz.

«Heyvanlar aləmi haqqında» AR Qanununun 7-ci maddəsinə əsasən heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində idarəetmə aşağıdakı prinsiplər əsasında həyata keçirilir: dövlət nəzarətinin zəruriliyi; heyvanların yaşayış mühiti, miqrasiya yolları, qışlama yerləri, nəsilartırma şəraitinin mühafizəsi; istifadənin humanist prinsiplərlə həyata keçirilməsi; istifadənin ödənişli olması; istifadənin limitləşdirilməsi; nəzarət funksiyaları ilə istifadə funksiyalarının fərqləndirilməsi; heyvanların sayının tənzimlənməsi; ekoloji ekspertizanın tətbiqi.

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlətin aşağıdakı vəzifələri vardır: dövlət siyasətini həyata keçirmək; müvafiq normativ hüquqi aktlar qəbul etmək; dövlət nəzarətini həyata keçirmək; mühafizə, səmərəli istifadə, artırılma qaydalarını müəyyən etmək; heyvanların arealının genişlənməsi, törəyib artması və qorunub saxlanması üçün qoruqlar, yasaqlıqlar, zooloji parklar, xüsusi mühafizə olunan təbiət əraziləri yaratmaq; heyvanlar aləminin dövlət uçotu, kadastrı və monitorinqi sistemini yaratmaq; Azərbaycan Respublikasının Qırmızı kitabını hazırlamaq; təbii fəla-



kət nəticəsində dağılmış və ya məhv olmuş heyvanlar aləmi obyektlərini bərpa etmək və s.

«Heyvanlar aləmi haqqında» AR Qanunu heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində bələdiyyələrin (maddə 19) və fiziki və hüquqi şəxslərin (maddə 11) hüquqlarını təsbit etmişdir. Belə ki, məsələn, bələdiyyələr yerli büdcəni formalaşdırarkən heyvanlar aləminin mühafizəsi və istifadəsi üzrə xərcləri müəyyənləşdirməli, müvafiq hüquqi aktlar qəbul etməli, zooparklar, zoobağlar, digər zooloji kolleksiyalar yaratmalı, heyvanları yarımsərbəst və qeyri-sərbəst şəraitdə saxlamalıdırlar.

Fiziki və hüquqi şəxslər, o cümlədən ictimai təşkilatlar heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində hüquq və vəzifələrə malikdirlər. Məsələn, onlar heyvanlar aləminin mühafizəsinə və istifadəsinə dair məlumatlar ala, ekoloji ekspertiza və ictimai nəzarəti həyata keçirə və dövlət proqramlarının həyata keçirilməsində iştirak edə bilərlər və s.

Dövlət tənzimlənməsi özündə aşağıdakıları nəzərdə tutur: dövlət uçotu; dövlət kadastrı; dövlət monitorinqi; dövlət nəzarəti; dövlət ekoloji ekspertizası və s.

Heyvanlar aləminin mühafizəsini və istifadəsini təmin etmək üçün heyvanlar aləminin obyektləri və onların əldə edilməsinin həcmi dövlət uçotuna alınır, habelə heyvanlar aləmi obyektlərinin dövlət kadastrı aparılır. Heyvanlar aləmi obyektlərinin dövlət kadastrı dedikdə heyvan növlərinin yayılması, onların sayı, yaşayış mühitinin vəziyyəti və təsərrüfat istifadəsi üzrə məlumatların məcmusu başa düşülür.

AR NK-nı 3 may 2001-ci il tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş «Heyvanlar aləmi obyektlərinin və onların əldə edilməsi həcminin dövlət uçotuna alınması, heyvanlar aləmi obyektlərinin dövlət kadastrının aparılması və heyvanlar aləmi obyektlərinin dövlət monitorinqinin həyata keçiril-

məsi Qaydaları» dövlət tənzimlənməsinin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Belə ki, Qaydalarda göstərilir ki, Azərbaycan Respublikasının bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan obyektlərinin dövlət uçotuna alınması dövlət kadastrının aparılması və dövlət monitorinqinin həyata keçirilməsi digər təbii sərvətlərə dair dövlət monitorinqinə və kadastrlarına uyğun və müqayisəli prinsipdə aparılır.

Heyvanlar aləmi obyektlərinin kadastr məlumatının tərkibi, uçot sənədlərinin formaları, onların doldurulması qaydaları metodik göstərişlər əsasında aparılır. Metodik göstərişlər Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Balıqçılıq Təsərrüfatı Konserni və Səhiyyə Nazirliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə hazırlanır.

Heyvanlar aləmi obyektlərinin dövlət monitorinqi özündə heyvanlar aləmi obyektlərinin yayılması, sayı, fiziki vəziyyəti, yaşayış mühiti və keyfiyyəti ilə bağlı müşahidə sistemini əhatə edir. Monitorinq dəyişiklikləri üzə çıxarır, inkişafı proqnozlaşdırır, zərərli təsirinin qarşısının alır və heyvanlar aləmindən istifadənin elmi-nəzəri əsaslarını müəyyən edir.

Heyvanlar aləmi obyektləri üzrə monitorinq Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Balıqçılıq Təsərrüfatı Konserni, Səhiyyə Nazirliyi tərəfindən Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə hazırlanmış Təlimat əsasında aparılır.

Heyvanlar aləminin monitorinqi ətraf mühitin dövlət monitorinq sisteminin tərkib hissəsidir. Heyvanlar aləminin dövlət kadastrı isə Dövlət ekoloji kadastrın tərkib hissəsidir.



Heyvanlar aləmi obyektlərinin uçotunun, kadastrının və monitorinqinin təşkili və aparılması AR Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi (ov obyektlərinə aid edilən, həmçinin ov və balıqçılıq obyektlərinə aid edilməyən və Qırmızı Kitaba daxil edilmiş vəhşi heyvan növləri üzrə), AR Kənd Təsərrüfatı Nazirliyi (ev heyvanlarının və bitki ziyanvericilərinin xüsusi siyahısına daxil edilmiş heyvan növləri üzrə), AR Dövlət Balıqçılıq Təsərrüfatı Konserni (balıqçılıq obyektlərinə daxil edilmiş) və AR Səhiyyə Nazirliyi (insan sağlamlığı üçün təhlükəli olan xüsusi siyahıya daxil edilmiş vəhşi heyvan növləri üzrə) tərəfindən aparılır. Lakin bütün dövlət orqanları heyvanlar aləminin uçotu, monitorinqi, dövlət kadastrını müəyyən edərkən Azərbaycan Milli Elmlər Akademiyası ilə birgə fəaliyyət göstərməlidirlər.

AR NK-nın 2001-ci il 3 may tarixli 89 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydaları»n ikinci bəndinin dördüncü hissəsinə əsasən adı çəkilən dövlət orqanları heyvanlar aləmi obyektlərinə dair məlumatları təhlil edərək müvafiq uçot və kadastrın yekun hesabatını hazırlayıb, dövri surətdə çap olunmasını təşkil etməlidirlər.

Dövlət kadastrının aparılması üzrə hesabatların düzgün tərtibi, vaxtında təqdimi və saxlanılmasına görə yuxarıda göstərilən dövlət orqanlarının və təşkilatlarının rəhbərləri məsuliyyət daşıyırlar.

AR NK-nın 6 noyabr 2004-cü il 176 nömrəli Qərarı ilə təsdiq edilmiş «Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları»[30]

---

[30] «Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydaları», «Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr» və «Heyvanlar aləmi obyektlə-

na görə heyvanlar aləminin mühafizəsi üzrə dövlət nəzarəti bu sahədə müəyyən edilmiş qaydaların və vəzifələrin yerinə yetirilməsinin təmin edilməsinə yönəlib. Azərbaycan Respublikası Prezidentinin 6 mart 2000-ci il tarixli 249 nömrəli «Heyvanlar aləmi haqqında» AR Qanununun icrasının təmin edilməsi barədə» Fərmanında göstərilir ki, Azərbaycan Respublikası ərazisində heyvanlar aləminin mühafizəsi sahəsində dövlət nəzarəti AR ETSN tərəfindən aparılır. AR NK-nın 24 sentyabr 1999-cu il tarixli 152 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları»[31] na əsasən ETSN-in Dövlət balıq mühafizəsi xidməti balıq ehtiyatlarının qorunmasını təmin etməli, balıqçılıq haqqında qanunvericiliyi pozan şəxslər haqqında müvafiq materialları təqdim etməlidir.

Dövlət nəzarət orqanları fiziki və hüquqi şəxslərin, ictimai təşkilatların rəylərini nəzərə almalı və AR ETSN tərəfindən müvafiq xidməti vəsiqə ilə təmin edilməlidirlər.

AR NK-nın 6 noyabr 2004-cü il tarixli 176 nömrəli Qərarı ilə təsdiq edilmiş «Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları» heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətini həyata keçirən dövlət orqanlarının vəzifələrini və hüquqlarını müəyyən etmişdir.

Məsələn, vəzifələr sırasında aşağıdakıları göstərmək olar: heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət siyasətini həyata keçirmək; heyvanlar aləmi obyektlə-

---

rindən istifadəyə görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimatın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (6 noyabr 2004-cü il, №176) //Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild. Bakı: Qanun, 2006, s.474-488

[31] Azərbaycan Respublikasının ekolojiya qanunvericiliyi(normativ hüquqi aktlar toplusu". II cild. Bakı: Qanun,2006, s.817



rinin mühafizəsi, səmərəli istifadəsi və bərpası qaydalarına və normalarına əməl olunmasına nəzarət etmək; ov qaydalarına və heyvanlar aləminin ovçuluq obyektlərinə aid edilmiş vəhşi heyvan növlərinin istifadəsinə nəzarət etmək; ov və balıqçılıq obyektlərinə aid edilməyən vəhşi heyvanların tutulması və vurulması qaydalarına əməl olunmasına nəzarət etmək; vəhşi heyvanların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədilə istifadə olunmasına nəzarət etmək; heyvanlar aləminin sayının tənzimlənməsinə nəzarət etmək; heyvanlar aləminin mühafizəsi, səmərəli istifadəsi və törəyib artması xeyrinə torpaq, meşə, su və başqa təbii ehtiyatların mülkiyyətçilərinin və istifadəçilərinin hüquqlarını məhdudlaşdıran tədbirlərin həyata keçirilməsinə nəzarət etmək və s.

«Qaydalar»a əsasən dövlət nəzarətini həyata keçirən dövlət orqanlarının hüquqları aşağıdakılardır: heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində pozuntu hallarını aradan qaldırmaq haqqında icrası məcburi olan göstərişlər vermək; heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasının qarşısının alınması və açılması üçün köməkçi vasitə kimi şəkilçəkmə, səsyazma, kino və video çəkilişləri aparmaq; heyvanlar aləmi haqqında qanunvericiliyin pozulması ilə əlaqədar vətəndaşlardan və vəzifəli şəxslərdən şifahi və ya yazılı məlumatlar almaq; heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində inzibati xətalar haqqında protokollar tərtib etmək, cərimələmək və digər tədbirlər görmək; heyvanlar aləminə vurulmuş ziyanın ödənilməsi məqsədilə qanunpozanlara qarşı iddialar qaldırmaq və s.

Heyvanlar aləmi obyektlərinin istifadəçiləri tərəfindən heyvanlar aləmi obyektlərinin dövlət kadastrına daxil edilməli olan məlumatların müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi məcburidir.

Heyvanlar aləmi obyektlərinin və onların əldə edilməsinin həcminin dövlət uçotuna alınması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Bununla yanaşı, qanunvericilik qaydasında ictimai nəzarət də mövcuddur.

Qanunvericilik heyvanlar aləminin vəziyyətinə zərərli təsir edə bilən müəssisə və qurğuların layihələşdirilməsi və tikintisinin məcburi qaydada ekspertizadan keçirilməsini təsbit etmişdir.

AR NK-nın 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq olunmuş «Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi limitləri» bu heyvanların növlərinin müəyyən müddətə təbii mühitdən ayrılması hədlərini müəyyən edir.

AR NK-nın 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinin növləri, bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin sənədlərinin Forması və Siyahısı»nda göstərilir ki, Azərbaycan Respublikasının xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində, digər su obyektlərində, ov yerlərində və meşə fondu sahələrində təbii sərbəstlik şəraitində olan heyvanlar aləminin obyektləri dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilir. Xüsusi təbii mühafizə, elmi və estetik dəyərli heyvanlar aləmi obyektləri, habelə Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilmiş heyvan növləri bələdiyyə mülkiyyətinə və ya xüsusi mülkiyyətə aid edilə bilməzlər. Heyvanlar aləminin obyektləri üzərində bələdiyyə və ya xüsusi mülkiyyət hüququ qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada heyvanlar aləminin mühafizəsinin xeyrinə məhdudlaşdırıla bilər. Fiziki və hüquqi şəxslər tərəfindən qeyri-sərbəst və ya yarımsər-



bəst şəraitdə saxlanılan, təbii mühitdən götürülməsinə və başqa yollarla əldə edilməsinə dair sənədləri olmayan vəhşi heyvanlar qanunsuz əldə edilmiş hesab edilir.

Dövlət əhəmiyyətli təbii sərvətlərə aid edilən heyvanlar aləmi obyektlərinə aşağıdakılar aiddir: Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilənlər; kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növləri; endemik və relikt; tibb sahəsində istifadə olunanlar sənaye əhəmiyyətliləri; kənd və meşə təsərrüfatı ziyanvericilərinə qarşı istifadə edilənlər; ov və balıqçılıq obyektlərinə aid olunanlar; xəz dərililər; ov və balıqçılıq obyektlərinə aid edilməmiş digər növlər; heyvanların paleontoloji qalıqları; heyvanların kütləvi yuvalama, balalama, kürütökmə, tüləmə, daimi və müvəqqəti yığışma yerləri.

Bələdiyyə və ya xüsusi mülkiyyət hüququnda ola bilən heyvan növlərinin siyahısı: məməlilər; quşlar; sürünənlər; suda-quruda yaşayanlar; balıqlar; dəyirmiağızlılar; molyusklar; buğumayaqlılar; qurdlar; bağırsaq boşluqlular; ibtidai orqanizmlər.

Ayrı-ayrı heyvan növlərinin xüsusi mülkiyyətdə olmasına Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağa qoyulduqda, heyvanlar aləminin obyektləri üzərində mülkiyyət hüququna qanunvericilikdə nəzərdə tutulmuş qaydada xitam verilir.

## 5.2. Heyvanlar aləmindən istifadə hüququ və onun növləri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş «Heyvanlar aləmindən ümumi və xüsusi istifadə Qaydaları» na əsasən heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir.

Heyvanlar aləmindən ümumi istifadə, idman və həvəskar balıq ovu istisna olmaqla, vəhşi heyvanları təbii mühitdən ayırmadan insanların həyati vacib, məsələn, estetik, sağlamlıq, istirahət tələbatlarını təmin etmək məqsədi ilə ödənişsiz həyata keçirilir.

İdman və həvəskar balıq ovu istisna olmaqla heyvanlar aləmindən xüsusi istifadəyə vəhşi heyvanları təbii mühitdən ayırmaqla həyata keçirilən bütün istifadə növləri aid edilir.

Aşağıdakı təbii sərbəstlik şəraitində olan heyvanlar aləmindən ümumi istifadəyə yol verilir: elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün; vəhşi heyvanların həyat fəaliyyətinin faydalı xüsusiyyətlərindən (bitkiləri tozlamaq və s.) istifadə; vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək; idman və həvəskar balıq ovu.

Heyvanlar aləmi obyektlərindən istifadə hüququ AR vətəndaşları, hüquqi şəxslər, əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslərə mənsubdur.

AR NK-nın 27 iyul 2004-cü il tarixli nömrəli Qərarı ilə təsdiq edilmiş «Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları» xüsusi istifadə hüququnu tənzimləyir.

Vəhşi heyvanlardan idman və həvəskar balıq ovu məqsədi ilə istifadə edilməsi Azərbaycan Respublikası Nazirlər



Kabinetinin 24 sentyabr 1999-cu il tarixli, 152 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında balıq ehtiyatlarının mühafizəsi və balıq ovu Qaydaları» ilə tənzimlənir.

Ümumi istifadə zamanı vəhşi heyvanların məhv edilməsi, onların yaşayış mühitinə, miqrasiya yollarına və nəsilartırma yerlərinə ziyan vurulması, xüsusi icazə olmadan ümumi istifadəni dövlət qoruqlarında və digər xüsusi rejimli ərazilərdə aparmaq, qış yuxusuna gedən və çoxalma dövrlərində vəhşi heyvanlara yaxınlaşmaq qanunla qadağan edilir.

Ovçuluq, idman və həvəskar balıq ovu istisna olmaqla balıqçılıq, vəhşi heyvanların qeyri-sərbəst və yarımsərbəst şəraitdə saxlanılması, çoxaldılması, kommersiya üçün tutulması, onların elmi tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər əldə edilməsi üzrə ödənişli əsaslarla xüsusi istifadəyə yol verilir.

Heyvan növünün sayı optimal şəraitdən az olduqda, təbii şəraitdə bərpasına təhlükə yarandıqda, xəstəliklərə məruz qaldıqda, epizootik xəstəliklərin baş verməsi təhlükəsi yarandıqda, təbii fəlakət zamanı və heyvanların yaşayış mühitinə mənfi təsir göstərən digər hallarda Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun rəyinə əsasən AR Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən bu heyvan növlərindən müvəqqəti və ya daimi istifadə məhdudlaşdırılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş «Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədi ilə istifadə edilməsi Qaydaları»na görə vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını( bal, mum, zəhər, hormonlar, propolis, lələk və s. ) əldə etmək məqsədi ilə istifadə edilməsinə yalnız heyvanları təbii mü-

hitdən ayırmamaqla və məhv etməməklə və onların yaşayış mühitini pisləşdirməməklə yol verilir. Bu tələb «Heyvanlar aləmi haqqında» AR Qanununun 20-ci maddəsində təsbit olunmuşdur.

Vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarının əldə edilməsi Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin razılığı ilə həyata keçirilir.

Bu məhsullardan istifadə zamanı vəhşi heyvanların qış yuxusuna getdiyi dövrdə, cütləşmə və çoxalma zamanı, həyat fəaliyyəti məhsullarının bərpa müddəti başa çatmadıqda, tələb olunan həddi gözləmədən həyat fəaliyyəti məhsullarının yığılması, həyat fəaliyyəti məhsullarının yığıldığı obyektlərin dağıdılması və məhv edilməsi qadağan edilir.

Vəhşi heyvanların həyat fəaliyyəti məhsullarının yığılmasına razılıq almaq üçün fiziki və hüquqi şəxslər tərəfindən Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinə və ya onun yerli təşkilatlarına müvafiq ərizə (məktub) təqdim edilməlidir. Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsində ərizə (məktub) qeydə alınmaqla qəbul edilir. Ərizəyə qeydə alınma tarixindən başlayaraq 15 gün müddətində baxılır və müvafiq cavab verilir.

Heyvanların həyat fəaliyyəti məhsulunun yığılması meşə fondu sahəsində aparılarsa, fiziki və hüquqi şəxslər «Azərbmeşə» İstehsalat Birliyinin yerli təşkilatlarına məlumat verməlidirlər. Müəyyən olunmuş müddət qurtardıqdan sonra 20 gün ərzində heyvanların həyat fəaliyyəti məhsulunun yığılması barədə Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin yerli təşkilatlarına məlumat təqdim edilməlidir.



Məhsulun yığılması zamanı heyvanları zədələməyən, onların yaşayış mühitinə zərər vurmayan və mənfi təsir göstərməyən üsullardan istifadə olunmalıdır. Heyvanların həyat fəaliyyəti məhsulunun yığılıb-yığılmamasından asılı olmayaraq, göstərilən vaxt qurtardıqdan sonra verilmiş razılıq öz qüvvəsini itirir. Lakin heyvanların həyat fəaliyyəti məhsullarının yığılması nəticəsində vəhşi heyvanların yaşayış mühitinə və təbii bərpasına mənfi təsir göstərə bilən hallarda, heyvanların sayı az olduqda və AMEA-nın Zoologiya İnstitutunun mənfi rəyi olduqda məhsullarının yığılmasına razılıq verilmir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş «Zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi, dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması Qaydaları»na görə heyvanların təbii mühitdən götürülməsi yolu ilə fiziki və hüquqi şəxslər tərəfindən yaradılmış zooparklar, zoobağlar, okeanariumlar və s. canlı kolleksiyalar, habelə heyvan müqəvvaları, preparatları, hissələri və qalıqları şəklində kolleksiyalar zooloji kolleksiyalar adlanır.

Dövlət, bələdiyyə və xüsusi mülkiyyət formasında olan elmi, mədəni-maarif, təlim-tərbiyə və estetik dəyəri olan zooloji kolleksiyalar Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən dövlət uçotuna alınır.

Fiziki və hüquqi şəxslər tərəfindən zooloji kolleksiyaların yaradılması və zənginləşdirilməsinə AR Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən icazəsi verildikdə aparılır. Müvafiq sənədləri olmayan fiziki və hüquqi şəxslərdən vəhşi heyvanların alınması qadağandır. Lakin ovçular tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş

qaydada ovlanmış ov heyvanlarından zooloji kolleksiyaların yaradılmasına icazə tələb olunmur. Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilməmiş, lakin kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna növlərindən, relikt və endemik, həmçinin estetik dəyərli heyvanlar aləmi obyektlərindən, habelə Azərbaycan Respublikasının «Qırmızı Kitabı»na daxil edilmiş heyvan növlərindən bələdiyyələr və ya xüsusi mülkiyyətçilər tərəfindən zooloji kolleksiyaların yaradılmasına yol verilmir.

«Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 30 avqust 1999-cu il tarixli 186 nömrəli Fərmanına əsasən hazırlanmış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 117 nömrəli Qərarı ilə təsdiq edilmiş «Ekoloji təhlükəsizlik normativləri və vəhşi heyvanların əldə edilməsi Limitlər» heyvanların yaşayış mühitinə təsir edən və ekoloji təhlükə amilləri yarada bilən bir sıra fəaliyyət növlərini qadağan edir.

Bunlar aşağıdakı fəaliyyət növləridir: normalardan artıq olan zərərli maddələrin və tullantıların heyvanların yaşayış mühitinə atılması; neft kəmərləri və neft mədənlərindən heyvanların yaşayış mühitinə sızmaların yol verilməsi; sənaye və kənd təsərrüfatı müəssisələrindən, məişət obyektlərindən təmizlənməmiş tullantıların heyvanların yaşayış mühitinə atılması; tərkibində radioaktiv maddələr olan tullantıların heyvanların yaşayış mühitinə atılması.

Vəhşi heyvanların əldə edilməsi limitləri müəyyən müddətlərdə ayrı-ayrı növlərin təbii mühitdən götürülmə miqdarını müəyyən edir. Bu limitlər müəyyən edilərkən vəhşi heyvanların təbiətdə olan sayı və təbii bərpa imkanı nəzərə alınmalıdır. Vəhşi heyvanların əldə edilməsi limitlərini müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının



bütün ərazisində, o cümlədən Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində daimi, müvəqqəti və köçəri yaşayan vəhşi heyvan növlərinin uçotu aparılır.

Vəhşi heyvanların əldə edilməsi limitləri heyvanlar aləmi obyektlərinin aparılmış uçotunun yekunlarına əsasən və heyvanların bioloji xüsusiyyətlərini nəzərə almaqla müəyyən edilir. Vəhşi heyvanların əldə edilməsi limitləri müəyyən edildikdə, Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun və Azərbaycan Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun rəyləri nəzərə alınmalıdır.

Vəhşi heyvanların əldə edilməsi limitləri ov obyektlərinə aid edilmiş vəhşi heyvanlar üzrə Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi tərəfindən (hər il ov mövsümü üçün), ov obyektinə aid edilməyən vəhşi heyvanlara sifariş olduqda Azərbaycan Respublikası Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi, nərə cinsli balıqlar, kilkə və suiti üçün Xəzərətrafı dövlətlərin Xəzərin bioloji resurslarının istifadəsi Komissiyasının ayırdığı kvotaya əsasən «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni, axçalı və siyənək balıq növləri üçün (Xəzərdə və daxili su hövzələrində) «Azərbalıq» Dövlət Balıqçılıq Təsərrüfatı Konserni tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının Zoologiya İnstitutunun və Azərbaycan Elmi Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutunun proqnozlarına əsasən müəyyən edilir.

«Heyvanlar aləmi haqqında» AR Qanununun 12-ci maddəsinə əsasən heyvanlar aləmindən istifadə mülkiyyət, ümumi və xüsusi istifadə hüquqları əsasında həyata keçirilir.

Ümumi istifadə idman və həvəskar balıq ovu istisna olmaqla, vəhşi heyvanları təbii mühitdən ayırmadan ödənişsiz

həyata keçirilir. Xüsusi istifadəyə vəhşi heyvanları təbii mühitdən ayrılmaqla ödənişli həyata keçirilir.

İstifadənin aşağıdakı növləri həyata keçirilə bilər: ovçuluq; balıqçılıq; elmi-tədqiqat, estetik, mədəni-maarif, təlim-tərbiyə; yarımsərbəst və qeyri-sərbəst şəraitdə saxlanması və artırılması; bitkilərin tozlanması, ətraf mühitin təbii sanitarı; məhsulların əldə edilməsi. Qeyd edək ki, heyvanlar aləmindən istifadə hüququ qanunvericiliyə uyğun mövcud olur.

Heyvanlar aləmindən istifadənin növlərindən biri ovçuluqdur. Ovçuluq dedikdə əhalinin və iqtisadiyyatın tələbatlarının ödənilməsi üçün təbii sərbəstlik və ya yarımsərbəst şəraitində daimi, müvəqqəti və köçəri yaşayan, yetişdirilib ov yerlərinə buraxılan ovçuluq obyektlərinə aid edilmiş vəhşi heyvanların tutulması və vurulması başa düşülür. Bu fəaliyyət ödənişlidir, ovçuluq biletləri əsasında və icazələrin verilməsi üçün dövlət rüsumu ödənilməklə aparılır.

Balıq ehtiyatları əmtəə məqsədilə yetişdirilir və balıqçılıq və su qanunvericiliyi ilə tənzimlənir. Məsələn, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 1999-cu il tarixli 146 nömrəli Qərarı ilə «Balıqçılıq əhəmiyyətli su obyektlərinə zərərli təsirin yol verilən normaları» təsdiq edilmişdir.

Təbii mühitdən ayırmamaqla heyvanlar aləmindən elmi-tədqiqat, mədəni, tərbiyəvi və estetik istifadə zamanı onların yaşayış mühitinə zərər vurulmamalıdır. Qeyri-sərbəst və yarımsərbəst şəraitdə olan heyvanlar aləminin obyektlərindən elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik istifadə heyvanları yaşayış şəraitindən ayırmamaqla ödənişlidir. Əksinə, təbii mühitdən ayırmaqla elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik istifadə pullu və ya pulsuz, xüsusi icazə əsasında həyata keçirilir.



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 noyabr 2004-cü il tarixli 176 nömrəli Qərarı ilə təsdiq edilmiş «Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr» də göstərilir ki, Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, heyvanlar aləmindən istifadə ödənişlidir[32].

Balıq ehtiyatlarından istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni balıq ovuna cərimələr Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 1999-cu il tarixli 146 nömrəli Qərarı ilə müəyyən edilmişdir.

Onu da qeyd edək ki, heyvanlar aləminin obyektlərini təbii mühitdən ayırarkən əldə edilmiş zooloji materiallar elmi-tədqiqat işləri üçün saxlanılmalıdır.

«Heyvanlar aləmi haqqında» AR Qanununun 32-cü maddəsinə əsasən istifadəçilər heyvanlar aləminin obyektlərindən qanunvericiliklə müəyyən olunmuş qaydada istifadə etmək, qanuni əldə edilən heyvanlar aləmi obyektlərinin və onların satışından alınan gəlirə sahiblik etmək, mühafizə və istifadə məsələlərinin həllində iştirak etmək, istifadə hüquqlarının pozulmasına yönəlmiş dövlət orqanlarının qərarlarından və vəzifəli şəxslərin hərəkətlərindən şikayət etmək və digər hüquqlara malikdirlər. Lakin istifadə üzrə fiziki və hüquqi şəxslərin hüquqları qanunvericiliklə məhdudlaşdırıla da bilər.

Heyvanlar aləmi istifadəçilərinin aşağıdakı vəzifələrini göstərmək olar: istifadə üzrə müəyyən olunmuş qaydalara, normalara, limitlərə və müddətlərə əməl etmək; heyvanların təbii birliklərinin bütövlüyünü pozmayan üsullarla heyvanlar

[32] Azərbaycan Respublikasının ekolojiya qanunvericiliyi(normativ hüquqi aktlar toplusu". II cild. Bakı: Qanun,2006, s.813-815

aləmindən istifadə etmək; obyektlərindən istifadəyə görə ödənişi vaxtlı-vaxtında köçürmək; heyvanların yaşayış mühitinin xüsusi fəaliyyət nəticəsində ekoloji vəziyyətinin pisləşməsinə yol verməmək; vəhşi heyvanların təbii və süni artmasına, onların yaşayış mühitinin qorunmasına və yaxşılaşmasına yönəldilən kompleks tədbirlər görmək; heyvanlar aləminin mühafizəsi məsələləri üzrə ekoloji proqramların yerinə yetirilməsi üçün tədbirlər həyata keçirmək və s.

«Heyvanlar aləmi haqqında» AR Qanununun 25-ci maddəsində heyvanlar aləmi sahəsində xüsusi istifadə hüququna aşağıdakı hallarda xitam verilir: istifadə üçün verilmiş xüsusi icazənin müddəti qurtardıqda; istifadəyə lüzum qalmadıqda, yaxud istifadədən könüllü imtina edildikdə; istifadə edən hüquqi şəxslərin fəaliyyətinə xitam verildikdə; xüsusi istifadə qaydaları pozulduqda; müəyyən edilmiş qaydalar, normalar və digər tələblər müntəzəm yerinə yetirilmədikdə və s. Vəhşi heyvanlarla rəhmsizcəsinə rəftar edildikdə və obyektlərin xüsusi mülkiyyətdə olmasına qadağan qoyulduqda heyvanlar aləminin obyektləri üzərində mülkiyyət hüququna xitam edilir.



## 5.3. Heyvanlar aləminin hüquqi mühafizəsi

Heyvanlar aləminin hüquqi mühafizəsi dedikdə, heyvanlar aləmi obyektlərinin qorunub saxlanılması və istifadə edilməsi üçüm müəyyən olunan hüquqi, iqtisadi və təşkilati tədbirlər sistemi başa düşülür.

Heyvanlar aləminin hüquqi mühafizəsinin hüquqi tədbirlərindən biri heyvanların təbii mühitdən götürülməsi, onların qorunub saxlanması və törəyib artması məqsədilə qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən ərazidə və ya müəyyən müddətlər üçün istifadə məhdudlaşdırıla və ya qadağan olan bilər. Heyvanlar aləmi obyektlərinin istifadəçiləri heyvanlar aləminin vəziyyətinə zərər göstərə bilən hər hansı fəaliyyəti həyata keçirərkən heyvanların yaşayış mühitinin, çoxalma şəraitinin və miqrasiya yollarının mühafizəsini təmin etməlidirlər[33]. Fiziki və hüquqi şəxslər obyektlərin, habelə elektrik şəbəkələri və nəqliyyat vasitələrinin istismarı zamanı heyvanların tələf olmasının qarşısının alınması məqsədilə sanitariya-epidemioloji, yanğından mühafizə, bioloji və texniki təhlükəsizlik tədbirləri həyata keçirməlidirlər. Ölkəmizdə təbii şəraitdə yaşayan, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növləri xüsusi mühafizə edilir və Azərbaycan Respublikasının Qırmızı kitabına aid olunur.

Qanunvericiliklə yoluxucu, epizodik və başqa xəstəliklərə yoluxması hallarında, təbii fəlakətlər, ekoloji və fövqə-

[33] «Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları» və «Heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasını gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydaları»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (27 iyul 2004-cü il)

ladə vəziyyət dövründə heyvanlara yardım göstərilməsi müəyyən edilmişdir.

«Heyvanlar aləmi haqqında» Azərbaycan Respublikasının Qanununun 36-cı maddəsinə əsasən pestisidlər, herbisidlər, aqrokimyəvi maddələr, mineral gübrələr və kənd, meşə və su təsərrüfatında istifadə edilən başqa bitki mühafizəsi vasitələri tətbiq edilərkən heyvanların və onların yaşayış mühitinin mühafizəsi tələbləri nəzərə alınmalıdır.

Qanunvericilik ekoloji təhlükəsizlik normativləri müəyyən edilərkən heyvanların yaşayış mühitinin mühafizəsi üzrə tədbirlərin görülməsini təsbit etmişdir.

Heyvanlar aləminin mühafizəsi və istifadəsinin iqtisadi tənzimlənməsinin prinsiplər özündə heyvanlar aləmindən istifadəyə görə ödəmələr və qeyri-qanuni heyvan ovuna görə cərimələri, dövlət büdcəsi və büdcədənkənar ödəmələri, vurulan zərərin kompensasiyasını və stimullaşdırılmasını əhatə edir.

Heyvanlar aləmi haqqında qanunvericiliyi pozmaqla bağlanmış əqdlər etibarsızdır. «Heyvanlar aləmi haqqında» AR Qanununun 53-cü maddəsində məsuliyyətə səbəb olan aşağıdakı hallar təsbit olunur: heyvanlar aləminin obyektlərini təbii mühitdən xüsusi icazə olmadan götürdükdə; heyvanlar aləminin obyektlərindən özbaşına xüsusi istifadə etdikdə; heyvanlar aləminin obyektlərindən istifadənin limitlərini artırdıqda və başqa tələblərini pozduqda; dövlət ekoloji ekspertizasının tələblərini yerinə yetirmədikdə; ov qaydalarını kobud şəkildə pozduqda (ov etmək üçün icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş müddətlərdə, qadağan edilmiş alətlərlə və ya üsullarla ov etdikdə), habelə digər ov qaydalarını müntəzəm pozduqda; qurumuş bitkiləri və ya onların qalıqlarını özbaşına yandırdıqda; bitki mühafizəsi vasitələrinin, onların boy stimulyatorlarının,



mineral gübrələrin və başqa maddələrin (preparatların) saxlanması, daşınması və tətbiq edilməsi qaydalarını pozduqda; zooloji kolleksiyaların yaradılması, zənginləşdirilməsi, saxlanması, istifadəsi və dövlət uçotuna alınması, onlarla ticarət, habelə Azərbaycan Respublikasına gətirilməsi, onun hüdudlarından kənara göndərilməsi və aparılması qaydalarını pozduqda; özbaşına, yaxud müəyyən edilmiş qaydanı pozmaqla heyvanları köçürdükdə, iqlimə uyğunlaşdırdıqda və artırdıqda, genetik cəhətdən dəyişmiş orqanizmlərdən istifadə etdikdə; heyvanlarla rəhmsizcəsinə davranması nəticəsində onları şikəst və ya tələf etdikdə; heyvanlar aləmi obyektlərinin vəziyyəti və sayı, onların istifadəsi haqqında məlumatları gizlətdikdə və təhrif etdikdə; heyvanların tələf olmasının, onların yaşayış mühitinin pisləşməsinin qarşısını almaq üçün və heyvanlar aləminə mənfi təsirin ləğv edilməsi məqsədilə tədbirlər görmədikdə; heyvanlar aləmi obyektlərinin əldə edilməsi, realizə olunması, Azərbaycan Respublikasının hüdudlarından kənara göndərilməsi, aparılması və onun ərazisinə gətirilməsi qaydalarını pozduqda; Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş və ya xüsusi mühafizə olunan heyvan növlərinin siyahısında olan heyvanların mühafizəsi üzrə tələbləri yerinə yetirmədikdə; heyvanların əldə edilməsində qadağan edilmiş ov alətlərini hazırladıqda, saxladıqda, satdıqda və tətbiq etdikdə; heyvanlar aləminin mühafizəsinə və istifadəsinə dövlət nəzarətini həyata keçirən orqanların yazılı tələblərini və qərarlarını yerinə yetirmədikdə və Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində mübahisələr ancaq məhkəmə qaydasında həll edilir.

## 5.4. Heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət müəyyən olunub. Balıqları və başqa su heyvanlarını qanunsuz tutma AR Cinayət Məcəlləsi ilə məsuliyyət yaradır. Belə ki, AR CM-in 256.1-ci maddəsinə görə balıq və digər su bioresursların qanunsuz tutulması xeyli miqdarda ziyan vurduqda yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan üç yüz iyirmi saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Eyni əməllər: külli miqdarda ziyan vurulmaqla, özüyeriyən və özüüzən nəqliyyat vasitəsindən və ya partlayıcı və ya kimyəvi maddələrdən və ya balıq və digər su bioresurslarının kütləvi məhvinə səbəb olan vasitələrdən istifadə etməklə, qoruqların ərazisində və ya fövqəladə yaxud təhlükəli ekoloji vəziyyət zonasında törədildikdə yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Göstərilən əməllər şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya qabaqcadan əlbir olan bir qrup şəxs, yaxud mütəşəkkil dəstə tərəfindən törədildikdə min manatdan iki min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

AR CM-in 256-cı maddəsinin qeyd hissəsində göstərilir ki, «xeyli miqdar» dedikdə, dörd yüz manatdan min manatadək olan məbləğ, 256.2.2-ci maddəsində «külli miqdar» dedikdə isə min manatdan artıq olan məbləq başa düşülür.



AR CM-in 257-ci maddəsində «Balıq və digər su bioresurslarının qorunması qaydalarını pozmağa görə məsuliyyət müəyyən edilmişdir. Cinayət məsuliyyətini yaradan əməllər körpülərin, bəndlərin tikintisi, partlayış işlərinin və ya digər işlərin həyata keçirilməsi, habelə suburaxıcı qurğuların istismarı balıq ehtiyatlarının qorunması qaydalarını pozmaqla balıq və digər su bioresurslarının kütləvi məhvinə səbəb olmaqla bağlıdır. Belə ki, bu halda şəxs yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Lazımi icazə olmadan və ya qadağan edilmiş yerlərdə, yaxud qadağan edilmiş vaxtda, qadağan edilmiş alət və üsullarla ov etmə xeyli miqdarda ziyan vurduqda, AR CM-in 258.1-ci maddəsi ilə təqsirkar şəxs yüz manatdan beş yüz manatadək miqdarda cərimə və ya 240 saatadan 320 saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Aşağıdakı hallarda təqsirli şəxs yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır: göstərilən əməllər külli miqdarda ziyan vurulmaqla törədildikdə; partlayıcı maddələrdən və ya quşların və heyvanların kütləvi məhvinə səbəb olan başqa üsullardan istifadə etməklə törədildikdə; ovlanması tamamilə qadağan edilmiş quşlara və heyvanlara qarşı törədildikdə; qoruqların ərazisində və ya ekoloji fəlakət və fövqəladə ekoloji vəziyyət zonasında törədildikdə. Bu əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə və qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə altı yüz manatdan min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən və-

zifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

AR CM-in 258-ci maddəsində «xeyli miqdar» dedikdə, dörd yüz manatdan min manatadək olan məbləğ, «külli miqdar» dedikdə isə min manatdan artıq olan məbləğ başa düşülür.

AR İXM-in 289-cu maddəsi (Baytarlıq haqqında qanunvericiliyin pozulması) aşağıdakı hüquqazidd əməllərə görə məsuliyyət müəyyən edir: baytarlıq haqqında qanunvericiliyin pozulmasına, yəni baytarlıq baxışından keçirilməyən, baytarlıq (baytarlıq-sanitariya) tələblərinə cavab verməyən və ticarət üçün xüsusi ayrılmış yerlərdən kənarda heyvanların kəsilməsi; heyvan mənşəli məhsulların qanunvericiliklə müəyyən edilmiş qaydada baytarlıq (baytarlıq-sanitariya) ekspertizası aparılmadan satışı və istehsalı; heyvanların kütləvi xəstələnməsi və ya onların qeyri-adi vəziyyətləri, heyvan tələfatı halları haqqında müvafiq icra hakimiyyəti orqanlarına məlumat verməmə, habelə belə heyvanları təcrid etməmə; yoluxucu xəstəliklərin qarşısının alınması üzrə karantin tədbirlərinin və baytarlıq (baytarlıq-sanitariya) qaydalarının, yaxud dövlət baytarlıq nəzarətini həyata keçirən orqanların epizootiya əleyhinə dair qərarlarının pozulması və digər qərarları icra etməmə.

Yuxarıda göstərilən hüquqazidd əməllərə görə fiziki şəxslər iki yüz manatdan üç yüz manatadək məbləğində, vəzifəli şəxslər beş yüz manatdan altı yüz manatadək məbləğində, hüquqi şəxslər beş yüz manatdan iki min manatadək məbləğində cərimə edilirlər.

Şəhərlərdə və ya digər yaşayış məntəqələrində it, pişik və ya başqa ev heyvanlarının saxlanılması qaydalarının pozulmasına görə AR İXM-in 290-ci maddəsi ilə təqsirkar şəxs beş manatdan iki yüz manat məbləğində cərimə edilir.



AR İXM-in 291-ci maddəsi Qırmızı kitaba daxil olunmuş heyvan və bitki növlərinin qorunması üzrə tələblərin pozulması Azərbaycan Respublikasının Qırmızı kitabına daxil olunmuş və xüsusi mühafizə olunan bitki və heyvan növlərinin siyahısında olan heyvanların mühafizəsi üzrə tələblərin yerinə yetirilməməsinə görə məsuliyyət müəyyən edib. AR İXM-in 291-ci maddənin sanksiyası göstərilən əməllərə görə şəxsin beş yüz manatdan yeddi yüz manatadək məbləğində cərimə edilməsini nəzərdə tutur.

Zooloji kolleksiyaların yaradılması və onlarla ticarət qaydalarının pozulması inzibati məsuliyyətə səbəb olunur. Belə ki, AR İXM-in 291.1-ci maddəsində məsuliyyətin əsasını aşağıdakı hüquqazidd əməllər təşkil edir: zooloji kolleksiyaların yaradılmasının, zənginləşdirilməsinin, saxlanmasının, istifadəsinin, dövlət uçotuna alınmasının, Azərbaycan Respublikasına gətirilməsinin, onun hüdudlarından kənara göndərilməsi və ya aparılması qaydalarının pozulması; zooloji kolleksiyalarla qanunvericiliklə müəyyən edilmiş ticarət qaydalarının pozulması. Birinci halda fiziki şəxslər beş yüz manat məbləğində, vəzifəli şəxslər iki min manat məbləğində, hüquqi şəxslər beş min manat məbləğində cərimə edilir. İkinci halda isə fiziki şəxslər iki yüz manat məbləğində, vəzifəli şəxslər min manat məbləğində, hüquqi şəxslər üç min manat məbləğində cərimə edilir.

# VI FƏSİL

## ATMOSFER HAVASININ EKOLOJİ-HÜQUQİ REJİMİ

### 6.1. Atmosfer havasının ekoloji-hüquqi rejiminin anlayışı və dövlət tənzimlənməsi

Atmosfer – Yer kürəsinin aerozol zərrəcikləri ilə dolu olan və Yer kürəsi ilə birlikdə dünya məkanında hərəkət edən, eyni zamanda Yerin fırlanmasında iştirak edən qaz səthidir. [34]

Bu, atmosferin elmi tərifidir. Atmosfer havası – təbiət ehtiyatlarının bir növüdür. Hüdudsuzluq, qazoxşar vəziyyət, hərəkətlilik onu suverenlikdən, mülkiyyətdən azad edir.[35] Bu hələ Roma hüququnda etiraf edilirdi (Yustinianın institutlarında): «Naturali jure communia sunt omnium hoes: aer, aqua profluens et mare». [36] Hava, axan su və dəniz, Roma hüquqşünasları tərəfindən res omnium communis (hamının istifadəsi üçün əşya) kateqoriyasına aid edilərək və xüsusi mülkiyyətdən ayrılaraq, hamının istifadəsinə verilirdi. Roma

[34] Хромов С.П., Метеорология и климатология. М., 2001, с.5

[35] Виноградов С.В. Международное право и охрана атмосферы / Отв. ред. Н.В. Захарова. М.: Наука, 1987, с.75

[36] İpek Sevda Söğüt. Roma Hukukunda Çevrenin Korunmasına İlişkin Hukuki Vasıtalar, Istanbul, On İki Levha Yayıncılık, 2014, s.93.



hüququnun prinsipi olan «Torpaq kimə məxsusdursa, torpaqdan göyədək məkan da həmin şəxsə məxsusdur» anlamı həqiqətdə başqa bir mülkiyyəti nəzərə alırdı – burada mülkiyyətdə hava yox, hava məkanı nəzərdə tutulur. Hər bir dövlətin tam və istisnasız olaraq öz ərazisi üzərində olan hava məkanında suverenliyi prinsipi – beynəlxalq hüquq tərəfindən qəbul edilən prinsipdir. Atmosferlə bağlı olan problemlər – qlobaldır. Buna görə beynəlxalq və milli hüquqi tənzimləmələr bir-biri ilə bağlıdır. Çünki mövcud olan normalar, institutlar, hüquqi aktlar, qanunvericiliklər ilk öncə beynəlxalq səviyyədə qəbul olunur və sonra müxtəlif ölkələrdə tətbiq edilir, yaxud əvvəlcə bir ölkə səviyyəsində milli qanunvericilik kimi qəbul olunur, daha sonra beynəlxalq səviyyədə bütün ölkələrdə tətbiq olunurdular. XIX əsrin axırlarından başlayaraq beynəlxalq əməkdaşlıq sahəsində atmosferin aktiv araşdırmaları başladı. XIX əsrin 70-ci illərində Ümumdünya Meteoroloji Təşkilatı yaradıldı. [37]

Atmosfer təbiətin başqa obyektlərindən seçilir. Atmosfer havası – təbiət mühitində ən hərəkətli elementdir. Atmosferin ümumi sirkulyasiyası nəticəsində hava kütlələri bir sutka ərzində minlərlə kilometr yer dəyişirlər. Bununla yanaşı, atmosfer havası – material obyektdir və istənilən fəaliyyətin ayrılmaz hissəsidir. Atmosfer – universal təbiət ehtiyatıdır, o bütün xalqların və dövlətlərin ümumi istifadəsindədir [38]

Azərbaycan Respublikasında təbiət obyekti olan atmosfer havasının mühafizəsi sahəsində istinad olunan əsas hüquqi sənəd 27 mart 2001-ci ildə imzalanmış «Atmosfer havasının mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qa-

[37] Хромов С.П., Метеорология и климатология М.,2001, с.117

[38] Андрейцев В. И. Теоретические проблемы правового обеспечения эффективности экологической экспертизы: Автореф. дис. ... докт. юр. наук. Харьков, 1996.

nunudur. 7 fəsil 31 maddədən ibarət olan qanunda atmosfer havasının mühafizəsinin bütün əsas məsələləri və mərhələləri əhatə olunub. [39] Qanun atmosfer havasının mühafizəsinin hüquqi əsasları müəyyən etməklə, əhalinin əlverişli ətraf mühitdə yaşamasına və ətraf mühit barədə dəqiq məlumat almasına dair hüquqlarını həyata keçirməyə hüquqi təminat verir. Qanunda bu sahəyə aid əsas anlayışlara aydınlıq gətirilir, istifadə olunan terminlərin izahı verilir. Qeyd olunur ki, atmosfer havası - ətraf mühiti əhatə edən atmosfer qazlarının təbii qarışığıdır. Atmosferə zərərli və çirkləndirici maddələr (zərərli maddələr) atılması - atmosfer havasına atılan və müəyyən qatılıq həddində insan sağlamlığına və ətraf mühitə zərərli təsir göstərən maddələr və ya onların qarışıqları kimi başa düşülməlidir. Atmosfer havasının çirklənməsi dedikdə isə - atmosfer havasında zərərli maddələrin miqdarının gigiyenik və ekoloji normativlərdən artıq olması anlamını kəsb edir.

Bildiyimiz kimi atmosfer havası elə bir spesifik təbiət obyektidir ki, o heç bir dövlət sərhəddi tanımır. Bir sutkada onlarla kilometr məsafə yerdəyişə biləcək bir təbiət komponentidir. Odur ki, qanunda da qeyd olunur ki, atmosfer havası təkcə dövlətin sərhədləri daxilində, öz ərazisində deyil, başqa dövlət və ya dövlətlərin ərazisində də çirklənməyə məruz qala bilir və bu prosesi atmosfer havasının transsərhəd çirklənməsi - mənbəyi bir dövlətin ərazisində yerləşən zərərli maddələrin yayılması nəticəsində digər ölkənin atmosfer havasının çirklənməsi kimi izahat verilir. Mənbəyi xarici ölkənin ərazisində yerləşən zərərli maddələrin yayılması nəticəsində Azərbaycan Respublikası ərazisində atmosfer havasının çirklənməsi müşahidə edildiyi halda müvafiq icra hakimiyyəti orqanı – AR Xarici İşlər Nazirliyi və AR

[39] http://www.e-qanun.az/framework/3515



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq müvafiq tədbirlərin həyata keçirilməsini təmin edir.

Atmosfer havasının yer səthinə bitişik qatında (troposferdə) zərərli maddələrin toplanmasına və yayılmasına səbəb olan meteoroloji şərait əlverişsiz meteoroloji şəraitdir. Atmosfer havasının keyfiyyətinin dəyişməsi zamanı insanların sağlamlığının və həyatının mühafizəsi dövlətin əsas vəzifələrindən biridir. Belə hallarda şəhər və digər yaşayış məntəqələrinin ərazilərində əlverişsiz meteoroloji şərait yarandığı zaman atmosfer havasına atılan zərərli maddələrin miqdarını tənzimləmək məqsədi ilə müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları müvafiq proqnozlar əsasında hazırlanmış tədbirlər həyata keçirirlər. Fəaliyyəti nəticəsində zərərli maddələri atmosfer havasına atan hüquqi və fiziki şəxslər əlverişsiz meteoroloji şərait barədə proqnozları əldə etdikdə zərərli maddələrin miqdarının azaldılmasına dair tədbirləri müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdıraraq həyata keçirməlidirlər. Qəza zamanı zərərli maddələrin atmosferə atılması nəticəsində atmosfer havasının keyfiyyətinin pisləşməsinə, insan sağlamlığına və həyatına təhlükə yarandığı halda, onların mühafizəsinə dair qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən təcili tədbirlər həyata keçirirlər.

Məlum olduğu kimi atmosfer havası əsasən iki mənbədən – antropogen və təbii mənbələrdən çirklənə bilir. Onlardan çirkləndirici kimi ən böyük pay sahibi antropogen çirklənmədir. Bu təsirlər qanunda atmosfer havasına zərərli fiziki təsir – Antropogen mənşəli səs-küy, vibrasiya, ionlaşdırıcı şüalar, elektromaqnit dalğaları, hərarət, radiasiya və digər fiziki amillərin insan sağlamlığına və ətraf mühitə zərərli

olaraq atmosfer havasının fiziki xassələrini dəyişdirən təsiri – kimi qiymətləndirilir. Ümumiyyətlə insan fəaliyyəti ətraf mühitlə o qədər sıx, birbaşa bağlıdır ki, bu fəaliyyəti başqa cür təsəvvür belə etmək mümkün deyil. Buna görə də insanlar bəzən bilərəkdən, bəzən isə bilməyərəkdən ətraf mühitə ziyan vurur, zərər yetirirlər. Azərbaycan Respublikasının ən ali qanunu olan Konstitusiyada da bu məsələ prinsip xarakterli müddəalarla öz əksini tapıb. Belə ki, AR Konstitusiyasının 39-cu maddəsinin III hissəsi məhz qeyd etdiyimiz məsələyə həsr olunub. Orada qeyd olunur ki: «Heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş həddən artıq təklükə törədə və ya zərər vura bilməz». [40] Atmosfer havası «Atmosfer havasının mühafizəsi» haqqında AR Qanunda atmosfer havasına fiziki təsirin yol verilən səviyyəsinin meyarı kimi atmosfer havasına fiziki təsirin insan sağlamlığına və ətraf mühitə zərərli olmayan maksimum səviyyəsini əks etdirən fiziki təsirin normativi olaraq göstərilib. Atmosfer havasının keyfiyyətinin gigiyenik və ekoloji normativləri və ona fiziki təsirin yol verilən səviyyəsi insanlara, flora və faunaya, xüsusi mühafizə olunan təbii ərazilərə və obyektlərə təsirin kimyəvi, bioloji və fiziki amillərin təhlükəsizliyi və (və ya) zərərsizliyi meyarlarının müəyyən edilməsi, habelə atmosfer havasının vəziyyətinin qiymətləndirilməsi məqsədi ilə müəyyən edilir. Atmosfer havasının keyfiyyətinin gigiyenik və ekoloji normativləri və ona fiziki təsirin yol verilən səviyyəsi müvafiq icra hakimiyyəti orqanı – AR Standartlaşma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən müəyyən edilmiş qaydada müəyyən edilir.

Sözü gedən «Atmosfer havasının mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununun 1.0.8-ci bəndində atmosfer havasına zərərli fiziki təsirin yol verilən həddi - mənbələrin hər birinin və hamısının zərərli fiziki təsirlərinin atmosfer havasına fiziki təsirin yol verilən səviyyəsini aşmaması şərti ilə zərərli fiziki təsirin hər bir mənbəyi üçün müəyyən edilən normativ kimi şərh olunubdur. Atmosfer havasına zərərli maddələrin atılmasının dövlət tərəfindən tənzimlənməsi məqsədi ilə atılmanın texniki normativləri və onun yol verilən həddi müəyyən edilir. Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələrin və qurğuların növləri üçün atılmanın texniki normativlərini müvafiq icra hakimiyyəti orqanı olaraq Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi müəyyən edir.

[40] Azərbaycan Respublikasının Konstitusiyası.Bakı: Qanun,2014,s.14



«Atmosfer havasının mühafizəsi haqqında» AR Qanununun 1.0.9-cu maddəsi də yuxarıda qeyd etdiyimiz Konstitusiya prinsipinə uyğun olaraq atılmanın (tullantının) texniki normativi - zərərli maddələrin stasionar və səyyar mənbələri, o cümlədən nəqliyyat vasitələri, texnoloji proseslər və avadanlıqlar üçün məhsul vahidinə, yürüşə, mühərrikin gücünə görə hesablanan atmosfer havasına atılan zərərli maddənin yol verilən maksimum həcmini və digər göstəriciləri müəyyən edən normativ olaraq müəyyənləşdirib. [41] Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələrin və qurğuların növləri üçün atılmanın texniki normativlərini müvafiq icra hakimiyyəti orqanı olaraq Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi müəyyən edir. Oxşar müddəa qeyd olunan qanunun 1.0.10-cu maddəsində öz əksini tapıbdır. Orada qeyd olunur ki, atılmanın (tullantının) yol verilən həddi - stasionar mən-

[41] http://eco.gov.az/az/167-atmosfer-havasinin-muhafizesi-haqqinda-azerbaycan-respublikasinin-qanunu

bələrdən zərərli maddələrin atmosfer havasının keyfiyyətinin gigiyenik və ekoloji normativlərini aşmaması şərti ilə atmosfer havasını çirkləndirən hər bir mənbə üçün atılmanın texniki normativlərini və fon çirklənməsini nəzərə almaqla müəyyən edilən zərərli maddələrin atılmasının yol verilən həddi kimi müəyyənləşdirilməlidir.

Lakin ölkələr öz ərazilərində konkret məqsədlərə nail olmaq üçün bəzi hallarda xüsusi hüquqi rejimlər də müəyyənləşdirə bilirlər. Oxşar məsələ AR Qanunvericilik aktlarında da mövcuddur. Məsələn, Atmosfer havası haqqında» AR Qanununun 1.0.11-ci maddəsində müvəqqəti razılaşdırılmış atılma (tullantı) - atmosfer havasının keyfiyyəti və müvafiq ərazinin sosial-iqtisadi inkişafı nəzərə alınmaqla atılmanın yol verilən həddinə mərhələlərlə nail olmaq şərti ilə, stasionar mənbələr üçün müəyyən edilən atmosfer havasına zərərli maddələrin atılmasının müvəqqəti həddi olaraq qeyd olunub. Lakin bu normanın əsas mahiyyəti ondan ibarətdir ki, atmosfer havasına atılan zərərli maddələrin mənbələri olan hüquqi və fiziki şəxslərin atılmanın yol verilən həddinə riayət etməsi mümkün olmadığı halda, müvafiq icra hakimiyyəti orqanı zərərli maddələrin müvəqqəti razılaşdırılmış atılmasını müəyyən edə bilər. Müvəqqəti razılaşdırılmış atılma, atmosfer havasına zərərli maddələrin atılmasının texniki normativlərinə əməl edilməsi və onların miqdarının azaldılması üzrə tədbirlər planının olması şərti ilə, atılmanın yol verilən həddinə mərhələlərlə nail olunması müddəti üçün müəyyən edilir. Atılmanın yol verilən həddinə mərhələlərlə nail olma müddətlərini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. İnsan sağlamlığına və ətraf mühitə təhlükə dərəcəsi nəzərə alınmaqla, atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılması tədbirlərini hüquqi və fiziki şəxslər hazırlayır və müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırdıqdan sonra həyata keçirirlər. Qanunda göstərilən normativlər və digər göstəricilər, onların müəyyən edilməsi üsulları beynəlxalq standartlar, elmi-texniki tərəqqi və ekoloji vəziyyətin tələbləri nəzərə alınmaqla mütəmadi olaraq müvafiq icra hakimiyyəti orqanları tərəfindən təkmilləşdirilir və qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilir.



Atmosfer havasına istər zərərli maddələrin stasionar mənbələrdən atılmasına, istərsə də zərərli fiziki təsirə yalnız müvafiq icra hakimiyyəti orqanlarının qanunvericiliklə müəyyən edilmiş qaydada verdiyi xüsusi icazə əsasında yol verilir və bu icazədə atmosfer havasına zərərli maddələrin atılmasının yol verilən həddi və atmosfer havasının mühafizəsini təmin edən digər şərtlər müəyyən edilir. Nəqliyyat və digər səyyar vasitələrdən atmosfer havasına zərərli maddələrin atılmasına xüsusi icazənin verilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Atmosfer havasına zərərli maddələrin atılmasına və ona zərərli təsirə xüsusi icazənin verilməsinə görə ödəmə qanunvericiliklə müəyyən edilir. Atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirə xüsusi icazə olmadıqda, habelə bu xüsusi icazədə nəzərdə tutulan şərtlər pozulduqda atmosfer havasına zərərli maddələrin atılması və zərərli fiziki təsir qanunvericiliklə müəyyən edilmiş qaydada məhdudlaşdırılır, dayandırılır və ya ona xitam verilir.

## 6.2. Atmosfer havasının mühafizəsi tələbləri və nəzarət

Atmosfer havasına zərərli təsir edən təsərrüfat fəaliyyətinə dair ümumi tələblər də mövcuddur. Bu, «Atmosfer havasının mühafizəsi haqqında» AR Qanununun 13-cü maddəsində geniş şəkildə əks olunub. [42] Qanunda qeyd olunur ki, atmosfer havasına zərərli təsir edə bilən yeni texnikanın, texnologiyanın, materialların və digər məhsulların istifadəsi nəticəsində vurula biləcək ziyanın qarşısının alınması məqsədi ilə atmosfer havasının mühafizəsinə dair aşağıdakı tələblər müəyyən edilsin:

- atmosfer havasının mühafizəsinə dair qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməyən yeni texnikanın, texnologiyanın, avadanlıqların, texniki vasitələrin, materialların, məmulatların, digər məhsulların tətbiqi və istifadə edilməsi qadağandır;
- qanunvericiliklə müəyyən edilən istismar müddəti keçmiş atmosfer havasının keyfiyyətinə zərərli təsir göstərən nəqliyyat, digər səyyar vasitələr və avadanlıqların, onların ehtiyat hissələrinin ölkə ərazisinə gətirilməsi qadağandır; -
- insanın sağlamlığı və həyatı, ətraf mühit üçün təhlükə dərəcəsi müəyyən edilməmiş maddələrin atmosfer havasına atılması qadağandır;
- Azərbaycan Respublikasının ərazisində yanacaq istehsalına, idxalına və istifadəsinə yalnız onların atmosfer havasının mühafizəsinə dair tələblərə uyğun olmasını təsdiq edən sertifikatlar olduqda yol verilir;
- Azərbaycan Respublikasının ərazisində texniki qurğuların, texnoloji proseslərin, mühərriklərin, nəqliyyat və digər səyyar vasitələrin, avadanlıqların və onların ehtiyat hissələrinin istehsalına, idxalına, istismarına yalnız onların istifadəsi zamanı zərərli maddələrin kütləsinin atılmanın texniki normativlərinə uyğunluğunu təsdiq edən sertifikatlar olduqda yol verilir;
- texniki qurğuların, texnoloji proseslərin, mühərriklərin, nəqliyyat və digər-səyyar vasitələrin istifadəsi zamanı zərərli maddələrin kütləsinin atılmanın texniki normativlərə uyğunluğunu təsdiq edən sertifikatlar, habelə yanacağın atmosfer havasının mühafizəsinə dair tələblərə uyğunluğunu təsdiq edən sertifikatlar qanunvericiliklə müəyyən edilmiş qaydada verilir;
- müvafiq icra hakimiyyəti orqanı işlədilməsi nəticəsində atmosfer havasını çirkləndirən neft və təbii qaz məhsullarının, başqa yanacaq növlərinin istifadəsini məhdudlaşdıra bilər, habelə ekoloji cəhətdən təhlükəsiz yanacaq növlərinin və digər enerji daşıyıcılarının istehsalını və istifadəsini stimullaşdırır.

[42] http://eco.gov.az/az/167-atmosfer-havasinin-muhafizesi-haqqinda-azerbaycan-respublikasinin-qanunu



Atmosfer havasının vəziyyətinin və atmosfer proseslərinin dəyişməsinə yönələn fəaliyyət yalnız Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi xüsusi icazə əsasında bu fəaliyyətin insanın sağlamlığı və həyatı, ətraf mühit üçün zərərli nəticələri olmadıqda həyata keçirilə bilər.

Atmosfer havası çox geniş spektri əhatə edir, o insan fəaliyyətinə, yaşayışına təsir göstərir və eyni zamanda özü də təsirə məruz qalır. Odur ki, hətta təsərrüfat obyektlərinin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı zamanı atmosfer havasının mühafizəsi ilə əlaqədar normativlər, tələblər müəyyənləşdirməyə ehtiyac yaranır. «Atmosfer havasının mühafizəsi haqqında» AR Qanununda qeyd olunur ki, təsərrüfat obyektlərinin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismarı zamanı atmosfer havasının keyfiyyətinin gigiyenik və

ekoloji normativlərinə riayət edilməsinə dair tələblər təmin olunmalıdır. Şəhər və digər yaşayış məntəqələrinin hüdudlarında, yanında, habelə şəhər və digər yaşayış məntəqələrinin salınması, yenidən tikintisi zamanı atmosfer havasının keyfiyyət normativlərinə zərərli təsir edən təsərrüfat obyektləri layihələşdirilərkən, yerləşdirilərkən atmosfer havasının çirklənməsinin fon səviyyəsi və təsərrüfat fəaliyyətinin həyata keçirilməsi nəticəsində onun keyfiyyətinin dəyişməsi nəzərə alınmalıdır. Əhalinin yaşayış yerlərində atmosfer havasının mühafizəsi məqsədi ilə müəssisə və təşkilatların qanunvericiliklə nəzərdə tutulmuş qaydada sanitar mühafizə zolaqları ayrılır. Belə sanitar-mühafizə zolaqlarının ölçüləri atmosfer havasına atılan zərərli maddələrin yayılma dərəcəsi, müəssisə və təşkilatların sanitar təsnifatı ilə müəyyən edilir. Atmosfer havasının keyfiyyətinə zərərli təsir edə bilən təsərrüfat obyektlərinin tikinti layihələrində atmosfer havasına atılan zərərli maddələrin miqdarının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən tələblərə uyğun olaraq azaldılması və onların zərərsizləşdirilməsi öz əksini tapmalıdır. Atmosfer havasının keyfiyyətinə zərərli təsir edə bilən təsərrüfat obyektlərinin salınması yerləri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılır. Yeni salınan və ya yenidən qurulan təsərrüfat obyektlərində atmosfer havasına zərərli maddələrin atılmasının və zərərli fiziki təsirlərin atılmanın texniki normativlərindən və yol verilən həddindən, zərərli fiziki təsirlərin yol verilən həddindən artıq olmaması təmin olunmalıdır. Atmosfer havasının mühafizəsi qaydalarında nəzərdə tutulmuş qaztoztutucu qurğuları və atmosfer havasına atılan zərərli maddələrə ölçü-nəzarət vasitələri olmayan təsərrüfat obyektlərinin yerləşdirilməsi və istismarı qadağandır. İnsanın sağlamlığının pisləşməsinə, ozon qatının, iqlimin, flora və faunanın vəziyyəti, ətraf mühit və əhali üçün



ağır nəticələrə səbəb ola bilən təsərrüfat obyektlərinin layihələşdirilməsi, yerləşdirilməsi, tikintisi və istismarı qadağandır. Atmosfer havasının çirkləndirilməsi nəticəsində insanların sağlamlığına, əmlaka və ətraf mühitə vurulan zərər qanunvericiliklə müəyyən edilmiş qaydada atmosfer havasının çirklənməsində təqsirkar hesab edilən fiziki və hüquqi şəxslərin hesabına qanunvericiliyə uyğun olaraq ödənilir.

Ekoloq alimlərin apardıqları tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, atmosfer havasının çirklənməsində əsas mənbələr qismində məhz nəqliyyat və digər səyyar vasitələr əhəmiyyətli yer tuturlar. Tanınmış alim M.E.Berlandın hesablamalarına görə hər il ətraf mühitə, o cümlədən atmosferə $150\text{-}300 \cdot 10^6$ t antropogen aerozol daxil olur. Əsas məsələ qlobal ekoloji sistemə təsir edə biləcək atmosfer prosesləri kompleksinin kəmiyyətcə modellərinin işlənməsidir. Məhz bu səbəbdən Atmosfer havasının mühafizəsi haqqında «AR-in 27 mart 2001-ci il tarixli qanununun 15-ci maddəsinin birinci bəndində göstərilir ki, atmosfer havasına atılan zərərli maddələrin miqdarı və tərkibi qanunvericiliklə müəyyən edilmiş atılmanın texniki normativlərindən artıq olan nəqliyyat və digər səyyar vasitələrin istismarı qadağandır. Müvafiq icra hakimiyyəti orqanları nəqliyyat və digər səyyar vasitələrinin istismarı zamanı atmosfer havasına atılan zərərli maddələrin miqdarının azaldılmasını təmin edən tədbirlər həyata keçirməlidirlər. Müvafiq icra hakimiyyəti orqanları nəqliyyat və digər səyyar vasitələrin yaşayış məntəqələrinə, istirahət, turizm yerlərinə, sağlamlıq və səhiyyə obyektlərinə girişini məhdudlaşdıra, nəqliyyat vasitələrinin hərəkətini tənzimləyə bilərlər. Atmosfer havasına nəqliyyat və digər səyyar vasitələrindən atılan zərərli maddələrini atılmanın texniki normativlərindən artıq olmamasına nəzarət qanunve-

riciliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Müəssisə və təşkilatların, yaşayış məntəqələrinin ərazisində atmosfer havasına zərərli təsir göstərən istehsal və məişət tullantılarının saxlanılması, basdırılması, zərərsizləşdirilməsi qanunvericiliklə müəyyən edilən qaydada həyata keçirilir. Həmin tullantıların xüsusi qurğular olmadan yandırılmasına icazə verilmir. İstehsal və məişət tullantıları atmosfer havasının çirklənmə mənbəyi olan hüquqi və fiziki şəxslər belə tullantıların saxlanılması, yaxud basdırılması üçün onların xüsusi yerlərə, habelə onları xammal kimi istifadə edən təsərrüfat və digər fəaliyyət obyektlərinə daşınmasını təmin etməlidirlər. Atmosfer havasını çirkləndirən istehsal və məişət tullantıları üçün saxlanma, basdırılma və məhv edilmə yerləri müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları ilə razılaşdırılmalıdır.

Azərbaycan Respublikasında parnik effektli qazlar, ozon təbəqəsini dağıdan maddələr və fiziki təsirlər daxil olmaqla atmosfer havasına atılan zərərli maddələrin miqdarı və tərkibi, zərərli fiziki təsirlərin növləri və miqyası göstərilməklə atmosfer havasına atılan zərərli maddələrin və ona zərərli fiziki təsirlərin mənbəyi olan hüquqi və fiziki şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət uçotuna alınır.

Sürətlə dəyişən müasir cəmiyyətdə mövcud ekoloji durumu yaxşılaşdırmaq hər bir dövlətin əsas, prioritet vəzifələrindən biri hesab olunur. Lakin mövcud reallıqlar onu deməyə əsas verir ki, bir tək dövlətin inzibati vasitələri ilə normativ hüquqi sənədlərin işləməsini təmin etmək mümkünsüzdür. Eyni sözləri atmosfer havası haqqında da söyləmək olar. Belə ki, normanın olması nə qədər vacibdirsə, həmin normanın işləməsinə nəzarət, dəstək bir o qədər əhəmiyyətli-



dir. Burada əsas məsələlərdən biri monitorinqdir. Atmosfer havasının çirklənməsinin müşahidəsi, onun vəziyyətinin kompleks qiymətləndirilməsi və proqnozu, habelə müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarını, müəssisələri, təşkilatları və əhalini cari və təcili məlumatlarla təmin etmək məqsədi ilə dövlət monitorinqi sistemi təşkil edilir və aparılır. Atmosfer havasının dövlət monitorinqi ətraf mühitin monitorinqinin əsas tərkib hissəsi olaraq müvafiq icra hakimiyyəti orqanı - Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada aparılır.

Atmosfer havasının mühafizəsi sahəsində dövlətin nəzarəti qanunvericilikdə aşağıdakı kimi nəzərdə tutulubdur:

- atmosfer havasına atılan zərərli maddələrə və onların zərərli fiziki təsirlərinə verilən xüsusi icazənin ərtlərinə;
- atmosfer havasının mühafizə standartlarına, normativlərinə, qaydalarına və digər tələblərinə, o cümlədən atmosfer havasının mühafizəsinə istehsalat nəzarətinin keçirilməsinə;
- atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbəyi olan obyektlərin sanitar-mühafizə rejiminə;
- atmosfer havasının mühafizəsinə dair məqsədli dövlət proqramlarının və tədbirlərin həyata keçirilməsinə;
- nəqliyyat və digər səyyar vasitələr üçün qanunvericiliklə müəyyən edilmiş atılmanın texniki normativlərinə riayət olunmasına;
- atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin digər tələblərinə və beynəlxalq aktlara əməl edilməsini təmin etməlidir. [43]

Atmosfer havasının mühafizəsi sahəsində istehsalat (müəssisə) və təşkilatların nəzarəti də olduqca əhəmiyyətli-

[43] http://eco.gov.az/az/167-atmosfer-havasinin-muhafizesi-haqqinda-azerbaycan-respublikasinin-qanunu

dir. Atmosfer havasının mühafizəsi haqqında AR Qanunda bu nəzarət aşağıdakı kimi müəyyən olunmuşdur:

- Atmosfer havasına zərərli kimyəvi, bioloji və fiziki təsir göstərən mənbələri olan hüquqi şəxslər atmosfer havasının mühafizəsi sahəsində istehsalat (müəssisə) nəzarətini həyata keçirirlər və bu məqsədlə cavabdeh şəxsi təyin edir və (və ya) ekoloji xidməti təşkil edirlər.
- Atmosfer havasına zərərli kimyəvi, bioloji və fiziki təsir göstərən mənbələri olan hüquqi şəxslər atmosfer havasının mühafizəsini qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirirlər.
- Atmosfer havasının mühafizəsinə istehsalat (müəssisə) nəzarətini həyata keçirən şəxslərin və təşkilatların ekoloji xidməti haqqında məlumatlar, habelə nəzarətin nəticələri müvafiq icra hakimiyyəti orqanlarına təqdim edilir.

Nəzarət modelləri içərisində ictimai nəzarət xüsusi yer tutur. Atmosfer havasının mühafizəsi sahəsində ictimai nəzarət ətraf mühitin mühafizəsi və qeyri-hökumət təşkilatları haqqında Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

Atmosfer havasına atılan zərərli maddələrin stasionar və səyyar mənbələri olan hüquqi və fiziki şəxslər mövcud hüquq normalarının tələblərinə əməl etmədikdə, vəzifələrini icra etmədikdə məsuliyyətə cəlb olunurlar. Atmosfer havasının mühafizəsi ilə bağlı stasionar və səyyar mənbələri olan hüquqi və fiziki şəxslərin aşağıdakı vəzifələri vardır:

- atmosfer havasına atılan zərərli maddələrin inventarlaşdırılmasının keçirilməsini və atmosfer havasına atılan zərərli maddələrin və onların fiziki təsirlərinin yol verilən həddinədək normativlərə əməl olunmasını təmin etməyə;



- atmosfer havasına zərərli təsir edən təsərrüfat obyektlərinin tikinti yerlərini müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırmağa;
- atmosfer havasının çirklənməsi səviyyəsinin azaldılması məqsədi ilə az tullantılı və tullantısız texnologiyaları tətbiq etməyə;
- atmosfer havasına zərərli maddələrin atılmasının qarşısının alınmasına, onların təkrar işlədilməsinə, zərərsizləşdirilməsinə, belə maddələrin istehsalına dair tədbirlərin hazırlanmasını və həyata keçirilməsini təmin etməyə;
- qəza zamanı atmosfer havasına atılan zərərli maddələrin qarşısının alınmasına və onun təsirinin aradan qaldırılmasına, qəza nəticələrinin ləğv edilməsinə dair tədbirləri həyata keçirməyə;
- atmosfer havasına atılan zərərli maddələrin və onların mənbələrinin uçotunun aparılmasını, həmçinin müəyyən edilmiş normativlərə əməl olunmasına istehsalat nəzarətini keçirməyə;
- atmosfer havasına zərərli maddələrin atılmasına nəzarəti və onların zərərsizləşdirilməsi üçün nəzərdə tutulmuş tikililərin, qurğuların və cihazların quraşdırılmasını həyata keçirməyə və onların istismar qaydalarına əməl etməyə;
- atmosfer havasına zərərli təsir edən istehsal və digər fəaliyyət obyektlərinin sanitar-mühafizə zolaqlarının rejiminə əməl olunmasını təmin etməyə;
- təsərrüfat obyektlərinin ərazilərindən atmosfer havasını çirkləndirən zərərli maddələrin xüsusi saxlama və ya basdırılma yerlərinə, habelə onları xammal kimi istifadə edən obyektlərə vaxtında və təhlükəsiz daşınmasını təmin etməyə;
- atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin tələblərinin pozulmasının aradan qaldırılmasına dair

müvafiq icra hakimiyyəti orqanlarının vəzifəli şəxslərinin sərəncamlarını və yazılı göstərişlərini yerinə yetirməyə;

- qəza nəticəsində atmosfer havasının çirklənməsinə səbəb olan zərərli maddələr barədə məlumatları müvafiq icra hakimiyyəti orqanlarına dərhal göndərməyə;

- atmosfer havasının mühafizəsi məsələlərinə dair məlumatları müvafiq icra hakimiyyəti orqanlarına müəyyən edilmiş qaydada təqdim etməyə [44].

[44] http://eco.gov.az/az/167-atmosfer-havasinin-muhafizesi-haqqinda-azerbaycan-respublikasinin-qanunu



### 6.3. Atmosfer havası haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin pozulmasına görə məsuliyyət tədbirləri də qanunvericilikdə nəzərdə tutulub. Belə ki, atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə aşağıdakı hallarda:

- Qanunda nəzərdə tutulmuş zərərli maddələrin atılmasının və zərərli fiziki təsirlərin normativlərini və hədlərini aşdıqda;

- müvafiq icra hakimiyyəti orqanlarının xüsusi icazəsi olmadan atmosfer havasına zərərli maddələr atdıqda;

- xüsusi icazədə göstərilmiş normalardan artıq zərərli maddələri atdıqda və zərərli fiziki təsir etdikdə;

- atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirə nəzarət etmək məqsədi ilə quraşdırılmış qurğulardan, avadanlıqdan və cihazlardan istismar qaydaları pozulduqda;

- atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin tələblərinə cavab verməyən yeni və yenidən qurulmuş qurğuları və avadanlıqları istismara verdikdə;

- atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməyən və atmosfer havasına zərərli maddələrin atılmasına nəzarət üçün texniki vasitələrlə təmin olunmasını nəzərə almayan kəşfləri, ixtiraları, səmərələşdirici təklifləri, yeni texniki sistemləri, maddələri tətbiq etdikdə, habelə bu cür texnoloji avadanlıqları idxal etdikdə;

- atmosfer havasının mühafizəsinə dövlət nəzarətini həyata keçirən orqanların göstərişlərini yerinə yetirmədikdə;

- sənaye və məişət tullantılarının toplanması, yandırılması, bitki aləmini qoruyan, onların artımını təmin edən vasitələrin, mineral kübrələrin və digər preparatların daşınması, saxlanması, tətbiqi qaydalarının pozulması nəticəsində atmosfer havası çirkləndikdə;

- müəssisə, idarə və təşkilatların yerləşdiyi yerlərdə atmosfer havasının vəziyyətinə nəzarət qaydalarına əməl etmədikdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada təqsirkar hesab edilən hüquqi və fiziki şəxslər, habelə vəzifəli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 234-cü maddəsi sırf atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin tələblərinin pozulması ilə bağlı məsuliyyət tədbirlərini özündə əks etdirir. Belə ki, AR İXM-in 234-cü maddəsinə əsasən atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin pozulması, aşağıdakı halları nəzərdə tutur:

- müvafiq icra hakimiyyəti orqanlarının (Ekologiya və Təbii Sərvətlər Nazirliyi) xüsusi icazəsi olmadan atmosfer havasına zərərli maddələrin atılması;

- atmosfer havasına zərərli maddələrin atılmasına və zərərli fiziki təsirə nəzarət etmək məqsədilə quraşdırılmış qurğulardan, avadanlıqlardan və cihazlardan istismar qaydalarının pozulması;

- atmosfer havasının mühafizəsi haqqında qanunvericiliyin tələblərinə cavab verməyən yeni və yenidən qurulmuş qurğuların və avadanlıqların istismara verilməsi;

- atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməyən və atmosfer havasına zərərli maddələrin atılmasına nəzarət üçün texniki vasitələrlə təmin olunmasını nəzərə almayan kəşfləri, ixtiraları, səmərələşdirici təklifləri, yeni texniki sistemləri, maddələri tətbiq edilməsinə, habelə bu cür texnoloji avadanlıqların idxal edilməsi;



- sənaye və məişət tullantılarının toplanması, yandırılması, bitki aləmini qoruyan, onların artımını təmin edən vasitələrin, mineral kübrələrin və digər preparatların daşınması, saxlanması, tətbiqi qaydalarının pozulması nəticəsində atmosfer havasının çirklənməsi;

- müəssisə, idarə və təşkilatların yerləşdiyi yerlərdə atmosfer havasının vəziyyətinə nəzarət qaydalarına əməl edilməməsinə görə - fiziki şəxslər üç yüz manatdan yeddi yüz manatadək məbləğində, vəzifəli şəxslər iki min beş yüz manatdan dörd min manatadək məbləğində, hüquqi şəxslər yeddi min beş yüz manatdan on min manatadək məbləğində cərimə edilir. [45]

---

[45] http://www.e-qanun.az/code/24

# VII FƏSİL

# XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİ VƏ OBYEKTLƏRİNİN EKOLOJİ-HÜQUQİ REJİMİ

## 7. 1. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin ekoloji-hüquqi rejiminin anlayışı və onun növləri

Xüsusi mühafizə olunan təbiət əraziləri dedikdə, xüsusi ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma əhəmiyyəti daşıyan təbiət komplekslərindən və obyektlərindən, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan bitki və heyvan növlərinin yayıldığı yerlərdən ibarət olan, təsərrüfat dövriyyəsindən tamamilə və ya qismən, daimi və ya müvəqqəti çıxarılan torpaq və su sahələri, həmçinin onların üzərindəki atmosfer məkanı başa düşülür.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri ekoloji, elmi, mədəni, estetik və sağlamlaşdırma funksiyalarından ibarətdir.

Xüsusi mühafizə olunan təbiət obyektləri xüsusi mühafizə rejimi müəyyən edilmiş zooloji, botanik, dendroloji, hidroloji, geoloji, geomorfoloji, hidrogeoloji, meşə, landşaft və torpaq obyektlərini əhatə edir. Təbiət əraziləri və obyektlərinin xüsusi mühafizə rejiminin yaradılması cəmiyyətin və dövlətin maraqlarını təmin etmək üçündür.



Xüsusi mühafizə olunan təbiət ərazilərinin rejiminin aşağıdakı prinsipləri vardır: bioloji müxtəlifliyin və təbii ekoloji sistemin qorunub saxlanması; məqsədli istifadə; elmin, mədəniyyətin, təhsilin və maarifin inkişafı üçün səmərəli istifadə; turizmin və rekreasiyanın inkişafı; dövlət tənzimlənməsi və nəzarət; istifadənin qanunla nəzərdə tutulmuş hallarda ödənişli olması; təbiət ərazilərinin və obyektlərinin mühafizəsi sahəsində əhalinin və ictimai birliklərin iştirakı; beynəlxalq əməkdaşlıq.

Azərbaycan ərazisində 9 milli park, 11 dövlət təbiət qoruğu, 24 dövlət təbiət yasaqlığı vardır. Xüsusi mühafizə olunan təbiət obyektləri və əraziləri Azərbaycan Respublikası ərazisinin 10,3%-ni təşkil edir.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzərində mülkiyyət hüququ AR Konstitusiyasının 14-cü maddəsinə əsasən fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin aşağıdakı növləri ayrılır: dövlət təbiət qoruqları; milli parklar; təbiət parkları; ekoloji parklar; dövlət təbiət yasaqlıqları; təbiət abidələri; zooloji parklar; nəbatat bağları və dendroloji parklar; müalicə-sağlamlaşdırma yerləri və kurortlar.

Əhəmiyyətinə görə xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri aşağıdakı kateqoriyalara ayrılır: beynəlxalq, respublika, bölgə və yerli[46] .

Dövlət təbiət qoruqlarının və milli parkların əraziləri respublika, dövlət təbiət yasaqlıqları, təbiət parkları, təbiət

[46] "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının 2000-ci il 24 mart tarixli Qanunun//Azərbaycan Respublikası ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild. Bakı: Qanun, 2006.

abidələri, zooloji parklar, nəbatat bağları, dendroloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar respublika və ya bölgə, təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləridirlər. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən beynəlxalq əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri müəyyən edilə bilər.

Respublika və ya bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, onların bir kateqoriyadan digərinə keçirilməsi icra hakimiyyəti orqanının qərarı ilə müəyyən olunur.

Dövlət təbiət qoruqları, yasaqlıqlar, milli parklar, təbiət abidələri, zooloji parklar, nəbatat bağları; dendroloji parklar fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilmir. Lakin yerli əhəmiyyətli təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilə bilər.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin hər biri üçün hazırlanan pasport müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmaqla müəyyən olunmuş qaydada qorunub saxlanılır.

Məqsədinə və rejiminə görə xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin torpaqları aşağıdakı növlərə ayrılır: təbiəti mühafizə, təbii qoruq; sağlamlaşdırma; istirahət; tarixi-mədəni.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üçün iki növ rejim müəyyən olunur: hüquqi rejim və təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi.

Qanunvericiliyə müvafiq olaraq xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri aşağıdakı məqsədlərlə istifadə



edilə bilər: təbiəti mühafizə; elmi tədqiqat; ətraf mühitin monitorinqi; sağlamlaşdırma; təlim-tərbiyə; turizm və istirahət.

Dövlət təbiət qoruqları dedikdə, nadir təbiət kompleksləri və obyektlərini təbii vəziyyətdə qoruyub saxlamaq, təbiət prosesləri və hadisələrini öyrənmək məqsədi ilə yaradılan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik ərazilər başa düşülür.

Dövlət təbiət qoruqları müvafiq dövlət orqanının təqdimatı əsasında, ayrılmış torpaq sahələri onların daimi istifadəsinə verilməklə icra hakimiyyəti tərəfindən yaradılır. Təsərrüfat məqsədli olmayan dövlət təbiət qoruqlarının əsasnamələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

Dövlət təbiət qoruqlarının aşağıdakı vəzifələri vardır: təbiət ərazilərinin mühafizəsini həyata keçirmək; elmi tədqiqatları aparmaq, «təbiət salnaməsi» tərtib etmək; ekoloji monitorinqi həyata keçirmək; layihələrinin ekoloji ekspertizasında iştirak etmək; kadr və mütəxəssislərin hazırlanmasına kömək etmək.

Dövlət təbiət qoruqlarında aşağıdakılar qadağan edilir: bina və qurğular, ümumi istifadə yolların, boru kəmərləri tikintisi; geoloji-kəşfiyyat axtarış işlərinin aparılması; yerüstü və yeraltı sulardan istifadə edilməsi; oduncaq və ikinci dərəcəli meşə ehtiyatları tədarükü, meşədən əlavə istifadə; bitki və heyvanlar aləmindən təsərrüfat məqsədi üçün istifadə; ətraf mühitə kimyəvi, bioloji və fiziki təsir; kolleksiyaların toplanması və s.

Beynəlxalq ekoloji monitorinqin həyata keçirilməsi üçün fəaliyyət göstərən və ya yenidən təşkil edilən dövlət təbiət qoruqlarının əsasında dövlət təbiət biosfer qoruqları yaradıla bilər. Dövlət təbiət biosfer qoruğunun əsasnaməsi

müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu zaman beynəlxalq müqavilələr nəzərə alınır.

Milli park dedikdə, xüsusi ekoloji, tarixi, estetik, mədəni əhəmiyyətli təbiət komplekslərinin yerləşdiyi, təbiəti mühafizə və elmi tədqiqat idarəsi statusuna malik olan ərazi başa düşülür.

Milli parkların ərazilərini əhatə edən torpaq, su, bitki və heyvanlar aləmi onların daimi istifadəsinə verilir. Bununla yanaşı, parklardan kənarda olan torpaqlar da qanunvericiliyə müvafiq olaraq parkın torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaq sahələrinə aid edilə bilər.

Milli parklar Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təqdimatı əsasında təşkil edilir və Azərbaycan Respublikasının Prezidentinin təsdiq etdiyi əsasnaməyə uyğun olaraq fəaliyyət göstərir.

Milli parkların aşağıdakı vəzifələri vardır: təbiət və tarix-mədəni ərazi və obyektləri qoruyub saxlamaq; turizm və istirahət üçün şərait yaratmaq; təbiəti mühafizənin elmi metodlarını hazırlamaq; əhalinin ekoloji maarifləndirmək; ekoloji monitorinqi həyata keçirmək; təbiət və tarix-mədəniyyət komplekslərini bərpa etmək və s.

Milli parkların ərazilərində xüsusi mühafizənin ayrı-ayrı rejimləri tətbiq olunur və fəaliyyət zonaları müəyyən edilir. Bu zonalar aşağıdakılardır: xüsusi mühafizənin hüquqi rejimi tətbiq edilən zonalar; təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilən zonalar; turizm və istirahət zonaları; xidmət göstərilən zonalar; təsərrüfat-istehsalat zonaları.

Turizm və istirahət zonalarında, məsələn, ov, idman və həvəskar balıq ovu və s. icazə verilir, eləcə də burada elmi tədqiqatlar və tədris də həyata keçirilə bilər.

Təbiət parkları dedikdə isə xüsusi ekoloji və estetik dəyərə malik olan, təbiəti mühafizə və istirahət məqsədləri



üçün ayrılmış təbiət komplekslərinin yerləşdiyi təbiəti mühafizə idarələri statuslu ərazilər başa düşülür.

Təbiət parklarının ərazisindəki torpaq sahələri onların daimi istifadəsinə verilir. Digər torpaq istifadəçilərinin və mülkiyyətçilərinin torpaqları ayrı-ayrı hallarda qanunvericiliklə müəyyən edilmiş qaydada təbiət parklarının istifadəsinə verilə bilər.

Təbiət parkları respublika, bölgə və yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri kimi müəyyənləşdirilə bilər.

Yerli əhəmiyyətli təbiət parkları fiziki və hüquqi şəxslərin idarəçiliyinə, istifadəsinə və icarəsinə verilə bilər.

Təbiət parklarının vəzifələri aşağıdakılardır: təbii landşaftları və rekreasiya resurslarını mühafizə etmək; istirahət üçün şərait yaratmaq, təbiəti mühafizənin səmərəli metodlarını tətbiq etmək və s.

Təbiət parklarının ərazilərində təbii sahələrin ekoloji və rekreasiya əhəmiyyətindən asılı olaraq xüsusi mühafizə və istifadənin aşağıdakı rejimləri müəyyən edilə bilər: təbiəti mühafizə; istirahət; tarix-mədəniyyət və s.

Təbiət parklarının ərazilərində onların ekoloji, istirahət (rekreasiya) və estetik keyfiyyətinə mənfi təsir göstərən, tarix-mədəniyyət abidələrinin qorunub saxlanılması rejimini pozan fəaliyyət qadağan edilir. Bu rejimin əhəmiyyətini aşağı salan fəaliyyət isə məhdudlaşdırıla bilər.

Təbiət parklarının fəaliyyəti AR NK-nın 2001-ci il tarixli 2 nömrəli Qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının təbiət parklarının ümumi Əsasnaməsi» ilə tənzimlənir. Respublika və bölgə əhəmiyyətli parklar «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» AR-in Qanununun tətbiq edilməsi barədə» AR Prezidentinin 15 iyul 2000-ci il tarixli, 366 nömrəli Fərmanı əsasında AR

NK-nın qərarı ilə yaradılır. Yerli əhəmiyyətli təbiət parkları bələdiyyə orqanlarının qərarı ilə yaradılır. Bu zaman AR ETSN-in və elmi müəssisələrin rəyləri nəzərə alınır. Təbiət parklarının pasportu hər 10 il üçün hazırlanır. Təbiət parkları üzərində dövlət nəzarətini AR Prezidentinin Fərmanına müvafiq olaraq AR ETSN həyata keçirir.

Təbiət abidələri xüsusi ekoloji, elmi, mədəni və estetik əhəmiyyəti olan təbiət obyektləridir. Bunlar aşağıdakılardır: nadir landşaftlar; qiymətli meşə sahələri; məhv olmaq təhlükəsinə məruz qalan bitkilərin yayıldığı yerlər; qədim ağaclar; geoloji açılışlar; mağaralar; paleontoloji və paleonəba qalıqlarının çöküntüləri; bulaqlar; nadir göllər və s.

Təbiət abidələri yerləşən ərazilərdə tətbiq olunan xüsusi mühafizə rejimi onların təbii vəziyyəti qorunub saxlanılmasına yönəlir.

Təbiət abidələri aşağıdakı kateqoriyalara ayrılır: respublika əhəmiyyətli və bölgə əhəmiyyətli.

Təbiət abidələri torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən torpaq sahələri alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilə bilər.

Təbiət abidələrinə aid edilən obyektlər və onların yerləşdiyi ərazilərdə təsərrüfat fəaliyyət qadağan edilir. Təbiət abidələrindən ancaq elmi, mədəni və tədris məqsədləri üçün istifadə edilir.

Müalicə-sağlamlaşdırma yerləri dedikdə, əhalinin müalicəsinin, profilaktikasının və istirahətinin təşkili üçün yararlı təbii müalicəvi ehtiyatlara malik olan ərazilər başa düşülür. Bunlara mineral sular, müalicəvi palçıqlar, şor göllər, müalicəvi iqlim, çimərliklər və s. aiddir.



Müalicə-sağlamlaşdırma yerləri və kurortlar əhəmiyyətinə görə aşağıdakı kateqoriyalara bölünür: beynəlxalq, respublika, bölgə və yerli.

Yerli əhəmiyyətli müalicə-sağlamlaşdırma yerləri və kurortlar fiziki və hüquqi şəxslərin idarəçiliyinə verilə bilər.

Müalicə-sağlamlaşdırma yerlərinin və kurortların ətrafında sanitariya mühafizə zonaları müəyyən edilir. Torpaq sahələrinin təsərrüfat dövriyyəsindən tam çıxarılması nəzərdə tutulduğu hallar istisna edilməklə, sanitariya mühafizə zonalarının torpaq sahələri torpaq mülkiyyətçilərindən, istifadəçilərindən və icarəçilərindən geri alınmır. «Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında» AR-in 1 aprel 2008-ci il tarixli Qanununun 3-cü maddəsinə[47] görə ərazinin müalicə-sağlamlaşdırma yeri və kurort kimi tanınması həmin ərazinin və orada mövcud olan təbii müalicə ehtiyatlarının tibbi-bioloji, kurortoloji, geoloji, hidrogeoloji və digər tədqiqatları əsasında müəyyən edilir.

Dövlət təbiət yasaqlıqları dedikdə, təbiət komplekslərinin və ekoloji tarazlığın qorunması, bərpası və saxlanması üçün müəyyən edilən kompleks, bioloji, paleontoloji, hidroloji və geoloji ərazilər başa düşülür.

Dövlət təbiət yasaqlıqları torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin torpaq sahələri alınmadan müvafiq icra hakimiyyəti orqanının qərarı ilə onların torpaq sahələrində təşkil edilə bilər.

«Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında AR Qanununun tətbiq edilməsi barədə» AR Prezidentinin 15 iyul 2000-ci il tarixli 366 nömrəli Fərmanı ilə

---

[47] "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında" AR-ın 1 aprel 2008-ci il tarixli, Qanunu /Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild, Bakı: Qanun, 2006

dövlət təbiət yasaqlıqları ETSN-in təqdimatı əsasında AR NK-nın qərarı ilə müəyyən edilir.

Dövlət təbiət yasaqlıqları respublika və ya bölgə əhəmiyyətli olur. Dövlət təbiət yasaqlıqlarına zərər vura bilən hər hansı fəaliyyət qadağandır.

Dövlət təbiət yasaqlıqlarının vəzifələri və xüsusi mühafizə rejiminin xüsusiyyətləri əsasnamə ilə müəyyən edilir.

Dövlət təbiət yasaqlıqları elmi, mədəni, tədris və məhdud təsərrüfat məqsədləri üçün istifadə edilə bilər.

Zooloji parklar dedikdə, heyvanlar aləminin mühafizəsi, artması və istifadəsi məqsədi ilə qanunvericiliklə müəyyən edilmiş təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik xüsusi mühafizəli təbiət əraziləri başa düşülür.

Zooloji parklar aşağıdakı növlərə bölünür: respublika, bölgə və yerli.

Torpaq sahələri qanunvericiliklə müəyyən edilmiş qaydada onların daimi istifadəsinə verilir və burada ictimai, inzibati və təsərrüfat-istehsalat zonaları yaradılır.

Zooloji parkların əsas funksiyası heyvan kolleksiyalarını formalaşdırmaq, heyvanların idxalını və ixracını və dəyişdirilməsini həyata keçirməkdən ibarətdir. Saxlanılan heyvanların məhvinə səbəb olan fəaliyyət qadağan olunur.

Zooloji parkların aşağıdakı vəzifələri vardır: heyvanların qeyri-sərbəst və ya yarımsərbəst şəraitdə saxlanılması; elmi məlumat bankları, fondlar, muzeylər, kitabxanalar və arxivlərin yaradılması; elmi, elmi-populyar ədəbiyyatlar nəşr edilməsi; mədəni-maarif, baytarlıq təbabəti, seleksiya-damazlıq sahəsində ödənişli xidmətlər göstərilməsi və s.

Nəbatat və dendroloji parklar dedikdə, bitki aləminin müxtəlifliyini qoruyub saxlamaq və zənginləşdirmək üçün yaradılan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik ərazilər başa düşülür.



Respublika və bölgə əhəmiyyətli nəbatat bağlarının və dendroloji parkların təşkili üçün torpaq sahələri qanunvericiliklə müəyyən edilmiş qaydada onların daimi istifadəsinə verilir.

Nəbatat bağlarında və dendroloji parklarda aşağıdakı zonalar yaradılır: ekspozisiya; elmi; ictimai; inzibati; təsərrüfat-istehsalat.

Nəbatat bağlarında və dendroloji parklarda onların vəzifələri ilə bağlı olmayan və bitkilərin məhvinə səbəb olan fəaliyyət qadağan edilir.

Nəbatat və dendroloji parklar floranın bitki kolleksiyalarını formalaşdırır, bitkilərin idxalını və ixracını, onların başqa botaniki profilli idarələrlə dəyişdirilməsini təmin edir. Burada kolleksiya və təcrübə sahələri, tingliklər, herbarilər və toxum fondları yaradılır.

Nəbatat bağları və dendroloji parklar elmi məlumat bankları, fondlar, muzeylər, kitabxanalar və arxivlər yarada, ədəbiyyatlar nəşr edə, habelə seleksiya, toxumçuluq və tingçilik sahəsində əhaliyə ödənişli xidmətlər göstərə bilər. Burada yardımçı təsərrüfat, emalatxanalar, bitkilərin satışı üçün ixtisaslaşdırılmış mağazalar və b. obyektlər olur.

## 7. 2. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət tənzimlənməsi və mühafizəsi

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üçün xüsusi mühafizənin hüquqi rejimi, yaxud təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilir. Xüsusi mühafizənin hüquqi rejimi xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində ətraf mühitin təbii vəziyyətini pozan hər hansı təsərrüfat fəaliyyəti qadağan olunur. Təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi xüsusi mühafizə olunan təbiət ərazilərində və obyektlərində təsərrüfat istifadəsinə məhdudiyyətlər qoyula bilər.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi, qorunması və istifadəsi üzrə dövlət nəzarəti mövcuddur. Dövlət nəzarəti aşağıdakıları əhatə edir: dövlət təbiət qoruq fondunun mühafizəsi üzrə tədbirlərin yerinə yetirilməsini yoxlamaq; nəqliyyat vasitələrini saxlamaq; nəqliyyat vasitələrini və gəmiləri, ov alətlərini, əldə edilmiş məhsulları, əşyaları, istifadə hüququ sənədini yoxlamaq; hüquqpozmaya səbəb olmuş alət, cihaz və əşyaları, qanunsuz əldə edilmiş məhsulları, müvafiq sənədləri götürmək; qanunvericiliyi pozmuş şəxsləri saxlamaq, inzibati xəta haqqında aktlar tərtib etmək; icrası məcburi olan göstərişlər vermək, xüsusi geyim forması daşımaq, xidməti silaha malik olmaq və sair.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və istifadəsi sahəsində ictimai nəzarət mövcuddur.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkili, mühafizəsi və istifadəsi aşağıdakı prinsiplərə əsaslanır: bioloji müxtəlifliyin və təbii ekoloji sistemin qorunub saxlanılması; məqsədli istifadə, elmin, mədəniyyətin, təhsilin və maarifin



inkişafı üçün səmərəli istifadə; turizmin və rekreasiyanın inkişafı; dövlət tənzimlənməsi və nəzarət; qanunla nəzərdə tutulmuş hallarda istifadənin ödənişli olması; mühafizə sahəsində əhalinin və ictimai birliklərin iştirakı; beynəlxalq əməkdaşlıq.

Azərbaycan Respublikası ərazisində beynəlxalq, respublika və bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan dövlətinə mənsubdur və özgəninkiləşdirilə bilməz. Mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahələri olan fiziki və hüquqi şəxslər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri yarada bilərlər.

Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin bələdiyyələrin mülkiyyətinə verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı bu ərazilərin statusu, onların coğrafi mövqeyi və sərhədləri, həmin ərazilərin və obyektlərin xüsusi mühafizəsinin rejimi, təbiət istifadəçiləri, ekoloji, elmi, iqtisadi, tarixi və mədəni əhəmiyyəti barədə zəruri məlumatların məcmusudur.

Xüsusi mühafizə olunan təbiət obyektləri müvafiq icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən idarə olunur. Fiziki və hüquqi şəxslər və ictimai birliklər isə bu idarəetmə prosesində iştirak edirlər. Dövlət orqanları fiziki və hüquqi şəxslərin və ictimai birliklərin rəy və təkliflərinə baxmalıdırlar.

Dövlətin səlahiyyətləri aşağıdakılardır: dövlət siyasətini həyata keçirmək; müvafiq normativ hüquqi aktlar qəbul etmək; dövlət proqramlarını hazırlayıb təsdiq etmək; dövlət nəzarətini həyata keçirmək; yardım etmək; təbiət ərazilərini

və obyektlərinin kateqoriyalarını müəyyən etmək; təbiət ərazilərinin təşkili və ləğv edilməsi barədə qərar qəbul etmək; inkişaf sxemlərini təsdiq etmək; dövlət qeydiyyatı və kadastrının aparılması qaydalarını müəyyən etmək; beynəlxalq əməkdaşlığı təmin etmək və s.

Bələdiyyələrin də bu sahədə aşağıdakı hüquqlarını göstərmək olar: yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və ləğv edilməsi barədə qərar qəbul etmək; yerli büdcələrin tərkibində xərclər müəyyənləşdirmək və təsdiq etmək; mühafizə və istifadə üzrə qərarlar qəbul etmək; bələdiyyə torpaqlarında təbiət parkları, zooloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yaratmaq, onları istifadəyə və icarəyə vermək və s.

Fiziki və hüquqi şəxsləri, eləcə də ictimai birliklər də bu sahədə aşağıdakı hüquqlara malikdir: ictimai fondlar yaratmaq; ərazilərinin yaradılması, inkişafı və yerləşdirilməsi sxemlərinin hazırlanması üzrə təkliflər vermək; ictimai ekspertizanın keçirilməsində iştirak etmək; mülkiyyəti, istifadəsi və icarəsində olan torpaqlarda qanunvericiliklə müəyyən edilmiş qaydada təbiət parkları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar yaratmaq; ictimai nəzarəti həyata keçirmək; məlumatlar almaq və s.

Fiziki və hüquqi şəxslər elmi, mədəni, tədris, turizm, istirahət və məhdud təsərrüfat məqsədləri ilə xüsusi mühafizə olunan təbiət ərazilərindən və obyektlərindən istifadəni ödənişi əsaslarla həyata keçirirlər.

AR NK-nın 4 yanvar 2001-ci il tarixli 2 nömrəli Qərarı ilə «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin dövlət kadastrının və monitorinqinin aparılması Qaydaları» təsdiq olunmuşdur.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı beynəlxalq, respublika, bölgə və yerli



əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin kateqoriyaları barədə məlumatları cəmləşdirən rəsmi sənəddir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı təbii sərvətlərə aid digər kadastrlara uyğun və əlaqələndirmə prinsipi və həmin ərazilərdə və onların mühafizə zonalarında aparılan monitorinq məlumatları əsasında tərtib edilir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı dövlət təbiət qoruq fondunun vəziyyətinin qiymətləndirilməsi və proqnozlaşdırılması, perspektiv inkişafın müəyyən edilməsi və mühafizə rejiminə riayət olunmasına dövlət nəzarətinin gücləndirilməsini təmin edir və təbiətdən istifadə sahəsində idarəetmənin əsasıdır.

Dövlət kadastrının aparılmasının aşağıdakı məqsədləri vardır məlumatların sistemləşdirilməsi; təbiət ərazilərinin və obyektlərinin mövcud vəziyyətinin analizi; respublika, bölgə və yerli hakimiyyət orqanlarını, nazirlikləri, təşkilatları və digər hüquqi və fiziki şəxsləri məlumatlarla təmin etmək.

Dövlət kadastrı özündə aşağıdakı məlumatları birləşdirməlidir: təbiət ərazilərinin və obyektlərinin hüquqi statusu; normativ hüquqi baza; coğrafi vəziyyət; inzibati və idarə tabeliyi; mühafizə üsulu və rejimi; mühafizə zonaları; ərazilərin və obyektlərin əhəmiyyəti; təbiət obyektlərinin kəmiyyət və keyfiyyət xüsusiyyətləri; sahibkarlar, istifadəçilər və icarəçilər; işçi ştatları və struktur bölmələri; mühafizə edən hüquqi və fiziki şəxslər; maddi-texniki baza; maliyyələşdirilmə və sair.

Dövlət kadastrı dörd bölmədən ibarətdir. Bu bölmələrdə beynəlxalq, respublika, bölgə və yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri barədə məlumatlar toplanılır.

Beynəlxalq əhəmiyyətli dövlət kadastrına biosfer təbiət qoruqları, təbiət abidələri və beynəlxalq əhəmiyyətli digər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri barədə məlumatlar aid edilir.

Respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrında dövlət təbiət qoruqları, milli parklar, dövlət təbiət yasaqlıqları, təbiət parkları, abidələri, zooloji parklar, nəbatat bağları və dendroloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar barədə məlumatlar göstərilir.

Bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrı özündə dövlət təbiət yasaqlıqları, zooloji, təbiət parkları və abidələri, nəbatat bağları və drendroloji parklar, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında məlumatları birləşdirir.

Yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrınnda isə təbiət və zooloji parkları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında məlumatlar əks olunur.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastr məlumatları dövlət və bələdiyyə orqanlarının normativ sənədlərinə, elmi tədqiqatların, layihə-axtarışlarının və inventarlaşmanın materiallarına, xüsusi tədqiqatların nəticələrinə, monitorinq məlumatlarına əsasən müəyyən olunur və daimi nəzarət olunur. Belə ki, məlumatlar dəyişdirildiyi hallarda köhnə məlumatlar arxivləşdirilərək saxlanılır.

Dövlət kadastrının aparılması aşağıdakı kimi müəyyən olunmuşdur: beynəlxalq və respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzrə AR DETİNK və tabeliyində respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri olan təşkilatlar



tərəfindən; bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzrə NMR-ın NK, NMR-ın Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsi və tabeliyində bölgə əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri olan təşkilatlar tərəfindən; yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri üzrə bələdiyyə orqanları və tabeliyində yerli əhəmiyyətli xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri olan təşkilatlar tərəfindən.

AR DETİNK beynəlxalq va respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət kadastrına daxil edilən əsas məlumatlarını toplayır, təhlil edir, qiymətləndirir; ümumiləşdirərək kadastra daxil edir; metodik sənədləri hazırlayır; kadastrın aparılması üçün tələb olunan digər məlumatların təqdim olunma müddətlərini təyin edir; əsas məlumatları razılaşdırır və s.

Təbiət ərazilərinin və obyektlərinin kadastr məlumatı beş ildən bir AR DETİNK tərəfindən təsdiq edilmiş hesabat forması əsasında yerli hakimiyyət orqanlarında təsdiq edildikdən sonra təqdim edilir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin kadastr göstəricilərində il ərzində baş vermiş dəyişikliklər və əlavələr barədə məlumatlar hər il yanvarın 25-nə kimi AR DETİNK-yə təqdim edilir.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərində aparılan monitorinq aşağıdakıları əhatə edir: heyvan və bitkilərin ümumi vəziyyəti, sayı, yayılma əraziləri və bərpası; təbiət komplekslərinin qorunma vəziyyəti, bərpası, antropogen təsirlər; təhlükə faktorları və s.

Monitorinq məlumatları hər il ümumiləşdirilir və dekabrın 5-nə kimi dövlət kadastrını aparan müvafiq orqanlara təqdim olunur.

«Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» AR Qanununda dəyişikliklər edilməsi barədə AR-in 4 aprel 2014-cü il tarixli Qanununa əsasən ərazilərin sanitariya-mühafizə zonaları müəyyən edilir: xüsusi mühafizə olunan təbiət ərazilərinin sanitariya-mühafizə zonası xüsusi mühafizə olunan təbiət ərazilərinin torpaq və su sərhədlərinin hüdud xəttindən bütün perimetri boyunca 3000 metrədək məsafədə; xüsusi mühafizə olunan təbiət ərazilərinin sanitariya-mühafizə zonası xüsusi mühafizə olunan təbiət ərazilərinin Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsinə bitişik sərhədlərinin hüdud xəttindən 3000 metrədək məsafədə.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin sanitariya-mühafizə zonaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir və təsərrüfat fəaliyyətinin tənzimlənən rejimi tətbiq edilir.

Sanitariya-mühafizə zonalarında aşağıdakılara yol verilir: elmi tədqiqat işləri; ətraf mühitin monitorinqi və nəzarət; yanğından mühafizə tədbirləri; torpaqdan təsərrüfat məqsədli istifadə; bioloji və landşaft müxtəlifliyi, turizm və rekreasiya məqsədli istifadə; mineral su və digər müalicəvi resurslardan istifadə; həvəskar və idman ovu və s.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin sanitariya-mühafizə zonalarında aşağıdakılar qadağandır: yaşayış məntəqələrinin salınması; ekoloji təhlükə yaradan müəssisələrin istismarı; geoloji kəşfiyyat işlərinin aparılması, faydalı qazıntıların çıxarılması; aqrokimyəvi maddələrdən istifadə; ərazinin hidroloji rejiminə və torpağın münbitliyinə təsir edən işlərin görülməsi və s.

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin maliyyə mənbələri aşağıdakılardır: dövlət büdcəsi; yerli



büdcə; büdcədənkənar vəsait; ətraf mühitin mühafizəsi fondları və s.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin sanitariya-mühafizə zonalarına daxil edilmiş xüsusi mülkiyyətdə, bələdiyyə mülkiyyətində və istifadədə olan əmlakdan servitut hüququ əsasında istifadə edilə bilər.

## 7. 3. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasına görə mülki, maddi, inzibati və cinayət məsuliyyəti müəyyən edilir.

Qanunvericiliyin pozulması nəticəsində xüsusi mühafizə olunan təbiət ərazilərinə və obyektlərinə vurulmuş zərər AR Mülki Məcəlləsində və təbiətin mühafizəsi ilə bağlı digər qanunvericilik aktlarında nəzərdə tutulmuş qaydada ödənilir.

Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin mühafizəsi və istifadəsi sahəsində mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.

AR CM-in 261-ci maddəsi xüsusi mühafizə olunan təbiət ərazilərinin və təbiət obyektlərinin mühafizə rejimini pozmağa görə məsuliyyət müəyyən edilmişdir. Burada cinayətin obyektiv cəhətini qoruqların, milli parkların, təbiət abidələrinin və ya dövlət tərəfindən xüsusi mühafizə olunan təbiət ərazilərinin mühafizə rejiminin əhəmiyyətli zərər vurulmasına səbəb olan əməl təşkil edir. Belə əməllər qismində aşağıdakıları göstərmək olar: geoloji kəşfiyyat işlərinin aparılması, təsərrüfat fəaliyyəti ilə məşğul olmaq, lazımi icazə olmadan əraziyə daxil olma və s. Cinayət məsuliyyəti xüsusi mühafizə olunan ərazilərə və obyektlərə əhəmiyyətli zərər vurulduqda yaranır. Əhəmiyyətli zərər dedikdə isə, AR CM-nin 261-ci maddəsinin Qeydinə görə iki yüz manatdan artıq olan məbləğ başa düşülür. Məsələn, bitkilərin məhv edilməsi və sair.



AR İXM-in 242-ci maddəsinə əsasən xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərindən istifadə qaydalarının və mühafizə rejiminin pozulmasına görə fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilirlər.

İstifadə qaydalarının pozulması xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin idarəçiliyə, istifadəyə, icarəyə verilməsi, qanunvericilikdə nəzərədə tutulduğu hallarda ödənişli olması, geoloji kəşfiyyat və faydalı qazıntı işlərinin aparılması və s. kimi belə qaydaların pozulmasında ifadə olunur.

Mühafizə rejiminin pozulması isə aşağıdakı əməllərdə ifadə olunur: xüsusi icazə olmadan bitki və heyvanları təbii mühitdən ayırmaqla elmi tədqiqatların keçirilməsi, xüsusi icazə olmadan qoruqların ərazisində olma və s.

## VIII FƏSİL

## İNSANIN EKOLOJİ, HÜQUQİ STATUSU. SAĞLAM ƏTRAF MÜHİTDƏ YAŞAMAQ HÜQUQU

### 8.1. İnsanın ekoloji hüquqi statusunun anlayışı və onun əhəmiyyəti

İnsanın ekoloji hüquqlarının hüquqi tənzimlənməsi və tanınması həm insanlar, həm cəmiyyət, həm də dövlət üçün vacib əhəmiyyət təşkil edir. Belə ki, bu hüquqlardan istifadə edərək vətəndaşlar dövlətin təbiəti mühafizə fəaliyyətinin səmərəliliyinin artmasına kömək etmiş olurlar. Dövlət vətəndaşlara ekoloji əhəmiyyətli qərarların hazırlanmasında və qəbulunda iştirak hüququ verməklə bu sahədə səmərəli fəaliyyəti təmin edir. Dövlət vətəndaşların ekologiya sahəsində öz hüquqlarını fəal realizə etməsində maraqlıdır. Belə ki, bu zaman ölkədə sağlam ətraf mühitin yaradılması təmin olunur.

İnsanın ekoloji hüquq və vəzifələrinin məcmusu onun hüquqi statusunu təşkil edir. İnsanın ekologiya səhəsində hüquq və vəzifələri qanunvericilikdə təsbit olunub. İnsanın ekoloji-hüquqi statusu ümumi və xüsusi qanunlarda müəyyən olunur. Belə ki, insanın ekoloji-hüquqi statusunun ümumi müddəaları və əsasları Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuşdur. AR Konstitusiyasının insanın ekoloji-hüquqi statusunu müəyyən edən normaları aşağıdakı



iki qrupa ayırmaq olar: insanın ekoloji hüquqlarını ifadə edən normaları insanın ekoloji hüquqlarının təminatı və müdafiəsi mexanizmlərini müəyyən edən normalar. Bununla yanaşı ümumi normalar insanın və vətəndaşın təbiətin mühafizəsi üzrə öhdəlikləri də müəyyən olunur.

İnsanın ekoloji hüquq və vəzifələri ümumi qaydada əsasən AR-ın Konstitusiyasının 14-cü, 39-cu, 41-ci və digər müvafiq maddələrində təsbit olunub.

Xüsusi qanunvericilikdə konstitusiya normaları öz geniş təsbitini tapmışdır. Belə ki, məsələn, «Ətraf mühitin mühafizəsi haqqında» AR-in 8 iyun 1999-cu il tarixli Qanununda, «Əhalinin sağlamlığının qorunması haqqında» AR-in 26 iyun 1997-ci il tarixli Qanununda və s. normativ hüquqi aktlarda insanın və vətəndaşın ekoloji hüquqi statusunun konstitusiya əsasları geniş göstərilmişdir.

İnsanın ekoloji statusunun mühüm elementlərindən biri də ekoloji hüquqların təminatı və müdafiəsi mexanizmləri ilə bağlıdır. Belə ki, insanın ekoloji hüquqlarının təminatı və müdafiəsi mexanizminin, bir tərəfdən, konstitusiya əsasları müəyyən edilmişdir, digər tərəfdən təbiət obyektləri üzrə xüsusi qanunvericilikdə bu öz əksini tapmışdır. Belə ki, AR Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının təminatı müəyyən edilmişdir. Bu baxımdan insanın ekoloji hüquqi statusunun təminatı mexanizmi öz əksini konstitusiyada tapmışdır.

İnsanın və vətəndaşın mülkiyyət hüququnun tətkib elementlərindən biri də təbiət obyektləri ilə bağlıdır. Belə ki, hər bir insanın və vətəndaşın təbiət obyektləri üzərində mülkiyyət hüququ vardır. AR-in Konstitusiyasının 13-cü maddəsinə əsasən Azərbaycan Respublikasında mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Mülkiyyət dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti

növündə ola bilər. AR Konstitusiyasının 14-cü maddəsinə əsasən təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur. Təbiət obyektləri üzərində mülkiyyət hüququ müvafiq olaraq dövlət, xüsusi və bələdiyyə mülkiyyətindən ibarətdir.

İnsanın ekoloji-hüquqi statusunun əsasını təbiət obyektləri üzərində onun mülkiyyət hüququ təşkil edir. Təbiət obyektləri üzərində mülkiyyət hüququ, qeyd etdiyimiz kimi Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuşdur.



## 8.2. İnsanın ekoloji hüquqlarının tənzimlənməsi və müdafiəsi

Azərbaycan Respublikası Konstitusiyasının 31-ci maddəsi hər kəsin təhlükəsiz yaşamaq hüququnu təsbit etmişdir. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır.

Ekoloji təhlükəsizlik haqqında Azərbaycan Respublikasının 8 iyun 1999-cu il Qanununun 7-ci maddəsinə (ekoloji təhlükəsizlik sahəsində vətəndaşların və ictimai birliklərin hüquqları) əsasən Azərbaycan Respublikasının vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ekoloji təhlükəsizliyi dövlət tərəfindən təmin edilir. Təhlükəli ekoloji vəziyyət yaranması nəticəsində onlara dəyən ziyana görə ödənc almaqda eyni hüquqa malikdirlər.

Yuxarıda göstərilən qanun vətəndaşların aşağıdakı hüquqlarını müəyyən etmişdir:

- dövlət və yerli özünüidarəetmə orqanlarına təkliflər vermək;
- dövlət və yerli özünüidarəetmə orqanlarından onların səlahiyyətləri daxilində ekoloji təhlükənin mənbələri, təhlükəli ekoloji vəziyyət və onların aradan qaldırılması üçün tədbirlərin keçirilməsi haqqında müəyyən edilmiş qaydada məlumat almaq;
- ekoloji təhlükəsizliyin təmin edilməsinə dair tələblərə riayət edilməsinə ictimai nəzarəti həyata keçirmək;
- ekoloji təhlükəsizlik sahəsində qanunvericiliyin tələbləri pozulduqda müvafiq dövlət və yerli özünüidarəetmə orqanlarına, məhkəmələrə müraciət etmək.

AR Konstitusiyasının 39-cu maddəsi sağlam ətraf mühitdə yaşamaq hüququnu təsbit etmişdir. Belə ki, bu maddə-

nin birinci bəndində qeyd olunur ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. İkinci bəndində isə göstərilir ki, hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.

AR Konstitusiyasının 39-cu maddəsinin üçüncü hissəsində isə göstərilir ki, heç kəs ətraf mühitə, təbii ehtiyatlara qanunla müəyyən edilmiş hədlərdən artıq təhlükə törədə və ya zərər verə bilməz.

Eyni zamanda qanunvericilik dövlətin ekoloji tarazlığının saxlanmasına, yabanı bitkilərin və vəhşi heyvanların qanunla müəyyən edilmiş növlərinin qorunmasına təminat verir.

AR Konstitusiyasının sağlam ərtaf mühitdə yaşamaq hüququnun ifadə olunduğu 39-cu maddəsinin ikinci hisəsi onun 57-ci maddə (Müraciət etmək hüququ) ilə sıx bağlıdır. Belə ki, Azərbaycan Respublikası vətəndaşlarına dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ müəyyən edir. Göstərilir ki, hər bir müraciətə qanunla müəyyən edilmiş qaydada və müddətlərdə yazılı cavab verilməlidir. Bu maddənin ikinci hissəsinə görə Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarının və onların vəzifəli şəxslərinin, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, habelə ayrı-ayrı vətəndaşların fəaliyyətini və ya işini tənqid etmək hüququ vardır. Tənqidə görə təqib qadağandır. Təhqir və böhtan tənqid sayıla bilməz.

Azərbaycan Respublikasının konstitusiya qanunvericili ilə insan və vətəndaş hüquqlarının və azadlıqlarının aşağıdakı təminatları müəyyən edilmişdir (maddə 71):



- Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur.
- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra bilməz.
- Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir.
- Heç bir halda heç kəs din, vicdan, fikir və əqidəsini açıqlamağa məcbur edilə bilməz və bunlara görə təqsirləndirilə bilməz.
- Bu Konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.
- Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir.
- İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.
- Heç kəs törədildiyi zaman hüquq pozuntusu sayılmayan əmələ görə məsuliyyət daşımır. Hüquq pozuntusu törədildikdən sonra yeni qanunla bu cür hərəkətlərə görə məsuliyyət aradan qaldırılmışsa və ya yüngülləşdirilmişsə, yeni qanun tətbiq edilir.

«Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanununa əsasən ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin hüquqları aşağıdakılardan ibarətdir:

- hər bir vətəndaş həyatı və sağlamlığı üçün əlverişli ətraf mühitin olması, onun vəziyyəti və vəziyyətinin yaxşılaşdırılması barədə tədbirlər haqqında dəqiq məlumat almaq;

- ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində onların sağlamlığına və əmlakına vurulan zərərə görə ödənc almaq;

- sağlamlıq və həyat üçün əlverişli olan ətraf təbii mühitdə yaşamaq;

- müəyyən edilmiş qaydada təbii resurslardan istifadə etmək, onların mühafizəsi və bərpası üzrə tədbirlər həyata keçirmək, ətraf mühitin mühafizəsində və sağlamlaşdırılmasında iştirak etmək;

- qanunvericilikdə müəyyən edilmiş qaydada ətraf mühitin mühafizəsinə aid yığıncaqlarda, mitinqlərdə, piketlərdə, yürüşlərdə və nümayişlərdə, referendumlarda iştirak etmək;

- ətraf mühitin mühafizəsinə dair dövlət hakimiyyət orqanlarına və təşkilatlarına müraciət etmək;

- ictimai ekoloji ekspertiza haqqında təkliflər vermək;

- insan həyatına və ətraf mühitə mənfi təsir göstərən müəssisələrin, qurğuların və başqa ekoloji zərərli obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi haqqında qərarların inzibati və ya məhkəmə qaydasında ləğv edilməsini və həmçinin fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdırılmasını, müvəqqəti dayandırılmasını və hüquqi şəxslərin ləğv edilməsini tələb etmək;

- ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə müvafiq orqanlar və məhkəmələr qarşısında iddialar qaldırmaq;

- qanunvericilikdə nəzərdə tutulan başqa hüquqlarını müəyyən edilmiş qaydada həyata keçirmək(madddə 6).



Ətraf mühitin mühafizəsi sahəsində ictimai birliklərin aşağıdakı hüquqları vardır:

- özünün ekoloji proqramlarını işləmək və təbliğ etmək, ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların hüquqlarını və maraqlarını müdafiə etmək, onları bu işdə fəaliyyətə cəlb etmək;

- ətraf mühitin mühafizəsi sahəsində ictimai nəzarəti həyata keçirmək;

- dövlət orqanlarından və təşkilatlarından ətraf mühitin vəziyyətinə və onun bərpasına dair tədbirlər barədə vaxtında, tam və dəqiq məlumat almaq;

- müəyyən işlərin yerinə yetirilməsi üzrə qanunvericiliklə nəzərdə tutulmuş ətraf mühitin mühafizəsi sahəsində dövlət orqanları və beynəlxalq təşkilatlar ilə müqavilə əsasında əməkdaşlıq etmək;

- ətraf mühitin mühafizəsi sahəsində qanun layihələrinin müzakirəsində iştirak etmək;

- inzibati və məhkəmə qaydasında ekoloji cəhətdən zərərli müəssisələrin, tikililərin və qurğuların yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi, o cümlədən ətraf mühitə və insanların sağlamlığına mənfi təsir göstərən təsərrüfat fəaliyyətinin məhdudlaşdırılması, müvəqqəti və daimi dayandırılmasını tələb etmək;

- təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə məsələləri qaldırmaq;

- ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində vətəndaşların sağlamlığına və əmlakına vurulmuş zərərin ödənilməsi haqqında iddiaları məhkəməyə təqdim etmək.

- İctimai birliklərin vəzifələri öz fəaliyyətini ətraf mühitin mühafizəsi və ictimai birliklər haqqında qanunlara uyğun həyata keçirməkdən ibarətdir («Ətraf mühitin mühafi-

zəsi haqqında» Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanunun 7-ci maddəsi)

Qanunvericilik təbiətdən istifadəçilərin aşağıdakı dairəsini təsbit etmişdir. Belə ki, təbiətdən istifadəçilər hüquqi və fiziki şəxslər (xarici istifadəçilər də daxil olmaqla), dövlət, qeyri-dövlət təşkilatları, daimi və müvəqqəti, ilkin və təkrar istifadəçilər ola bilərlər. Xarici istifadəçilər xarici hüquqi və fiziki şəxslər, beynəlxalq birliklər və təşkilatlar, daimi istifadəçilər təbiətdən istifadə hüququ müddətsiz verilən istifadəçilər, müvəqqəti istifadəçilər təbiətdən istifadə hüququ müəyyən müddətə verilən istifadəçilərdir. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının 8 iyun 1999-cu il tarixli Qanunun 8-ci maddəsi ilkin və təkrar istifadəçiləri müəyyən edir. Belə ki, qanunvericiliyə əsasən təbiətdən istifadə hüququnu dövlətdən birbaşa alan istifadəçilər ilkin istifadəçilər; təbiətdən ilkin istifadəçidən müqavilə əsasında hüquq alan istifadəçilər isə təkrar istifadəçilər adlandırılır.

AR Konstitisyasının 39-cu maddəsinin ikinci hissəsi «Ətraf mühitə dair informasiya almaq haqqında» Azərbaycan Respublikasının 12 mart 2002-ci il tarixli Qanunu ilə geniş şərh olunmuşdur. Belə ki, bu qanun ətraf mühitin vəziyyətinə və təbii ehtiyatlardan istifadəyə dair dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarından, həmçinin məsul şəxslərdən tam, dəqiq, vaxtında informasiya almaqla bağlı yaranan münasibətləri tənzimləyir.

«Ətraf mühitə dair informasiya almaq haqqında» qanunun 4-cü maddəsinə görə (Ətraf mühitə dair informasiya almaq hüququ) alınması məhdudlaşdırılan informasiya istisna edilməklə, hər bir şəxs zamanından asılı olmayaraq və şərt qoyulmadan ətraf mühitə dair informasiya almaq hüququna malikdir.



«Ətraf mühitə dair informasiya almaq haqqında» qanununa əsasən hər bir ksəin ətraf mühitə dair informasiyanın alınmasına dair təminatalrı vardır (maddə 5).

Ətraf mühitə dair informasiyanın alınmasına təminat dövlət və yerli özünüidarəetmə orqanları, habelə məsul şəxslər tərəfindən aşağıdakı qaydada həyata keçirilir:

- informasiyanın axtarılmasına şərait yaratmaq;
- sənədlərlə tanış olmaq, onların surətini əldə etmək;
- vəzifəli şəxslərdən müsahibələr götürmək;
- mətbuat konfranslarında və digər tədbirlərdə iştirak etmək;
- yazılı sorğulara rəsmi cavablar almaq.

Dövlət və yerli özünüidarəetmə orqanları müraciət edənin ətraf mühitə dair informasiya almaq hüququnu təmin etmək üçün aşağıdakıları həyata keçirməlidirlər:

- müvafiq fəaliyyətin ətraf mühitə proqnozlaşdırılan təsiri barədə informasiyanın toplanmasını təmin edən zəruri sistemlərin yaradılmasını;
- fövqəladə hallar barədə məlumat verilməsini;
- müraciət və ya sorğuya qanunvericiliklə nəzərdə tutulmuş qaydada və müddətdə baxılıb cavab verilməsini;
- toplanmış informasiyanın mütəmadi yeniləşdirilməsini;
- müraciət edənin verdiyi sorğuya əsasən ətraf mühitə dair informasiya obyektlərinin siyahısı ilə, habelə ətraf mühitə dair informasiya barədə sənədlərlə tanış edilməsini.
- Qanunun 5-ci bəndinə əsasən qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olunmaqla, dövlət və yerli özünüidarəetmə orqanları ətraf mühitə dair informasiya verməkdən imtina etməməlidirlər.
- Ətraf mühitə dair informasiyanın hazırlanması, toplanması, istifadə olunması, yayılması qanunla, təhlili, saxlan-

ması, yeniləşdirilməsi, obyektlərinin siyahısı, qeydiyyatı və onun aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Ətraf mühitə dair informasiya verilməsi üzrə dövlət orqanlarının aşağıdakı vəzifələri vardır:

- ətraf mühitə dair informasiya qeydiyyat, istifadəsində olan reyestr və arxivlərin müraciət edənlər üçün açıq olmasını və bunlarla bağlı məlumatların verilməsini təmin edir;
- kütləvi informasiya vasitələrində ətraf mühitə dair vaxtaşırı verilən məlumatların vahid formasını və müddətlərini müəyyən edir;
- ətraf mühitə dair elektron məlumat bankında olan açıq informasiyanın müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qaydada və müddətdə ümumi rabitə vasitələri ilə artırılması üçün tədbirlər görür;
- üç ildə bir dəfədən az olmayaraq ətraf mühitin vəziyyətinə dair milli məruzələri, habelə ətraf mühitin vəziyyəti (keyfiyyəti və çirklənməsi) barədə məlumatları dərc edir;
- ildə bir dəfədən az olmayaraq ətraf mühitin vəziyyətinə dair hesabatlar tərtib edir, onları ictimaiyyət üçün açıq olan elektron məlumatlar bankına daxil edir, çirklənmələrlə bağlı kadastr və reyestr sistemlərinin təkmilləşdirilməsi üçün tədbirlər görür.

Dövlət və yerli özünüidarəetmə orqanları ətraf mühitə dair informasiya almaq barədə müraciət və ya sorğuya cavab verməkdən, habelə informasiyanın yayılmasından aşağıdakı hallarda imtina edə bilər:

- dövlətin təhlükəsizlik məsələləri ilə bağlı olduqda;
- dövlət hakimiyyəti orqanlarının beynəlxalq əlaqələr və müdafiə məsələləri üzrə məxfi materiallarına istinad edildikdə;



- məhkəmə orqanlarında baxılan və ya ibtidai istintaq mərhələsində olan məsələlərə aid olduqda;
- kommersiya sirrinə aid olduqda;
- açıqlanması ətraf mühit üçün təhlükə yaradacağı və ya onun komponentlərinə zərər vura biləcəyi təqdirdə;
- qanunvericiliklə müvafiq səlahiyyətə malik olmayan və ya üzərinə belə öhdəlik qoyulmayan, habelə məlumatların yayılmasına razılıq verməyən üçüncü şəxs tərəfindən təqdim olunmuş materiallara istinad olunduqda.

Mövcud informasiya müvafiq dövlət orqanına təqdim edilən zaman sahibkar tərəfindən kommersiya sirri elan edilmişdirsə, həmin informasiyanı saxlayan şəxs onun açıqlanmasından dəyə biləcək zərər barədə sahibinin mövqeyini öyrənmək üçün sorğu verməlidir. Bu sorğuya 15 gün müddətində cavab verilməlidir. Sahibkarın fəaliyyəti nəticəsində yaranan tullantılar və digər təsirlər kommersiya sirrinə aid edilə bilməz. İnformasiyanın açıqlanmasında ictimai maraq onun gizlədilməsi marağından yüksək olduğu hallar istisna edilməklə, müraciət və ya sorğu edənə səbəbləri bildirilməklə, informasiyanın verilməsindən imtina oluna bilər.

Bu Qanunun 7.1 və 7.2 maddələrində göstərilən informasiyadan ayırmaq mümkün olduqda, həmin informasiya onu verən orqan tərəfindən müəyyən edilən qaydada qismən də verilə bilər. (Maddə 7. Ətraf mühitə dair informasiya verməkdən imtinanın əsasları).

Ətraf mühitə dair informasiya almaq üçün müraciət və ya sorğunun verilməsinin qaydaları qanunla (maddə 8) müəyyən olunmuşdur: ətraf mühitə dair informasiya almaq barədə müraciət və ya sorğu yazılı şəkildə təqdim edilməli, dəqiq və aydın tərtib olunmalı, sorğu edən barədə tam məlumatı əks etdirməlidir. Bu zaman müraciət edənin informasi-

yanı almaqda hüquqi və ya digər maraqlarının göstərilməsi zəruri deyildir.

Müraciəti və ya sorğunu almış dövlət və ya yerli özünüidarəetmə orqanları əlavə məlumat tələb edə bilər. Müraciət edənin sorğunu dəqiqləşdirməməsi ətraf mühitə dair informasiyanın verilməsindən imtina üçün əsas ola bilər.

Ətraf mühitə dair informasiya almaq üçün müraciət və ya sorğu aşağıdakılara göndərilir:

- açıq informasiya üzrə müvafiq dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, onların strukturlarına, məsul şəxslərə;

- alınması məhdudlaşdırılan informasiya üzrə təsnifatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən dövlət hakimiyyəti orqanlarına.

Ətraf mühitə dair informasiya almaq üçün müraciət və ya sorğuya aşağıdakı qaydada baxılır(maddə 9):

- ətraf mühitə dair informasiya almaq barədə müraciət və ya sorğu qanunvericilikdə nəzərdə tutulmuş qaydada qeydiyyata götürülür, baxılır və cavab verilir.

- Müraciət və ya sorğunu təmin etməkdən imtina olunduqda, müraciət edənə ən geci 10 gün müddətində səbəbləri göstərməklə cavab verilir.

- Müraciət və ya sorğunun əhatə etdiyi məlumatlar vaxtında verilmədikdə əhəmiyyətini itirirsə, cavab dərhal, bu mümkün olmadıqda 24 saat ərzində verilir.

- Digər hallarda ətraf mühitə dair informasiya almaq üçün müraciət və sorğuya bir aydan gec olmayaraq, məlumat mürəkkəb olduqda isə (sorğu verənə ilkin cavab verməklə) iki ay ərzində cavab verilməlidir.

- Ətraf mühitə dair informasiya almaq üçün müraciət və ya sorğuya cavabları dövlət və ya yerli özünüidarəetmə orqanlarının rəhbərləri, həmin orqanlarda ətraf mühitə dair informasiya üçün məsul olan vəzifəli şəxs verir.



- Cavabda sorğu edilən informasiya ilə bağlı konkret məlumatlar göstərilir və tələb olunduqda müvafiq sənədlərin surəti əlavə olunur.

Ətraf mühitə dair informasiya barədə verilən cavabda həmin informasiyanın kommersiya məqsədilə ötürülməsi, satılması, çoxaldılması, dərc edilməsi şərtləri bildirilməli və ya qadağan olunması göstərilməlidir. Ətraf mühitə dair informasiya almaq üçün müraciətin və ya sorğunun təmin edilməsindən imtina, cavab verən orqan tərəfindən əsaslandırılmalıdır.

Ətraf mühitə dair informasiya almaq üçün müraciət və ya sorğuya aid aşağıdakı qaydada qərarlar qəbul olunur (maddə 10):

- müvafiq dövlət və yerli özünüidarəetmə orqanları, onların sahə strukturları səlahiyyətlərinə aid məsələlər üzrə ətraf mühitə dair informasiya reyestri aparmalı, həmçinin öz səlahiyyətləri daxilində onu almaq hüququ olan subyektləri bu informasiya ilə təmin etməlidir.

- Ətraf mühitin vəziyyətinə, ətraf mühitə ziyan vurulmasına və təhlükəli ekoloji təsirlərə dair məlumatlar qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlanır.

- Ətraf mühitə dair informasiya almaq üçün edilmiş müraciət və ya sorğuya cavab vermək qərarını müvafiq orqanın rəhbəri və ya ətraf mühitə dair informasiya reyestrinin aparılmasına məsul olan şəxs qəbul edir.

- Ətraf mühitə dair informasiyanın verilməsinin maliyyələşdirilməsi mənbələri, onun ödənişli və ya ödənişsiz olması, ödənişin həcminin müəyyənləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Bu qaydalarda haqq alınmasına əsas olan tarif dərəcələri, haqqın

alınması və ondan azadolma, haqqı qabaqcadan ödənməklə məlumat təqdimetmə halları barədə müraciət edənin məlumatlandırılması şərtləri öz əksini tapmalıdır. Ödənişli informasiya üçün müəyyən edilən haqq onun hazırlanması, axtarılması, surətinin çıxarılması və sair işlərin dəyərindən çox ola bilməz.

- Ətraf mühitə dair informasiya birdəfəlik sorğu, eləcə də müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən qaydada informasiya almaq istəyən şəxslə bağlanmış müqavilə əsasında verilə bilər. Açıq informasiya müraciət və ya sorğuya cavab şəklində, eləcə də müvafiq icra hakimiyyəti orqanları tərəfindən öz səlahiyyətləri daxilində kütləvi informasiya vasitələrində müntəzəm yayımlamalar yolu ilə əhaliyə çatdırılır. Açıq informasiya müvafiq icra hakimiyyəti orqanı tərəfindən hər təqvim ilinə dair hazırlanır və növbəti ilin birinci yarısından gec olmayaraq kütləvi informasiya vasitələrində yayımlanır. Alınması məhdudlaşdırılan informasiyanın verilməsi bu Qanunla və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir. Elan edilməməsi və ya vaxtında elan edilməməsi ətraf mühitə və ətraf mühitin mühafizəsi sistemlərinin pozulmasına, habelə əhalinin sağlamlığına ziyan vura bilən məlumatlar informasiya obyektləri tərəfindən dərhal açıqlanmalıdır.

Ətraf mühitə dair informasiyadan istifadəyə icazə və onun alınma hüququnun müdafiəsi qanunun 11-ci maddəsi ilə müəyyən edilmişdir. Belə ki, ətraf mühitə dair açıq və alınması məhdudlaşdırılan informasiyadan istifadəyə icazə verilməməsindən, habelə açıq informasiyanın əsassız olaraq alınması məhdudlaşdırılan informasiyaya aid edilməsindən, informasiya verilməsindən yayınmaqdan və imtinadan, ona natamam və ya qeyri-dəqiq cavab verilməsindən, müraciət edənin digər hüquqlarının pozulmasından məhkəməyə müraciət edilə bilər. Ətraf mühitə dair qeyri-dəqiq və ya əsassız imtina cavabı alanlar onlara dəyən maddi və mənəvi zərərin ödənilməsini tələb etmək hüququna malikdirlər. Ətraf mühitə dair informasiyanın əsassız olaraq alınması məhdudlaşdırılan informasiya növünə aid edilməsi barədə mübahisələr, həmçinin müraciət edənə həmin informasiyanın verilməsindən əsassız imtina və ya onun digər hüquqlarının pozulması nəticəsində dəyən zərərin ödənilməsi haqqında iddialara məhkəmədə baxılır.



Ətraf mühitə dair informasiyanın verilməsinin qanuna zidd məhdudlaşdırılmasına görə məsuliyyət müəyyən olunur (maddə 12). Ətraf mühitə dair informasiyanın verilməsini qanuna zidd məhdudlaşdırmaqda təqsirli bilinən dövlət və ya yerli özünüidarəetmə orqanlarının rəhbərləri və digər vəzifəli şəxslər qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyırlar.

Qanunun 13-cü madddəsinə görə ətraf mühitə dair informasiya almaq sahəsində beynəlxalq fəaliyyət aşağıdakıları əhatə edir:

- ətraf mühitə dair informasiya almaq sahəsində beynəlxalq və dövlətlərarası əməkdaşlıq Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə uyğun olaraq həyata keçirilir.

- Azərbaycan Respublikasının qanunvericiliyi ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yarandığı halda, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Azərbaycan Respublikasının 78-ci maddəsinə əsasən ətraf mühitin qorunması hər bir şəxsin borcudur.

AR Konstitusiyasıınn maddə 24-cü maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipləri müəyyən edilmişdir. Bunlar əsasən aşağıdakılardır: hər kəsin

doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır; hüquqlar və azadlıqlar hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini və vəzifələrini də əhatə edir

AR Konstitusiyasında göstərilir ki, hamı qanun və məhkəmə qarşısında bərabərdir; kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır; dövlət, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir və s (maddə 25). İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının müdafiəsi isə AR Konstitusiyasının 26-cı maddəsinə əsasən müəyyən edilmişdir. Belə ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır: Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. İnsan və vətəndaşın ekoloji hüquqlarının müdafiəsi mexanizmi məhz AR Kostitusiyasında təsbit olunub.



# IX FƏSİL

# XARİCİ ÖLKƏLƏRİN EKOLOGİYA HÜQUQUNUN ÜMUMİ XARAKTERİSTİKASI

## 9.1. MDB ölkələrində ekologiya hüququnun inkişafı

MDB-nin yaradılması haqqında 1991-ci ilin 8 dekabrında Minskdə qəbul edilmiş saziş Birliyin ekologiya təhlükəsizliyi sahəsində əməkdaşlığını zəruri etmişdir. MDB ölkələrinin ekoloji qanunvericiliyinin razılaşdırılması prinsipi də müəyyən edilmişdir. Bu prinsip MDB ölkələrinin bir sıra müqavilələrinin normalarında konkretləşdirilmişdir və realizə edilmişdir. Belə ki, məsələn, MDB dövlətlərinin 27 mart 1997-ci il tarixdə Moskvada qəbul edilmiş Mədən Xartiyasında ölkələrin yerin tərkibinin öyrənilməsi, kəşfiyyatı, istifadəsi və mühafizəsi sahəsində səylərin mərhələli şəkildə birləşdirilməsi və gücləndirilməsini nəzərdə tutur. Mədəni bitkilərin genetik ehtiyatlarından istifadə və onun mühafizəsi sahəsində əməkdaşlıq haqqında 1999-cu il iyunun 4-də qəbul edilmiş saziş tərəflər arasında genetik ehtiyatların mübadiləsini asanlaşdırmaq məqsədi ilə üzv- dövlətlərin qanunvericiliyinin yaxınlaşdırılması baxımında əməkdaşlığı nəzərdə tutur.

1992-ci il 8 fevralda Moskvada ekologiya sahəsində MDB ölkələrinin qarşılıqlı fəaliyyəti haqqında hökumətlər-

arası saziş bağlanmışdır. Bu sazişə uyğun olaraq 1992-ci ilin iyul ayında Minskdə dövlətlərin təbiəti mühafizə orqanlarının rəhbərləri Dövlətlərarası ekoloji şuranın yaradılması və səlahiyyətləri haqqında Protokolu imzalamışlar. Bu protokolda təbiətdən rasional istifadənin həyata keçirilməsi üçün təbiəti mühafizə orqanları rəhbərlərinin dövlətlərin müvafiq hökumətlərinə təsir etmələrinin zəruriliyi göstərilmişdir. Bu Şuranın növbə ilə hər bir ölkədə ildə iki dəfədən az olmayaraq keçirilməsi nəzərdə tutulmuşdur. Şuranın daimi fəaliyyət göstərən orqanı iştirakçı ölkələrin pul ödəmələri hesabına Beynəlxalq ekoloji fond vasitəsi ilə maliyyələşən katiblikdir. Fondun illik ödənişi hər bir ölkənin milli gəlirinin 0,5% təşkil edir. Fondun Mərkəzi Bankı və idarəetmə mərkəzi Minskdə yerləşir. Şura MDB ərazisində ən vacib ekoloji problemlərin siyahısını təsdiq etmişdir (Amu-Dərya, Sır-Dərya, Baykal gölü, Balxas gölü və s.).

1992-ci il dekabrın 29-da MDB Parlamentlərarası Assambleyasının qərarı ilə «Birlik dövlətlərinin ekoloji təhlükəsizliyinin prinsipləri haqqında» akt qəbul edilmişdir. Bütün ölkələrdə ətraf mühitin mühafizəsi haqqında qanunvericilik aktları qəbul edilmişdir. Bu aktlar əksər hallarda bir-birinə oxşayır. Məsələn, MDB dövlətlərinin konstitusiyalarında vətəndaşların sağlam ətraf mühitdə yaşamaq hüququ və bu hüququn pozulmasına görə zərərin ödənilməsi, eyni zamanda vətəndaşların öhdəlikləri müəyyən edilmişdir. Lakin torpaq və təbiət üzərində mülkiyyət hüququ sahəsində müxtəlif fikirlər vardır. Belə ki, məsələn, Qazaxıstan və Özbəkistanda torpaq və digər təbiət obyektləri üzərində ancaq dövlət mülkiyyəti mövcuddur. MDB-nin bir neçə ölkəsinin qanunvericiliyində isə, məsələn, Türkmənistan, Belarusiya və b. qanunvericilik qaydasında təsbit edilmişdir ki, mülkiyyət hüququnun həyata keçirilməsi ətraf mühitə zərər vurmamalıdır



və beləliklə, təbii obyektlər üzərində dövləti mülkiyyəti məsələsi qəti müəyyən edilməmişdir.

MDB dövlətlərinin ekoloji qanunvericiliyinin formalaşmasında aşağıdakı sazişlərin süsusi əhəmiyyəti vardır:

- Təbii və texnogen xarakterli fövqəladə situasiyaların ləğvi və profilaktikasının nəticələri sahəsində əməkdaşlıq haqqında 22 yanvar 1993-cü il tarixli Moskva Sazişi;
- Təhlükəli tullantıların sərhədlərarası daşınması üzrə 12 aprel 1996-cı il tarixli Moskva sazişi;
- 11 sentyab 1998-ci il tarixli sərhədyanı su obyektlərindən rasional istifadə və onların mühafizəsi sahəsində qarşılıqlı fəaliyyətin əsas prinsipləri haqqında Moskva sazişi,
- 13 yanvar 1999-cu il tarixli Ekoloji monitorinq sahəsində Saratov sazişi və s.

MDB ölkələrinin ekoloji qanunvericiliyinin inteqrasiyası əsasən yuxarıda göstərilən dövlətlərarası sazişlərlə həyata keçirilir. Bunlara əlavə olaraq, məsələn, 16 yanvar 1992-ci il tarixində Çernobil faciəsinin nəticələrinin aradan qaldırılması, ekologiya və təbiəti mühafizə sahəsində 1992-ci il sazişi və s. göstərmək olar. Bu sahədə vacib akt kimi atom enerjisindən Sülh məqsədləri üçün istifadə, nüvə qurğularının təhlükəsizliyinin artırılması barəsində 17 yanvar 1997-ci il tarixində qəbul edilmiş Moskva Sazişlərini də göstərmək olar.

Ekologiya hüququnun konstitusiya əsasları bütün MDB ölkələrində müəyyən edilmişdir. Məsələn, AR Konstitusiyasının 14-cü maddəsinə əsasən təbii ehtiyatlar hər hansı fiziki və ya hüquqi şəxslərin hüquqlarına və mənafelərinə xələl gətirmədən Azərbaycan Respublikasına mənsubdur. Rusiya Federasiyası Konstitusiyasının 9-cu maddəsinə əsasən torpaq və digər təbii ehtiyatlar müvafiq ərazidə yaşayan xalqların həyat fəaliyyətinin əsası kimi istifadə olunur və qorunur. Digər MDB ölkələrinin Konstitusiyalarından fərqli ola-

raq Rusiya Federasiyası Konstitusiyası nəinki torpaq, eləcə də digər təbii ehtiyatlar üzərində mülkiyyətin müxtəlif formalarını təsbit edir. Azərbaycan Respublikası Konstitusiyasının 39-cu, RF Konstitusiyasının 42-ci maddələrində hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququ, ətraf mühitin vəziyyəti haqında ətraflı məlumat almaq, hüquqpozmalarla bağlı maddi ziyanın ödənilməsini tələb etmək hüququ təsbit olunub.

MDB ölkələrində qanunvericiliyin ümumi cəhətləri aşağıdakılardan ibarətdir: bütün ölkələrin konstitusiyalarında vətəndaşların sağlam ətraf mühitdə yaşamaq hüququ və bu sahədə dövlətin həyata keçirdiyi tədbirləri əhatə edən müddəalar və prinsiplərin təsbiti; ətraf mühitin mühafizəsi haqqında çərçivə qanunlarının qəbul edilməsi və s.

MDB ölkələrinin ekologiya sahəsində qanunvericiliyinin öyrənilməsi aşağıdakılarla da şərtlənir: tarixən bütün MDB dövlətləri vahid hüquq sisteminə məxsusdurlar; MDB yaradılarkən ekoloji münasibətlərin hüquqi tənzimi eyni səviyyədə olub, çünki vahid SSRİ qanunvericiliyi mövcud idi; MDB dövlətləri bir-birləri ilə ərazi baxımından da yaxındırlar ki, bu da eyni ekoloji problemlərin olmasını şərtləndirir. Məsələn, Aral gölü problemi və s.

Hazırda xüsusi qanunlar demək olar ki, bütün MDB ölkələrində qəbul edilmişdir. Məsələn, Belorusiya Respublikasında ekoloji ekspertiza, Azərbaycan Respublikasında, Ukraynada xüsusi mühafizə olunan təbiət obyektləri və əraziləri haqqında qanunlar qəbul olunmuşdur.

Eyni zamanda MDB məkanında digər qanunvericilik sahələrinin ekologiyalaşdırılması da həyata keçirilir. Məsələn, inzibati qanunvericilik ətraf mühitin çirkləndirilməsinə görə inzibati normalarla əhatə olunur. Ekologiyalaşdırma bir tərəfdən Məcəllələrə əlavələr, digər tərəfdən isə xüsusi



qanunvericilik aktlarının qəbul olunması vasitəsi ilə həyata keçirilir.

Bütövlükdə ekologiya sahəsində MDB ölkələrinin qanunvericiliyi dinamik inkişaf edir və özündə beynəlxalq, məsələn, Stokholm, Rio-de-Jeneyro və s. tövsiyələri də əks etdirir. MDB iştirakçı-dövlətlərin Parlamentlərarası Assambleyasının 16 noyabr 2006-cı il tarixli iyirmi yeddinci plenar iclasının 27-8 nömrəli qərarına əsasən «Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətləri üçün model Ekoloji Məcəlləsi» qəbul edilmişdir.

MDB ölkələrinin model Ekologiya Məcəlləsi ekologiya sahəsində (təbiətdən istifadə, ətraf mühitin mühafizəsi, ekoloji təhlükəsizsizliyin təmin edilməsi və s.) ictimai münasibətləri tənzimləyir və bu sahədə müvafiq dövlət orqanlarının səlahiyyətlərini, fiziki və hüquqi şəxslərin öhdəliklərini, ekoloji hüquq pozğunluqlarına görə məsuliyyəti və s. müəyyənləşdirir.

1997-ci il dekabr ayında MDB ölkələrinin Parlamentlərarası Assambleyasının sonuncu sessiyasında model kimi «Ekoloji informasiya» qanunu qəbul edilmişdir.

MDB ölkələrinin ekoloji qanunvericiliyi sosial, iqtisadi, hüquqi, siyasi, ideoloji və mədəni ənənələrdən çıxış edərək ümumi cəhətlərlə xarakterizə olunur və Birlik ölkələrində inteqrasiya proseslərinin zəruriliyi ilə səciyyələnir. MDB ölkələrinin ekoloji-hüquqi sistemi aşağıda göstərilən eyni tipli qanunvericilik aktlarına əsaslanır: milli ekoloji hüququn ümumkonstitusiya əsasları; ətraf mühitin mühafizəsi haqqında kompleks qanunlar; təbiət obyektləri və ehtiyatlarının mühafizəsi və istifadəsi haqqında diferensiyalaşmış məcəllələrin və xüsusi qanunların mövcudluğu; təbiəti mühafizə üzrə ayrı-ayrı qanunların qəbul edilməsi və s.

Qeyd etmək lazımdır ki, «qanunvericiliyin formalaşmasına təsir edən faktorlar obyektiv qloballaşma və ekoloji problemlərin inteqrasiyasını və milli maraqlarla harmoniyasını tələb edir» [48].

MDB ölkələri sırasında ilk dəfə olaraq Qazaxıstan da Ekoloji Məcəllə qüvvəyə minib. Belə ki, 2004-cü ildən etibarən bu layihənin hazırlanması üçün idarələrarası işçi qrupu yaradılmışdı. Qazaxıstan ın Ekoloji Məcəlləsi 2007-ci il yanvarın 9-da təsdiq edilmişdir. Bu zaman müxtəlif beynəlxalq təşkilatların 20-dək tövsiyə sənədləri, 14 beynəlxalq konvensiya, digər dövlətlərin 30-dək direktiv və qanunları nəzərə alınmışdır[49]. Qazaxıstan Ekoloji Məcəlləsi 9 bölmədən, 47 fəsildən 326 maddədən ibarətdir. Burada birinci maddədə 69 hüquqi anlayışlar göstərilir. İkinci maddədə ekologiya qanunvericiliyinin anlayışı, 10-cu maddədə təbiətdən istifadənin, 11-ci maddədə təbiətdən istifadəçilərin hüquqi statusları verilir. Məsəllənin 12-ci fəsli ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətin və onun növlərini müəyyən edir. Məcəllənin 18-ci fəsli isə özündə təbiət ehtiyatlarının kadastrının aparılması qaydalarını əks etdirir və s.

Digər MDB ölkələrində isə ekoloji məcəlləşmə sahəsində siyasət həyata keçirilir. Məcəlləşmə sahəsində MDB ölkələrində oxşar cəhət var: ekologiya məcəlləsinin yaradılmasının zəruriliyi; bu sahədə qanunvericiliyin modernləşməsi və onun beynəlxalq normalara uyğunluğunun müəyyən edilməsi; məcəllə daha çox ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyə aiddir.

---

[48] Игнатьева А.А. Опыт кодификации Экологического законодательства в государствах участниках СНГ //Экологическое право, 2007, №3, с.27-30

[49] Шетшученко Ю.С. Национальные интересы и экологическое право //Журнал российского право, 2005, №12, с. 93-95



Belarusiya Respublikası Nazirlər Şurasının 16 dekabr 2005-ci il tarixli 1460 nömrəli Qərarı ilə Ekologiya məcəlləsinin Konsepsiyası təsdiq edilmişdir. Məcəlləşmə zamanı aşağıdakı qanunvericilik aktının birləşdirilməsi nəzərdə tutulurdu: «Ətraf mühitin mühafizəsi haqqında», «Tullantılar haqqında», «Dövlət ekoloji ekspertizası haqqında», «Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında» və s. Ekoloji Məcəllə 124 maddəni özündə birləşdirən 21 fəsildən ibarət olaraq təsdiq edilməsi nəzərdə tutulurdu.

Ukraynada isə hələ Ali Radanın 1998-ci il 5 mart tarixli qərarı ilə ekologiya sahəsində məcəllə yaradılması prosesi başlanmışdı.

Rusiya Federasiyasında da Ekoloji Məcəllənin yaradılması sahəsində əsas ideya kimi vətəndaşların əlverişli ətraf mühitdə yaşamaq hüququnun təsbiti, ekoloji təhlükəsizlik, təbiəti mühafizə siyasətinin həyata keçirilməsi və s. qarşıya qoyulmuşdu.

## 9.2. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ekologiya hüququnun əsas xüsusiyyətləri

Ekoloji qanunvericiliyin məcəlləşməsi hazırda xüsusilə aktualdır. Ekoloji böhranın kəskinləşməsi, ətraf mühitə mənfi təsirin artması, təbiətdən istifadənən miqyasının genişlənməsi, hərbi və milli münaqişələrdə təbiətin korlanması və s. kimi amillər ayrı-ayrı dövlətlər və eləcə də beynəlxalq birlik səviyyəsində böyük miqdarda qanunvericilik aktlarının yaranmasına gətirib çıxartdı. Faktik olaraq XX əsrin sonu-XXI əsrin əvvəlləri hüququn qlobal ekologiyalaşdırılması dövrüdür. Nəticədə ətraf mühitin mühafizəsi, əhalinin və ərazinin ekoloji təhlükəsizliyinin təmin edilməsi sahəsində milli və beynəlxalq qanunvericilik formalaşmış, böyük təcrübə əldə edilmişdir. Ətraf mühitin mühafizəsi, onun bərpası, qorunub saxlanması və rasional istifadə sahəsində bəzi irəliləyişlərə nail olunmuşdursa da, həllini gözləyən və ya lazımınca tənzimlənməyən məsələlər də vardır. Lakin bu sahədə böyük həcmdə norma və aktların olması danılmazdır. Bu isə normalar və aktlar arasında ziddiyyətlərin və boşluqların yaranması və artmasına gətirib çıxarır. Ekoloji Məcəllə yaradılması sahəsində AFR-da, Fransada, İsveçdə və digər inkişaf etmiş ölkələrdə təcrübə yaranmışdır. Belə ki, Çexiyada, İsveçdə və Fransada belə məcəllələr artıq qüvvədədir. Almaniya Federativ Respublikasında Ekologiya Məcəlləsinin layihəsi üzrə 1992-1997-ci illərdə təkmilləşdirmə aparılmışdır. Nəticədə, AFR-in Ekoloji Məcəlləsi özündə 775 maddəni birləşdirən Ümumi və Xüsusi hissədən ibarət olaraq qəbul edilmişdir. Ümumi hissə səkkiz bölmədən, Xüsusi hissə isə doqquz bölmədən ibarətdir.

Ümumi hissə özündə nəzarət, məqsəd və planlaşdırmanı müəyyən edən mühüm müddəaları, ətraf mühitin mühafizəsi, ekoloji məsuliyyət, ekoloji informasiya və ətraf mühitin beynəlxalq-hüquqi mühafizəsini birləşdirir.



Xüsusi hissənin məzmununu təbiətin, landşaftların, meşələrin, torpaqların, suyun, atmosfer havasının, atom energetikasının, radiasiya təhlükəsizliyinin, gen mühəndisliyini və digər biotexnologiyanın, təhlükəli tullantıların tənzimlənməsi təşkil edir.

Digər ölkələrin ekologiya üzrə tədris proqramları və dərsliklərindən fərqli olaraq AFR-in ənənəvi ekologiya hüququnun strukturu ətraf mühitin mühafizəsinin alman konsepsiyasına müvafiq olaraq aşağıdakı kimi müəyyən edilmişdir: ümumi hissə (ətraf mühitin mühafizəsinin funksiyası, vəzifələri, prinsipləri, qanunvericiliklə tənzimlənməsi və vasitələri); planlaşdırma hüququ; təbiətin mühafizəsi; suların, torpağın, havanın, atom hüququnun, radiasiya təhlükəsizliyinin, gen mühəndisliyinin, kimyəvi maddələrin, tullantıların tənzimlənməsi. Odur ki, alman ekoloji qanunvericiliyində atom enerjisi, gen mühəndisliyi, kimyəvi tullantıların tənzimlənməsi kimi müstəqil sahələr vardır.

«Ekoloji informasiya» adlı yeddinci bölmə xüsusilə əhəmiyyətlidir. Bu fəsil aşağıdakı dörd fəsildən ibarətdir: «Dövlət ekoloji informasiyası», «İnformasiya azadlığı», «Sirrin saxlanılması», «İnformasiya komissiyası». Bu bölmədə bütövlükdə dövlət ekoloji tədqiqatları, ətraf mühitin mühafizəsi üzərində nəzarət, ekoloji informasiyanın federal sistemi, məlumatların işlənilməsi və təqdim edilməsi, ekoloji statistika, ekoloji-iqtisadi hesabat, ətraf mühit haqqında insanların məlumatlandırılması və s. əks olunmuşdur. Məcəllənin xüsusi hissəsinin «Gen mühəndisliyi və sair biotexnologiya» adlı bölməsi özündə yeddi fəsli birləşdirir(gen mühəndisliyi haqqında ümumi müddəa, qapalı sistemlərdə gen-mühəndis iş-

ləri, genlə alınmış ərzağın dövriyyəyə buraxılması, biotexnikanın köməyi ilə ətraf mühitin yaxşılaşdırılması və s.)

AFR-in Ekologiya Məcəlləsinin on altıncı fəsli xüsusilə əhəmiyyətlidir. Belə ki, bu fəslin məzmununu müxtəlif maddələr, onların yerləşdirilməsi, nişanlanması, istifadəyə hazırlanması, işçilərin mühafizəsi, labaratoriya praktikası, onun proseduraşı və təşkili ilə əlaqədar məsələlərin tənzimlənməsi təşkil edir. Məcəllənin səkkizinci fəslində isə bitkilərin yetişdirilməsi və müdafiəsi vasitələrinin istifadəsi və dövriyyəsi tənzimlənir.

Özündə səkkiz fəsli birləşdirən Məcəllənin on yeddinci bölməsində ətraf mühitə atılan tullantıların hüquqi tənzimlənməsi əks olunub.

Bununla belə qeyd edək ki, AFR Ekoloji Məcəlləsi son vaxtlar təkmilləşdirilmiş və yeniləşdirilmişdir. Nəticədə beş kitabdan ibarət olaraq təsdiq edilmişdir. Üç fəsildən ibarət olan birinci kitabda ekologiya hüququnun vacib norma, qayda və institutları əks olunur. Birinci fəsildə Məcəllənin bütün hissələri üçün ümumi müddəalar, strateji ekoloji ekspertiza, istehsalın ekoloji müdafiəsi, ekoloji ziyanın vurulmaması, ətraf mühitin mühafizəsi üzrə hüquqi vasitələr, hüquqi tənzimlənmənin digər istiqamətləri əks olunub. İkinci fəsildə icazələrin alınması (ekoloji ekspertiza, istehsal, müdaxilə imkanları, yoxlama, növbəti yoxlanışlar və s.) tənzimlənir.

İkinci kitabda su təsərrüfatı tənzimlənir. Üçüncü kitabda isə təbiətin ayrı-ayrı landşaftları və onların planlaşdırılması, müdafiəsi, əmlak və s. öhdəliklər, inzibati və cinayət göstərişləri və s. məsələlər tənzimlənir. Dördüncü kitab özündə təbiətin ətraf mühitin çirklənməsindən qorunması müddəalarını əhatə edir. Sonuncu, beşinci kitabda isə qanunvericiliyə uyğun olaraq atmosfer havasının, qazların tənzimlənməsi, bu sahədə sanksiyalar, ümumi göstərişlər əks etdirilir.



Fransada 18 sentyabr 2000-ci il tarixli Ekologiya Məcəlləsi inkorporasiya yolu ilə yaradılıb. Başqa sözlə, 2000-914 ordanonsu ilə təsdiq edilmiş bu Məcəllə 39-dan çox qanundan ibarətdir. I, III-V kitabların bir sıra maddələri 2 avqust 2005-ci il tarixli 2005-935 nömrəli ordanonsla qəbul edilmişdir. Ən böyük dəyişikliklər II və IV-cü kitablara 25 dekabr 2007-ci il tarixli 397 nömrəli dekretlə edilmişdir. Məcəllə ümumi və xüsusi hissələrdən ibarətdir. Ümumi hissənin məzmunu əsas prinsiplər, dövlət orqanları və qarşıda duran məqsədlər təşkil edir. Xüsusi hissədə su, meşə, atmosfer havası üzrə normalar əks olunmur, təhlükəli maddələr və tullantılar tənzimlənir.

Fransanın Ekologiya Məcəlləsi hazırda yeddi kitabdan ibarətdir. Birinci kitab «Ümumi müddəalar», ikinci kitab «Fiziki mühit», III kitab «Təbiət məkanı», IV kitab «Fauna və flora», V kitab «Çirklənmə, riisk və ziyanvurma» adlanır. VI kitab dəniz ərazilərinin (yeni Kaledoniya, Polineziya və s. ), VII kitab isə Antraktida ətraf mühitin mühafizəsinə həsr olunmuşdur.

Ətraf mühitin mühafizəsinin hüquqi tənzimlənməsinin normalarının məcəlləşməsi sahəsində xüsusi ilə Fransanın təcrübəsi böyükdür. Bununla belə bu məcəlləşmə mütləq xarakter daşımır, belə ki, onun mətni digər qanunlara, dekretlərə və məcəllələrə istinad olunmaqla zənginləşir.

XX əsrin sonlarında Fransada alimlər və siyasətçilər belə bir qənaətə gəldilər ki, müasir təbiəti mühafizə qanunvericiliyi işlənilib hazırlanmadan iqtisadi inkişafa nail olmaq mümkün deyildir. 1971-ci il yanvarın 27-də Fransada ətraf mühit üzrə nazirlik yaradılıb. Onun əsas vəzifəsi ətraf mühit üzrə digər nazirlik və müəssisələrin fəaliyyətini əlaqələndirmək və müvafiq qanunvericilik yaratmaqdan ibarət idi. Hələ 1960-ci ildə Milli park haqqında, 1964-cü ildə su ehtiyatla-

rının mühafizəsi haqqında Qanun qəbul edilmişdi. 1970-1990-cı illərdə ətraf mühitin mühafizəsi sahəsində, xüsusən, tullantıların yığımı və məhv edilməsi (1976), suyun keyfiyyəti (1981), enerjidən rasional istifadə (1982) və s. üzrə xüsusi orqanlar yaradılıb. 1990-cı ildə bu orqanlar ətraf mühitin müdafiəsi üzrə Agentlik adı ilə birləşdirilmişdir. 1998-2001-ci illərdə ətraf mühitin mühafizəsi sahəsində dövlət siyasəti gücləndirildi. Nəticə etibarı ilə Məcəllə yaratmaq prosesi başladı.

ABŞ dünyanın inkişaf etmiş ölkələrindən biridir. Sənayenin, nəqliyyatın və kənd təsərrüfatının dinamik inkişafı nəticəsində XX əsrin 70-ci illərinədək dövrdə ətraf mühit çirklənmiş və təbii sərvətlər məhv edilmək üzrə idi. Lakin 70-ci illərin əvvəllərində bu sahədə ABŞ-da ciddi addımlar atıldı. Qeyd edək ki, 70-ci illərədək qanunvericilikdə ətraf mühitlə və təbii obyektlərlə bağlı hüquqi akt demək olar ki, mövcud deyildi. Ancaq Konstitusiyada bir sıra müddəalar əks olunmuşdu.

1970-cı ildə ətraf mühitin mühafizəsi üzrə Agentlik yaradıldı. Eyni zamanda ekologiya sahəsində bir sıra qanunlar qəbul edildi(təmiz su, ətraf mühit sahəsində milli siyasət, tükənməkdə olan bioloji növlərin mühafizəsi və s. üzrə). Agentliyin qarşısında havanın, suyun və landşafın çirklənməsinin səviyyəsinin sistematik olaraq aşağı düşməsi vəzifəsi daxil idi.

ABŞ-ın ekologiya sahəsində siyasəti aşağıda göstərilən istiqamətlərdə özünü göstərir: a)daxili suların çirklənmədən qorunması; b)dəniz mühitinin qorunması; c)tullantıların basdırılması üzərində ciddi nəzarət; d)toksik maddələrin istehsalı və istifadəsinin tənzimlənməsi.

Ətraf mühitin mühafizəsi və onun keyfiyyətinin yüksəldilməsi sahəsində milli siyasət haqqında ABŞ-ın qanunvericiliyi dövlət orqanlarının məsuliyyətini müəyyən etdi. Görülən tədbirlər nəticəsində ABŞ-da ekoloji situasiyanı yaxşılaşdırmaq mümkün oldu. ABŞ-ın ekologiya sahəsində təcrübəsi, onun inkişafı və təşəkkülü Qərbi Avropanın inkişaf etmiş ölkələri üçün də tipikdir.



İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin inkişafı yerli səviyyədən başlamışdır. Su və havanın çirklənməsi əsasən yerli özünüidarəetmə orqanlarının qəbul etdikləri sanitar və səhiyyə qanunvericiliyində əks olunmuşdu.

Lakin onu da qeyd edək ki, bir neçə ölkələrdə hələ XX əsrdə milli səviyyədə qanunlar qəbul olunmuşdur. Məsələn, buna misal olaraq Böyük Britaniyada atmosfer havasının kimyəvi çirklənmələrdən mühafizəsini tənzim edən 1863-cü ii, eləcə də Fransada 1917-ci ildə sənaye müəssisələrinin ekoloji təhlükəsizlik baxımından yerləşdirilməsinin həyatar keçirilməsi ilə bağlı qəbul edilmiş qanunları göstərmək olar. Xüsusən burada ekoloji təhlükəli müəssisələrin yaşayış yerlərindən kənar yerləşdirilməsi nəzərdə tutulurdu. 1875-ci ildə, hazırda da regional hakimiyyətin də təbiəti mühafizə siyasətinin əsasını təşkil edən zərərlilik haqqında Niderlandda qəbul edilmiş Qanunu da buna misal göstərmək olar.

Bütövlükdə qeyd etmək lazımdır ki, ətraf mühit hüququ roman-german və ümumi hüquq çərçivəsində formalaşmışdır. Odur ki, bu hüquqi sistemli ölkələrdə ətraf mühitin mühafizəsi sahəsində qanun və presedentin xüsusi rolu vardır. Məsələn, ziyanın aradan qadırılması, havanın və suyun çirkləndirilməsi, təsərrüfat qaydalarının pozulması ilə əlaqədar hələ orta əsrlərdən etibarən İngiltərədə məhkəmə təcrübəsi formalaşmışdır.

İqtisadi cəhətdən inkişaf etmiş xarici ölkələrdə ətraf mühitin tənzimlənməsinin mənbələri sisteminə aşağıdakılar aid-

dir: konstitusiya, qanunlar, qanun qüvvəli aktlar, məhkəmə qərarları. Bu ölkələrin konstitusiyalarında dövlətin təbiətə qayğı göstərməsi haqqında ümumi müddəa göstərilir. Məsələn, İsveçrə Konstitusiyasında (1962) federal hakimiyyətin peyzaj, təbiət obyektlərinin mühafizəsi və onların qorunması üçün subsidiyaların barəsində müddəa təsbit olunub. İtaliya konstitusiyasında (1974) qısaca olaraq dövlətin qarşısında vəzifə kimi təbiətin mühafizəsinin durduğu göstərilir. Eləcə də Hollandiya Konstitusiyasnın (1952) 21-ci maddəsinə əsasən hökumət ətraf mühitin yaxşılaşdırılması və mühafizəsinə qayğı göstərir.

İqtisadi cəhətdən inkişaf etmiş xarici ölkələrin qanunvericiliyində sağlam ətraf mühitdə yaşamaq hüququ insan və vətəndaşın ən fundamental subyektiv hüquqlarından biri kimi təsbit olunmuşdur. Bunu, məsələn Portuqaliyanın (1976), İspaniyanın (1978), Türkiyənin (1982), Braziliyanın (1988) və b. ölkələrin konstitusiyalarının nümunəsində göstərmək olar.

Beləliklə, Konstitusiya ətraf mühitin mühafizəsinin hüquqi əsaslarını formalaşdırır. Bununla belə son illərdə inkişaf edən qanunvericilik ətraf mühitin vacib mənbələrindən biridir. Eyni zamanda milli qanunlarla yanaşı, Avropa İttifaqının qərarları və direktivlərinin də əhəmiyyətini göstərmək lazımdır.

Ətraf mühit haqqında müasir qanunvericilik xüsusi ilə kompleks qanunların qəbul edilməsi ilə səciyyələnir. Belə ki, Yaponiyada 1967-ci ildə «Ətraf mühitin çirkləndirilməsi ilə mübarizə haqqında əsas qanun», 1993-cü ildə isə yenə orada «Ətraf mühit haqqında əsas qanun», 1969-cu ildə İsveçdə «Ətraf mühit haqqında Qanun», Fransada 1976-cı ildə Təbiətin mühafizəsi, ABŞ-da 1970-ci ildə ətraf mühit sahəsində milli siyasət, AFR-də 1976-cı ildə təbiətin mühafizəsi



və landşaft planlaşdırılması haqqında qanunlar qəbul edilmişdir.

Çirklənmənin qarşısının alınması üçün təmiz kənd təsərrüfatı məhsullarının aqrokimyəvi elementlərdən qorunması sahəsində bir sıra qanunlar hələ atmosfer havasının mühafizəsi üzrə qanunvericilik yaranmazdan əvvəl dövlət tərəfindən tətbiq edilirdi. Məsələn, kənd təsərrüfatında kimyəvi maddələrin istifadəsinin hüquqi tənzimlənməsi sahəsində 1948-ci ildə Yaponiyada qanun qəbul edilmişdi. Pestisidlərin istifadəsi üzrə nəzarət haqqında qanun 1952-ci ildə Yunanıstanda, 1962 və 1972-ci illərdə Niderlandda, 1969-cu ildə Belçika və Finlandiyada, 1974-cü ildə ABŞ-da qəbul olunub.

Elmi-texniki nailiyyətlərin tətbiqi ABŞ və Qərbi Avropada ətraf mühitin mühafizəsi sahəsində qanunvericilik sisteminin formalaşmasına səbəb olmuşdur.

Bu qanunvericiliyin yerinə yetirilməsi üçün müvafiq dövlət strukturları yaranmışdır.

Bu dövlətlərdə ətraf mühitin haqqında qanunvericiliyin yaranmasında ictimai ekoloji hərəkatların xüsusi rolu vardır.

Bəzi hallarda ətraf mühit haqqında qanunlar ciddi ekoloji problemlərə cavab olaraq qəbul edilir və mövcud qanunvericilik yeniləşdirilir. Avropa İqtisadi Birliyi ətraf mühitin mühafizəsi ilə bağlı dövlətlər üçün yerinə yetirilməsi məcburi qərarlar qəbul edə bilər. Bəzən ümumi problem kimi Aralıq dənizi, Baltik dənizi və Şimal dənizinin, o cümlədən Elba və Odr çaylarının çirklənmədən qarşısının alınması üçün vəsait ayrılır. Eyni zamanda ümumi Avropa məkanında içməli suyun kvotası, atmosfer havası, bələdiyyələr və ya şəhərlərdə çirklənmənin qarşısının alınması və s. sahəsində ümumi qaydalar müəyyən edilir.

Toksik maddələrin tənzimlənməsi sahəsində 1973-cü ildə Yaponiya, 1976-cı ildə ABŞ, 1977-ci ildə Fransa, 1981-ci ildə AFR-də qanunlar qəbul edilmişdir.

Bir sıra ölkələrdə tullantıların istifadəsi haqqında qanunlar qəbul olunub. Belə qanunlar 1971-ci ildə Yaponiyada, 1972-ci ildə Böyük Britaniyada, 1972-ci ildə AFR-də, 1976-da ABŞ-da qəbul edilmişdir. Məsələn, 1972-ci ildə ABŞ-da okeana atılan tullantılar haqqında qanun qəbul edilib.

Kanada ümummilli müzakirələrdən sonra 1988-ci ildə ətraf mühitin qorunmasına dair qanun qəbul etmişdir. Bu qanun əsasən kimyəvi çirklənməyə nəzarət edərək Kanadada yaşayan bütün insanların çirklənmədən qorunmasını təmin edir.[50] Bu qanun kimyəvi birləşmələrin hasilindən, hazırlanmasından başlayaraq emalı, ixracı, satışı, istifadəsi və saxlanmasınadək bütün proseslərə nəzarət edir. Qanunun əsası ondan ibarətdir ki, istənilən müəssisə Kanadanın istehsalına yeni bir texnologiya tətbiq etməmişdən əvvəl, bu texnologiyanı Federal hökumətə təqdim edərək onun ətraf mühitə vura biləcəyi zərəri müəyyənləşdirir və əgər icazə verilsə, bu texnologiyanın istifadəsinə şərait yaradılır. Hazırda Kanadada 30000-dən çox kimyəvi birləşmələr istehsal edən müəssisə mövcuddur. Federal hökumət bu müəssisələrə nəzarət etmək üçün xüsusi komitə təşkil edib. Komitə kimyəvi birləşmələri analiz edir, lakin bu prosedur çox vaxt apardığından bir sıra əngəllər törədir. Kanadanın ekoloji qanunvericiliyi ətraf mühitin çirklənməsinə görə sərt sanksiyalar tətbiq edir. Sanksiyalara görə, təqsirkar şəxs 1 milyon dollar məbləğində cərimə oluna və ya 5 il azadlıqdan məhrum edilə bilər. Bununla yanaşı, şirkət və yaxud hər hansı bir şəxs təbiətə vurduğu ziyanı ödəməlidir və çirklənməyə səbəb olaraq qazandığı gəlirini dövlətə ödəməlidir.[51] Kanadanın qanunvericiliyi qəbul olunduğu gündən təkmilləşir. Elə qəbul olunduğu andan bir il sonra qanunda dəyişikliklər edildi. Kanadanın ətraf mühitin mühafizəsinə dair qanununun 139-cu maddəsinə əsasən, parlamentin yuxarı palatası və ya palatanın ikisi də qüvvədə olan aktların yerinə yetirilməsinə dair hesabatlar hazırlayır. Əgər mövcud olan akt effektiv deyilsə, ona dərhal dəyişikliklər edilir və bu, Kanadaya qanunun səmərəliliyini qorumağa imkan verir. [52]

Ümumiyyətlə, Kanadada mövcud olan ətraf mühitin mühafizəsinə dair qanun daim redaktə olunur. 1994-cü ildə redaktə olunan qanunvericiliyə «Ətraf mühitin, həyatın və insan sağlamlığının mühafizəsi» adlı yeni qanun əlavə edilmişdir. 1996-cı ildə qanun yenidən redaktə olundu və bu artıq öz bəhrəsini verdi. [53] Belə ki, 1997-ci ildən 1998-ci ilədək bir il ərzində ətraf mühitin mühafizəsinə dair 1647 federal tədqiqat aparılmış, 60 istintaq işi açılmış, 208 xəbərdarlıq edilmiş, 7 cinayət işi açılmış və onlardan 3 nəfər məsuliyyətə cəlb olunmuşdur. [54]

Ən intensiv inkişaf edən ətraf mühitə dair qanun Niderlandda 1992-ci ildə qəbul edilən qanundur. Bu qanun təbiətin

---

[50] Ерофеев Б.В. Экологичкское право России: учебник.М.: Ексмо, 2009, с. 441-442

[51] Sierra Conde Saraiva de Carvalho Natalia (environmental legal adviser, Jimenez de Parga Medio Ambiente Abogados). The Spanish Integrated Approach to industry-based Approach to Industry-based pollution: The Integrated Environmental Permit. ELNI review N 1/2002. Darmstadt: Oko-Institut e.V. Institute for Applied Ecology, 2002. P.88

[52] Elisabeth II Chapter 9 An Act to amend the Canadian Environmental Protection Act. Ottawa: Queen's printer for Canada, 1989, p.87

[53] Office consolidation. Canadian Environmental Protection Act. R. S., 1985, (4th Supp.) Minister of Supply and Services Canada. 1994, p.15

[54] Strengthening Environmental Protection in Canada: A Guide to the New Legislation. Canadian Environmental Protection Act. 1996. P.54

bütün sahələrini əhatə edir və onun hazırlanmasında ona qədər mövcud olan 8 qanun aktının təcrübəsindən istifadə olunub. Niderlandın 1992-ci ildə qəbul etdiyi ətraf mühitin mühafizəsinə dair qanun 22 maddədən ibarətdir (1994-cü ildə qüvvəyə minib) və onlar aşağıdakı qaydaları tətbiq edirlər:

- ətraf mühitin mühafizəsinə dair milli siyasi plan hazırlanır;
- ən azı dörd ildə bir dəfə bölgələr üzrə plan hazırlanır;
- ekoloji lisenziyaların alınmasının qaydalarını müəyyənləşdirir;
- çirkləndirici maddələrin siyahısını hazırlayır;
- məsləhət orqanları yaradır;
- lisenziyaların geri qaytarılması prosedurunun qaydalarını və ətraf mühitin mühafizəsinə lazım olan vəsaiti müəyyənləşdirir;
- informasiya təminatı hazırlayır.

Britaniyanın 1990-cı ildə qəbul etdiyi «Ətraf mühitin qorunmasına dair qanun» çirklənmənin inteqrativ nəzarəti üçün şərait yaradır və bu, beynəlxalq ekoloji qanunvericilik üçün ən gözəl təcrübədir. Qanun 6 il müddətinə Britaniyanın bütün sənayesini əhatə edərək ətraf mühitin çirklənməsinin qarşısının alınması işinə müstəsna köməklik göstərdi. Britaniyada tətbiq olunan bu qanunun mahiyyəti ondan ibarətdir ki, hər bir şəxs istehsalat sahəsində işləmək üçün ilk öncə ətraf mühitin qorunmasına cavabdeh olan dövlət orqanından rəsmi icazə almalıdır. Əgər icazə alınmazsa və istehsalat davam edərsə, həmin şəxs cinayət məsuliyyətinə cəlb olunur. Qanuna əsasən, mümkün olan maksimal çirklənmənin həcmini nəzərə alaraq müvafiq icazə verilə bilər. Qanunda, həmçinin havaya daha az zərər gətirən tullantı maddələr barəsində də qeydlər nəzərdə tutulur. Bu cür hallar baş verdikdə, birbaşa yerli qanunverici orqanlar məsuliyyət daşıyırlar. Ətraf mühitin qorunmasına cavabdeh olan orqan icazə verdikdə, bir sıra tələblər ortaya qoyur. Bu tələblər əsasən aşağıdakı məqsədlərə nail olmaq üçün tərtib edilir:



– ətraf mühitin istənilən sahəsinə (su, torpaq, hava) zərər gətirə biləcək maddələrin qarşısını almaq üçün və yaxud mümkün ola biləcək çirklənmənin minimal həddə çatdırılması üçün yüksək keyfiyyətli, münasib, böyük xərc tələb etməyən texnologiyaların istifadəsini təmin etmək;

– istifadə olunan texnologiya ətraf mühiti bütövlükdə mühafizə etməlidir. Əgər bu texnologiya təbiətin bir yox, bir neçə sahəsinin çirklənməsinə səbəb olursa;

– ətraf mühitin qorunmasına cavabdeh olan dövlət orqanının təbiətin qorunmasına yönələn istənilən tapşırıqlarını yerinə yetirmək.

– Bütün tələblərin yerinə yetirilməsinə dövlət orqanı nəzarət edir və ildə bir dəfədən az olmayaraq yoxlamalar aparır. Ətraf mühitin qorunmasına cavabdeh olan dövlət orqanı elektron baza şəklində kimyəvi elementlərin emissiyasını tərtib edir. Tərtib olunan emissiya zərərli maddələrin həcminin dəyişməsinə nəzarət etmək imkanı verir və əgər iş adamı icazə aldıqdan sonra ətraf mühitə tullantıların həcmini artırarsa, dövlət orqanı bu barədə dərhal məlumat alır və icazəni ləğv edir. Ətraf mühitin qorunmasına cavabdeh olan orqan icazədə qeyd olunan tələblərin yerinə yetirilməsini məcbur edə bilər. Məsələn, 1990-cı ildə qəbul edilən ətraf mühitin qorunmasına dair qanunda göstərilir ki, əgər «şəxs ətraf mühitin mühafizəsi dövlət orqanının tələblərini yerinə yetirməzsə, o, təqsirkar hesab olunur və cinayət məsuliyyəti daşıyır» . [55] Həmin şəxs 3 ilə qədər azadlıqdan məhrum edilə və ya 20.000 £ məbləğində cərimə oluna bilər.

[55] Office consolidation. Canadian Environmental Protection Act. R. S., 1985, (4th Supp.) Minister of Supply and Services Canada. 1994, p.25

## 9.3. Avropa İttifaqının ekologiya hüququnun əsas istiqamətləri

24 sentyabr 1996-cı ildə Avropa Şurası çirklənmənin qarşısını almaq və ətraf mühitin mühafizəsini təmin etmək üçün Direktiv qəbul etdi. Direktiv Böyük Britaniyada mövcud olan ətraf mühitin qorunmasına dair sistemə bənzəsə də, kiçik həcmdə idi. Direktivin bütün tələblərinin Avropa Şurasına daxil olan ölkələr tərəfindən tam həcmdə yerinə yetirilməsi üçün 3 il hazırlıq vaxtı verilmişdi. Almaniyada bu Direktivin tələbləri çox gec tətbiq olunmağa başladı. Yalnız 21 dekabr 2000-ci ildə Federal hökumət bu qanun layihəsinə müsbət qiymət verdi. Ancaq bir sıra problemləri ortaya qoyaraq Direktivin bütün tələblərini yerinə yetirməyən Almaniya Avropa Komissiyasının Avropa Məhkəməsinə müraciət etmiş və hər gecikdirdiyi gün üçün 237. 000 avro ödəməyə məcbur oldu. İspaniya isə bu qanun layihəsini 23 noyabr 2001-ci ildə qəbul etdi. Ancaq ispan hüquqşünasları layihədə nəzərdə tutulan sahələrdən daha önəmli sahələrin olduğunu bildirirlər. [56]

Çirklənmənin inteqrallamış nəzarəti, göründüyü kimi, çox vacibdir və Avropanın ekoloji qanunvericiliyinin əsasını təşkil edir. [57] Bütün ölkələr üçün vacib olduğuna baxmayaraq, gətirilən misallardan da aydın olur ki, qanun milli sərhədləri keçən kimi bir sıra çətinliklərlə üzləşir. Beynəlxalq ekoloji hüquq sahəsində bütün dünyada qəbul olunmuş prinsiplərdən biri olan «ən keyfiyyətli, münasib texnologiyalardan istifadə edərək çirklənmənin qarşısını almaq» prinsipi başqa formada Niderland qanunvericiliyində də öz əksini tapdı. Niderlandda fərqli formada mövcud olan bu prinsip ekoloji və iqtisadi maraqların eyni nisbətdə olmasını tələb edir.

Avropa İttifaqı ekoloji siyasətində əsasən ətraf mühitin mühafizəsi sahəsində tənzimetmənin həyata keçirir. Belə ki, bu siyasət Avropa Birliyi haqqında Müqavilənin 2 və 3-cü maddələrində öz əksini tapmışdır. Lakin ətraf mühitin anlayışı Avropa Birliyi haqqında Müqavilədə müəyyən edilməmişdir. Buna baxmayaraq Müqavilənin 2-ci və 174-cü maddələrində ətraf mühitlə bağlı geniş tənzimetmə predmetinin olduğu aydın görünür. Belə ki, burada demək olar ki, ekoloji siyasətin mühüm istiqamətləri əks olunmuşdur. Suyun mühafizəsi, havanın çirklənməsinə qarşı mübarizə, bioloji müxtəlifliyin qorunması, səs-küydən mühafizə, tullantıların azaldılması, məhsulların istehsalı və s. haqqında normalar əks olunmuşdur.

Onu qeyd edək ki, Avropa İttifaqı yaradılarkən ətraf mühitin mühafizəsinin zəruriliyi müasir dövrdəki kimi vacib hesab olunmurdu. Bu baxımdan hüququn bir çox digər sahələrindən fərqli olaraq Paris və Roma müqavilələrində Avropa İttifaqının ətraf mühit hüququnun mənbələri olan normaları təsbit olunmayıb.

Ümumilikdə, Avropa hüququnun və ekoloji hüququn əsas mənbəyi 1957-ci ildə Romada imzalanmış və Avropa İttifaqının digər aktlarına nisbətən daha yüksək hüquqi qüvvəyə malik olan Avropa İqtisadi Birliyinin (AİB) yaranması haqqında Müqavilədir. Ətraf mühitin mühafizəsi sahəsində Avropa İttifaqının qüvvədə olan müqavilələrinin aşağıdakı növləri vardır:

---

[56] Daniella Dam-de Jong. International Law and Governance of Natural Resources in Conflict and Post-Conflict Situations (Cambridge Studies in International and Comparative Law). Cambridge University Press, 2015, p 34

[57] Handan Yokuş Sevük. Çevre Hukuku - Doğal Çevrenin Korunması, Ankara, Adalet, 2013, s.162

- ətraf mühitin mühafizəsinin tənzimlənməsi üzrə müqavilələr;

- dövlətlərin təbiəti mühafizə üzrə hüquq münasibətlərindən fərqli olaraq digər münasibətləri tənzimləyən, lakin ətraf mühitin mühafizəsi haqqında ayrı-ayrı müddəaları nəzərdə tutan müqavilələr;

- dolayı olaraq ətraf mühitin mühafizəsi ilə bağlı olan müqavilələr.

Avropa Birliyi haqqında Müqavilənin müqavilənin 174-cü maddəsi ətraf mühitin məqsədlərini, prinsiplərini və sonrakı meyarlarını təsbit etməklə, ekoloji siyasətin aşağıdakı məqsədlərini müəyyən etmişdir:

- ətraf mühitin vəziyyətinin saxlanılması, mühafizəsi və yaxşılaşması;
- insanların sağlamlığının qorunması;
- təbii ehtiyatların düşünülmüş və rasional istifadəsi;
- ətraf mühitin mühafizəsinin regional və ümumdünya problemlərinə aid olan ölçülərə beynəlxalq səviyyədə kömək edilməsi.

Bir termin kimi «ətraf mühit» 1986-ci il Vahid Avropa Aktının 100A maddəsində «Daxili bazar» təsbit olunmuşdur. Vahid Avropa Aktının 130 R-T maddəsi ayrıca olaraq ətraf mühitə həsr olunmuşdur.

Qeyd etmək lazımdır ki, Vahid Avropa Aktının 130-r maddəsində (bölməl) Avropa İttifaqının ekoloji siyasətinin əsas məqsədləri müəyyən edilmişdir. Bunlar aşağıdakılardır:

- ətraf mühitin mühafizəsinin keyfiyyətinin yüksəldilməsi;
- əhalinin sağlamlığının qorunması;
- təbii ehtiyatların qənaətli və rasional istifadə edilməsi;
- regional və qlobal ekoloji problemlərin həllində beynəlxalq yardım.



Vahid Avropa Aktının 130-r maddəsi ətraf mühitin mühafizəsi sahəsində sahəvi prinsipləri təsbit edir. Bu prinsiplər aşağıdakılardan ibarətdir:

- ehtiyatlılıq prinsipi;
- preventiv hərəkət prinsipi;
- çirklənmənin mənbələrdə aradan götürülməsi prinsipi;
- «çirkləndirən ödəyir» prinsipi[58].

Ətraf mühitin mühafizəsi sahəsinə dair normalar əsasən 1992-ci il Maastrixt (Hollandiya) Müqaviləsində[59] əks edilmişdir.

1997-ci il Amesterdam Müqaviləsi də ekoloji hüququn əsas mənbəyi hesab edilir. Müqavilə Birlikdə ətraf mühiti tənzimləyən müddəaları daha da inkişaf etdirmişdir. Müqavilənin qüvvəyə minməsi nəticəsində ətraf mühitin mühafizəsinə konstitusion status verildi (m. 2); XIX bölməyə («Ətraf mühit») ətraf mühitin mühafizəsinin tənzimlənməsinin müxtəlif aspektlərini əks etdirən 174-176-ci maddələr daxil edildi; əvvəllər 174-cü maddədə təsbit edilmiş prinsipə artıq xüsusi maddə həsr edildi. Müqavilənin 6-cı maddəsi Birlik səviyyəsində mövcud olandan daha ciddi xarakterli milli tədbirlərin qəbul edilməsi üçün üzv-dövlətlərə hüquqi əsas verən «Daxili bazar» bölməsində 95-ci maddə daha bir yeni qanun oldu.

2001-ci il Nitsa Müqaviləsi Aİ-nin ilkin hüququna aiddir. Lakin ətraf mühitin mühafizəsi baxımından Nitsa Müqaviləsi heç bir irəliləyiş əldə etmədi.

---

[58] Европейское международное право. Учебник. Отв. ред. Ю.М. Колосов, Э.С.Кривчикова, П.В.Саваськов. М.,Международные отношения, 2005, с.314.

[59] Avropa İttifaqı haqqında 7 fevral 1992-ci il Müqaviləsi (daha çox Maastrixt Müqaviləsi kimi məşhurdur). Действующее международное право. Т.3. М., 1999, с.211-224.

25 iyun 1998-ci ildə qəbul edilmiş və 30 oktyabr 2001-ci ildə qüvvəyə minmiş informasiyanın əldə edilməsi, ətraf mühitə dair məsələlər üzrə ictimaiyyətin ədalət mühakiməsinə qəbul edilməsində çıxışı və qərarların qəbul edilməsində iştirakı haqqında Orxus (Danimarka) Konvensiyası isə «Avropa üçün ətraf mühit» adlı prosesin inkişafına istiqamətlənmiş növbəti müqavilə oldu.

18 iyun 2004-cü ildə 25 üzv dövlət tərəfindən Aİ-nin Konstitusiyası qəbul olunmuşdur. Konstitusiyanın 3-cü maddəsi iqtisadi artım və sosial inkişafla bərabər, ətraf mühitin mühafizəsinin keyfiyyətinin yaxşılaşdırılması və yüksək səviyyədə mühafizəsinin zəruriliyini təsbit edir. Ətraf mühitin çirklənməsinin qarşısının alınması və kompleks nəzarət haqqında 2002-ci il 96/61 saylı Direktivi ətraf mühit sahəsində Aİ-nin hüquq yaradıcılıq prosesinin əsası sayılır.

Avropa İttifaqında ətraf mühitin hüquqi tənzimlənməsi onun üzv-dövlətlərinin müqavilə öhdəliklərinə, o cümlədən Birlik çərçivəsində yerinə yetirilməsi məcburi olan direktivlərə müvafiq olaraq aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- ekoloji standartlaşdırma;
- ətraf mühitə təsirin qiymətləndirilməsi;
- ətraf mühitin monitorinqi;
- ekoloji məlumatların toplanması və araşdırılması;
- ekoloji sertifikatlaşdırma;
- ekoloji menecment və ekoloji audit;
- ekoloji hüquqların qorunması;
- maliyyə mexanizminin inkişafı.

Avropa Birliyi haqqında 1957-ci il Müqaviləsi ətraf mühit haqqında, onun mühafizəsi və ya ekoloji hüquqlar haqqında normaları özündə əks etdirmirdi. 60-cı illərin sonlarında ətraf mühitin mühafizəsi sahəsində genişlənən müzakirələr nəticəsində Avropa Komissiyası 1970-ci ildə bəyan etdi ki, Birlik



ekoloji sahədə daha fəal olmalı və birgə proqram işləyib hazırlamalıdır. 1971-ci ildə Komissiya Birliyin ekoloji siyasəti haqqında Bəyanatın baxılmasını təklif etdi. Burada o, ətraf mühitin mühafizəsi üzrə müəyyən sayda ölçülərin ABM-in 308-ci maddəsinə əsasən reallaşmasını təklif etdi; bu Bəyanat tezliklə ətraf mühitin mühafizəsi sahəsində birgə proqramlar üzrə təkliflərin edilməsi ilə tamamlandı[60].

1973-cü ildən etibarən Birlik tərəfindən hazırlanan bu proqramlar Ətraf mühit üzrə Birliyin Fəaliyyət Proqramı adlanır. Fəaliyyət Proqramı 6 dəfə qəbul edilmişdir: 1973-76; 1977-81; 1982-86; 1987-92; 1993-2000; 2001-2010-cu illər üçün[61].

Avropa Parlamenti, Avropa Şurası və Avropa Komissiyası 2000-ci ildə Avropa İttifaqının əsas hüquqlar Xartiyasını bəyan etdilər.

Belə ki, Xartiyanın 37-ci maddəsi ətraf mühitin mühafizəsinin yüksək səviyyəsini nəzərdə tutur: «ətraf mühitin mühafizəsinin keyfiyyətinin yaxşılaşdırılması üzrə tədbirlər İttifaqın siyasətinə daxil edilməli və sabit inkişaf prinsipinə uyğun olaraq təmin olunmalıdır.

24 yanvar 1990-cı il tarixində Avropa İttifaqında dövlət idarələrində çalışan hər kəsə ekoloji informasiya əldə etmək hüququ verən Direktiv qəbul edildi.

Hazırda Avropa İttifaqını ekoloji qanunvericiliyində ekoloji hüquqların təminat mexanizmi və ekoloji hüquqların reallaşmasının təminatına imkan verən hüquqi vasitələr formalaşmış.

---

[60] Дубовик О.Л. Экологическое право. Учебник. О.Л.Дубовик, Л.Кремнр, Г.Люббе-Вольфф. Под ред. О.Л.Дубовик. Изд. 2-е, исп. и доп. М., Эксмо, 2007, с.119

[61] Məhərrəmov A.A. Avropa İttifaqının ekologiya hüququ: Dərs vəsaiti. Bakı, Şirvannəşr, 2008, s.63

# X FƏSİL

# BEYNƏLXALQ EKOLOGİYA HÜQUQU

## 10.1. Beynəlxalq ekologiya hüququnun anlayışı və predmeti

İnsan və təbiət bir-birilə münasibətdə həmişə qarşılıqlı əlaqədə, sıx vəhdətdə olub. Daha çox məcburiyyətdən doğan bu münasibət bəşəriyyətin mövcud olduğu bütün dövrlərdə insanın öz yanaşma tərzinə, onun ehtiyaclarına görə formalaşmışdır. Hələ XVIII əsrin sonu-XIX əsrin əvvəllərində baş vermiş sənaye inqilabı ilə iri yaşayış məntəqələrinin sənayeləşməsi və artan demoqrafik problemlər təbiətdəki tarazlığı insanın xeyrinə dəyişmiş və dünyanı bərpası qeyri-mümkün olan ekoloji fəlakətlərlə üz-üzə qoymuşdur. Nəticədə təbiətin bir parçası olan insan ekosistemə birbaşa müdaxilə edən bir varlıq kimi ön plana çıxmışdır. [62]

Hazırda dünyada ekoloji problemlərin mütəmadi olaraq artmasına baxmayaraq, onların göz ardına vurulması, ictimailəşməməsi bir çox canlılar kimi, insanların da həyatını təhlükə altına salır. Əgər on illər öncə bu problemlər asanlıqla həll ola biləcəkdisə, indi bu, müşkül məsələyə çevrilməkdədir. Bu problemlərin yaranma ocağı ayrı-ayrı dövlətlər olsa da, onların aradan qaldırılması ancaq beynəlxalq əməkdaşlıq şəklində mümkün ola bilər. Çünki ətraf mühitin mühafizəsi problemləri ayrı-ayrı ölkələrin və ya regionların hüdudları ilə məhdudlaşmır. Bu problemlərin ümümbəşəri miqyasda həll edilməsi zərurəti beynəlxalq ictimaiyyətin səylərini birləşdirməyi, ətraf təbii mühitin mühafizəsi məqsədilə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini tələb edir. Başqa sözlə, müasir dövrdə ayrılıqda bir dövlət üçün ekoloji təhlükəsizlik sisteminin yaradılması demək olar ki, qeyri-mümkündür, ekoloji problemlərin aradan qaldırılması beynəlxalq səviyyədə ekoloji təhlükəsizliyin təmin edilməsi ilə real ola bilər. Beynəlxalq ekoloji təhlükəsizlik isə o halda təmin edilə bilər ki, mövcud normativ və institusional mexanizmlər iqtisadi inkişafı, təbiətdən istifadənin qaydalarını müəyyən etmiş olsun. Ekoloji problemlərin həlli üçün aparılmış müzakirələrin nəticəsidir ki, beynəlxalq əməkdaşlıqda ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi kimi yeni istiqamətlər yaranmışdır. Beynəlxalq ekoloji standartların möhkəmlənməsinə xidmət edən beynəlxalq əməkdaşlıq regional, ikitərəfli, o cümlədən müvafiq dövlətdaxili ölçülərə qarşı qoyulmamalıdır. Bütün bunlar ümumilikdə bəşəriyyətin ekoloji təhlükəsizliyinin təmin olunmasına yönəlməlidir. Beynəlxalq ekoloji hüquq beynəlxalq münasibətlərin elə vəziyyətini nəzərdə tutur ki, bu zaman ətraf mühitin qorunub saxlanması, ondan istifadə və keyfiyyətin yüksəldilməsi təmin edilir. Əgər ekologiya hüququna milli zəmində (dövlətdaxili hüquqda) təbiətlə cəmiyyət arasındakı əlaqələri tənzimləyən normaların məcmusu dəyərləndirilirsə, beynəlxalq ekologiya hüququ — dövlətlərarası ətraf mühitin çirklənmədən qorunması və təbii ehtiyatların rasional istifadəsi ilə bağlı münasibətləri tənzimləyən normaların məcmusudur.

[62]Qənbərov D.M. Beynəlxalq ekoloji standartlar insan hüquqları kontekstində. Bakı: "SABAH", 2015, s.3

Bu gün hamıya aydındır ki, bəşəriyyətin XXI əsrə qədəm qoyması sadəcə təqvim dəyişikliyi hadisəsi deyildir. Dünya sivilizasiyasının növbəti inkişaf mərhələsi kimi bu əsrdə dünya görüşlərin, münasibətlərin, meyillərin, yanaşmaların, baxışların dəyişməsi heç də istisna olunmur. Bu mənada yaşadığımız XXI əsrdə bizi yeni reallıqlar və gerçəkliklər, yeni problemlər gözləyir. Məsələn, indiyə qədər az tədqiq olunmuş Açıq dəniz, Antarktida, Antarktika kimi ərazilərdə artıq dünya dövlətləri tərəfindən geniş miqyaslı tədqiqatlar aparılır və təbii sərvətlərindən istifadəyə maraqlar artır. Bu cür fəaliyyətlər nəticəsində insanların ətraf mühitə, ekologiyaya neqativ təsiri 3 istiqamətdə baş verir.

1. Ətraf mühitin çirkləndirilməsi;
2. Təbii ehtiyatların tükənməsi;
3. Təbii mühitin dağıdılması.

Ətraf mühitin çirkləndirilməsi, onun ekologiyaya neqativ təsiri dedikdə insan sağlamlığı üçün önəm daşıyan su, hava və torpağın fiziki – kimyəvi tərkibinin dəyişdirilməsi nəzərdə tutulur. Başqa sözlə, ətraf mühitin çirklənməsi daha çox insanlardan qaynaqlanan (antropogen), ekosistemlərdə təbii tarazlığı pozan ekoloji zərərlərdir. Bu çirklənmə müxtəlif səbəblərdən ortaya çıxan bərk, maye və qaz halında olan zərərli maddələrin hava, su və torpağa yüksək miqdarda toplanması nəticəsində meydana gəlməkdədir.

Havanın çirklənməsi atmosferdə toz, duman, qaz və saf olmayan su buxarı şəklində mövcud zərərli maddələrin canlılara ziyan vura biləcəyi miqdarda artdığı halda baş verir. Hava çirkliliyi həmişə dünya ölkələrini düşündürmüş ən ümdə ekoloji problemlərdən olub. Qeyd edək ki, hava çirkliliyinə dair ilk qanun 1273-cü ildə İngiltərədə hazırlanmışdır.



Suyun çirklənməsini yaradan başlıca qaynaqlar sənaye təsisatları, istilik elektrik stansiyaları (İES), gübrələr, atom elektrik stansiyalarından (AES) çıxan isti sular və sairdir. Bunların hamısı istər canlı, istər cansız – bütün varlıqlara zərər vurur. Su çirklənməsinin qarşısını almağın iki əsas yolu var: birincisi, məişətdə, kənd təsərrüfatında, sənayedə sudan istifadə edərkən qənaətçil olmaq lazımdır, ikincisi isə suyun çirklənməsinin qarşısını alan, eləcə də çirklənmiş suların təmizlənməsinə kömək edən texniki tədbirlər görülməlidir.

Torpaq çirklənməsi dedikdə torpağın məhsuldarlığını aşağı salan bütün növ texniki və ekoloji təsirlər nəzərdə tutulur. Torpaq çirklənməsi hava və suları çirkləndirən zərərli maddələr tərəfindən baş verir.

Toz, qaz, kimyəvi, aromatik və istilik kimi növləri olan antropogen çirklənmənin miqyası regionlardan asılı olaraq kiçik və böyük olur. Sənayenin inkişaf etdiyi sahələrdə ətraf mühitin çirklənməsi daha sürətli və böyük miqyaslı olur (təqribən ümumi çirklənmənin 70-80%-i şəhərlərin payına düşür). Sənaye sahələrində "çirkliliyə" görə birinci yeri metallurgiya sənayesi (çirklənmənin 34%-i), sonrakı yerləri müvafiq olaraq energetika (27%), neft sənayesi (12%), kimya (9%) və qaz sənayesi (7%) tuturlar (27, səh. 218-235). Aqrar sahədə ətraf mühitin çirklənməsi isə gübrə və kimyəvi maddələrin geniş tətbiqi və s. ilə baş verir.

Dünyada hər il adambaşına 20 tondan çox tullantı düşür. Atmosferdə kükürd və azot oksidlərinin artması nəticəsində yaranan "turşulu yağışlar" təbiətə, binalara və qurğulara böyük ziyan törədir, tarixi abidələri aşılayır, metal qurğuları korroziyaya uğradır, torpağın, suların fiziki-kimyəvi xassəsini dəyişir, canlı aləmin fizioloji inkişafını pozur. Atmosferdə bəzi qazlar, o cümlədən su buxarı parnik effekti yaratmaqla fərqlənir, onlar yer səthində yüksək dərəcədə Günəş radiasi-

yası buraxmağa qabildirlər. 1950-ci ildən bu günədək davam edən insan fəaliyyəti atmosferdə parnik effektli qazların konsentrasiyasının artmasına səbəb olur. 2100-cü ilə qədər yerüstü havanın temperaturunun 2C artması gözlənilir. Son 1000 ildə iqlimin belə dəyişməsi müşahidə edilməmişdir. Nəticədə əgər son 100 ildə Dünya okeanının səviyyəsi təxminən 10-12 sm qalxmışdırsa, alimlərin hesablamalarına görə bu rəqəm növbəti yüz ildə 10 dəfə arta bilər. Digər tərəfdən, bu amil səhralaşma prosesinin sürətlənməsinə də təsir göstərir. Belə ki, hazırda hər il təxminən 6 mln. hektar ərazi səhralığa çevrilir. Ozon qatının vəziyyəti də bilavasitə havanın çirklənməsi ilə əlaqədardır. Yer kürəsini öldürücü ultrabənövşəyi şüalardan qoruyan ozon qatı atmosferə buraxılan xlor, karbon, freon və s. qazların artması nəticəsində tədricən pozulmağa başlayıbdır. Bu da bəşəriyyətin ekoloji təhlükəsizliyi üçün böyük təhlükə mənbəyidir.

İnsanların təsərrüfat fəaliyyəti nəticəsində təbii ehtiyatların tükənməsi prosesi də sürətlənmişdir. Meşələrin qırılması, daş kömür, neft, təbii qaz ehtiyatlarının və digər faydalı qazıntıların istifadə olunmasının yüksək tempi bu sahədə mənfi proseslərin sürətlənməsinə təkan vermişdir. Təbii su ehtiyatlarının azalması da böyük ekoloji təhlükələrdən xəbər verir.

Bəşəriyyət inkişaf etdikcə və insanın həyat fəaliyyətini dəstəkləmək üçün yeni mənbələr, yeni məkanlar və enerji ehtiyatlarının axtarılması zərurəti artdıqca demokratiyanın rolunu müəyyənləşdirməkdə coğrafi-siyasi və coğrafi-iqtisadi mənafelər üstünlük təşkil etməyə başlamışdır.

Məhz yuxarıda qeyd olunan və olunmayan digər səbəblərdən ekoloji standartların qəbul olunması və dövlətlərin bu standartlara əməl etməsinə çalışmaq hazırda beynəlxalq birliyin ən aktual məsələlərindəndir. Bu məqamda beynəlxalq ekoloji standart anlayışına aydınlıq gətirmək istərdim. Ekoloji standartlar, standartlar sisteminin ayrılmaz hissəsi olaraq, ətraf mühitin mühafizəsini təmin etmək üçün mütləq əməl olunmalı tələblərdir və əsasən müvafiq aktlarda əks olunurlar. Forma baxımından isə bu normativ-texniki sənəddir və ətraf mühitin mühafizəsini və təbiətdən rasional istifadəni təmin etmək üçün müəyyən edilmiş norma, qayda və tələbdir. Standart – dövlət tərəfindən müəyyən edilmiş sənəddir, həmçinin sanitar normalar və qaydalardır, tikinti normaları və qaydalarıdır və qanuna müvafiq olaraq mal, iş, xidmət sahələrinin keyfiyyətinə, qanuna uyğun olaraq tətbiq edilən və mütləq icra olunan məqamdır. Standart qanuni aktlar kimi özünə mütləq tələblər daxil edir, buna görə də ekoloji hüququn mənbəyi hesab edilirlər.



Bir çox hüquqşünaslar standartları, standartlaşma obyektinə uyğun olaraq təsnifatlandırır: ümumi müddəalara; terminlərə, təriflərə, təsnifatlara; mühiti yaradan elementlərin keyfiyyət göstəricilərinə; çirkləndirici tullantıların, və digər təsirlərin parametrlərinə və təbii resursların istifadə intensivliyinin göstəricilərinə; təbiətin mühafizəsi qaydalarına və rasional istifadəsinə; təbiət təsirlərin vəziyyətini və təsərrüfat təsirlərin intensivliyini müəyyən edən parametrlərin metodlarına; nəzarət imkanlarının tələblərinə və ətraf mühitin vəziyyətinin ölçülməsinə; ətraf mühitin mühafizəsi üzrə avadanlıqlara, qurğulara, alətlərə müəyyən edilən tələblərə və s., həmçinin əsas və köməkçi standartlara; və buna rəğmən əsas standartlar ekoloji və təsərrüfat-istehsalat bölümlərinə ayrılırlar.

Bu təsnifat hələki özünü doğrultmayıb. Lakin bəzi hallarda ekoloji normativləri ekoloji standartlardan ayırmaq çətindir. Məqsədə uyğun olardı ki, burada formal kriteriyalardan istifadə edək. Ekoloji standartlar bu, beynəlxalq və milli stan-

dartlar, ekoloji normativlər isə müvafiq adlara malik olan aktlardan olardı.

Malın, işin, xidmətin ekoloji standartlara cavab verməsi ekoloji sertifikatla və nişanla təsdiq edilir. Faktiki və hüquqi olaraq sertifikatlaşma standartların və texniki reqlamentlərin həyata keçməsinin bir formasıdır, və beləliklə, hüquqi göstəricilər və hüquqi reallaşma arasında bir mərhələdir.

Ekoloji sertifikatlaşma – mal və xidmətin sertifikatlaşdırılmasının bir növüdür, yəni hazır malın və ya digər sertifikatlaşmaya məruz qalmış obyektin ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik tələblərinə cavab verməsini müəyyən edən ixtisaslaşmış bir fəaliyyətdir.

İnsanların ətraf mühitə verdiyi zərərlərin azaldılmasında ekoloji standartların əhəmiyyətini nəzərə alan Beynəlxalq Standartlaşdırma Təşkilatı (ISO) ISO 14000 standartlar seriyası hazırlanmışdır. Ətraf mühit menecment sistemi üçün yaradılmış bu beynəlxalq standartlar silsiləsinə daxil olan standartların hər biri təbii ehtiyatların tükənməsinin qarşısının alınmasına, torpağa, suya, havaya buraxılan zərərli maddələrin minimuma endirilməsinə xidmət edir.

Standartlar külliyatının içərisində sənədləşdirməni həyata keçirən standart ISO 14001 standartıdır. Standartın məqsədi müəssisəyə ətraf mühitin qorunması və ətraf mühitin çirklənməsinin qarşısının alınması məsələləri ilə bağlı yardım etməkdir. O, hər hansı bir məhsulun xammal şəklindən istehlakçıya çatanadək keçdiyi bütün mərhələlərdə ekoloji faktorların müəyyən olunmasına, bu faktorların lazımi tədbirlər altında nəzarətə götürülərək ekologiyaya dəymiş zərərin ən aza endirilməsi üçün müəssisəyə bələdçilik edir. Qeyd edək ki, əksər ölkələrdə, xüsusilə Avropa ölkələrində istehlakçılar istifadə etdikləri məhsul üçün müəssisələrdən ISO 14001 sertifikatı ilə təsdiqlənmə tələb edirlər.



Müəssisələrdə və sənaye sahələrində istifadə edilə bilən bu sənəd ətraf mühitin idarə olunmasına dair tələbləri əks etdirir. Onun ən mühüm xüsusiyyəti davamlı inkişafa önəm verməsindədir. Bu standartlaşdırmanın praktiki əhəmiyyəti ondan ibarətdir ki, burada əks olunan müddəalar həm milli, həm də beynəlxalq standartlarda və qanunvericilikdə təsvir edilmişdir. Əsas müzakirə prinsiplərinə daxildir:

– təbii resurslardan istifadə uzunmüddətli olmalıdır; yəni istifadə norması bərpaetmə imkanından aşağı olmalıdır;

– bərpaedilə bilməyən resurslar yalnız ehtiyatla istifadə edilməli və gələcəyi hesaba almalıdır;

– yeni texnologiyalar onların bərpa edilə bilməyən resurslardan istifadə nəticəsində yaranan itkilərin yerini doldurmaq qabiliyyəti hesaba alınmaqla inkişaf etdirilməlidir;

– harada imkan varsa bərpaedilə bilməyən resurslarla müqayisədə bərpaedilə bilən resurslardan istifadəyə üstünlük verilməlidir.

Qeyd edək ki, keçən əsrin ortalarında «ətraf mühitin qorunması», «ekoloji siyasət» o qədər də müzakirə obyekti deyildi. Keçən əsrin 70-ci illərindən sonra əsasən İnkişaf Etmiş Ölkələrdə (İEÖ) yaranmaqda olan ekoloji hüquqa dair qanunlar sonradan beynəlxalq ekoloji standartların formalaşmasına təkan verdi. Bu dövrdə qəbul edilmiş qanunların başlıca məqsədi insanların ətraf mühitə verə biləcəyi zərərin qarşısını almağa hesablanıb və başlıca mesajlar insana sağlam həyat sürə biləcəyi ekoloji mühit formalaşdırmaq və torpağı, suyu, havanı, biomüxtəlifliyi insanların müdaxiləsi nəticəsində yaranacaq zərərlərdən qorumaqdan ibarətdir.

Verilən mesajların hər hansı bir dövlətin ərazisində həyata keçirilməsi praktiki olaraq mümkündür. Ancaq beynəlxalq ekoloji standartların bütün dünyada eyniliklə tətbiqi ölkələrin suverenliyi məsələsinə görə bunu mümkünsüz edir.

Problemin həlli isə ancaq qeyd etdiyimiz kimi, ölkələrin əməkdaşlıq məqsədilə yaxınlaşması ilə mümkündür. Əməkdaşlıq üçün atılan hər bir addım beynəlxalq ekoloji hüququn formalaşmasına yeni bir cığır açmaqdadır. Hazırda ətraf mühitə dair görüləcək işlərin beynəlxalq səviyyədə davam etdirilməsinin üç mühüm səbəbi var:

1. Ekoloji problemlər hər hansı bir dövlət səviyyəsində deyil, qlobal səviyyədə ortaya çıxan problemdir. Ekoloji problemlərin həlli ölkələr arasında əməkdaşlıq səviyyəsində mümkün olduğundan dövlətlərin qarşılıqlı əməkdaşlığı vacibdir;

2. Hazırda dünya iqtisadiyyatı qloballaşır və dövlətlərin idarəetmə sahəsində səlahiyyətlərinin məhdudlaşması ətraf mühit-iqtisadiyat dilemmasını dərinləşdirir;

3. Beynəlxalq səviyyədə əvvəllər atılmış addımlar ekoloji problemlərin həllində yetərsiz qalır. [63]

Bildiyimiz kimi, ətraf mühitin mühafizəsi sferasında həyata keçirilən beynəlxalq əməkdaşlığın əsas formaları beynəlxalq müqavilələr və sazişlər əsasında bağlanan ikitərəfli və çoxtərəfli müqavilələrə əsaslanır. Ekoloji problemlərin ümumbəşəri xarakteri bu sahədə dövlətlərin kollektiv cəhdlərinin koordinasiyası və razılaşma istiqaməti kimi çoxtərəfli beynəlxalq müqavilələrin rolunu kəskin artırır. [64]

Yaxın keçmişə nəzər salsaq, görərik ki, ekoloji hüququn istər milli, istərsə də beynəlxalq səviyyədə inkişafına ən böyük təkan mübaliğəsiz Stokholm Konfransı olmuşdur. Beynəlxalq səviyyədə ekologiyanın mühafizəsinə dair bu konfransda başlayan proses mövcud sahədə böyük əhəmiyyətə

---

[63] Ahmet M. Guneş. Çevre Hukuku. İstanbul, On İki Levha Yayıncılık, 2015, s.356

[64] Deniz KIZILSÜMER ÖZER. Çok Taraflı Çevre Sözleşmeleri. İzmir, Usak yayınları, 2009, s.55



malik müqavilələrin bağlanması şəklində davam etmişdir. Həmin müqavilələr daha çox regional xarakter daşıyır. Məsələn, dənizlərdə çirkliliyin qarşısının alınması məqsədilə Aralıq dənizi üçün Barselona Müqaviləsi, Qara dəniz üçün Çirklənməyə Qarşı Qorunması Müqaviləsi, İran Körfəzi üçün Küveyt Müqaviləsi, Ədən və Qırmızı dəniz üçün Ciddə Müqaviləsini bunlara nümunə olaraq göstərmək olar. [65]

Qeyd edək ki, hazırda ətraf mühitin mühafizəsinin müxtəlif aspektlərinə dair 500-ə qədər beynəlxalq saziş mövcuddur. [66] Dünyanın demək olar ki, əksər ekoloji problemlərinə dair beynəlxalq müqavilələr bağlanmışdır və ya ən azından bunun üçün müəyyən cəhdlər edilməkdədir. Bu mənada ətraf mühitin qorunmasında beynəlxalq müqavilələrin əhəmiyyəti böyükdür. Ancaq beynəlxalq müqavilələrə üzvlük dövlətlər üçün könüllülük prinsipi ilə tənzimlənməsi bu mötəbər sənədlərin əhəmiyyətini, təsir imkanını azaltmaqdadır. Mövcud sahədə digər bir problem dövlətlər tərəfindən müqavilə imzalandıqdan sonra həmin sənəddə əks olunmuş müddəaların həyata keçirilməsi, eləcə də ona nəzarət məsələsinin tam həllini tapmamasıdır. Halbuki beynəlxalq ekoloji hüquqda bağlanmış müqavilələrin demək olar ki, hamısında problem yarandığı təqdirdə hansı addımların atılacağı qeyd olunmaqdadır. Burada isə adətən çıxış yolunu ya həmin problemin qarşılıqlı şəkildə müzakirə edilməsində, ya da problemin həlli üçün komissiyanın yaradılmasında görürlər.

Ekoloji problemlərin həllinə dair bağlanmış müqavilələrin digər mühüm xüsusiyyəti isə üzv dövlətlər üçün geniş

---

[65] Yoshifumi Tanaka. The International Law of the Sea. Cambridge University Press, 2015, 27 p.

[66] Hüseynov L.H. Beynəlxalq hüquq:Dərslik. Bakı.Hüquq ədəbiyyatı, 2002, s.305-306

manevr imkanlarının yaradılmasıdır. Məsələn, dövlətlər istədiyi vaxt üzv olduğu müqavilədən çıxa bilərlər. Bunu iki cəhətdən dəyərləndirmək olar: əvvəla, müqaviləni imzalayan dövlətə belə bir imkanın verilməsi gələcəkdə ekologiyanın qorunmasında problemlər yarada bilər. Dövlət üçün belə bir səlahiyyətin verilməsi beynəlxalq müqavilələrin zəyif nöqtəsini təşkil etsə də, digər tərəfdən üzv olmayan dövlətləri müqaviləni imzalamağa təşviq edə bilər.

Qeyd olunanlardan belə aydın olur ki, beynəlxalq ekologiya hüququ ikili əhəmiyyətə malikdir. O, bir tərəfdən, beynəlxalq əməkdaşlığın bütün formalarını tənzimləyən beynəlxalq ümumi hüququn tərkib hissəsidir ki, bu da hüquqi tənzimləmənin prinsip və metodlarının mahiyyətinə öz təsirini göstərir. Digər tərəfdən, beynəlxalq ekologiya hüququ milli ekoloji hüququn davamı olaraq beynəlxalq hüquqi tənzimləmənin məzmununa öz təsirini göstərir. Lakin nəzərə almaq lazımdır ki, beynəlxalq ekologiya hüququ həmin hüquqi strukturların hər ikisinə münasibətdə nisbi müstəqilliyə malikdir.

Beynəlxalq və milli hüquq normalarının qarşılıqlı nisbət məsələlərinin təhlili bir sıra aspektlərdən əhəmiyyətlidir. İlk növbədə, nəzəri cəhətdən bu normaların qarşılıqlı şəkildə öyrənilməsi və müqayisəsi həyata keçirilir. İkincisi, bu sahədə beynəlxalq standartların dövlətdaxili qanunvericilikdə rolu müəyyən edilir. Üçüncüsü, milli qanunvericilik bir tərəfdən beynəlxalq standartlara uyğunlaşdırılırsa, digər tərəfdən, başqa dövlətlərin daxili qanunvericiliyi ilə müqayisə edilir. Bu isə dövlətlərin milli qanunvericiliklərinin kifayət qədər yaxınlaşmasına səbəb olur, onlar arasında kolliziyalar aradan qalxır. [67]

[67] Əliyev Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı,



### 10.2. Beynəlxalq ekoloji hüququn subyektləri və normaların dövlətlərin milli qanunvericiliklərinə implementasiyasının xüsusiyyətləri

Ekoloji problemlərin sərhəd tanımaması, itirilmiş təbii ehtiyatların bəşəriyyətin ortaq sərvəti olması ekoloji problemlərin beynəlxalq səviyyədə tədqiqini, bu istiqamətdə beynəlxalq hüquq normalarının qəbul edilməsini labüd edir. Burada isə dövlətlərin rolunu xüsusi vurğulamaq lazımdır. Dövlətlərin qanunların yaradılmasında, bu qanunların, eləcə də beynəlxalq ekoloji standartların tətbiqində, onların icrasına nəzarət edilməsində oynadıqları mühüm rol, dövlətləri beynəlxalq ekoloji hüquqda əsas subyekt kimi ön plana çıxardır.

İnsanlar üçün sağlam ətraf mühitin təmin edilməsi, mövcud ekoloji dəyərlərin təkmilləşdirilməsi, ekoloji siyasətləri həyata keçirərkən lazım olan əməkdaşlığın, cəmiyyətin müxtəlif təbəqələri arasında bərabərliyin qorunması kimi ortaq dəyərlərə sahib olan dövlətlərin bu istiqamətdə beynəlxalq əlaqələrin inkişafına verdikləri dəstək beynəlxalq ekoloji hüququn və ekoloji qanunvericiliyin inkişafına səbəb olmuşdur.

Bildiyimiz kimi, ekoloji təhlükəsizliyin təminatı üçün qəbul olunan beynəlxalq ekoloji standartlar beynəlxalq ekoloji hüququn prinsipləri əsasında hazırlanır və tərtib olunur. Ətraf mühit sahəsində dövlətdaxili qanunvericiliyin formalaşması məhz beynəlxalq normaların ciddi nəzərə alınması şəraitində həyata keçirilməlidir. Beynəlxalq hüquq normalarının milli hüquqi realizəsi və ya beynəlxalq hüquq doktrinasında ifadə edildiyi kimi implementasiyası isə beynəlxalq hüquqa uyğun olaraq dövlətlərin üzərlərinə götürdüyü öh-

«Şirvannəşr» nəşriyyatı, 2007,s.47

dəliyi fərdi, kollektiv və ya beynəlxalq təşkilatlar çərçivəsində hərtərəfli, vaxtında icra etmək üçün məqsədyönümlü təşkilati-hüquqi fəaliyyətidir.

Ekoloji standartlara əməl etməklə ekoloji təhlükəsizliyin təmin edilməsinin digər bir tərəfi dövlətdaxili fəaliyyətdir. [68] Bütövlükdə, ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik sahəsində əməkdaşlıq dövlətin milli siyasətinin tərkib hissəsidir. Beynəlxalq ekoloji standartların ən yaxşı ifadə forması beynəlxalq müqavilələrdirsə, milli standartların ən yaxşı ifadə forması qanunlardır. Hazırda BMT-yə üzv 100-dən artıq dövlət ətraf mühitin mühafizəsinə dair kompleksli qanunlar qəbul etməklə bu sahədə öz daxili siyasətlərini müəyyənləşdiriblər. Son 30 ildə bir sıra ölkələr ekoloji nəzarəti təmin etmək üçün qanunvericilik aktlarına söykənən xüsusi strategiyalar yaradıblar. Kolumbiya, Seneqal və Filippin kimi ölkələr isə mövcud sahəni nizamlamaq üçün ekoloji məcəllələr tətbiq edirlər.

Qeyd edək ki, ölkələrin ekoloji siyasətində ortaq cəhətlərin olması kimi, fərqli hədəflərin, bu sahədə problemlərə müxtəlif yanaşma tərzlərinin olması da təbiidir. Bu fərqliliyə səbəblərdən biri də ölkələrin siyasi sistemlərinin daşıdığı xüsusiyyətlərdir. Ölkələrin siyasi rejiminin çoxpartiyalı demokratik siyasi sistem və ya avtoritar, liberal-demokratik, kapitalist və ya sosialist olması onun ekoloji siyasətinə də təsirləri olur.

Məlum olduğu kimi, ətraf mühitin, su ehtiyatlarının, atmosferin mühafizəsi, ekoloji ekspertizanın və tullantıların düzgün idarə olunması hər bir ölkənin ekoloji qanunvericiliyinin başlanğıcını təşkil edir. Ölkələrdə bu qanunlar müxtəlif zamanlarda qəbul edilib. Bunu cədvəl 1-də daha aydın görmək olar.

[68] Gallayrtti G. The Limits of International Organization: Systematic Failure in the Management of International Relations // The Politics of Global Governance: International Organization in an Independent World / Ed. Paul F. Diehl. London, 1997, 312 p.



Ətraf mühit üzrə beynəlxalq hüququnun və dövlətdaxili ekoloji hüququn bütövlükdə baxılması onu göstərir ki, beynəlxalq hüququn dövlətdaxili hüquq üzrə prioriteti var. M.N.Marçenko düzgün qeyd edir ki, bu sahədə yalnız konstitusiya müddəasını qeyd etmək səhvdir, çünki «ümumbəşəri dəyərlər daşıyan, beynəlmiləl ideologiyaya malik olan suveren dövlət sərbəstliyini risk altına ataraq, könüllü və qeyri-şərtsiz öz milli hüququnu beynəlxalq hüquqdan asılı vəziyyətə qoyar».

Bir məqamı qeyd etmək lazımdır ki, beynəlxalq hüququn subyekti yalnız dövlətdir. Bununla bağlı olaraq, qeyd etmək olar ki, «beynəlxalq razılaşmanın həqiqiliyi və beynəlxalq razılaşmanın özü – beynəlxalq hüququn mütləq anlayışlarıdır». Beynəlxalq hüquq normaları fiziki və hüquqi şəxslərə, dövlət orqanlarına, yerli özünüidarəetmə orqanlarına mütləq olması üçün implementasiya proseduru həyata keçirilməlidir.

**Cədvəl 1**

Ətraf mühitin qorunmasına dair qanunlar qəbul etmiş bəzi ölkələr

| Ölkə | Ətraf mühitin Mühafizəsinə dair qanun | Suların mühafizəsinə dair qanun | Atmosferin mühafizəsinə dair qanun | Tullantıların idarəolunmasına dair qanun | Ekoloji ekspertizaya dair qanun |
|---|---|---|---|---|---|
| Avstraliya | 1998 | 1975<br>1981 | 1995 | 1989 | 1979 |
| Böyük | 1968 | 1961 | 1958 | 1974 | 1985 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Britaniya | 1974<br>1990 | 1974 | 1968<br>1978 | | (direktiv) |
| Almaniya | – | 1957<br>1976 | 1974 | 1972 | 1975 |
| Azərbaycan | 1999 | 1999 | 2001 | 1998 | 1999 |
| Kanada | 1988<br>1999 | 1970<br>1985 | 1971<br>1985 | 1975<br>1985 | 1972 |
| Niderland | 1979<br>1992 | 1969<br>1989<br>1992 | 1970<br>1992 | 1993 | 1987 |
| Norveç | 1970 | | 1957 | 1981 | 1999 |
| Rusiya Federasiyası | 1991<br>2002 | 1972<br>1995 | 1982<br>1999 | 1999 | 1995 |
| ABŞ | 1970 | 1972<br>1977 | 1963<br>1970 | 1965<br>1970<br>1976 | 1969 |
| Fransa | 1976 | 1964 | 1974 | 1975 | 1976 |
| İsveç | 1969 | 1969<br>1981<br>1983 | 1969<br>1981 | 1975 | 1969<br>1981 |
| Yaponiya | 1967<br>1970 | 1959<br>1970 | 1962<br>1968 | 1970 | 1973<br>1988 |

Beynəlxalq hüquq normalarının milli qanunvericiliyə inkorporasiyası və digər normativ hüquqi aktlara transformasiyası yalnız bu qanunla nəzərdə tutulan prosedurların həyata keçirilməsindən sonra beynəlxalq müqavilənin müddəaları Azərbaycan Respublikasında bütün subyektlər üçün mütləqdir. Bundan başqa, ekoloji qanunvericilik, ətraf mühitin mühafizəsi və təbii resurslardan istifadə üzrə beynəlxalq müqavilələrin müddəaları vasitəli olmalıdır.

Birinci istiqamət dövlətlər tərəfindən beynəlxalq müqavilələrin ratifikasiya edilməsi, beynəlxalq müqaviləyə qoşulması ilə, və yaxud vacib olan beynəlxalq müqavilələ-



rə razılığın bildirilmə tədbirləri ilə əks olunur. Azərbaycan Respublikasında beynəlxalq müqavilənin şərtləri ilə razılaşmada əsas diqqəti ölkədaxili aktlara yönəltmək lazımdır. Bu cür aktlar beynəlxalq müqavilənin şərtlərini Azərbaycan ərazisində vacib edir və onlara gələcəkdə beynəlxalq müqavilənin tətbiqi zamanı ekoloji hüququn mənbəyi kimi baxılacaq.

İkinci istiqamət isə beynəlxalq müqavilələrin normalarını qüvvədə olan normativ hüquqi aktlara müvafiq dəyişikliklər və əlavələr etməklə daxil edilməsidir. Ekoloji qanunvericilikdə belə dəyişikliklərin əsası dövlətlərin beynəlxalq öhdəliklərindən irəli gəlir. Çünki Yer kürəsinin qorunması dünya ictimaiyyətinin qlobal problemidir və bu gün də aktualdır.

Üçüncü istiqamət beynəlxalq müqavilələrin ekoloji qanunvericilik sistemi ilə əlaqələndirilməsidir. Bu isə beynəlxalq aktların normalarını özündə əks etdirən yeni normativ hüquqi aktların qəbulu ilə mümkündür, yaxud müvafiq hüquqi aktları normativ hüquqi aktlara daxil etməklə qanunvericiliyin inkişaf etdirilməsidir. Bəzən beynəlxalq müqavilələri dövlətdaxili səviyyədə reallaşdırmaq üçün yeni normativ hüquqi aktların tərtibatında müvafiq hüquqi norma qüvvəyə salınır. Belə ki, Təbiət mühitinə təsir göstərən hərbi və ya digər düşmən xarakterli vasitələrin tətbiq edilməsinin qadağan olunması Konvensiyasını (1977-ci il) Azərbaycan səviyyəsində tətbiq etmək üçün AR-in Cinayət Məcəlləsinə müvafiq dəyişikliklər etmək lazımdır və məcəlləyə ekosid əlavə olunmalıdır. Bununla yanaşı, adıçəkilən konvensiyanın 4-cü maddəsində qeyd edilir ki, hər bir iştirakçı dövlət öz konstitusiya prosedurlarına əsasən vacib hesab etdiyi və konvensiyadan irəli gələn tədbirləri həyata keçirir.

Dördüncü istiqamət beynəlxalq hüquqi aktların birbaşa hüquqi tənzimləmə sisteminin mənbəyinə və ya digər sahələrə göstərməklə daxil edilməsidir. Bu yanaşmanın spesifikliyı ondan ibarətdir ki, Azərbaycan Respublikasının beynəlxalq müqavilələri konkret ictimai münasibətlərə tətbiq edilir. Dünyada yaşayan millətlərin fəaliyyətinin və həyatının əsası olan ətraf mühitin mühafizəsi, həmçinin təbii resursların qorunması, rasional istifadəsi və bərpası dövlətlərin milli qanunları və digər normativ hüquqi aktlarla yanaşı, onların tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir.

Bütövlükdə beynəlxalq müqavilələrin daxili hüquq sisteminə avtomatik inkorporasiyasını tədqiqatçılar müəyyən həddə qədər mümkün hesab edirlər. Həmçinin nəzərə almaq lazımdır ki, təbiətdən istifadəyə və ətraf mühitin mühafizəsinə yönələn beynəlxalq müqavilələrin avtomatizmi şərtidir. Çünki belə hallarda daxili hüquq normaları beynəlxalq müqavilələrin ekoloji münasibətlərə tətbiq edilməsini tənzimləyir. Bundan başqa, dualist konsepsiyasının tərəfdarları qeyd edirlər ki, beynəlxalq müqavilələrin dövlətdaxili sahədə vasitəsiz reallaşması obyektiv olaraq mümkün deyil. Beynəlxalq müqavilə ekoloji münasibətlərin tənzimlənməsində vasitəsiz tətbiq olunsa belə, o zaman yenə də beynəlxalq müqavilələr implementasiya prosedurundan keçirlər. Bütün qeyd edilən məqamlarda beynəlxalq müqavilələr ekologiya hüququnun mənbələri sisteminə daxildir. Dövlətdaxili aktın qəbul edilməsi beynəlxalq müqavilənin dövlətin bütün ərazisində, bütün hüquqi və fizikə şəxslərə, yerli özünüidarəetmə orqanlarına, dövlət orqanlarına tətbiq edilməsini təmin edir. Ekoloji qanunvericiliyin sistematik şəkildə sərhədlərini və imkanlarını tədqiq edərək belə nəticəyə gəlmək olar ki, hətta beynəlxalq hüquq normalarının tələblərinin milli hüquq sisteminə daxil edilməsi onu göstərir ki, beynəlxalq hüququn



bu normaları «dövlət üçün beynəlxalq hüquq göstərişləri kimi qalır». Başqa sözlə, belə normaların milli qanunvericilik çərçivəsində sistemləşməsi mümkün deyil – onlar yenə də beynəlxalq müqavilələrin normaları olaraq qalırlar və ekoloji qanunvericiliyə daxil edilən hüquqi sənədlər yalnız hökumət tərəfindən ölkənin beynəlxalq öhdəliklərindən irəli gələn məsələlər üzrə qəbul edilən müddəalar olur.

Beynəlxalq müqavilələrdə göstərilən standartlarla ekoloji qanunvericilik arasında kolliziya yaranan zaman beynəlxalq standartların üstün tutulması xüsusilə əhəmiyyətlidir. Belə ki, ekoloji qanunvericiliyin mənbəyi məhz beynəlxalq müqavilələrdən irəli gəlir, onların reallaşması isə yalnız dövlətdaxili qanunların qəbul edilməsi ilə həyata keçirilir. Beynəlxalq müqavilələr beynəlxalq hüququn mənbəyidir, ancaq onun normaları dövlətdaxili hüququn mənbəyi deyil. Məsələn, Azərbaycan Respublikasında müqavilənin tətbiqi AR-in xüsusi qəbul edilmiş normativ aktları ilə həyata keçirilir və yaxud müvafiq qanunvericilik normalarının vasitəsiz əlaqələndirilməsi ilə reallaşır.

Həyata keçirilmiş tədqiqat əsasında belə nəticəyə gəlmək olar ki, beynəlxalq müqavilələrin ekoloji hüququn mənbəyinə daxil edilməsi prosesi çox mürəkkəb və çoxsahəlidir. İstər Azərbaycan Respublikasının, istərsə də Rusiya Federasiyasının ekoloji qanunvericiliklərində müvafiq məqamların uzlaşmaması və kifayət qədər deklarativ olmaması beynəlxalq hüququn, beynəlxalq müqavilələrin normalarını və ümumqəbul edilmiş prinsiplərini milli hüquq sisteminə daxil edilməsi şərtlərini ayırd etmək üçün çətinliklər yaradırlar, eləcə də beynəlxalq müqavilələrin ekoloji hüquqda, daha dəqiq desək, ətraf mühitin mühafizəsi və təbii resurslardan istifadə haqda qanunvericilik aktlarının ekoloji qanunvericilikdə yerini müəyyən etməyə imkan vermir. Qeyd edilən prob-

lemlərin mənbəyi hüquqi normaların kifayət qədər işlənməməsidir və onların həlli ekoloji qanunvericiliyin sistemləşməsi zamanı reallaşa bilər. Lakin beynəlxalq ekologiya hüququnun təməl prinsipləri də mövcuddur ki, bu prinsiplərə əməl olunması bütün dövlətlər üçün məcburidir. Beynəlxalq təşkilatlar dünya siyasətçilərini (hər bir dövlətdən), ekologiya sahəsində tanınmış ekspertləri bir araya gətirərək, ümumi müzakirələrin nəticəsində beynəlxalq ekologiya hüququnun yaranmasına nail olmuşlar. Əldə edilmiş beynəlxalq ekologiya hüququ artıq üçüncü dünya ölkələrində ekoloji təhlükəsizliyin əsasını qoyur. Çünki bu dövlətlər iqtisadi cəhətdən zəif inkişaf etdiklərindən onların ekoloji qanunvericiliyi də arzu olunan səviyyədə deyil. Beləliklə, beynəlxalq təşkilatlar həm beynəlxalq ekoloji hüququn yaranmasında, həm də üçüncü dünya dövlətlərində ekoloji hüququn inkişafında katalizator rolunu oynayır. Qeyd etmək istərdik ki, hətta inkişaf etmiş ölkələr də öz milli qanunvericiliklərini yaradanda bu beynəlxalq hüquq normalarından istifadə edirlər. Məsələn, BMT-nin ixtisaslaşmış işçi qrupu beynəlxalq ekoloji hüququn mənbəyini təhlil edərək belə qərara gəlib ki, «ətraf mühitə ziyana» geniş mənada «ətraf mühitin vəziyyətinin pozulması» kimi baxılır və onu bu cür müəyyən etmək olar: «Ətraf mühitin və ya onun hər hansı bir komponentinin, istifadə edilən və ya edilməyən xüsusiyyətlərini daxil etməklə, onların ekoloji sağlam balansının davamlı qorunmasında ölçüləbiləcək istənilən xoşagəlməz dəyişikliklər» ətraf mühitə ziyan kimi baxılır. Başqa bir beynəlxalq sənəddə – «Vətəndaşların ətraf mühitin neft ilə çirklənməsinə görə məsuliyyəti haqqında Beynəlxalq konvensiyada» «ətraf mühitə ziyan» bu cür təyin olunur: «Ziyan və zərər gəmidən kənar baş vermiş çirklənmədir, neftin daşınması zamanı baş vermiş neft axımı və ya tökülməsi, bir şərtlə ki, digər vaxtlarda



bu axım baş verməməli idi və bu zərər öz daxilinə ehtiyat işlərini və bu işlər nəticəsində baş verən ziyanı da nəzərdə tutur» (mad. 1b. 6). Qeyd olunan bu anlayışlar bütün dövlətlərin milli qanunvericilik aktlarında bu və ya digər formada çox kiçik dəyişikliklərlə öz əksini tapıb.

Beləliklə, transmilli korporasiyalar, beynəlxalq QHT-lər beynəlxalq münasibətlərdə müasir dünya siyasətinin formalaşmasında böyük rol oynayır, beynəlxalq münasibətlərə stabillik gətirir, onlara yeni funksiyalar verir və artıq beynəlxalq hüququn, həmçinin beynəlxalq ekoloji hüququn formalaşmasında dövlətlərə eyni səviyyədə təsir göstərə bilirlər.

1990-cı və 1995-ci illərdə qəbul edilən «Ətraf mühitin qorunmasına dair qanun» ingilis ekoloji qanunvericiliyinin əsasını təşkil edən sənədlərdən biridir. Kanada üçün isə bu rolu 1988-ci ildə qəbul edilən (1999-cu ildə dəyişikliklər edilib) «Ətraf mühitin qorunmasına dair qanun» oynayır. Niderland ekoloji qanunvericiliyinin əsasını isə 1992-ci ildə qəbul edilən təbiətin istifadəsinə dair qanun təşkil edir. Rusiya Federasiyasında ətraf mühitin qorunmasına dair qanun 2002-ci ildə qəbul edilib və bu qanun Rusiyanın ekoloji qanunvericiliyinin əsasını təşkil edir. Azərbaycan Respublikasında isə bu qanun 1999-cu ildə qəbul edilmişdir.

## 10.3. Beynəlxalq ekoloji hüquqi məsuliyyət

Beynəlxalq ekoloji hüquq qaydalarına əməl olunması və beynəlxalq ekoloji təhlükəsizliyin təmin olunması üçün beynəlxalq hüquqda məsuliyyət olduqca vacibdir. Buna əsasən aşağıdakı rəqəmlər önəmlidir. Belə ki, İtaliyanın qeyri-hökumət təşkilatı olan Leqambyentenin verdiyi məlumata görə, bu gün dünyada ekoloji cinayətlər törədən 60-a yaxın mafiya və klan mövcuddur. Bunların içərisindən 18-i tullantıların qanunsuz daşınması ilə, 11-i isə nəsli kəsilməkdə olan vəhşi heyvanların satışı ilə məşğul olur. Təşkilat həmçinin qeyd edir ki, ozon qatını məhv edən maddələrin satışı ilə məşğul olan Meksika mafiyası ilə bərabər, Kanadada fəaliyyət göstərən qrup ABŞ-a təhlükəli maddələri ixrac edir. Belə hallara qarşı ən irimiqyaslı əməliyyat «Soyuq briz əməliyyatı» olub və bu əməliyyat nəticəsində 1 000 000-a yaxın Britaniya funtu dəyərində olan ozondağıdıcı maddə saxlanılıb. İnterpolun verdiyi məlumata görə, hər il qanuni və qanunsuz vəhşi heyvanların (ölü və ya diri), bitkilərin və onlardan alınan məhsulların, fil sümüyünün, heyvan dərilərinin, tibbi dərmanların və s. dövriyyəsi 6 mlrd. ABŞ dolları təşkil edir. Ümumdünya Vəhşi Təbiət Fondunun göstəricilərinə görə, bu rəqəm üç dəfə çoxdur (±20 mlrd). İnterpolun məlumatı ilə Britaniyanın Ətraf mühit, nəqliyyat və regionlar Nazirliyi də razılaşır. Rəsmi məlumatlarda qeyd olunur ki, itməkdə olan növləri, pələngləri və fil sümüyünü də daxil etməklə, ozon qatını məhv edən maddələri nəzərə alaraq illik gəlir 20 mlrd. ABŞ dollarından çox təşkil edir, bunun isə böyük hissəsi cinayət qrupları tərəfindən qanunsuz həyata keçirilir və ətraf mühitə böyük ziyan vurur. Hər il dünyada 350 mln. heyvan və bitki satılır. Hesab olunur ki, bu satışın 25%-i qanunsuz-



dur. [69] Heç kimə sirr deyil ki, bu günlər müəssisələr tərəfindən atmosferə, torpağa, su hövzələrinə, meşələrə, yer təklərinə böyük miqdarda təhlükəli maddələr tullanır və bu ətraf mühitin pozulmasına səbəb olur, ancaq bu işlər çox nadir hallarda cinayət məsuliyyətinə cəlb olunur. Ona görə də bu cür statistikanın obyektivliyindən danışmağa dəyməz.

Bioloji növlərə aid olan ən təhlükəli amillər brakonyerlik və qaçaqmalçılıqdır. Yaponiyada şəxsi xanko möhürlərin hazırlanması üçün fil sümüyündən istifadə edirlər. Yəməndə kərgədan buynuzundan kişi xəncərlərinin əl tutacaqlarını hazırlayırlar. Ənənəvi çin təbabəti üçün isə pələng sümükləri və ayı ödü tələb olunur. Qara kürü, nadir tutuquşuları və səhləb çiçəyi də böyük tələbatla istifadə olunur. Bütün bunlara baxmayaraq, cinayətlərin qarşısını almaq olmur və beynəlxalq məsuliyyətdə heç kimi narahat etmir. Məsələn, Çində pandaların ovlanmasına görə ölüm hökmü qüvvədə olsa da, cinayətlərin qarşısını almaq mümkün deyil. Hər bir malın əldə olunmasından pərakəndə satışına qədər qiymətlər 25-50 dəfə artır. Qanunsuz, nəzarət edilməyən və nəzərə alınmayan ən böyük problem balıqçılıqdır. Kütləvi surətdə balıq ovlanması Dünya okeanının, ekosistemin məhsuldarlığını qat-qat üstələyir. Hazırda dünya balıq ehtiyatının 2/3 hissəsi istismar olunur. Bu problem ətraf mühitin ən ciddi sahəsidir. [70]

Balıq ovu birbaşa olaraq bir dövlətin nəzarətində olur və dövlətin bayrağı altında üzən gəmi balıqçılıqla məşğul ola

---

[69] FAO. World Review of Fisheries and Aquaculture. Fisheries Resources: Trends in Production, Utilization and Trade. Rome: Fao, 1999, p. 31.

[70] FAO. World Review of Fisheries and Aquaculture. Fisheries Resources: Trends in Production, Utilization and Trade. Rome: Fao, 1999, p. 23.

bilər. Ancaq neqativ hallar ondan ibarətdir ki, bir sıra gəmilər bayraqlarını dəyişərək bir neçə ərazi sularında balıqçılıqla məşğul olur. Bunun qarşısını almaq üçün BMT dəniz hüququ haqqında 1982-ci ildə Konvensiya tərtib etdi və buna əsasən hər bir gəmi bir bayraq altında üzə bilər. 1980-ci ildə Nəqliyyat fəhlələrinin Beynəlxalq Federasiyası qeyd etdi ki, 11-ə qədər dövlətin gəmisi «rahat bayraq» kimi xarakterizə oluna bilər. 1990-cı ildə bu gəmilərin sayı 27-yə çatdı, təxmini olaraq bu sıraya 1400-ə yaxın balıq ovu ilə məşğul olan sənaye gəmiləri aid idi. [71]

Atlantik okeanında böyük həcmdə qanunsuz, nəzarətsiz və nəzərə alınmayan tunes balıq ovuna rast gəlinir. Halbuki 1969-cu ildə Atlantik okeanında tunes balığının qorunması haqqında beynəlxalq konvensiya imzalanmışdır. 1980-ci illərin məlumatına görə, eksport ticarəti böyük templərlə irəliləyirdi və bunun nəticəsində təhlükəli maddələrin məhvi böyük sürətlə davam edir. Belə ki, verilən məlumatlara görə, bu hal ən çox Afrikada baş verirdi. Çünki bu bölgədə təhlükəli maddənin basdırılması üçün hər tona 2, 5-50, 17 ABŞ dolları təşkil edir, digər regionlarda isə bu rəqəm qat-qat çox idi. [72]

Məsələn, 1998-ci ildə Tayvan sənaye müəssisəsi «Formoza Plastic Corporation» 3000 tona yaxın civə ilə çirklənmiş külü Sianukvil şəhərinə yandırmaq üçün aparsa da, gecə ilə tullantı tarlaya atılmışdır. İnsanlar tullantını tanımayaraq külü gübrə şəkilində, plastik qabları isə təsərrüfatda işlətmə-

[71] Elizabeth Fisher, Elizabeth Charlotte Fisher, Bettina Lange, Eloise Scotford.Environmental Law: Text, Cases & Materials. Oxford University Press, 2013,p.43.

[72] Hayman Gavin, and Brack Duncan. International Environmental Crime the Nature and Control of Environmental Black Markets Workshop Report. London. Royal Institute of international affairs 2002, p.132-134.



yə başladı. Bunun nəticəsində xeyli sayda insan xəstələndi, 10 000 adam şəhəri tərk etdi, 8 nəfər isə həlak oldu . [73]

Bu sırada qeyd etmək lazımdır ki, meşə təsərrüfatı ilə məşğul olan müəssisələrin çoxu öz gəlirini qanunsuz, razılaşmamış ərazilərdən meşə ağaclarının emalı nəticəsində artırır. Məsələn, Kampuçiyada 1997-ci il üçün 450 000 $m^3$ ağac emalına icazə verilmişdirsə, faktiki bu emalın həcmi 4 300 000 $m^3$ təşkil etmişdir. [74] Belə hallara qarşı cərimələrin tətbiqi effektsiz olur. Çünki cərimələr iş adamlarının qarşısını almır. Onlar hesab edirlər ki, müəyyən miqdarda pulun ödənilməsi ilə böyük qazanc əldə etmək olar.

Bütün yuxarıda qeyd olunanlar onu göstərir ki, beynəlxalq ekoloji təhlükəsizlik hüququnda beynəlxalq hüquqi məsuliyyət anlamı tam formalaşmayıb. Bu məsuliyyətin formalaşması üçün isə ilk növbədə insanlarda ətraf mühitin qarşısında mənəvi borc yaranmalıdır. Ancaq bu sahə ilə bağlı bir sıra aktlar, normalar və elmi əsərlər yaradılıb. Koreyanın Çeonqus Universitetinin professoru Biunq-Sun Ço «Beynəlxalq ekoloji cinayət hüququnun yaranması» adlı məqaləsində sanksiya nəzərdə tutan ətraf mühitin mühafizəsinə dair beynəlxalq hüquqi aktları dörd növə böldü. Bura beynəlxalq məsuliyyət anlamı da daxil oldu. [75]

Birinci növə tərəflərin mütləq ekoloji razılaşmalarının pozulması nəticəsində nəzərdə tutulan sanksiyaların tətbiqi aid edilir.

[73] Taiwan's Formosa apologises for Cambodia waste. Reuters, 30 December 1998, p.4.

[74] FAO. World Review of Fisheries and Aquaculture. Fisheries Resources: Trends in Production, Utilization and Trade. Rome: Fao, 1999, p.99.

[75] Byung-Sun Cho. The emergence of international environmental Criminal law? The third generation of international environmental law phase I irvine conference, 1999, p.241-248.

İkinci növə müxtəlif ekoloji razılaşmalarda nəzərdə tutulan sanksiyaların tətbiqi üçün lazım olan qanunvericilik bazasının tərəflər tərəfindən aid edilir.

Üçüncü növə ekoloji cinayəti törədən tərəfin öz dövlətinin milli qanunvericiliyi ilə nəzərdə tutulan sanksiyası aid edilir.

Dördüncü növə isə ekoloji cinayəti törədən tərəflərin birgə qanunvericilik və digər tədbirləri yerinə yetirməsi aid edilir.

Beynəlxalq ekoloji məsuliyyətin əsas mahiyyəti hər hansı bir zərərin ödənilməsindən deyil, bu cür cinayətlərin qarşısını almaqdan ibarətdir. [76]

Beynəlxalq ekoloji qanun pozuntularının qarşısını almaq üçün bəşəriyyət bu işə adekvat cavab verməlidir. Bir sıra mütəxəssislər hesab edirlər ki, bu cinayətlərin qarşısını almaq üçün BMT ordusunun intervensiyası lazımdır. [77] Bir qayda olaraq, cinayət məcəllələri ətraf mühitin pozulmasına görə törədilmiş hərəkətləri əhatə edir və bu əməllərə görə ciddi məsuliyyət tədbirləri müəyyən edir. Bir sıra dövlətlərdə cinayət məsuliyyətini təkcə cinayət məcəlləsi deyil, həmçinin təsərrüfat və ekoloji cinayət qanunvericiliyi müəyyən edir. Məsələn, Polşada cinayət məsuliyyəti təkcə «Ətraf mühitə qarşı cinayət» 22 maddəyə görə yox, həmçinin cinayət xətalarına görə müəyyən olunur. [78] İnzibati məsuliyyət isə Xətalar Məcəlləsinə və ekoloji xarakterli xətalara görə müəyyən olunur. Bir sıra dövlətlərdə Avropa Şurasının Ətraf

---

[76] Охрана окружающей природной среды. По пунктное изложение законодательства РФ. М. Республика, 1993, с.169.

[77] Tinker C. “Environmental security” in the United Nations: Not a Matter for the Security Council // Tenessy Law Review, 1992, p.277.

[78] Краснов А.Н. Экологическое право: курс лекций / Ростов н/Д: Феникс, 2007, с.225



mühitin mühafizəsinə dair qəbul etdiyi konvensiyanın müddəaları, öz milli ekoloji cinayət qanunvericiliyində öz əksini tapıb. Bir sıra dövlətlərdə isə hüquqi şəxslərə ekoloji cinayətlərə görə məsuliyyət təyin olunub.

Sosial-ekoloji vəziyyətin mürəkkəbləşməsi, ətraf mühitə yeni neqativ maddələrin yaradılması, ekoloji zərərlərin miqyasının artması, cinayət-ekoloji qanunvericiliyin təkmilləşməsinə zəmin yaradır. Avropa Şurasının qəbul etdiyi Ətraf mühitə dair Konvensiya bir sıra dövlətlərə də yardımçı oldu. Konvensiyanın hazırlanmasında bir sıra dövlətlərin ekoloji-cinayət sahəsində olan mütəxəssisləri iştirak ediblər və birgə səylərinin nəticəsi olaraq aşağıdakı tövsiyələrini veriblər:

a) cinayət məsuliyyətinə məruz qalan hərəkətlərin dairəsini genişləndirmək;

b) sahibkarlıq, istehsalat və digər fəaliyyətlə məşğul olan hüquqi şəxslərin ekoloji cinayətlərə görə məsuliyyətini ciddiləşdirmək;

c) ətraf mühitin mühafizə olunan obyektlərini və ekoloji dəyərlərin mühafizəsini daha effektiv etmək;

d) cinayət-hüquqi qadağaların profilaktikası və effektivliyi üçün təhlükəli konstruksiyaların tərkibini öyrənmək lazımdır.

İlk növbədə, cinayət məcəlləsində ekoloji cinayətlərə görə məsuliyyətin normalarına nəzər salaq. Məsələn, ekoloji hüquq pozuntusu nəzərdə tutan normalar 2000-ci il 1 sentyabrda qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (AR CM) 28-ci fəslində «Ekoloji cinayətlər» (maddə 247-261), 2016-cı il martın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (AR İXM) 9-cu fəslində isə «Ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydalar əleyhinə olan inzibati xətalar» (maddə 223-275) adı ilə təqdim olunur. Hesab

edirəm ki, AR İXM-də nəzərdə tutulan ekoloji hüquq normalarının sanksiyası o qədər də sərt xarakter daşımır. Məsələn, AR İXM-in xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə qaydalarının pozulması adlı 242-ci maddəsində deyilir: «Xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə qaydalarının, həmin ərazilərin mühafizə rejiminin pozulmasına görə - fiziki şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir». Bu maddədə nəzərdə tutulmuş pulun məbləği məcəllədə edilən dəyişikliklər nəticəsində artırılsa da, bu normanın qəsdən pozulma hallarına az da olsa rast gəlinməkdədir. Hesab edirik ki, sanksiyaların daha da sərtləşməsi problemin köklü həllinə yardım edə bilər.

Bir sıra dövlətlərdə cinayət məcəlləsinin təkmilləşməsi zamanı və ya yeni qanun hissələrinin yaradılmasında ekoloji cinayətlərlə bir yerə yığılıb (RF CM bənd 26, Polşa Resp. CM hissə XXII, İspaniya CM bənd III və IV, bölmə XVI, Almaniya CM bölmə 29, Latviya CM bənd XI, Belarusiya CM hissə IX).

Kriminal və dekriminal hərəkətlər baxımından qanunvericiliyin təkmilləşməsi zamanı bir sıra dövlətlər ətraf mühitə qarşı mənfi xarakterli hərəkətləri kriminallaşdıraraq ciddiləşdiriblər, ancaq bəzi dövlətlərdə əksinə dekriminallaşma prosesi baş verdi. Bir sıra cinayət məcəllələrinə ekoloji cinayətlərdə daxil oldu. Məsələn, İspaniyanın Cinayət Məcəlləsində 325 maddə təbii sistemlərin tarazlığına zərərə görə məsuliyyət müəyyən edir, 333 maddə isə bioloji pozuntuya gətirə biləcək bitki və heyvanın ətraf mühitə buraxılmasına görə məsuliyyət təyin edir. Latviyanın Cinayət Məcəlləsinin 98 maddəsi radioaktiv və kimyəvi maddələrin təhlükəsizlik qaydalarını pozaraq dövriyyəsinə görə, 99 maddə isə icazə verilməyən yerlərdə, yer təkində, suda təhlükəli maddələrin



basdırılmasına görə məsuliyyət müəyyən edir. Belarusiyanın isə Cinayət Məcəlləsinin 265 maddəsi ekoloji təhlükəsizliyin tələblərinin pozulmasına görə məsuliyyət təyin edir .[79]

Hazırda nəzərə çarpacaq şəkildə cinayət məsuliyyətini təyin edən hərəkətlərin dairəsi genişlənib. Bir sıra mətnlərdə ətraf mühit, ekosistem, populyasiya, nadir və itməkdə olan bitki və heyvanlar anlamı istifadə olunub.[80] İndi ətraf mühitə zərər vuran alətlərin siyahısı qeyd olunur, bunlar müxtəlif növdə olan təhlükəli maddələr və tullantılardır və s.

Anlayışlar aparatı – bu termin bir qayda olaraq ekoloji cinayət məfhumu kimi cinayət hüququ mətnində açıqlanmır. Lakin bunun digər həll yolları da var. Məsələn, Belarusiya Respublikasının ekoloji təhlükəsizliyi haqqında qanunvericiliyi ekoloji təhlükəsizliyə və ətraf mühitə qarşı cinayətlərin tərifi verilib. Bura bilmədən və ya qəsdən ətraf mühitə, suya, torpağa, yerin təkinə, meşələrə, heyvanlara və bitkilərə, atmosferə qarşı hərəkətlər aid edilir.

Almaniyanın Cinayət Məcəlləsində ekoloji cinayətin tərifi verilməsə də, 330d paraqrafında su mənbələrinin, nüvə-texnoloji qurğuların, təhlükəli maddələrin və inzibati-hüquqi vəzifələrin təyini verilib.

Cinayətlərin konstruktiv tərkibinin xarici qanunvericilikdə tam izahı verilib. Tövsif olunmuş əlamətlər isə daha müxtəlifdir. Burada həm hərəkətlərin nəticəsi, həm də hansı məqsədlərlə törədildiyi müəyyən edilir.

Əksər cinayət məcəllələrində təqsirin və dərəcəsi müəyyən olunur: qəsdən ətraf mühitə qarşı olan cinayətlərin mə-

---

[79] Тимошенко А.С.Международное сотрудничество по охране окружающей среды в системе ООН. М., 1981, с. 313

[80] Галазий Г.И. Опасность экосистеме Байкала Экологическая альтернативы. /Под общей ред. М. Ю.Лемещева. М.: Прогресс,1990, с.90-92

suliyyəti çox ciddidir, ancaq ehtiyatsızlıqdan törədilən cinayətlərə qarşı yumşaldıcı hallar var. Polşa qanunvericiliyində ehtiyatsızlıqdan törədilən ekoloji cinayətlərə görə yalnız cərimə tətbiq olunur.

Cinayət məcəllələrində mövcud olan sanksiyalar müxtəlifdir. Ən sərt sanksiyalar Avstriyada və Almaniyada mövcuddur. Məsələn, Avstriyanın CM-nin 171-ci maddəsinə əsasən «Qəsdən nüvə enerjisi və ionlaşmış şüalanma ilə ətraf mühitə zərər» və (hissə 2) maddə 177a – kütləvi qırğın silahının yayılmasına görə ömürlük həbs cəzası müəyyən olunur. Almaniyanın CM-in 330-cu maddəsinə əsasən (suların, bataqlıqların, havanın çirklənməsinə görə, icazə verilməyən təhlükəli maddələrlə davranışa, heyvanlara və bitkilərə mənfi təsir göstərilən hərəkətlərə, insan sağlamlığına mənfi təsir göstərən hərəkətlərə görə) təqsirkar altı aydan on ilə qədər cəza ilə məsuliyyət daşıyır, bəzi hallarda isə qanun ən azı üç il cəza müəyyənləşdirir. 330a maddəsinə əsasən «Zəhərli maddələrin tullanması ilə ciddi təhlükənin yaranmasına» görə bir ildən on ilə qədər həbs cəzası müəyyənləşib. Latviyanın CM-nə əsasən dövlətin ərazisinə gətirilən və ya tranzit şəkildə keçirilən təhlükəli maddələrin nəticəsində ətraf mühitə dəyən ziyana görə 6 il həbs cəzası, meşə yanğınına görə isə 15 il həbs cəzası gözlənilir.[81]

Ümumilikdə belə bir qərara gəlmək olar ki, ekoloji fikirlər cinayət hüququna tam şəkildə daxil olub. Ekoloji cinayətlərlə bağlı müddəalar çox müasirdir. Bu təkcə problemin indiki aktuallığı ilə deyil, həmçinin hüquqi baxımdan yeni texnikaların yaradılması ilə bağlıdır. Ancaq onu da qeyd etmək lazımdır ki, ekoloji cinayətlərlə bağlı olan normalar çox

[81] Ковальчук Т. Г. Правовые вопросы обеспечения экологической безопасности продуктов питания: Автореф. дис....ка.юр.наук. Киев, 1996, с.2



mürəkkəbdir. Doğrudan da bir alman alimi qeyd etmişdir ki, ekoloji cinayətlərin normaları mütəxəssislər tərəfindən mütəxəssislər üçün yazılmışdır. Belə qərara gəlmək olar ki, ekoloji hüquq məsuliyyəti ayrı-ayrı dövlətlər üzrə kifayət qədər formalaşmayıb. [82] Bunun isə səbəbi ekoloji qanunvericiliyin tam hazır olmamasıdır. Beynəlxalq münasibətlərdə isə ekoloji hüquq məsuliyyətinin bir sıra çatışmayan cəhətləri var. Belə ki, beynəlxalq münasibətlərdə əsas təsir prinsipi dövlətlərin üzərinə götürdüyü öhdəliyin könüllü yerinə yetirilməsi prinsipidir ki, burada da əsas problem bu amildən irəli gəlir.

[82] Фисенко И. В. Ответственность государства за международные преступления. 1998, с.201

# ƏDƏBİYYAT

### *Azərbaycan dilində*


1. «Atmosfer havasının mühafizəsi haqqında» Azərbaycan Respublikasının 27 mart 2001-ci il tarixli Qanunu. Bakı: Qanun, 2001
2. «Azərbaycan Respublikasının 26 dekabr 1997-ci il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Su Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli 685 nömrəli Fərmanı/ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 546
3. «Bələdiyyələrin su təsərrüfatı haqqında» Azərbaycan Respublikasının Qanunu/Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 519
4. «Dövlət sərhədi haqqında» AR-ın 9 dekabr 1991-ci il tarixli Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 02, maddə 71
5. «Ətraf mühitin mühafizəsi haqqında» Azərbaycan Respublikasının qanunu 8 iyun 1999-cu il tarixli qanunu / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №8, maddə 472
6. «Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi qaydaları», «Heyvanlar aləmindən istifadəyə görə ödəmələrin növləri, dərəcələri, tətbiq edilmə qaydaları və qeyri-qanuni heyvan ovuna cərimələr» və «Heyvanlar aləmi obyektlərindən istifadəyə





görə ödənişlərin və qeyri-qanuni vəhşi heyvan ovuna görə cərimələrin istifadəsinə dair Təlimat'ın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı (6 noyabr 2004-cü il, № 176) /Azərbaycan Respublikası Qanunvericilik Toplusu, 2004, № 11, maddə 423
7. «Xüsusi mühafizə olunan heyvan növlərinin siyahısına daxil edilən heyvanların mühafizəsi və istifadəsi Qaydaları» və «Heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasını gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydaları»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 iyul 2004-cü il tarixli 100 nömrəli qərarı/ Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild. Bakı: Qanun, 2007
8. «Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında» Azərbaycan Respublikasının 2000-ci il 24 mart tarixli Qanunun. Bakı: Qanun, 2000
9. «Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında» AR-ın 1 aprel 2008-ci il tarixli Qanunu. Bakı: Qanun, 2008
10. «Yerin təki haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 27 aprel 1998-ci il 701 nömrəli Fərmanı /Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild. Bakı: Qanun, 2007
11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 oktyabr 1998-ci il tarixli, 206 saylı qərarı ilə təsdiq edilmiş «Sudan istifadə limitlərinin hazırlanması və həyata keçirilməsi Qaydaları» / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 627
12. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2015, 444 s.

13.Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), I cild. Bakı: Qanun, 2006, 760 s.

14.Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild, Bakı: Qanun, 2006, 884 s.

15.Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı: Qanun, 2016

16.Azərbaycan Respublikasının Konstitusiyası. Bak: Qanun, 2015

17.Azərbaycan Respublikasının Su Məcəlləsi (26 dekabr 1997) / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, №3, maddə 13

18.Azərbaycan Respublikasının Torpaq Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2013

19.Birləşmiş Millətlər Təşkilatının «Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin istifadəsi və mühafizəsi üzrə» Konvensiyasına qoşulmaq barədə Azərbaycan Respublikasının 14 mart 2000-ci il tarixli Qanunu /Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), II cild. Bakı: Qanun, 2007

20.Əliyev Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı, «Şirvannəşr» nəşriyyatı, 2007, 600 s.

21.Hüseynov L.H. Beynəlxalq hüquq: Dərslik. Bakı: «Hüquq ədəbiyyatı», 2002, 420 s.

22.Qənbərov D.M. Beynəlxalq ekoloji standartlar insan hüquqları kontekstində. Bakı: «SABAH», 2015, 324 s.

23.Su təchizatı və tullantı suları haqqında Azərbaycan Respublikasının Qanunu/Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 2



24.Torpaq qanunları külliyyatı, II cild. Bakı: Hüquq Yayın Evi, 2015, 792 s.

25.Yerin təki haqqında» Azərbaycan Respublikasının 13 fevral 1998-ci il tarixli Qanunu/ Azərbaycan Respublikasının ekologiya qanunvericiliyi (normativ-hüquqi aktlar toplusu), I cild. Bakı: Qanun, 2006

### *Rus dilində*

26.Андрейцев В. И. Теоретические проблемы правового обеспечения эффективности экологической экспертизы: Автореф. дис. . . . докт. юрид. наук. Харьков, 1996, 324 с.

27.Боголюбов С. А. Экологическое право: Учебник. М. : Норма, 2001, 448 с.

28.Бринчук М. М. Экологическое право: Учебник. М. : Городец, 2009

29.Виноградов С. В. Международное право и охрана атмосферы. М. : Наука, 1987, 159 с.

30.Галазий Г. И. Опасность экосистеме Байкала Экологическая альтернативы. Под общей ред. М. Ю. Лемещева. М. : Прогресс. 1990, 154 с.

31.Ерофеев Б. В. Экологичкское право России: Учебник. М. : Ексмо, 2009, 480 с.

32.Ковальчук Т. Г. Правовые вопросы обеспечения экологической безопасности продуктов питания: Автореф. дисс. . . . канд. юрид. наук. Киев, 1996, 164 с.

33.Краснов А. Н. Экологическое право: курс лекций / Ростов н/Д: Феникс, 2007, 318 с.

34. Охрана окружающей природной среды. По пунктное изложение законодательства РФ. М. Республика, 1999, 329 с.

35.Тимошенко А. С. Международное сотрудничество по охране окружающей среды в системе ООН. М. , 1981, 256 с.
36.Фисенко И. В. Ответственность государства за международные преступления. М. , 1998, 334 с.
37.Хромов С. П. , Метеорология и климатология, М.: 2001, 528 с.

*İngilis dilində*

38.Byung-Sun Cho. The emergence of international environmental Criminal law? The third generation of international environmental law phase I irvine conference, 1999, p 241-248
39.De Bandt, Van Hecke, Lagae & Loesch De Brauw Blackstone, Westbroek Gianni. Origoni & Partners / Lagerful & Alliance April 2001, p 43
40.Elisabeth II Chapter 9 An Act to amend the Canadian Environmental Protection Act. Ottawa: Queen's printer for Canada, 1989, p 87
41.Elizabeth Fisher, Elizabeth Charlotte Fisher, Bettina Lange, Eloise Scotford. Environmental Law: Text, Cases & Materials. Oxford University Press, 2013, p 27
42.FAO. World Review of Fisheries and Aquaculture. Fisheries Resources: Trends in Production, Utilization and Trade. Rome: Fao, 1999, p 321
43.Gallayrtti G. The Limits of International Organization: Systematic Failure in the Management of International Relations // The Politics of Global Governance: International Organization in an Independent World / Ed. Paul F. Diehl. London, 1997, p 476



44.Hayman Gavin, and Brack Duncan. International Environmental Crime the Nature and Control of Environmental Black Markets Workshop Report. London. Royal Institute of international affairs 2002, p 256
45.Office consolidation. Canadian Environmental Protection Act. R. S. , 1985, (4th Supp. ) Minister of Supply and Services Canada. 1994, p 107
46.Philippe Sands Liability for environmental damage and The report of the UNEP working group of experts: An introductory note. 2003, p 992
47.Sierra Conde Saraiva de Carvalho Natalia (environmental legal adviser, Jimenez de Parga Medio Ambiente Abogados). The Spanish Integrated Approach to industry-based Approach to Industry-based pollution: The Integrated Environmental Permit. ELNI review N 1/2002. Darmstadt: Oko-Institut e. V. Institute for Applied Ecology, 2002, p 354
48.Strengthening Environmental Protection in Canada: A Guide to the New Legislation. Canadian Environmental Protection Act. 1996, p 233
49.Taiwan's Formosa apologises for Cambodia waste. Reuters, 30 December 1998, p 412
50.Tinker C. «Environmental security» in the United Nations: Not a Matter for the Security Council // Tenessy Law Review, 1992, p 270
51.Yoshifumi Tanaka. The International Law of the Sea. Cambridge University Press, 2015, p 548

*Türk dilində*

52. Ahmet M. Güneş. Çevre Hukuku. Istanbul, On İki Levha Yayıncılık, 2015, 500 s.

53. Deniz KIZILSÜMER ÖZER. Çok Taraflı Çevre Sözleşmeleri, İzmir, Usak yayınları, 2009, 365 s

54. İpek Sevda Söğüt. Roma Hukukunda Çevrenin Korunmasına İlişkin Hukuki Vasıtalar, Istanbul, On İki Levha Yayıncılık, 2014, 380 s.



## MÜNDƏRƏCİAT

**I FƏSİL. Torpağın ekoloji-hüquqi rejimi ................ 3**

1.1. Torpağın ekoloji-hüquqi rejiminin anlayışı, növləri və dövlət tənzimlənməsi ........................................ 3

1.2. Torpaq üzərində mülkiyyət, istifadə və icarə hüququ ............................................................ 13

1.3. Torpaqların hüquqi mühafizəsi ........................... 21

1.4. Torpaq qanunvericiliyinin pozulmasına görə məsuliyyət ........................................................ 23

**II FƏSİL. Yerin təkinin ekoloji-hüquqi rejimi ........ 29**

2.1. Yerin təkinin ekoloji-hüquqi rejiminin anlayışı və dövlət tənzimlənməsi ........................................ 29

2.2. Yerin təkindən istifadə hüququ və onun növləri .... 33

2.3. Yerin təkinin hüquqi mühafizəsi .......................... 37

2.4. Yerin təki haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət .......................................... 40

**III FƏSİL. Suyun ekoloji-hüquqi rejimi .................. 43**

3.1. Suyun ekoloji-hüquqi rejiminin anlayışı, növləri və dövlət tənzimlənməsi ........................................ 43

3.2. Sudan istifadə hüququ və onun növləri ................. 50

3.3. Suların hüquqi mühafizəsi .................................... 58

3.4. Su qanunvericiliyinin pozulmasına görə məsuliyyət ......................................................................... 61

**IV FƏSİL. Meşələrin və meşə olmayan bitki ehtiyatlarının ekoloji-hüquqi rejimi ................................ 66**
4.1. Meşələrin və meşə olmayan bitki ehtiyatlarının ekoloji-hüquqi rejiminin anlayışı, növləri və dövlət tənzimlənməsi ................................................................ 66
4.2. Meşə fondundan istifadə hüququ və onun növləri ................................................................ 73
4.3. Meşələrin hüquqi mühafizəsi ........................................ 97
4.4. Meşə qanunvericiliyinin pozulmasına görə məsuliyyət ................................................................ 104

**V FƏSİL. Heyvanlar aləminin ekoloji-hüquqi rejimi ................................................................ 106**
5.1. Heyvanlar aləminin ekoloji hüquqi rejiminin anlayışı və dövlət tənzimlənməsi ........................................ 106
5.2. Heyvanlar aləmindən istifadə hüququ və onun növləri ................................................................ 116
5.3. Heyvanlar aləminin hüquqi mühafizəsi .............. 125
5.4. Heyvanlar aləmi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət ........................................ 128

**VI FƏSİL. Atmosfer havasının ekoloji-hüquqi rejimi ................................................................ 132**
6.1. Atmosfer havasının ekoloji-hüquqi rejiminin anlayışı və dövlət tənzimlənməsi ........................................ 132
6.2. Atmosfer havasının mühafizəsi tələbləri və nəzarət ................................................................ 140
6.3. Atmosfer havası haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət ........................................ 149

**VII FƏSİL. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektlərinin ekoloji-hüquqi mühafizəsi ........................ 152**
7.1. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin ekoloji-hüquqi rejiminin anlayışı və onun növləri ................................................ 152
7.2. Xüsusi mühafizə olunan təbiət ərazilərinin və obyektlərinin dövlət tənzimlənməsi və mühafizəsi ............ 162
7.3. Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət ................................................................ 170

**VIII FƏSİL. İnsanın ekoloji-hüquqi statusu. Sağlam ətraf mühitdə yaşamaq hüququ ........................ 172**
8.1. İnsanın ekoloji hüquqi statusunun anlayışı və onun əhəmiyyəti ........................................ 172
8.2. İnsanın ekoloji hüquqlarının tənzimlənməsi və müdafiəsi ................................................................ 175

**IX FƏSİL. Xarici ölkələrin ekologiya hüququnun ümumi xarakteristikası ................................................ 189**
9.1. MDB ölkələrində ekologiya hüququnun inkişafı ................................................................ 189
9.2. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin ekologiya hüququnun əsas xüsusiyyətləri ........................ 196
9.3. Avropa İttifaqının ekologiya hüququnun əsas istiqamətləri ................................................................ 208

**X FƏSİL. Beynəlxalq ekologiya hüququ................. 214**
10.1. Beynəlxalq ekologiya hüququnun anlayışı və predmeti ................................................................ 214
10.2. Beynəlxalq ekoloji hüququnun subyektləri və normaların dövlətlərin milli qanunvericiliklərinə implementasiyasının xüsusiyyətləri ........................................ 225
10.3. Beynəlxalq ekoloji hüquqi məsuliyyət .............. 234

**ƏDƏBİYYAT................................................................ 244**

## Qeyd üçün



## Qeyd üçün

## Qeyd üçün



Daşqın Qənbərov
Əbülfəz Hüseynov

# EKOLOGİYA HÜQUQU

## XÜSUSİ HİSSƏ

Direktor: Şirindil Alışanov
Redaktor: Səbuhi Adiloğlu
Korrektor: Mürsəl Məmmədov

Formatı: 60x84 $^1/_{16}$
Həcmi: 16, 25 ç.v.
Tirajı: 500.
Qiyməti müqavilə əsasında.